*Vətən yolunda həlak olmaqdan*
*şərəfli bir həyat ola bilməz.*
*Biz şəhidlərin xatirəsinə daim hörmət etməliyik.*
**Heydər Əliyev**

# Ölməzliyə abidə



***Redaktor:*** ***Sevda Mikayılqızı***

***Məsləhətçi:*** ***Flora Xəlilzadə,***
*yazıçı-publisist*

***Rəyçi:*** ***Vəli Əliyev,***
*AMEA-nın müxbir üzvü,*
*tarix elmləri doktoru, professor*
***Əsgər Abdullayev,***
*Əməkdar müəllim, tarix elmləri*
*namizədi, professor*

**Tərtibçi-müəllif: Rəhilə OrXAN - Cəbrayılova.**
**Ölməzliyə Abidə.** Bakı, "Ziya". 2010 . 444 s.

***Bu kitab heç nəyin Vətəndən uca olmadığını öz canı, qanı ilə təsdiq edərək düşmən qarşısında cəsarət simvolu kimi dayanmış və adını Vətən tarixinə şərəflə yazmış bir azərbaycanlının, bir türk oğlunun qəhrəmanlıq manifesti, igidlik dastanıdır.***

***Vətənin oğul harayladığı ağır günlərdə türk qanına susamış təcavüzkar erməni neofaşistlərin qabağına ər oğlu ər kimi çıxaraq onlara qan udduran Əlifoğlu İbrahimin oğlu Nazim Cəbrayılovun qəhrəmanlığından bəhs edən bu kitab, həm də arxa cəbhənin güclü mənəviyyat sahibi olan insanlarını önə çəkir, bu adamların ağır günlərin sınağından necə ləyaqətlə çıxmalarından söhbət açır.***

ISBN

***© R. OrXAN - Cəbrayılova***

***Bu kitabı məzarı bütövlükdə Vətən torpağı olan, qəbirüstü abidəsi olmayan, Qarabağ müharibəsində erməni işğalçılarına qarşı qəhrəmanlıqla vuruşaraq şəhid olmuş ömür-gün yoldaşım Əlifoğlu İbrahimin oğlu Nazim Cəbrayılovun 60 illik yubileyinə ərməğan edərək, onun simasında Vətən şəhidlərinin hamısının nigaran ruhuna sözdən Ölümsüzlük Abidəsi ucaltmağa çalışdım.***


...Könlüm keçir Qarabağdan
Gah bu dağdan, gah o dağdan;
Axşam üstü qoy uzaqdan
Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi.

## Azərbaycan Respublikasının
## DÖVLƏT HİMNİ

***Sözləri Əhməd Cavadın, musiqisi Üzeyir Hacıbəyovundur.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən
Azərbaycan! Azərbaycan!

# *Azərbaycan Xanlıqları (XVIII əsrin II yarısı )*



## Azərbaycan SSR



## Azərbaycan Respublikası



# BAYRAQ

Üçrəngli bayrağın kölgəsində mən,
Qaraca torpağı vətən görmüşəm.
Zəfər güllərini dövri-qədimdən
Bayraq işığında bitən görmüşəm.

Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq - öz yurduma öz hakimliyim.
Harda əcdadımın ayaq izi var,
Bu zəfər bayrağım orda dikəlsin.
Keçdiyi yerlərdə dağlar, yamaclar
Onun hüzuruna salama gəlsin.
Tarixdən qədimdir, zamandan qoca
Mənim bayrağıma sancılan hilal.
Aləmə nur saçdı tarix boyunca
Məbədlər başına tac olan hilal.

Daim ucalasan! Savaş günündə
Əsgər silahıyla səni tən görüm.
Yalnız zəfər çalmış şəhid önündə
Səni alqış üçün əyilən görüm.

***Bəxtiyar Vahabzadə***



## SUVERENLİYİMİZİN RƏMZİ

Dövlət bayrağı hər birimiz üçün Vətən, millət və dil qədər müqəddəsdir. Bayrağın yeri ucalıqdır. Təsadüfi deyil ki, bayraq salona daxil olanda hər kəs ayağa qalxır.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 9 noyabr tarixli qərarı ilə qəbul edilmiş dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyinin rəmzidir. Bayrağımızda olan mavi rəng türkçülüyün; qırmızı rəng müasirlik və demokratiyanın; yaşıl rəng islamın simvoludur. Aypara və səkkizgüşəli ulduz isə Ay və Günəşi əks etdirən xoşbəxtlik və əbədilik ifadəsidir.

1920-ci ilin 28 aprel işğalından sonra bayrağımız dövlət qurumlarının binalarının üzərindən ürəklərə köçdü. Xalqımız üçrəngli bayrağı başı üzərində dalğalandırmaq arzusunu uzun illər qəlbində yaşatdı. 1988-ci ildə bədnam ermənilərin Dağlıq Qarabağı Azərbaycandan qoparmaq cəhdi xalqın ayağa qalxmasına səbəb oldu. Noyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) bayrağı Bakının Azadlıq meydanında qaldırılsa da, rəsmi olaraq ilk dəfə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin 19 yanvar 1990-cı il tarixli qərarı ilə bu qurumun binası üzərində ucaldılmışdır. Bu qərar səkkiz gün sonra Azərbaycan SSR Ali Soveti tərəfindən ləğv edilsə də, 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında AXC-in bayrağı Muxtar Respublikasının rəsmi bayrağı kimi qəbul olundu. Bu qərar üçrəngli bayrağımızın Azərbayan dövlət bayrağı kimi qəbul edilməsində mühüm rol oynadı. Belə ki, ölkə ictimaiyyətinin tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan

SSR Ali Soveti Dövlət bayrağı haqqında qanun qəbul etdi və üçrəngli bayrağa Azərbacyan Respublikasının dövlət bayrağı statusu verildi. Bu bayrağın önündə ulu öndər Heydər Əliyev, dahi siyası xadimin ideyalarının sadiq davamçısı, Azərbaycanın dünya dövlətləri sırasında mövqeyini daha da möhkəmləndirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev baş əydilər, and içdilər.

Respublikamızda dövlət bayrağının mahiyyətini və əhəmiyyətini geniş təbliğ etmək və gənc nəsli ona hörmət ruhunda tərbiyə etmək ən mühüm vəzifələrdən biridir.

17 noyabr tarixli sərəncam bunun bariz təsdiqidir. Dövlət bayrağının Azərbaycan Respublikasının dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binalarının üzərində dalğalanması, ən mötəbər məclislərdə və mərasimlərdə, rəsmi tədbir və yarışlarda qaldırılması hər bir azərbaycanlının qəlbini qürur hissi ilə doldurur.

Bu gün idmanımızın hər bir sahəsində qazandığı uğurlara görə Azərbaycan bayrağının dövlət himnimizin sədaları altında yüksəklərə qaldırılması, bu yaxınlarda isə Antarktidanın ən uca nöqtəsi olan Vinson zirvəsində ucaldılması və hünərli bir azərbaycan oğlunun - Hüseyn Bağırovun əliylə imzalar içində daha bir imzamızın atılması bizim milli iftixarımızdır.

Böyük qürurla öpüb, altından keçdiyimiz dövlət bayrağımızın müqəddəsliyini və zərb-məsələ çevrilmiş "Bayraqları bayraq edən üstündəki qandır, Torpaq əgər uğrunda ölən varsa, Vətəndir!" sözlərini heç vaxt unutmaq olmaz.

Bu gün Nazim İbrahim oğlu Cəbrayılovun adını da "Azərbaycan Bayrağı" ordeni bəzəyir. Onun aldığı "Bay-

raq" əslində keçdiyi şərəfli döyüş yoluna verilmiş qiymətdir. Nazim bu qiyməti Vətən tarixindən ayrılmaz bildiyi ömrünün bir səhifəsini öz qanıyla yazaraq və uğrunda canını qurban verərək qazanmışdır.

Yeri gəlmişkən, bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın Bayrağı haqqında önəmli sərəncam imzalayıb.

Sərəncamda deyilir: "Azərbaycan Respublikasının Dövlət bayrağının ilk dəfə rəsmi surətdə 1918-ci il noyabrın 9-da qəbul edilməsini nəzərə alaraq, hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilsin."

Dekabrın 4-də Azərbaycan Milli Məclisi yeni bir bayramın - Bayraq gününün təsis olunması barədə qərar qəbul edib.

Bu tarix hər il noyabrın 9-da bayram günü kimi təsis ediləcək. Bu tarixin də seçilməsinin səbəbi var. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Azərbaycanın üç rəngli bayrağını 1918-ci il məhz noyabrın 9-da Azərbaycanın dövlət bayrağı kimi təsdiq edib. İlk dövlət bayrağı günü 2010-cu ilin noyabrın 9-da keçiriləcəkdir.

Qoy Vətən bayrağı daim ucalarda dalğalansın! Heç vaxt hüznlə şəhid məzarları üstünə endirilməsin!

Gün o gün olsun bayrağımız yenə də Qarabağımızın göylərində, Şuşamızın qala divarları üzərində, Cıdır düzündə qürurla dalğalansın! Vətənimiz bayram etsin!

Uğrunda qanımızı tökdüyümüz Vətən bayrağı daima ucalarda olsun!

## ƏSGƏR MARŞI

***Sözləri Əhliyyət Süleymanovun, musiqisi Cavanşir Quliyevindir***

Vətən məni yetişdirib, bu ellərə yolladı,
Bu torpağa qurban deyib, Allaha ismarladı.
Boş oturma, çalış, dedi, xidmət eylə Vətənə,
Südüm sənə halal olmaz, sən baş əysən düşmənə.

Marş, irəli! Marş, irəli!
Azərbaycan əsgəri!
Dönməz geri, dönməz geri,
Azərbaycan əsgəri!

Yastığımız Vətən daşı, yorğanımız qar olsun,
Biz bu yoldan dönər olsaq namus bizə ar olsun,
Nə gözəldir ölmək bizə sevgili Vətən üçün,
Yanar ürək yurd eşqilə daima için-için.

Marş, irəli! Marş, irəli!
Azərbaycan əsgəri!
Dönməz geri, dönməz geri,
Azərbaycan əsgəri!


Və tən mə ni ye tiş di rib bu el lə rə yol la dı Bu tor pa ğa qur ban de yib
Al la ha is mar la dı Boş o tur ma ça lış de di xid mət ey lə Və tə nə
1. 2.
Sü düm sə nə ha lal ol maz sən baş əy sən düş mə nə düş mə nə Marş i rə li
Marş i rə li! A zər bay can əs gə ri!
Dön məz ge ri
dön məz ge ri A zər bay can əs gə
1.
ri ri

# İSTİKLAL MARŞI
**(*Kahraman Ordumuza*)**

Korkma, sönmez bu şafaklarda yüzen al sancak;
Sönmeden yurdumun üstünde tüten en son ocak.
O benim milletimin yıldızıdır, parlayacak;
O benimdir, o benim milletimindir ancak.

Çatma, kurban olayım, çehreni ey nazlı hilal!
Kahraman ırkıma bir gül... Ne bu şiddet, bu celal?
Sana olmaz dökülen kanlarımız sonra helal;
Hakkıdır, Hakk'a tapan, milletimin istiklal.

Ben ezelden beridir hür yaşadım, hür yaşarım.
Hangi çılgın bana zincir vuracakmış? Şaşarım!
Kükremiş sel gibiyim: Bendimi çiğner, aşarım;
Yırtarım dağları, enginlere sığmam taşarım.

Garb'ın afakını sarmışsa çelik zırhlı duvar;
Benim iman dolu göğsüm gibi serhaddim var.
Ulusun, korkma! Nasıl böyle bir imanı boğar,
"Medeniyyet!" dediğin tek dişi kalmış canavar?

Arkadaş! Yurduma alçaklan uğratma sakın;
Siper et gövdeni, dursun bu hay? sızca akın.
Doğacaktır sana va'dettiği günler Hakk'ın...
Kim bilir, belki yarın, belki yarından da yakın.

Bastığın yerleri "toprak!" diyerek geçme, tanı!
Düşün altındaki binlerce kefensiz yatanı.
Sen şehld oğlusun, incitme, yazıktır, atanı:
Verme, dünyaları alsan da, bu cennet vatanı.

Kim bu cennet vatanın uğruna olmaz ki feda?
Şüheda fışkıracak toprağı sıksan, şüheda!
Canı, cananı, bütün varımı alsın da Huda,
Etmesin tek vatanımdan beni dünyada cüda.

Ruhumun senden İlahi şudur ancak emeli:
Değmesin ma'bedimin göğsüne na-mahrem eli;
Bu ezanlar -ki şeh? detleri dinin temeli-
Ebedi, yurdumun üstünde benim inlemeli.

O zaman vecd ile bin secde eder -varsa- taşım;
Her cenhamdan, İlahi, boşanıp kanlı yaşım,
Fışkırır ruh-i mücerred gibi yerden na'şım!
O zaman yükselerek Arş'a değer, belki, başım.

Dalgalan sen de şafaklar gibi ey şanlı hilal!
Olsun artık dökülen kanlarımın hepsi helal
Ebediyyen sana yok, ırkıma yok izmihlal:
Hakkıdır, hür yaşamış, bayrağımın hürriyyet;
Hakkıdır, Hakk'a tapan, milletimin istiklal.

***Mehmed Akif Ersoy***



*Xalqın, Vətənin taleyi*
*hər bir insanın taleyinə çevrilməlidir.*

**Heydər Əliyev**

*Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında*

## AZƏRBACAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

*(çıxarış)*

Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıda adları göstərilən hərbi qulluqçuları təltif edilsinlər:

**I. "Azərbaycan Bayrağı" ordeni ilə:**

1. Əbiyev Səfər Axundbala oğlu - general-polkovnik
2. Məmmədov Talib Gürşad oğlu - general-leytenant
3. Mustafayev Kərəm Nəriman oğlu - general-leytenant

**17. Cəbrayılov Nazim İbrahim oğlu - baş leytenant (ölümündən sonra)**

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri* *24 iyun 2003-cü il*







*Bütün peşələrdən xalq üçün, millət üçün, hər bir vətəndaş üçün, dövlət üçün ən vacib, ən dəyərli peşə - milləti, xalqı, torpağı qorumaq peşəsi, yəni hərbi peşədir. Mənim üçün hər bir əsgər, hər bir döyüşçü, hər bir zabit Azərbaycan vətəndaşlarının hər birindən daha da qiymətlidir, daha da yüksəkdir.*

**Heydər Əliyev**



AZƏRBAYCAN RESPUBLİKASI

Cəbrayılov

Nazim

İbrahim oğlu

"Azərbaycan bayrağı"

ordeni

ilə təltif edilmişdir

Azərbaycan Respublikasının Prezidenti

Heydər Əliyev

Azərbaycan Respublikası

Prezidentinin fərmanı

"24" iyun 2003-cü il

Orden № 000409

*"Azərbaycan Bayrağı" ordeni və vəsiqəsi*



*Azərbaycan heç bir zaman ərazisinin itirilməsi ilə razılaşmayacaqdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq, işğal edilmiş torpaqlar geri qaytarılacaqdır.*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
## F Ə R M A N I

### “Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında

Azərbaycan dövlətinin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusıya quruluşunun müdafiəsi üçün mübarizəyə qalxan minlərlə soydaşımız mərdlik göstərərək canlarını qurban vermiş və şəhidilk zirvəsinə ucalmışdır. Həmin səxslərin xatirəsi xalqımız və dövlətimiz tərəfindən həmişə böyük hörmət və məhəbbətlə yad edilir. Şəhidlərin əziz xatirəsinin əbədiləşdirilməsi və şəhid ailələrinin mənəvi və maddi ehtiyaclarının ödənilməsi üçün müntəzəm olaraq tədbirlər həyata keçirilir.

Dövlətimizin ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşu uğrunda şəhid olanların ailələrinə dövlət qayğısını artırmaq və onların sosial müdafiəsini daha da gücləndirmək məqsədi ilə qərara alıram:

1. “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hər bir şəhid ailəsinə hər şəhidə görə ayda 100 (yüz) manat məbləğində “Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin tə-

qaüdü” təsis edilsin.

2. Müəyyən edilsin ki:

2.1. Bu Fərmanın 1-ci bəndi ilə təsis edilən təqaüd hər ilin dövlət büdcəsində sosial müdafiə xərcləri üçün nəzərdə tutulan vəsait hesabına, şəhid ailəsi üzvlərinin sayına bərabər bölünməklə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ödənilir;

2.2. Hər şəhidə görə onun ailəsinə Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə, 20 Yanvar şəhidinin ailəsi üçün və bu Fərmanın 1-ci bəndi ilə müəyyən edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdlərindən yalnız biri, ən yüksəyi verilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. “Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təyin olunması və ödənilməsi qaydalarını bir ay müddətində hazırlayıb təsdiq etsin;

3.2. Bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Fərman 2007-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri,*** ***“19” dekabr 2006-cı il***
***№ 493***

## NAZİM CƏBRAYILOVUN AİLƏSİ PREZİDENTƏ MİNNƏTDARLIQ EDİR

Bu günlərdə prezident Heydər Əliyev torpaqlarımızın bütövlüyü uğrunda göstərdiyi qəhrəmanlığa görə Nazim İbrahim oğlu CəbrayıIovu "Azərbaycan Bayrağı" ordeni ilə təltif etmişdir.

Xatırladaq ki, baş leytenant Nazim İbrahim oğlu Cəbrayılov 1994-cü il aprelin 18-də Ağdam uğrunda gedən döyüşlərdə öz taqımı ilə birlikdə düşmənlə qeyri-bərabər döyüşə girmiş, düşmənin bir neçə tankını və texnikasını, onlarla əsgərini məhv eləmiş və sonda həm özü, həm də taqımdakı 28 əsgərin 25-i Vətən yolunda qəhrəmancasına şəhid olmuşdular.

Nazimin və onun komandirlik etdiyi taqımın əsgərlərinin qəhrəmanlığı dillərdə dastana çevrilsə də onlar öz layiqli qiymətini almamışdı. Ancaq, doğrudan da heç kim unudulmur, heç kim yaddan çıxmır.

Üstündən uzun müddət keçdikdən sonra Nazim İbrahim oğlu Cəbrayılovun Vətən qarşısındakı xidmətlərini prezident Heydər Əliyev yüksək qıymətləndirmiş və onu Vətənin ən ali ordeni ilə təltif etmişdir.

Nazim Cəbrayılovun həyat yoldaşı Rəhilə Cəbrayılova bununla əlaqədar olaraq möhtərəm prezidentimiz Heydər Əliyevə qəzetimiz vasitəsilə minnətdarlıqlarını çatdırmağı xahiş etmişdir.

R.Cəbrayılova minnətdarlıq məktubunda yazır:

"Möhtərəm Prezident!

Mənim həyat yoldaşım Nazim Cəbrayılov torpaqlarımızın bütövlüyü uğrunda şəxsi şücaət və qəhrəmanlıq göstərərək şəhid olmuşdur.

Onu müharibədə göstərdiyi xidmətlərə görə "Azərbaycan Bayrağı" ordeni ilə təltif etdiyiniz üçün Sizə öz adımdan, övladlarımın adından və eləcə də bütün Cəbrayılovların adından təşəkkürümüzü, dərin minnətdarlığımızı bildirir, Sizə uzun ömür, cansağlığı və Azərbaycan dövlətçiliyi uğrunda apardığınız mübarizədə daha böyük uğurlar diləyirik.

Möhtərəm Prezident!

Onu da qeyd edim ki, Siz bu ordeni təkcə Nazimə deyil, həm də onunla bir səngərdə çiyin-çiyinə vuruşan bütün qəhrəman oğullarımıza, onların ailələrinə və övladlarına vermisiniz. Və buna görə bir daha Sizə minnətdarlığımızı bildiririk!"

***"Ədalət" qəzeti***
***22.07.2003***

22.07.2003-cü il

ƏDALƏT

Gündəlik hüquq qəzeti №40 (880)

## NAZİM İBRAHİM OĞLU CƏBRAYILOV.
## ŞƏRƏFLİ ÖMÜR YOLU

Nazim İbrahim oğlu Cəbrayılov 1949-cu il martın 2-də Ağdam şəhərində anadan olmuşdur. "Əlifoğlu" kimi tanınan atası İbrahim kişi Qarabağın sayılan, seçilən ağsaqqallarından olmuşdu.

Nazim Ağdam şəhər 1 saylı orta məktəbini bitirmişdir. 1966-cı ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) "Ticarətin iqtisadiyyatı" fakültəsinə daxil olmuş, 1970-ci ildə oranı bitirmiş, təyinatla Türkmənistanın Aşqabad şəhərinə göndərilmişdir. Aşqabad şəhər DİŞ - nin SƏDM bölməsində işləmişdir. Nazim Cəbrayılov Kalininqrad milis məktəbində oxuyaraq ikinci ixtisas diplomu almışdır. Bir müddət işlədikdən sonra vətənə qayıtmış və 2711 №-li hərbi avtomobil dəstəsində hərbi mühəndis vəzifəsində işləmişdir.

İşlədiyi müddətdə kollektivin sevimlisinə çevrilmiş, işgüzar, səmimi, hərtərəfli biliyə malik bir insan kimi şəhər sovetinə deputatlığa namizəd verilmişdir.

1988-ci ilin məlum hadisələri başlandıqdan sonra baş leytenant Nazim Cəbrayılov vətənpərvər bir insan kimi kənarda qalmamış, Vətənin ilk müdafiəçilərindən olmuşdur. Həmin gündən şəhid olduğu ana  qədərki ömrünü xalqımızın azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda mübarizəyə həsr edən baş leytenant Nazim Cəbrayılov Müdafiə Nazirliyin əmri ilə taqım komandiri təyin edilmişdi.

1994-cü il aprelin 13-də göstərdiyi böyük hünər və şücaətdən sonra Nazim Cəbrayılov vaxtından əvvəl kapitan

rütbəsinə təqdim edildi. Ancaq bu rütbəni daşımaq ona qismət olmadı. Çünki 18 aprel, 1994-cü il  Nazim və onun əsgərləri üçün axırıncı döyüş günü oldu.

Mənfur erməni faşistlərinə qan uddurduğuna görə düşmən Nazimin cənazəsini ailəsinə vermədi. Bu səbəbdən cəsur komandir Nazim Cəbrayılovun Vətən torpağında məzarı yoxdur.

Onun hərbi təşkilatçılığı, igidliyi və cəsarəti, insanpərvərliyi, qayğıkeşliyi, səmimiyyəti, ən başlıcası isə düşmənə qarşı barışmazlığı ona döyüş dostları arasında böyük hörmət və məhəbbət qazandırmışdı. Şəxsi şücaət və qəhrəmanlığına görə Nazim İbrahim oğlu Cəbrayılov  ölkənin ən ali mükafatı - "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdi.

Üç övladı var - Fidan, Jalə, Orxan Cəbrayılovlar.  Hər üçü tələbədir. Həyat yoldaşı Rəhilə Cəbrayılova müəllimədir.

*Azərbaycan Dövlət İqtisad Universitetinin həyatindəki tarixi Qala divarına onun da barelyefi vurulmuşdur. Hər il xatirə günü, ad günü qeyd edilir.*

*Televiziya, radio verilişlərində tez-tez onun qəhrəmanlığı haqqında söhbətlər aparılır:*

*Azərbaycan televiziyasında "Heç kəs unudulmur" adlı verilişdə. 10.06.1994-cü il.*

*Radioda. Zərifə Ağahüseyn qızı, diktor Mirnadir Abutalıb. "Bir əsgər haqqında ballada",  08.08.1995-ci il, I proqramla, Bakı 21-30; "Yol" adlı verilişdə.*

*Radioda. "Araz" proqramı ilə,  09.08.1995-ci il,18-15.*

*Bu ənənə indi də davam etməkdədir.*


ДОМ



СВИДЕТЕЛЬСТВО О СМЕРТИ
ӨЛҮМ ҺАГГЫНДА ШӘҺАДӘТНАМӘ

Гражданин (ка) / Вәтәндаш: Сәфәралиев
фамилия — фамилијасы
Назим Ибраһим оғлу
имя, отчество — ады, атасынын ады
умер (ла) / өлмүшдүр: 18 апрел 1994
число, месяц, год — күн, ај, ил
Мин доггуз јүз доҳсан дөрд
(цифрами и прописью — рәгәмлә вә јазы илә)
в возрасте: 45 лет, о чем в книге регистрации актов о смерти
јашында өлмүшдүр, бу барәдә өлүм һаггында акт гејдләри китабында 19 94 года / илдә мај месяца / ајынын 04 числа / күнүндә
произведена запись за № 38 / илә гејд едилмишдир.

Причина смерти / Өлүмүн сәбәби: Салаһлы Кәнҝәрли кәнди уғрунда дөјүшләр ҝедәркән һәлак олуб

Место смерти: город (село) / Өлүмүн јери: шәһәр (кәнд): Салаһлы Кәнҝәрли
район / рајону: Ағдам
область, край / вилајәт, өлкә
республика / республика: Азәрбајҹан

Место регистрации / Гејд едилән јер: Ағдам ВВАГ шөбәси
наименование и местонахождение органа ЗАГСа
ВВАГ органынын ады вә олдуғу јер

Дата выдачи / Верилдији вахт: 04 мај 1994 ил.

М. П. / М. Ј.

Заведующий отделом записи актов гражданского состояния
Вәтәндашлыг вәзијјәти актлары гејдијјаты шө'бәсинин мүдири

II-ЖГ № 438829

МТ Гознака, 1982. Азербайджанский пз.

**Cəbrayılov İbrahim Əlif oğluna**

**№-li hərbi hissənin 2-ci**
**taburunun komandiri tərəfindən**

Bu məktubla Sizə bildiririk ki, Sizin oğlunuz baş l-t: Cəbrayılov hərbi xidmətini Ağdamda gedən döyüşlərdə keçirmişdir.

2-ci taburun zabit heyəti içərisində əsil komandirlərə xas dərin hərbi biliyə, döyüş zamanı hadisələri əvvəlcədən duyub lazımı tədbirlər görmək qabiliyyətinə malik, tabeliyində olan şəxsi heyyətə qarşı ədalətli və qayğıkeş bir komandir idi.

Nazim süveren, müstəqil Azərbaycanın dövlət mənafeyini müqəddəs tutaraq, torpaqlarımızın bütövlüyü uğrunda öz zabit borcünü layiqincə yerinə yetirmişdir.

Sonuncu dəfə 18 aprel 1994-cü il tarixdə, Cəvahirli kəndi uğrunda gedən döyüşlərdə Nazim azğın düşmən tanklarına qarşı çıxaraq, əlindəki qunbaranı onun üstünə atmışdır. Bundan duyuq düşən ikinci düşmən tankı pulemyotdan atəş açaraq onu yerə sərmişdir.

Həmin gün düşmən ön mövqelərimizi ələ keçirdiyindən, Nazimin sonrakı taleyi bizə məlum olmadı.

Bütün bu deyilənləri nəzərə alaraq Sizə 2-ci taburun kollektivi adından, dərin hüznlə başsağlığı verir, Nazimin ruhu qarşısında baş əyirik. Allah rəhmət etsin.

***2-ci MAT-ın komandiri,***
***m-r Dəmirov***

# Qara kağızlar



Азәрбајҹан Республикасы
Мүдафиә Назирлији
hәрби һиссә
№190
№ 631/4к
"01" 05. 1994 ил.

Настоящим сообщаю, что военнослужащий воинской части 190 -старший лейтенант ДЖЕБРАИЛОВ НАЗИМ ИБРАГИМ оглы 4-го декабря 1993 года был переведен для прохождения дальнейшей воинской службы из воинской части 703 в воинскую часть 190 и принимал участие в боях за освобождение населенных пунктов Джавагирли, Косалар, Салахлы-Шенгерли Агдамского района. Во время боев за освобождение населенного пункта Джавагирли Агдамского района 18.4. 1994 года героически погиб. В связи с контратакой противника и быстрым изменением оперативной обстановки тело вынести из поля боя оказалось невозможным.

В связи с вышеизложенным, прошу вас о случившемся сообщить родителям старшего лейтенанта Джебраилова Н.И. проживающим по адресу: г.Баку ул.[illegible], дом- 3.

И.О.КОМАНДИРА ВОИНСКОЙ ЧАСТИ 190
ПОЛКОВНИК ДЖАХАНГИРОВ.



21 МАЙ 94
" ___ " ______________ 19 ___ илдә мән,
Бәрдә рајон 3 № 1И
дөвләт нотариат конторун
(... ады)
дөвләт нотариусу ______________
(фамилијасы, ниснәти ...)
бу сурәтин сәнәдин әсли илә доғрулуғуну тәсдиг ... Сәнәдин әслиндә силинмәләр, әлавәләр, гаралнмыш сөзләр вә дикәр гејд едилмәјән дүзәлнишләр вә ја һәр ... хүсусијјәтләр мүшаһидә едилмәди.
Реестрдә 644 № илә геjд едилмишдир.
Дөвләт рүсуму алынмышдыр ______
М. Ј.
Дөвләт нотариусу

**Azərbaycan Respublikası**
**Müdafiə Nazirliyi**
**Hərbi Hissə**

**N**
**№ 631/4 k**

---

01. 05. 1994 il.

Настоящим сообшаем, что военнослужащий войсковой части N - старший лейтенант Джабраилов Назим Ибрагим оглы 4-го декабря 1993-го года был переведен для прохождении дальнейшей воинской службы в воинскую часть N и принимал участие в боях за освобождении населённных пунктов Джавагирли, Косалар, Салахлы-Кенгерли Агдамского района. Во время боев за освобождение населённого пункта Джавагирли Агдамского района 18.04 1994-го года героически погиб. В связи контратакой противника и быстрым изменением оперативной обстановки тело вынести из поле боя оказалось невозможным.

В связи с вышеизложенными, прошу вас о случившимся сообшит родителям старшего лейтенанта Джабраилова Н.И. проживающий по адресу г.Баку, ул.Балададашева, дом 3.

**И.о. командира воинской части N**
**полковник Джангиров**

№153

**Azərbaycan Respublikası**
**Müdafiə Nazirliyinə**

1949-cu ildə anadan olmuş Cəbrayılov Nazim İbrahim oğlu doğma Qarabağ torpaqlarımızın azad edilməsi üçün mübarizəyə 1993-cü ilin 23 iyun hadisəsindən sonra Ağdam rayonunun erməni işğalçıları tərəfindən işğal ediləndən başlamışdı.

Ehtiyatda olan baş leytenant Nazim Cəbrayılov N saylı hərbi hissədə hərbi xidmətə başladı. Az vaxt ərzində öz döyüş yoldaşları arasında özünün təşkilatçılıq bacarığı, qorxmazlığı ilə fərqlənən Nazim Cəbrayılov neçə-neçə döyüşlərdə nümunə göstərdi. Sonradan 190№- li hissədə tağım komandiri kimi hərbi xidmətini davam etdirərək Cəvahirli, Kosalar, Salahlı-Kəngərli kəndləri uğrunda gedən döyüşlərdə düşmənin bir neçə texnikasının, canlı qüvvəsinin məhv edilməsində cəsurluq göstərmişdir. Bu döyüşlərdə o, zabit heyəti içərisində özünün komandirlərə xas, dərin hərbi bilik, döyüşdə hadisələrin gedişini əvvəlcədən duyub lazımi tədbirlər görmək qabiliyyətinə malik, tabeliyindəki şəxsi heyətə qarşı ədalətli və qayğıkeş bir komandir kimi göstərmişdir. Nazim suveren, müstəqil Azərbaycanın dövlət mənafeyini müqəddəs tutaraq torpaqlarımızın bütövlüyü uğrunda öz borcunu layiqincə yerinə yetirmişdir.

13 aprel 1994-cü il tarixdə saat 6-00 radələrində bir BTR və 50 əsgər ilə düşmən Cavahirli kəndi yaxınlığında yerləşən, Nazim Cəbrayılovun komandiri olduğu taqım üzərinə hücüma keçmişdir.

Nazimin düzgün komandirliyi nəticəsində düşmənin bir BTR-i və 30 əsgəri məhv edilmiş və taqımın dəyanəti nəticəsində düşmən  əsgərlərinin cəsədini belə apara bilməmişdir.

Bu hücumun müvəffəqiyyətlə qarşısının alınması nəticəsində düşmən nəzərdə tutduğu hücum əməliyyatını genişləndirə bilməmiş və ağır itki verərək geri çəkilməyə məcbur olmuşdur.

Bu döyüşün heyfini çıxmaqdan ötrü ermənilər 18 aprel 1994-cü il tarixdə 5 tank, 3 BTR və çoxlu canlı qüvvə ilə Nazim Cəbrayılovun komandiri olduğu taqımın üzərinə hücuma keçir. Bu döyüşdə ikinci taqımın komandiri Nazim azğın düşmən tanklarına qarşı çıxaraq əlindəki tank əleyhinə qumbara ilə tankı vuraraq məhv etmişdir. Bundan duyuq düşən ikinci düşmən tankı pulemyotdan atəş açaraq igid döyüşçü, cəsur komandir Nazim Cəbrayılovu yerə sərmişdir.

Nazim Cəbrayılovun bu qəhrəmanlığı nəticəsində onun komandiri olduğu taqımın əsgərləri mühasirə vəziyyətində çıxa bilmiş və sağ qalmışdır.

Yuxarıda göstərənləri, hərbi hissənin təqdim etdiyi təqdimatı, baş leytenant Nazim  İbrahim oğlu Cəbrayılov döyüşlərdə göstərdiyi cəsurluqları, qəhrəmanlıqları nəzərə alaraq ona Azərbaycan Respublikasının Dövlət mükafatı və fəxri ad təqdim olunmasını Ağdam rayon İcra Hakimiyyəti Sizdən xahiş edir.

**Ağdam rayon İcra Hakimiyyətinin**
**Başçısı   S.Vəliməmmədov**

***10 may 1994-cü il***

*Bizim hamımızın bir vətəni vardır - bu Azərbaycandır!*

***

*Hamımız bu torpaqda yaşayırıq - bu Azərbaycan torpağıdır!*

***

*Azərbaycan torpağının hər guşəsi hər birimiz üçün müqəddəs yerdir!*

***

*Hər bir insan ilk növbədə Anasını, Vətənini, Torpağını, Millətini sevməli, bu hisslərlə yaşamalıdır.*

**Heydər Əliyev**

*Allahın nəzərində damcıların ən yaxşısı*
*şəhiddən tökülən qan damcısıdır.*

**Məhəmməd Peyğəmbər**





***Rəssamı Natiq Ağayev***

# ÖLÜMSÜZ QƏHRƏMANLIQ

*Şəhid olanları heç də ölmüş zənn etmə.*
**"Qurani-Kərim"dən**

Tarix ona hörmətlə yanaşmağı tələb edir və unutqanlığı bağışlamır. Tarixi unutqanlığın bütöv bir xalqın, millətin, dövlətin məhvinə gətirib çıxarması faktları hamıya məlumdur.

Yaşadığımız, içində olduğumuz hadisələrin təfərrüatı ilə gələcək nəsillərə ötürülməsi kimi məsul iş təkcə dövlətin, aidiyyatlı təşkilatların deyil, həm də hər bir fərdin, xüsusilə də bu hadisələrin şahidi və iştirakçısı olmuş hər bir vətəndaşın borcudur. Söhbət ölkə miqyasında yaşananlardan, ermənilərin bizə qarşı işğalçı müharibəsindən, zaman-zaman təkrarlanan əsassız torpaq iddiasından gedirsə, onda bu müharibə alovunun faciəsini yaşayan hər bir ailənin tarixi elə ölkənin tarixinə çevrilmiş olur. Odur ki, bu qanlı hadisələr zaman keçdikcə unudulmasın deyə mütləq yazılmalı, yazılı yaddaşlara - kitablara köçürülməli, əbədiləşdirilməli, gələcək nəsillərə ötürülməli, təbliğ olunmalıdır. Qan yaddaşının zəifləməsinin qarşısı bu yolla alınmasa, faciələrin təkrarlanmasına yeni zəmin yaranmış olar.

Təsadüfi deyil ki, son zamanlar mətbuat səhifələrində Qarabağda baş verənlərin tarixçi alimlər tərəfindən faktik materillar əsasında, obyektiv şəkildə hərtərəfli qələmə alınmasının vacibliyi çox yüksək səviyyədə xüsusi vurğulanmaqdadır.

Mənə təqdim olunmuş, günün tələbi ilə səsləşən "Ölməzliyə Abidə" adlı kitab səlis-sərbəst dili, baş verənləri olduğu kimi işıqlandırması, oxucunu yormayan yazı üslubu, müəllifin hər sətirdə hiss edilən səmimiyyəti, baş verənlərə əsl vətəndaş, hətta mən deyərdim ki, bir tədqiqatçı-tarixçi mövqeyi məni heyrətləndirdi: bu adi kitab yox, yuxarıda dilə gətirdiyim narahatlıqla bağlı "Unutma!" deyən bir haray, yazılı yaddaş idi.

Əsər təkcə bir qəhrəmanın, bir igidin, Vətən yolunda cəsarətlə canından keçmiş bir ər oğulun şəhidlik zirvəsinə aparan həyat yolundan söhbət açmaqla məhdudlaşmır, Qarabağın tarixi və tarixi abidələri ilə bağlı dəyərli elmi faktlar, zəngin məlumatlar verməklə yaddaşları təzələyir. Yeri gəlmişkən kitabın ilk oxucularından olan bir çox ziyalılar, tarixçi alimlər, o cümlədən Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, Respublikanın əməkdar müəllimi, tarix elmləri namizədi Əsgər Abdullayev, eləcə də Respublikanın tanınmış geoloqu, geologiya və mineralogiya elmləri doktoru, Beynəlxalq Ekologiya və Həyat Fəaliyyətinin Təhlükəsizliyi Elmlər Akademiyasının akademiki Telman İsmayılov bu kitabı elmi-tədqiqat işi kimi yüksək qiymətləndiriblər.

Kitabın məna yükünə görə bölünmüş yeddi fəslinin hər biri bir vətənpərvərlik məktəbi, dolğun tədris materialıdır. Burada dövlətimizin atributları haqqında məlumat verilir, əzəli torpaqlarımızın xəritəsi ön plana çəkilir, Qarabağın qədim tarixi ilə bağlı mənbələrə istinad edilir. Əslində Qarabağın son durumundan söz açan kitab fəsil-fəsil onun tarixindən, yaxın keçmişindən, hələ də sona çatmamış olaylarından, bu torpağın dəyərli köhnə kişiləri və indiki ca-

vanlarından, Vətən dara düşərkən millətin qan yaddaşının necə oyanmasından danışır. Əsər oxucusuna özünü, əzəli yurdunun əsrlərin süzgəcindən keçib gələn tarixini öyrən, Ulu Tanrının bizə, biz azərbaycanlılara bəxş etdiyi bu gözəl diyarın qədrini bil və qoru deyir. Zaman-zaman bu torpağın bütövlüyü uğrunda canından keçmiş qəhrəman oğulları tanı və unutma, - deyir. Unutma ki, unudulmayasan.

Vətəni sevmək, qəhrəmanlığa hazır olmaq, ayrılığa dözmək, həyatın sınağından mərdi-mərdanə, üzüağ çıxmaq, yaxşılıqları unutmamaq, minnətdar olmağı bacarmaq xüsusiyyətlərinin vurğulanması, yaxınlara, doğmalara, dostlara sevgi, xeyirxahlıq kimi hisslərin aşılanması kitabı dəyərli edən məqamlardandır.

Kitabda Əlifoğlu İbrahimin oğlu Nazim Cəbrayılovun - Azərbaycan xalqının ləyaqətli bir oğlunun ömür yolu Qarabağ faciəmizin bir səhifəsi kimi daim diqqət mərkəzində olsa da, erməni işğalçılarının bütün dünyaya demokratiya və sülhsevərlikdən dərs deyən fövqəlbəşər dövlətlərin gözü qabağında bu qədim mədəniyyət beşiyində törətdikləri soyqırım dəhşəti butun çılpaqlığı ilə ön plana çəkilir. Bə beləliklə, kitab bir ailə çərçivəsindən çıxaraq faktik materiallardan, şahidlərin gözü qabağında baş vermiş hadisələrdən bəhs edən, tarixi faktları işıqlandıran, yazılı mənbələrə və foto-materiallara istinad etməklə məkrli qonşuların iç üzünü açıqlayaraq gələcək nəsillərə ötürən bir sənədli topluya, zəngin bir tarixi salnaməyə çevrilir.

Döyüşçü zabit Cəbrayılovun həyatı bir romandır. Mənalı, işıqlı, dəyərli ömür yolu keçən Nazim öz şəhidliyi ilə həqiqətən bir ölməzlik simvoludur. Nazimin qısa, lakin şərəfli həyatı, gələcək nəsillərə örnək olan Vətən sevgisi,

qəhrəmanlığı Ulu öndərimiz Heydər Əliyev tərəfindən Vətənin yüksək mükafatı - "Azərbaycan Bayrağı" ordeni ilə qiymətləndirilmişdir. Cismani ölümün zirvəsi sayılan şəhidlik Nazimə mənəvi ölümsüzlük bəxş etdi. Onun şəxsiyyəti, qəhrəmanlığı gənc nəslin milli ruhda həyat tərbiyəsi üçün çox önəmli bir nümunədir.

Onun ləyaqətli ömür-gün yoldaşı Rəhilə xanıım sözün həqiqi mənasında Vətən torpağına çevrilən, qana susamış düşmənin insanlıqdan çox uzaq vəhşiliyi nəticəsində nəşi torpağa dəfn olunmayan, məzarı olmayan Vətən oğluna sözdən Abidə qoydu. Yazılan söz yadigardır inamından qaynaqlandı bu Abidə. Onunla birlikdə bu Abidəni yaradan söz sahibləri həm də Nazimin dostları, müəllimləri, tələbə yoldaşları, qəhrəmanlığının şahidi olmuş döyüşçülər, onun ölməz xatirəsini əziz tutan mətbuat işçiləri, jurnalistlər və hətta onun özünü şəxsən tanımayan bir çox vətənpərvər insanlardır.

Müəllifi tanıyanların yazıları ilə tanış olduqca qarşımda gecə-gündüz əzmlə çalışaraq öz ləyaqətini qoruyub saxlayan, həyatın bütün çətinliklərindən mərdliklə çıxaraq özünü şəxsiyyət kimi təsdiq edən bir xanım görürəm. O, Şuşada doğulub-böyümüş, gəncliyi Qarabağ müharibəsi illərinə düşən, bu qanlı vuruşmada ailə başçısı şəhid olan, yaşadığı doğma yurdunu, el-obasını, evini itirən bir qadın, üç körpə uşağı tək böyütmüş bir Anadır. Sətirlərin arxasından müharibənin ağır yükünü zərif çiyinlərində ləyaqətlə daşıyan, düşmənlə qan davasında ailə başçısını itirərək üç uşaqla tək qalmış cavan bir gəlinin yad gözlərdən mətinliklə gizlətdiyi məşəqqətli günlərin yaşantılarının epizodları, bütün çətinliklərə sinə gərərək həyat yol-

daşının adına layiq yaşayan, övladlarını da bu ruhda böyüdən qətiyyətli, iradəli bir qadın, bir şəxsiyyət dayanır. Ağlamağı-sızlamağı sevmir bu qadın. Buna vaxtı yoxdur onun. Uşaqlarını qürurlu böyütməli, onları sınmağa, əyilməyə qoymamalıdır. Cəsur, igid, qorxmaz kişinin qəhrəman qadını başqa cür ola bilməz.

O, ən başlıcası bir ana kimi 3 övladı təkbaşına boya-başa çatdırmış, onları xalq üçün əsl vətəndaş, savadlı mütəxəssis - həkim, bioloq, iqdisadçı kimi yetişdirmişdir. Bu kişi qeyrətli qadın hazırda balaları üçün qurduğu üç isti yuvanın böyüyü, mükəmməl ailə başçısıdır. Nazim Cəbrayılovun ailəsi bütövlükdə Vətənin, xalqın layiqli övladları olduqlarını öz əməlləri, həyatda tutduqları düzgün mövqe ilə sübut etdilər. Elə buna görə də bu gun cəmiyyətdə fəal ictimaiyyətçi kimi tanınan, onu tanıyanların hamısı tərəfindən sevilən Rəhilə Cəbrayılova hər yerdə böyük hörmətlə qarşılanır.

Azərbaycan Dövlət İqdisad Universitetinin əməkdaşı olmaqla bərabər, həm də filoloq kimi əcnəbi tələbələrə Azərbaycan dilini öyrədir. Ana dilimizin incəliklərini, zənginliklərini əcnəbilərə çatdırmaq üçün "Əcnəbi tələbələrin Azərbaycan dilini mənimsəmələrinin psixoloji cəhətləri" adlı elmi işi üzərində çalışır. Tez-tez televiziyada, radioda, dövru mətbuatda publisist yazılarla çıxış edir. İctimaiyyət arasında davranışı, insaniyyəti, qabiliyyəti, intellektual səviyyəsi ilə daim diqqət mərkəzindədir. Respublikamızın mötəbər dövlət tədbirlərinə dəvətlər alır, qurultaylara numayəndə seçilir.

Bu əsəri oxuduqca ailəsinə bağlı qadın ürəyini duydum, övladılarının xatirinə öz cavan ömrünü uf demədən qurban

vermiş dəyanətli ananı, Vətəninə bağlı əsl vətəndaşı, ziyalını, Vətənin fəxr edə biləcəyi ləyaqətli qızı, qeyrətli xanımı - Rəhiləni yaxından tanıdım. Budur əsl Azərbaycan ailəsinin, xanımının nümunəsi. Bütün varlığı ilə millətimizin adət-ənənəsinə bağlı, əsrlərlə nənələrimizdən miras qalan ismət, həya mücəssəməsidir bu qadın.

Əminəm ki, müharibənin sındıra bilmədiyi, həyatın ağır sınaqlarından bu cür ləyaqətlə, başı uca çıxan bu qadın həmişə qalib olacaq.

Ona həsr olunmuş bir şeirdə deyilir:

***Başını uca tut, ay "Şuşa qızı"!***
***Ucadan uca tut, ay "Şuşa qızı"!***

Mən də bu sözlərə imza atır və həyatı hamıya örnək ola biləcək Əlif oğlu İbrahimin oğlu Nazimi və onun Rəhiləsini xalqımıza bəxş edən Qarabağ torpağının, qədim mədəniyyət beşiyi Şuşanın mütləq azad olunacağına inanıram.

***Vəli ƏLİYEV,***
***AMEA-nın müxbir üzvü,***
***tarix elmləri doktoru, professor***

## O ŞƏHİD OLDU Kİ, BİZ YAŞAYAQ!

Nazim! Ağdamda adətən hərənin bir ləqəbi vardı. Bu ləqəbi onlar hansısa bir yaddaqalan əməllərinə görə qazanmışdılar. Eynilə "Dədə Qorqud" dastanında olduğu kimi. Ata qoyduğu ad öz yerində, cavanlar müəyyən bir həddə çatanda özləri də nəsə bir ad qazanardılar, hamı da onları bu adla çağırardı.

Amma Nazimdən çox-çox öncə Nazimin atası İbrahim kişi, eləcə də həmin nəsil bir adla çağrılardılar: Əlifoğlular.

Nazimin atası İbrahim kişiyə də Qarabağda Əlifoğlu İbrahim deyirdilər. Saytal kişilərdən biri idi. Bilməyənlərin də nəzərinə çatdırım ki, Xankəndindən bütün azərbaycanlılar qovulandan və bu şəhərdə faşizm rejimi yaranandan sonra Əlifoğlu İbrahim ölümdən qorxmayaraq jurnalist Boroviki öz maşınına oturdub, birbaşa Xankəndinə sürmüşdü. Yəni belə bir cəsarətli kişinin oğlu idi Nazim.

Bütün dostlarının sevimlisi, həddindən artıq hazırcavab, duzlu-dadlı Nazimə Ağdamda Əlifoğlu İbrahimin oğlu Nazim deyirdilər.

Savaş başlayanda Nazim işini də atdı, vəzifəsini də - əlinə silah götürüb bu torpağı, bu Vətəni erməni qəsbkarlarından qorumaq üçün döyüşə atıldı. Və təbii ki, onun ali təhsili, hərbi işi bilməsi Nazimin bir taqım komandiri kimi formalaşmasında böyük rol oynayıdı. Nazim öz taqımı ilə döyüşün ən ağır nöqtələrində vuruşurdu və başqalarına da nümunə göstərirdi.

Mən Nazimlə bağlı çox yazı yazmışam. Birini xatırladım. Tarixdə məşhur Panfilovçular olub. Gənc nəsil bil-

məz deyin, yada salım: Rus-alman müharibəsində Moskvanı qoruyan minlərlə taqımlardan biri imiş. 28 nəfərdən ibarət bu taqımın döyüşçüləri son damla qana qədər vuruşublar, onlarla düşmən texnikasını sıradan çıxarıblar və həlak olublar. Qeyd edim ki, biri də azərbaycanlı olub. Ölüblər, amma bir addım geri çəkilməyiblər.

***Cəbrayılovçular... Onlar da 28 nəfər idilər. 26-sı şəhid oldu: "Arxamızda Vətəndir". Çıxmadılar səngərdən!***

Nazimin komandirlik etdiyi bu taqım da Qərvənd uğrunda gedən döyüşlərdə ən öndə vuruşublar, neçə düşmən texnikasını sıradan çıxarıblar, döyüşçülərin hamısı şəhid olub, amma geri çəkilməyiblər. Taqımda olan 26 döyüşçüdən 24-ü sinəsi ilə Vətən torpağını qoruyub.. Yalnız ikisi salamat qalıb.

***Cəbrayılovçular öldülər, səngəri tərk etmədilər, çünki arxalarında Vətən idi!***

Nazim heç kimin sağ qalmayacağını hiss edəndən sonra 17-18 yaşlı iki könüllü döyüşçünü bir bəhanə ilə arxaya göndərib ki, hələ qız sevməmiş bu gənclər salamat qalsınlar. Yerdə qalan iyirmi dörd döyüşçü isə torpağa and içiblər ki, bu torpaq uğrunda hamımız öləcəyik. Və hamısı da şəhid oldu.

***Cəbrayılovçular öldülər, səngəri tərk etmədilər, çünki arxalarında Vətən idi!***

O vaxt Panfilovçuların hamısına Sovet İttifaqı Qəhrəmanı adı verdilər, bircə o bədbəxt azərbaycanlıdan başqa.

***Nazim başda olmaqla taqımındakı bütün döyüşçülər də Milli Qəhrəmandılar, daha dəqiq desək, MİLLƏTİN QƏHRƏMANLARIDILAR! Amma onların heç biri ada görə, şan-şöhrətə görə şəhid olmadılar, onlar şərəf uğrunda, bu torpaq uğrunda şəhid oldular.***

Cəbrayılovçular düşmən tanklarının tırtılları altında qaldılar. Amma səngəri tərk etmədilər, çünki arxalarında Vətən idi!

***Eşidirsənmi, mənim əsgər balam?! Sənin də arxandakı Vətəndir! O Vətən ki, dünyada ondan müqəddəs heç nə ola bilməz!***

Nazim haqqında bu kitaba ön söz yazmaq istəyirdim. Bilmirəm, deyəsən yaza bilmədim. Tonla çörək yediyim bir dost haqqında yazmaq adama asan görünsə də, çox çətindi, çünki gəlir durur gözünün qabağında, səni qəhər boğur və sən yaza bilmirsən.

***Aqil Abbas,***
***millət vəkili, Əməkdar jurnalist***

# SƏNDƏN SONRA NƏLƏR OLDU, BİLİRSƏNMİ?

Cəfakeşliyinə, etibarlığına, dəyanətinə, iradəsinə, yorulmazlığına heyran kəsildiyim Rəhilə xanım Cəbrayılova bu kitabın əlyazmasını mənə verəndə ki, oxuyub öz fikirlərimi bildirim, ürəyimdən tamam başqa bir hiss keçdi.  Bu barədə sonra.

Qaya döşlü Nazim Cəbrayılovun qəhrəmanlığı, igidliyi barəsində bu kitabda yetərincə məlumat var. İgidliyin son zirvəsinə - şəhidliyə yüksəlmiş bu igid Vətən oğlu haqqında söz açanların hər biri onun göstərdiyi şücaətdən, qorxmazlıqdan ürəkyanğısı və qürurla danışırlar. Həqiqətən də vətən belə oğlulların igidliyi, fədakarlığı, canıbahasına yaşayır və yaşayacaq da.

Belə bir inam var ki, şəhidlər heç vaxt ölmürlər. Onlar nuraqənşər uzanan bir yolun əbədi yolçularıdır. Mən Nazim haqqında nə qədər çox danışmağa səy etsəm də, onu yaxından tanıyan yoldaşları, dostları qədər daxili zənginliklərini, insani keyfiyyətlərini, vətəndaşlıq amallarını və nəhayət, ölümün üstünə gedə bilmək hünərini, cəsarətini bəlkə də onlar qədər ifadə edə bilmərəm. Haqq dünyasına qovuşanların adını çəkəndə deyir ruhu adamın başının üstündə dayanır. Mən də ürəyimdə bu qəhrəman qardaşımızın adını çəkir, üzümü göylərə tutaraq sözlərimi Nazimə ünvanlayıram.

Səndən sonra nələr oldu, bilirsənmi, qardaşım?

Sənin yolunla gedən igidlərin qanı bu torpağın rəngini dəyişdi. Paytaxtdan başlamış bölgələrimizdə, ən ucqar kəndlərimizdə belə Şəhidlər Xiyabanı göyərdi. Atan İbra-

him Əlifoğlu sənsizliyə dözmədi. Qardaşın Yelmarın ürəyi dayandı. İtkilərin sayı-hesabı olmadı.

Yox, bu dərdlərdən də danışmaq istəmirəm. İstəyirəm ki, biləsən, sənin ömür-gün dostun Rəhilə xanım səndən sonra haysız-həşirsiz yaşamı və fəaliyyəti ilə bir qəhrəmanlıq göstərir. Ayağın dəyən yerlərə qədəm ata bilməsə də, bütün canı və ruhu ilə sənin xəyallarına, adına bağlıdır. Nə doğum gününü unudur, nə də ki şəhidliyə yüksəldiyin o ağır və həm də mübarək anları. Səni sevənləri başına yığaraq adına mərasimlər düzənləyir. Xatirələr dilə gəlir, səndən danışılır, keçdiyin qısa, lakin mənalı ömür yoluna boylandıqca boylanırıq. Sən bir igid idin, qəhrəman idin, kişiydin, oğuldun, ərdin! İndi sənin qəhrəmanlığın məni təəccübləndirmir. Sən elə bir xarakterə malik idin, elə bir ananın döşündən süd əmmişdin, elə bir atadan öyüd almışdın, elə bir ailəyə başçılıq edirdin, axı sən başqa cür necə ola bilərdin? Həzrəti Əli deyib: "Ən zəngin xəzinə könüllərdəki sevgidir". Səni şəhidliyə torpaq sevgisi apardı. Sən isə bizim qəlbimizdə bu sevgini qoyub getdin. İndi sənə olan məhəbbət də, ehtiram da elə torpağa, Vətənə münasibətin ölçüləridir. Deyirdim axı, səndən danışmayım. Sənə sənin həyat dostundan söz açım. Bu illər ərzində günbəgün, saatbasaat əriməyinə, saralıb-solmağına baxmayaraq sənin yolunda cəfakeşlik göstərib. Nə boyda dözümlü, inadkar və savaşçı xanımın varmış, qardaş! Sənlə bağlı hər cür mübarizəyə mərdi-mərdanə qoşulur və bu yoldakı çətinliklərdən geri çəkilmir. İstəyir ki, səni bütün dünya tanısın. Sənin sevgin bir ürəyə, bir ölkəyə sığmaz ki?!

Səndən yadigar qalan fidan balaların bilsən necə böyüdülər? Sən onları orta məktəbdə oxuyan görmüşdün. Son-

rakı talelərindən xəbərin olmadı. Ali təhsil aldılar, oxudular, ev-eşik sahibi oldular. Toy-düyünlərində sənin yerin görünsə də, Rəhilə xanım çalışdı ki, başqa çatışmazlıqlar olmasın. O, həmişə belə fikirləşir ki, sən heç zaman onu tək qoya bilməzsən. “Nazim həmişə mənimlədir. Bəzən öz-özümə onunla danışıram, səsim başıma düşür. Birdən ayılıram, tez özümü yığışdırıram, kaş  eşidən olmayaydı deyirəm,  deyərlər ki, bu qadın dəli olub. Amma  yenə onunla danışıram. Onunla məsləhətləşirəm, sözünü eşidirəm. Bilmirəm, bu da bir sirrdir”, deyə dolmuş gözlərini həmişə məndən gizlədən Rəhilə səni həmişə öz yanında hiss etdiyini etiraf edir.

Bilirsən ki, Sənin doğum gününlə qızın Fidanın ad günü eyni günə düşür. Səndən sonra isə bu günün  bircə adı var, bircə təyinatı var - səni xatırlamaq, səni anmaq! Səni yad etmək. Sənin heç vaxt unudulmayacağın 2 mart, əslində bu ailə üçün  ata ilə bala ruhunun birləşdiyi, enyniləşdiyi bir günə çevrilib.

Dünyasını dəyişmişlər özləri üçün nə edə bilərlər ki?! Onların xatirələrdə anılması da, tez-tez yad edilmələri də əməlləri ilə bağlı olsa belə, bu günü yada salan, bu mərasimi düzənləyən kimsə olmalıdır. Bax, səndən sonra səni unudulmağa qoymayan, səni daima mətbuatın diqqət mərkəzində saxlayan Rəhilə xanımdır. O Rəhilə xanım ki, ömrün keşməkeşli yollarında təkqanadlı qaldı. Amma namusla, qeyrətlə balalarını böyütdü. İndi sənin nəvələrin var.  Jalə balanın oğlunun adı bilirsənmi nədir? Nazim. Sənin adını daşıyır nəvən. Oğlun Orxanın da toy mərasimi çox qeyri-adi oldu. Rəhilə deyirdi: “Mən Orxana Nazimin arzuladığı kimi toy etməliyəm. Başqa cür də ola bilməz,

yoxsa onun ruhunu incitmiş olaram".

Yenə ürəyi sakitləşmədi Rəhilənin. "Nazimin 60 illik yubileyi gəlir. Qəbri də yoxdur ki, ziyarətə gedək. Üstündə bir abidə ucaldaq. Ətəyinə çiçəklər düzək". Bax bu ağrılı düşüncələrin nisgilində qovrula-qovrula sənin üçün həmişə yaşayacaq, qalacaq, elləri, dilləri dolaşacaq bir abidə ucaltmağa çalışdı. İstədi ki, sənin adına layiq bir söz abidəsi ucaltsın. Elədi də. Bu qarşımızdakı kitabdır . Adı da dürüst tapılıb - "Ölməzliyə Abidə". Bu kitabın üzərində hərf-hərf əriyib, göz nurunu, taqətini əsirgəməyib. Bu da səbəbsiz deyildir. Müdrik bir kəlamda deyilir: "İnsanın iki neməti var. Biri ağıldır, o biri söz. Ağıl özün üçündür, söz millətin". Bu abidəni əslində Rəhilə bacımız millətin bütün qeyrətli, qəhrəman oğullarının şərəfinə yüksəldib. Doğrudur, bu kitabda söz müəllifləri çoxdur. Amma onları bir yerə yığıb bu cür nəfis və sanballı şəkildə oxuculara təqdim edən məhz onun özüdür. Mən insan sevgisinin böyüklüyü, dərinliyi haqqında çox eşitmişəm. Həyat yoldaşını itirmiş xanımların çəkdiyi cəfalardan, əziyyətlərdən də xəbərim var. Amma, Rəhilə xanımın onu başqalarından fərqləndirən bir xüsusiyyəti də var - Sənin üçün hər şeyi etmək əzmi.

Bax belə, qardaşım Nazim! Səndən sonra sənin yurdunda sənin nəfəsini, hənirini, arzularını, istəklərini yaşadan ömür-gün dostun belə bir ürəyin, qeyri-adi cəfakeşliyin sahibidir. Çox fikirləşdim ki, sonda Rəhiləyə nə deyim. İçimdən gələn bir səs məni Məmməd Araz dühasına köklədi, onun müdrik misraları demək istədiklərimi daha yaxşı ifadə etməyə kömək etdi:

***Əyilməkdir ağlamağın tərs üzü,***
***Dərdi dartıb üzməyəni - dərd üzür.***
***Ağlayanı tez də tapır dərd, hüzür,***
***Bəlkə tanrı belə yazıb, ağlama,***
***Səsini boğ, millət qızı, ağlama!***

Böyük şairin təbirincə desək, sənin yarın eldən ötən güllələrə tən oldu. Bu torpağın son qurbanı olmasa da kişi, ər kimi sənin üçün Son oldu.

Əziz oxucu! İndi də sözüm sənədir. Bu kitab təkcə bir igidin qəhrəmanlıq dastanı deyil. Bu kitab həm də Rəhilə adlı bir qadının öz ömür-gün dostuna olan məhəbbətinin, sədaqətinin rəmzi, ifadəsidir. Lap sonda gizlicə ürəyinə axan göz yaşlarıdır.  Onu diqqətlə oxu! Hər səhifəsində Nazim adlı bir şəhidin ömür yolundan, qəhrəmanlığından xəbər tutacaqsan. Son nətiəcədə isə sözlə yaradılmış bu abidənin əsl memarına "Əhsən!" deməyi unutma.

***Flora Xəlilzadə,***
***yazıçı-publisist***

## ÖLÜMSÜZ DÖYÜŞÇÜ

*Xilas etmək üçün ana torpağı,*
*Sən də  öz sözünü deməyə gəldin.*
*Qoymadın sönməyə yanan çırağı,*
*Vətən dara düşdü, köməyə gəldin.*

*Qoymadın yağını gəlməyə yaxın,*
*Odur ki, Vətən də bilir qədrini.*
*Hər yerin görməkçin ana torpağın,*
*Mələklər göylərdə qazdı qəbrini.*

*Arzular, diləklər düşsə də perik,*
*Nə usanmaq bildin, nə də yorulmaq.*
*Dünya - can bazarı… gəlib, gedirik,*
*Nə gözəl, ölümdən sonra doğulmaq!*

*Səninlə fəxr edib, sevinsin ana,*
*Dostu əməliylə güldürən Nazim.*
*Fələk sevinməsin, dağ çəkdin ona,*
*Ölümü ölümüylə öldürən Nazim,*
*Ölümü ölümüylə öldürən Nazim.*

*Şərafəddin İlkin*



*Rəssamı Natiq Ağayev*




# Mətbuat səhifələrindən

*Mətbuat*
*cəmiyyətin*
*güzgüsüdür.*

## AĞDAMDA QANLI DÖYÜŞLƏR DAVAM EDİR...

Artıq neçə gündür ki, respublikada hamının diqqəti Ağdam cəbhəsinə yönəlib. Aprel ayının 14-dən etibarən. Erməni hərbi birləşmələri bu istiqamətdə geniş miqyaslı hücuma keçmişlər. Neçə gündür ki, Ağdamın işğal olunmamış ərazilərində ağır müdafiə döyüşləri gedir. Bu bir neçə gündə düşmən döyüşçülərimizin sarsıdıcı zərbələrinə məruz qalmış, canlı qüvvə və texnika sarıdan xeyli itki vermişdir. Bəs görəsən bu neçə gündə dəhşətli anları yaşayan ən ağır sınaqlardan keçən, hər dəqiqə ölümlə üzləşən əsgərlərimizin döyüş əhval-ruhiyyəsi necədir? Bu sualın cavabını onların öz dillərindən eşitmək istədik. Elə bu məqsədlə Ağdama yola düşdük.

Bahar altıncı ildir ki, Ağdamın ağır günlərinin qonağıdır. İndi Qarabağ bülbüllərinin avazının yerinə atışma səsləri eşitdikcə yol üstü kəndlərdə dağıntılara nəzər saldıqca, bir də uzaqdan yaşıllıqlar arasında yanan el-obalarımızın tüstüsünü gördükcə cəbhədən uzaqda arvad kimi qaçıb gizlənən gənclərə nifrət edirsən. Beləcə, yol boyu ətrafa nəzər sala-sala Qərvəndə çatdıq. Komandir döyüş mövqeyindəydi. Qərargahın həyətində əsgərlər bizi üzük qaşı kimi dövrəyə aldılar. Hamının ürəyi dolu, hamı sözlü idi...

Biz dəfələrlə ön cəbhədə döyüşən əsgərlərimizin səngərlərində olmuşduq. Yenə də döyüş mövqeyində komandirlə görüşdük.

Ermənilərin bu dəfəki hücumu indiyə qədər bu cəbhə-

də cəhd etdikləri bütün hücümlardan tamamilə fərqlənirdi. Düşmən alaçağı zərbələri heç ağlına belə gətirə bilməzdi. Odur ki, özünü itirib. Vəziyyət hələ də gərgindi.

Komandir bizə ermənilərin vəhşilikləri nəticəsində uçmuş-dağılmış tikililəri, mərmilərin düşdüyü yerləri göstərir. Atcılıq zavodunun fermalarının yaxınlığındaydıq. Bir vaxtlar Qarabağ atlarının şahə qalxdığı bu yerləri ermənilər xarabazara döndərmişlər. Salahlı kəndi istiqamətində yerləşən postlarımızdan birindəyik. **Posta baş leytenant Nazim Cəbrayılovun başçılıq etdiyi rota nəzarət edir.**



***Ağdam. Qərvənd. Komandir Cəbrayılov vəziyyət barədə məlumat verir. 19 sentyabr 1993-cü il***

Əsgərlərlə son döyüşlər haqqında söhbətə onlarla tanışlıqdan sonra başladıq: serjantlar Qabil Fətəliyev, Cahid

Mehdiyev, sıravilər Kamil Mirzəyev, Ramil Hüseynov, Namiq Mirzəyev, Camaləddin Sadıqov, Nofəl İsmayılov, Famil Mustafayev, Şövlət Qənbərov, Elşən Məmmədov, Habil Kərimov, Nurəddin Rüstəmov, Arif Atakişiyev, vzvod komandirləri İlqar Əsgərov, Çingiz Haqverdiyev və Zaur Məmmədov.

Bu posta nəzarət edən döyüşçülər daha irəlidəki postlara nəzarət edən əskər yoldaşları ilə çiyin-çiyinə döyüşüb ermənilərin burunlarını ovmuşdular. Onların söylədiklərinə əsasən, ermənilər bu istiqamətdə texnika sarıdan itki versələr də 25 canlı qüvvəsini qoyub getmişlər.

Bəzən ön cəbhədə azyaşlı əsgərlərə də təsadüf edilir. Bu dəfə də biz elə döyüşçülərdən biri ilə 14 yaşlı Zamin Həsənovla tanış olduq. Komandirin dediyinə görə, Zamin bütün döyüş boyu əsgərlərimizə patron daşıyıb, onlarla çiyin-çiyinə döyüşüb.

Dayandığımız post ilə ermənilərin arası çox az idi. Onların əsas hücumu da məhz elə bu istiqamətdən başlamışdı. Ərşad Məmmədov, Saday Qurbanov, Namiq Fətəliyev, Əkbər Mirzəyev, İsmayıl Behbudzadə, Kərəm Quliyev, Yavər Hüseynov, Rafiq Qarayev, Ramiz Əliyev, Namiq Mirzəyev, Nizami Zeynalov, Vəli Valiyev, Cavid Rəfiyev, Əhməd Mikayılov, Səxavət Abbasov, Azər Əsədov, Xəqani Musayev, Faiq Quliyev, Sarxan Allahverdiyev, Cəlaləddin Sadıqov, Faiq Məmmədov, İlqar Süleymanov, Hüseyn Atayev, Tahir Dadaşov, Yusif Atakişiyev, Cəmşid Əliyev, Rafiq Vəliyev, Zaur Namazov - bu oğullar bir addım da olsun geri çəkilməməyə and içiblər. Son döyüşlərdə onların hər biri qəhrəmanlıq göstərmişdilər.

İki gün davam edən döyüşlərin haqqında söhbəti hələ

qospitaldan təzəcə qayıtmış Şamil Məmmədov başladı:

- Ermənilər hücuma aprelin 13-də səhər saat 5-dən güclü artilleriya atəşi ilə başladılar. Təkcə bizim posta tərəf 100-ə yaxın mərmi atıldı. Ermənilər iynəli və zəhərli olan top mərmilərindən istifadə edirdilər. Səngərdən baş qaldırmaq mümkün deyildi. Artilleriya hazırlığından sonra erməni piyadaları Salahlı istiqamətindən mövqelərimizə sarı irəliləməyə başladılar. Gördüyünüz o dağın (vzvod komandiri mənə çox da uzaqda olmayan dağı göstərirdi) ətəyində düşmən tankının vurulması onları çaş-baş saldı. İrəliləyən piyadalar geriyə üz tutdular. Lakin artilleriya atəşi ara vermirdi.

Ermənilər nəyin bahasına olursa-olsun meyidlərini əməliyyat yerindən çıxartmaq istəyirdilər... Biz Ağdam cəbhəsində vəziyyətin nə dərəcədə ağır olduğunun canlı şahidi olduq.

Bəli, Ağdamda müharibə gedir. İndi rayonun ermənilərin ələ keçirdikləri yaşayış məntəqələri ilə həmsərhəd kəndlərində qanlı döyüşlər davam edir. Kəndlərimiz artilleriya mərmilərinin "Yağışı" altındadır. Yeganə təskinliyimiz isə odur ki, Ağdam cəbhəsində döyüşən əsgərlərimiz Vətən, xalq qarşısında əllərindən gələni əsirgəmir, qanları bahasına torpaqlarımızı qoruyurlar.

***Aynur Abbas,***
***"Ədalət" qəzeti***
***26.04.1994***

**REDAKSİYADAN:**

***Müxbirin cəbhədən qayıtması və yazını çapa hazırlaması müəyyən vaxt aparır. Bir tərəfdən də qəzet 4 gündən bir çıxır. Yazı çapa gedənədək müxbirimiz Ağdamdan zəng edib bildirdi ki, Nazim Cəbrayılov və onun başçılıq etdiyi rotanın dö-***

***yüşçüləri İlqar Əsgərov, Şamil Rəcəbov, Cahid Mehdiyev, Teymur Yusifov aprelin 18-ində gedən döyüşlər zamanı qəhrəmancasına həlak olmuşlar. Allah şəhidlərimizə rəhmət eləsin!...***

29 oktyabr 1993-cü il “Qarabağ” qəzetinin əməkdaşının Ağdamdakı könüllülərdən ibarət “N” hərbi hussəsindən yeni yaradılmış batalyonun döyüşçüləri qarşısında hansı vəzifə durduğu və bölmədəki mövcud durum haqqında məlumatı.




Arzu edərdim ki, başqa batalyonlarda da bu batalyonda olduğu kimi ciddi nizam-intizam yaradılaydı. Bura yurdunu, xalqını sevən, lazım gəldikdə bu yolda öiümə getmyə hazır olan qeyrətli oğlanlar seçilib qəbul edilib. Rayon İcra Hakimiyyəti başçısının tapşırığı ilə döyüşçülərimiz bir neçə mühüm sahədə post-patrul xidməti vəzifəsini yerinə yetirirlər. Məhz döyüşçülərimizin öz vəzifələrinə vicdanla yanaşmaları nəticəsində kəndlərini tərk etməyə məcbur olmuş əhali indi öz doğma ocaqlarına qayıdırlar. Hissəmi-

zin bölmə komandirlərindən **Nazim İbrahim oğlu Cəbrayılov**, Şamil Bakiroğlu, Əlabbas Bayramov, sıravi döyüşçülərdən Akif Cavanşirov, Şamil Rəcəbov, Üzeyir Məmmədov, habelə onlarca başqaları torpaqlarımızın müdafiəsi uğrunda daim ayır-sayıq dayanır və komandanlıq tərəfindən verilmiş hər bir tapşırığa canbaşla əməl edirlər.

Əslində bu batalyon Ağdamın işğalından cəmi bir iki-gün sonra zəngin döyüş təcrübəsi olan **Nazim İbrahim oğlu Cəbrayılovun** başçılıq etdiyi rotanın yerli cəsur döyüşçülərindən təşkil olunmuşdur ki, onların da adları yuxarıda göstərilmişdir. Bu batalyonun təşkil edilməsində əsas məqsəd işğal altından kənarda qalan ərazilərimizi müdafiə etmək düşməni tutduqları ərazidən çıxarıb Ermənistanın sərhədinə qovmaqdır.

***B.Mirzə,***
***"Qarabağ" qəzetinin müxbiri***

***

Aprelin 18-də düşmənin mövqelərimizə növbəti hücumu zamanı "N" hərbi hissəsinin 2-ci taburunun taqım komandiri, igid döyüşçü, bacarıqlı komandir **Nazim İbrahim oğlu Cəbrayılov** misilsiz igidliklər göstərmiş, qəhrəmancasına həlak olmuşdur. O, qumbaranı bədəninə bağlayıb, özünü düşmən tankının altına ataraq tankı partlatmış və düşmən hücumunun qarşısını almağa nail olmuşdur. Nazim Cəbrayılov haqqında geniş yazını gələn sayımızda oxuya bilərsiniz.

***"Qarabağ" qəzeti,***
***29.04.1994-cü il***

***

Tanınmış foto ustası S. Rasim tez-tez cəbhə bölgələrində olur, döyüş səngərlərinə baş çəkir. Bu şəkil Ağdam cəbhəsində çəkilmişdir. Qəzetimizin gələn sayında Rasimin qızğın döyüş meydanını əks etdirən fotoları və yazısı ilə tanış olacaqsınız.

*"Ədəbiyyat qəzeti"*
***22.04.1994-cü il***



## QANDAN BİÇİLƏN KƏFƏN...



Onu çoxdan tanıyırdım. Şən və qayğısız uşaqlıq illərimiz bir məhəllədə keçmişdi, necə deyərlər, çəpər-çəpərə qonşu idik. Ağdam işğal olunduqdan sonra tez-tez televiziya ilə həmyerlilərimizi silaha sarılıb torpaqlarımızın müdafiəsinə qalxmağa səsləyirdi. Özü də ilk gündən yağı düşmənin torpaqlarımıza dikilən gözlərini kor etmək üçün ayağa qalxmışdı...

Nazim İbrahim oğlu Cəbrayılov 1949-cu ildə Ağdamda dünyaya göz açmış, burada böyüyüb boya-başa çatmışdı. İnstutu bitirdikdən sonra hərbi xidmətə çağırılmış, daha sonra Kalininqrad Ali Milis Məktəbində oxumuşdu.

Məktəbi bitirib Aşqabad şəhərində baş leytenant rütbəsində milis orqanlarında işləməyə başlamışdı.

Elə o vaxtlardan: sovet rejiminin çürüklüyünü hiss edərək ədalətsizliyə, rüşmətxorluğa qarşı mübarizə aparan Nazim 1988-ci ildə xalq azadlıq hərəkatına qoşulmuş, həmin vaxtdan bütün ömrünü xalqımızın azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda mübarizəyə həsr etmişdi. Ağdam işğal olunduqdan sonra rəsmi olaraq könüllülər batalyonuna yazılmış, hərbi biliyə və böyük döyüş təcrübəsinə malik olduğundan taqım komandiri təyin edilmişdi.

***Nazimin komandirlik etdiyi taqımın əsgərləri Kosalar, Cəvahirli, Salahlı, Kəngərli və başqa kəndlərin***

***düşməndən dəf edilməsində və müdafiəsində igidliklə dayanmış, uğurla keçirilmiş əməliyyatlarda onlarca düşmən əsgəri və texnikasını məhv etmiş, atəş nöqtəsini zərərsizləşdirmişdi. Əfsuslar olsun ki, Nazimin döyüş yolu yarıda qaldı...***

1994-cu il aprel ayının 18-də Cəvahirli istiqamətində güclü artilleriya hazırlığından sonra çoxsaylı texnika ilə hücuma keçən düşmən nəyin bahasına olursa-olsun mövqelərimizi yarıb keçmək istəyirdi. Nazimin komandir olduğu taqımın əsgərləri həmin gün cəsur və igid komandirləri ilə birlikdə postlarda dayanmışdılar. Ölüm-dirim mübarizəsi gedirdi həmin gün. Düşmənə əks-müqavimət göstərilməsinə baxmayaraq, qüvvələrin qeyri-bərabər olduğunu hiss edən igid komandir artıq itki verməmək üçün döyüşçülərə geri çəkilməyi əmr edir. Özü isə düşmənlə döyüşə atılır. Düşmənin bir tankını partlatdıqdan sonra ikinci tankı partlatmaq üçün irəliləyən Nazim qumbaranı əlinə alıb tankın altına atılır. Özü həlak olsa da, düşmən texnikasının hərəkətini dayandırır. Ölümü ilə onlarca əsgərin həyatını xilas edir...

## Şahidlərin dediklərindən

**Habil Tağıyev:**

*- Düşmən texnikası bizə geri çəkilməyə də amal vermirdi. Nazim bizimkilərə məlumat verməsinə baxmayaraq, kömək gəlmirdi. Tanklar artıq səngərə çatmışdı. Komandir bizə fermaya çəkilməyi əmr etdi. Özü isə, qumbaranı götürüb tankın altına atıldı...*

**Tahir Musayev:**

*- Komandir bizə geri çəkilməyi əmr edəndə onun da bi-*

*zimlə getməsini xahiş etdik. O, yeganə oğlu Orxanı bizə tapşırdı. Bildirdi ki, düşməni ləngitmək lazımdır. Döyüşə-döyüşə fermaya tərəf geri çəkildik. Komandirimiz Nazim və onun müavini İlqar isə qumbaraları götürüb tanklara tərəf irəlilədilər. Bu onların son cəhdləri idi...*

**Tabur komandiri R.Dəmirovun Nazimin atası İbrahim kişiyə göndərdiyi məktubdan:**

*Nazim hadisələrin gedşini duyub lazımı tədbirlər görmək qabiliyyətinə malik, tabeliyində olan heyətə qarşı qayğıkeş və tələbkar komandir idi. O, suveren Azərbaycanın dövlət mənafeyini müqəddəs tutaraq, torpaqlarımızın bütövlüyü uğrunda zabit borcunu ləyaqətlə yerinə yetirmişdir... Nazim son döyüşdə azğın düşmən tanklarına qarşı çıxaraq əlindəki qumbara ilə düşmənin bir tankını məhv etmiş, ikinci onu görüb pulemyotla qətilə yetirmişdir...".*

*Qeyd etmək istəyirəm ki, ona igidliyinə görə vaxtından əvvəl növbəti kapitan rütbəsi verilmişdir. Xidmət etdiyi briqadanın komandiri Nazim İbrahim oğlu Cəbrayılova **Azərbaycanın Milli Qəhrəmanı** adı verilməsi üçün Müdafiə Nazirliyinə təqdimat göndərmişdir.*

Neçə dəfa Nazimlə görüşüb söhbət etmək, onun haqqında bir yazı yazmaq istəmişəm. Hər dəfə onun mənə cavabı bu olub: "Qonşu, Allah qoysa, Ağdamda, Şuşada danışarıq...". Ancaq əhdinə "xilaf" çıxdı Nazim. Heyiflər olsun ki, o günləri görə bilməyəcək...

Mən isə ümidimi qırmıram. Əminəm ki, həmin gün gələcək. Azarbaycanımızın üçrəngli müqəddəs bayrağı Xankəndində dalğalanacaq. Və onda mən Nazimin qandan biçilmiş kəfənə bükülərək qazılmayan məzara qoyulmuş ruhu ilə söhbət edəcəyəm, üç körpəcə - Fidan, Jalə və Orxan balanın əlindən tutub, doğma Qarabağımızı oba-oba gəzdirib

atasının qanı ilə suvarılmış torpaqların çiçəklərindən tər dəstələr düzəldib şəhidlərimizin məzarına səpələyəcəm.



***Şəkildə: Nazim son görüşdən əvvəl döyüş dostlarını və bir də müqəddəs torpaqlarının taleyini düşünür...***

***Sarvan Şamiloğlu,***
***"Qarabağ" qəzeti***
***28.05.1994***

**Qeyd:** *Bu yazı həm də müəllifin* ***"Şəhid şəhərin şəhid oğulları"*** *adlı kitabında verilmişdir.*



**Ağdamda Əlif oğlu İbrahimin oğlu - taqım komandiri Nazim Cəbrayılov döyüş yoldaşlarını xilas etmək xatirinə qumbaraları qarnına bağlayaraq özünü düşmən tankının altına atanda bircə şey fikirləşirmiş, heç olmasa sinəm boyda Vətən torpağına qoymayım ermənin murdar ayağı dəysin.**

***"Ədalət" qəzeti***
***26 may 1994-cü il № 49 (396)***



## NAZİM İBRAHİM OĞLU CƏBRAYILOV - ŞİR ÜRƏKLİ KOMANDİR

1994-cü il aprelin 13-də Ağdamın Kosalı, Cavahirli, Salahlı-Kəngərli kəndləri istiqamətində hücuma keçən düşmən, baş leytenant Nazim Cəbrayılovun başçılıq etdiyi taqımın döyüşçülərinin ciddi müqavimətinə rast gəlmiş, 30 döyüşçüsünü və xeyli döyüş texnikasını itirərək geri çəkilməyə məcbur olmuşdu.




***Lakin quduzlaşan düşmən aprelin 18-də yenidən daha böyük güclə - 5 tank, 3 BTR və xeyli canlı qüvvə ilə kəndlərimizə soxuldu. İgid və qorxmaz taqım komandiri Nazim Cəbrayılov bu dəfə də düzgün və ağıllı tədbirlər görərək, qeyrətli döyüşçülərindən quldurlar qarşısında möhkəm sədd çəkdi. Onlar and içdilər: "Düşmən qarşısından bir addım da olsun geri çəkilməyəcəyik!"***

Döyüş getdikcə şiddətlənirdi. Səngərdə möhkəm dayanan döyüşçülər Nazimin gurultulu nərəsindən daha da ruhlanır, erməni quldurlarını biçib yerə sərirdilər. Ancaq düşmən qüvvəsinin üstünlüyü açıqca hiss olunurdu. Onlar həm də mühasirə vəziyyəti yaratmaq istəyirdilər. Zəhmli tanklar sürətlə irəliləyirdi. Döyüşçüləri dəhşətə gətirən bu idi ki, mərmilər tanklara təsir etmir, çırpılıb yerə düşürdü. Nazim başa düşdü ki, bunlar mərmi təsir etməyən xüsusi tanklardır. ***Fəlakət yaxınlaşırdı. Heç kim səngərdən çıxmaq istəmirdi. Təcili tədbir görmək lazım idi. Birinci taqım komandiri Nazim Cəbrayılov özü səngərdən çıxıb lap yaxınlıqdakı tankla üzbəüz gəldi. Qumbara ilə vurub onu partlatdı. İkinci tankın qabağına atıldı, təəssüf ki, sərrast atəşə hədəf oldu... Beləliklə də taqımın əsgərləri mühasirədən çıxa bildilər.***



Nazim Cəbrayılov 1949-cu ildə Ağdam şəhərində anadan olmuşdu. Ağdamda hamının "Əlifoğlu" kimi tanıdığı və hörmət bəslədiyi İbrahim kişinin oğlu idi. Şəhər 1 saylı orta məktəbini bitirdikdən sonra indiki Azərbaycan Dövlət İqtisadiyyat İnstitutunu bitirdi. Əmtəəşünaslıq ixtisası qazandı. Təyinatını Türkmənistanın Aşqabad şəhər milis idarəsinə verdilər. Burada iki il işlədi. Ona baş leytenant rütbəsi verildi. Kalininqrad iki illik milis məktəbinə göndərildi. İkinci ixtisas diplomu da aldı. Ancaq Nazim daha Aşqabada qayıtmadı. Vətənə

gəldi. Ağdam avtomobil dəstəsində hərbi mühəndis vəzifəsində işlədi. Sonra həmin müəssisənin nəzdində benzin doldurma məntəqəsinə başçılıq etdi.

Ağdam xəyanətin qurbanı olan günlərdən Nazim də silaha sarıldı. Qərvənddə yaradılan könüllülər batalyonuna yazıldı. Batalyon Müdafiə Nazirliyin tərkibinə keçəndən sonra baş leytenant Nazim Cəbrayılov nazirliyin əmri ilə taqım komandiri təyin edildi.

1994-cu il aprelin 13-də göstərdiyi böyük hünər və şücaətdən sonra Nazim Cəbrayılov vaxtından əvvəl kapitan rütbəsinə təqdim olundu. Ancaq bu rütbəni daşımaq ona qismət olmadı, Bu haqda əmr faciə baş verdikdən sonra gəlib hərbi hissəyə çatdı.

Nazim Cəbrayılov ağıllı hərbi təşkilatçılığı, igidliyi və cəsarəti, insanpərvərliyi, qayqıkeşliyi, səmimiyyəti, ən başlıcası isə düşmənə qarşı barışmazlığı ilə döyüş dostları arasında böyük hörmət və məhəbbət qazanmışdı. Bütün bu keyfiyyətləri nəzərə alınaraq Nazim İbrahim oğlu Cəbrayılov Azərbaycanın Milli Qəhrəmanı adına təqdim edilmişdir.

Nazim Cəbrayılovun ailəsində üç övladı - Fidan, Jalə və Orxan böyüyür.




***Əlizamin,***
***“Vətən fədailəri***
***Ağdam şəhidləri” kitabı***
***Bakı-1994-cü il***

## DƏDƏ QORQUDA BƏNZƏYƏN KİŞİNİN OĞLU

Qara bulud, elə bil, üz-gözünə kölgə salıb, bu kişinin. Dağınıq saçları, dümağ, uzun gur saqqalı Dədə Qorqudu xatırladır. Çoxlarının Ağdamda hörmət bəslədiyi, həmin kişini ilk baxışda çətin tanımaq olur. Handan-hana xatırlayırsan ki, Əlifoğlu İbrahimdir, Nazimin atası. Qabağlar duzlu söz-söhbətlərindən, səmimi baxışlarından insanın ürəyində heç olmazsa bir qığılcım düşüb qalardı. İndi isə nə üzünə baxmaq olur, nə söhbətini dinləmək. Dərhal gözləri dolur, səsi boğulur, üzünü yana çevirir. İbrahim kişi nər oğul itirib, nəvələri Fidan, Jalə və Orxan atalarını itiriblər. Üç aydan çoxdur ki, döyüş xətlərindədir. Yalnız bir şeylə təsəlli tapa bilər: oğlunun zəbt olunmuş ərazidə qalan meyidini götürüb, ata-baba qaydası ilə dəfn etmək.

***1994-cü il aprelin 13-də Ağdamın Kosalı, Cavahirli, Salahlı, Kəngərli kəndləri istiqamətində hücuma keçən düşmən baş leytenant Nazim Cəbrayılovun başçılıq etdiyi taqımın ciddi müqavimətinə rast gəlmiş, 30 döyüşçüsünü və xeyli döyüş texnikasını itirərək geri çəkilməyə məcbur olmuşdu.*** Lakin aprelin 18-də yenidən 5 tank, ZTR və xeyli canlı qüvvə ilə kəndlərimizə soxulmuşdu. Qorxmaz taqım komandiri Nazim Cəbrayılov bu dəfə də düzgün və ağıllı tədbirlər görmüş, quldurların qarşısında möhkəm sədd çəkə bilmişdi. Döyüş getdikcə şiddətləndi. Səngərdə möhkəm dayanan döyüşçülər erməni quldurlarını biçib-tökürdülər. Ancaq düşmən qüvvəsinin üstünlüyü açıqca hiss olunurdu. Onlar həm də mühasirə vəziyyəti yaratmaq istəyirdilər. Birinci taqım komandiri Nazim Cəbrayılov özü səngərdən çıxıb lap yaxınlıqdakı tankla üzbə-üz gəldi. Qumbara ilə vurub onu partlatdı. İkinci tankın qabağına atıldı. Amma....

Taqımın əsgərləri mühasirədən çıxa bildilər. Salamat

qalan döyüşçülər Nazimsizliklərinə hələ də inanmırlar.

Nazim İbrahim oğlu Cəbrayılov 1949-cu ildə Ağdam şəhərində anadan olmuşdur. Şəhərin bir nömrəli orta məktəbini, sonra isə Azərbaycan Dövlət Xalq Təsərrüfatı (indiki İqtisad) İnstitutunu bitirmişdir. Əmtəəşünaslıq ixtisası qazansa da təyinatını Aşqabad şəhər milis idarəsinə vermişdilər.

Nazim Türkmənistanda iki il işlədi. Ona baş leytenant rütbəsi verildi. Kalininqrada iki illik milis məktəbinə göndərildi. İkinci ixtisas diplomu da aldı. Aşqabada qayıtmadı, Vətənə gəldi. Ağdam avtomobil dəstəsində işlədi.

Ağdam xəyanətin qurbanı olan günlərdə Nazim də silaha sarıldı. Qərvənd də yaradılan könüllülər batalyonuna yazıldı. Batalyon Müdafiə Nazirliyi tərkibinə keçəndən sonra Nazim Cəbrayılov taqım komandiri təyin edildi. O, vaxtından əvvəl kapitan rütbəsinə təqdim olunmuşdu. Ancaq bu rütbəni daşımaq isə qismət olmadı. Bu haqda əmr hərbi hissəyə faciə baş verdikdən sonra çatdı.

Nazim Cabrayılov hərbi təşgilatçılığı, hünəri və cəsarəti, ən başlıcası isə düşmənə qarşı barışmazlığı ilə döyüş dostları arasında böyük hörmət qazanmışdı. Bu keyfiyyətləri nəzərə alınmaqla o, Azərbaycanın Milli Qəhrəmanı adına təqdim edilmişdir.

Hələlik İbrahim kişi oğlunun haqqında eşitdikləri və oxuduqları ilə təskinlik tapır. Mən son günlər İbrahim kişi ilə daha çox şəhidlərin yas yerlərində görüşürəm. Dağ boyda dərdi olan kişi başqalarının dərdinə də şərik çıxır. Ancaq hiss edirəm ki, içində dəhşətli bir yanğı var. Çaylarla söndürülməyəcək bir yanğı. Səbrli ol deyirəm, - İbrahim kişi, səbrli. ol! Nazimin qanı yerdə qalmayacaqdır!

***Famil MEHDİ,***
***"Xalq qəzeti"***
***14.10.1994***

## ŞAXTA VURMUŞ ÇİÇƏKLƏR

Ağdam şəhərinin 20 Yanvar küçəsində dünyaya göz açmışdı. Şəhər 1 №-li orta məktəbini, sonra isə Xalq Təsərrüfatı İnsitutunu bitirmişdi. İqdisadçı idi.

Yüzlərlə ağdamlı gənc kimi Nazim də torpağının toxunulmazlığı uğrunda vuruşurdu. Baş leytenant Nazim Cəbrayılov “N”№-li Ağdam batalyonunun ikinci rotasında komandir idi. Cəsur insan, ağıllı iqtisadçı, yaxşı, bacarıqlı təşkilatçı, qayğıkeş yoldaş olan Nazim batalyonda, rotada döyüşçülərin sevimlisi idi.

***Onun rotası Göytəpə, Qarağaclar, Cavahirli, Salahlı kəndləri uğrunda gedən döyüşlərdə misilsiz igidliklər göstərdi. 30 erməni öldürüb, beş tank və bir BTR vurdu. Rota bu şücaətə görə komandanlıq tərəfindən təşəkkür aldı. Nazim dəfələrlə efirdə çıxış edərək Azərbaycan oğullarını düşməni məhv edənə qədər döyüşə çağırırdı.***

1994-cü il aprel ayının 18-də ermənilər Cavahirli kəndində növbəti hücüma keçdi. Düşmən çox böyük qüvvə ilə həmlə edirdi. Nazimin rotası xeyli erməni qırdı, bir tank vurdu. Düşmən bu itkiyə baxmayaraq irəliləyirdi. Öndə gələn bir tank artıq bizim səngərlərə yaxınlaşırdı. Vəziyyət elə ağır idi ki, itirilən hər an böyük fəlakətə, səngərdəki əsgərlərimizin qırğınına səbəb ola bilərdi... Tərəddüd etmədi Nazim. Tank əleyhinə iki qumbaranı bədəninə sarıyıb nərildəyə-nərildəyə irəliləyən düşmən tankının qabağına süründü. Tank guruldayıb alovlandı, yerində qaldı. Bu vəziyyəti gözləməyən düşmən tankları geriyə üz tutub qaçmağa başladı. Alovlanmış tankdan düşməyə çalışan

düşmən əsgərlərinin ayaqları torpağımıza dəymədi. Döyüşçülərimizin sərrast atəşi onları alovlanan tankdan asılı qoydu...

Elimizin qeyrətli oğlu Nazim Cavahirli kəndi uğrunda gedən bu ağır döyüşün qurbanı oldu.

*Məcrasından aşıb-daşdı bu çaylar,*
*Kür-Arazla qucaqlaşdı bu çaylar.*
*Seli, suyu gözlərimdən alırdı,*
*Gözlərimlə bir sirdaşdı bu çaylar.*

(Həyat yoldaşının dilindən)

***Qara Bəndalı oğlu (Hüseynov),***
***Ağdam RXTŞ-nin müdiri***
***21.11.1994-cü il***
***"Şaxta vurmuş çiçəklər"***
***kitabından***



## ADINA SADİQ QALDI NAZİM

Nazim Cabrayılovla mart ayının ortalarında görüşmüşdük. Cəvahirli kəndində düşmənlə üzbəüz postda durmuşdular. Orta məktəbdə bir oxumuşduq. Uzun ayrılıqdan sonra səngərdə qarşılaşmışdıq: o, rota komandiri, mən hərbi müxbir kimi. Əvvəlcə məni tanımadı (illər öz işini görür). Amma mən onu dərhal tanımışdım. Səngərə bitişik şəkildə qazıb düzəltdikləri torpaq stolun ətrafındakı "kreslolarda" oturub xeyli söhbət etdik. Ürəyi dolu idi və düşündüklərinin hamısını söyləməyə tələsirdi:

***- Bizdəki uşaqların əksəriyyəti təcrübəlidir, neçə illərdir vuruşurlar, -*** *dedi.* ***- Ağdam gedəndən sonra gəlib qoşulanlar da çoxdur. Torpaq bizimdir, onu da biz qorumalıyıq. Bu uşaqları torpağa məhəbbət və düşmənə nifrət hissi birləşdirir. Özü də Azərbaycan torpağından erməniləri tamam təmizləyənə qədər silahı yerə qoymamağa and içmişik.***

***- Ermənidən qorxmursunuz ki? -*** *deyə, zarafatla sual vermişdim. Sualımı ciddi qarşılayaraq:*

***- Özün bilirsən ki, erməniləri həmişə qapımızda işlədib, muzdunu vermişik. İndi üzümüzə ağ olmalarının bir günahı özümüzdədir, -*** *demişdi.* ***- Amma "səhvimizi" də özümüz düzəldəcəyik. İndi tülkülənməyə başlayıblar. Xocalı faciəsini görən ağdamlılar onu nə unudar, nə də bağışlar. Yolumuz Xankəndinə sarıdır.***

Düzən sahədə, düşmənlə göz-gözə qazılan səngərdə zirehli texnika ilə hücum olacağı təqdirdə vəziyyətin mürəkkəbləşəcəyini xatırladıb, buna hazır olub-olmadıqlarını xəbər aldım.

***- Bizimkilər tankdan qorxmurlar! -*** *deyə Nazim inamla cavab vermişdi.* ***- Müharibə ölümü nə qədər adiləşdirsə də, dostlarımızın itkisini sakit qarşılamaq mümkün deyil...***



***Döyüşdən qabaq. Nazim sağdan birincidir***

Zirehli texnika ilə hücuma keçən düşmən qüvvəcə üstün imiş. Xeyli döyüşdən sonra Nazimin rotası da geri çəkilməli olub. Komandir səngərdə qalaraq şəxsi heyətin itkisiz yeni mövqelərə keçməsinə imkan yaratmağa çalışıb. Düşmən tankının gəldiyini gördükdə onunla döyüşə atılıb. İrəli şığıyaraq qumbaraatandan iki dəfə atəş açıb. Lakin T-80 tankının qalın zirehinə təsir göstərməyib. Yaralanan komandir geriyə, səngərə sürünüb. Ağır tank səngərin üzərində bir dövrə vuraraq irəliləyib...

***Nazim Cəbrayılov şəhid olsa da, son nəfəsinədək mövqeyi tərk etməyib. Bu zarafatcıl, həyat eşqi ilə coşub-daşan zabiti hamı sevirdi. Mart ayının 2-də, həmin səngərdə 45 yaşını qeyd etmişdilər. Üç uşaq atasını könüllü surətdə nəmli səngərə gətirən torpaq məhəbbəti, vətəni azad***

***görmək arzusu olmuşdu. Son dəqiqələrədək öz əqidəsindən dönməyən Nazim Cəbrayılovu indi həm də qəhrəman döyüşçü kimi xatırlayırlar.***

Bir vaxtlar Vətən uğrunda şəhid gedən dostum Nazim Cəbrayılov barədə yazacağımı ağlıma belə gətirməzdim. Amma Nazimin cavan ömrünü qurban verdiyi Qarabağın nə vaxtsa düşməndən təmizlənəcəyinə qəti əminəm.

Görüş zamanı fotomüxbirimizin lentə aldığı şəklidə dərc edirik.

*Bəxtiyar Sadıqov,*
*"Azərbaycan" qəzeti,12.05.1994*
*"İnsan və zaman" kitabı,2001*



## ARXAYA BAX İGİD, ARXADA VƏTƏNDİ!

*And olsun Günəşə, ey nurlu səhər!..*
*Siz ey od içində yanan körpələr!*
*And olsun müqəddəs məzarınıza!*
*Yerə batdısa da arzu-kamınız,*
*Yerdə qalmayacaq intiqamınız!*
**S.Vurğun**

Tarixlərin sınağında bərkə-boşa düşdükcə dosta məhəbbəti, düşmənə nifrəti sonsuzlaşıb Cavanşir övladlarının. Müxənnətdən, namərddən min bir xəyanət gördükcə üzü dönməz, qəddi əyilməz olub. Vətənin bütün qeyrətli oğulları kimi Nazimi də hər şeydən çox incidən və ağrıdan ordudakı satqınlıq, xəyanət yolu ilə torpaqların düşmənə verilməsi oldu. Belə şərəfsizliklə, haqsızlıqla barışa bilməyən Nazim 1993-cü ildə cəbhəyə getdi. Qərvənddə yaradılan könüllülər batalyonuna yazıldı, taqım komandiri təyin edildi. Kapitan rütbəsinə təqdim olundu. Onun bir neçə uğurlu əməliyyatı düşməni lərzəyə saldı. Nazim yoldaşları ilə birlikdə torpaqlarımızı axırıncı damla qana qədər qoruyacaqlarına and içmişdilər. Andlarına da axıra qədər sadiq qaldılar.

1994-cü ilin aprelin 18-də düşmən 5 tank, 3 ZTR və xeyli canlı qüvvə ilə Ağdamın Kosalar, Cavahirli, Salahlı, Kəngərli kəndlərinə soxulmuşdular. Nazim Cəbrayılov cəsarətlə döyüşə atıldı. Ancaq düşmən qüvvəsinin üstünlüyü açıq-aydın hiss olunurdu.

Vəziyyətin ağırlığı igid döyüşçülərimizi qorxutmadı. Düşmənin hücumunun qarşısını almaq üçün bütün imkan-

lardan istifadə etdilər. Lakin düşmən geri çəkilmək fikrində deyildi. Həmlələrini hər saat artırır, döyüşçülərimiz tərəfindən müdafiə olunan kəndlərə soxulmağa cəhd edirdilər.

Nazim əlindəki qumbara ilə düşmənin qabaqda gedən tankını partlatdı. Amma düşmənin geri çəkilmək fikri yox idi. İkinci tank mövqelərimizə soxuldu. Nazim bir anlığa geri boylandı. Ucsuz-bucaqsız Vətən torpağına ötəri bir nəzər saldı. Və bu nəzərlər hardasa uzaqlarda ilişib qaldı. Yaxınlaşan düşmən tankının "hənirtisi" onu xəyaldan ayırdı. Daha fikirləşmək olmazdı. Təkcə xoş xəyaldan ayrıldığı üçün təəssüfləndi. ***Sonra əlindəki qumbaranın sırğasını qırdı. Səngərə soxulan tankın tırtılları altına atılıb - mən Vətən uğrunda şəhid oluram! - dedi. Düşmən tankı göyə sovruldu.*** Nazimin ruhu isə əbədi məşələ döndü, başımızın üstündə yanmaq, Qarabağ torpaqlarını nura qərq etmək üçün Tanrı evinə çəkildi. Bu fani dünyada özündən sonra  üç övladı yadigar qaldı.

***Xalqımızın cəngavər oğlu düşmənlə mübarizədə həyatını itirməkdən çəkinmədi. Təki murdar erməni ayaqları bu müqəddəs torpağa bir də dəyməsin.***

Tanrı hər bir insanın alın yazısına möhür vurur. Bu möhür müqəddəs möhürdü. Elə buna görə də, "Yazıya pozu yoxdur", - deyirlər. Və bu dünyada heç kəs tale yazısından qaça bilmir. Nazim Cəbrayılovun da taleyinə Vətən yolunda şəhid olmaq yazılıbmış.

Tarix sübut edir ki, qəhrəmanlar unudulmur, əbədi yaşamaq üçün əməlləri, hərəkətləri ilə bizlərə örnək olurlar. Nazim də Azərbaycan torpaqları, onun suverenliyi yolunda şəhid olduğuna görə heç vaxt unudulmayacaq.

Hər il mart ayının 2-də cəsur döyüşçu Nazim Cəbrayı-

lovun anadan olduğu gündür. Həyat yoldaşı Rəhilə xanım, övladları Fidan, Jalə və Orxan onun ad gününü hər il qeyd edirlər. Amma, Nazimsiz...

Günlər keçəcək Qarabağ düşmən əsarətindən azad ediləcək. Ürəyini torpaq yolunda sipər etmiş igid eloğlumuzun adı isə qəhrəmanlıq tariximizə qızıl hərflərlə yazılacaq.

***Şəlalə İfratqızı,***
***"Ədalət" qəzeti***
***03.03.1998***



***Ağdamda erməni vandalzminin qurbanı olan tikililər***

## YAŞASAYDI, 50 YAŞI OLARDI!

Müharibənin davam etdiyi on bir ildə çox şey itirmişik. Yandırılan evlər, dağıdılan kəndlər, xaraba qalan qəsəbə və şəhərlər bizimdir. ***Bir neçə nəslin tikib qurduğunu qısa bir vaxtda itirmək çətindir, çox çətin. Daha dəhşətlisi isə igidlərimizin şəhid getməsi, torpaqlarımızın düşmən tapdağında qalmasıdır. Sinəsini Vətən uğrunda sipərə çevirən, isti yorğan-döşəyini nəm səngərlərə dəyişən, gənc ömrünü torpaqların müdafiəsinə qurban verən şəhidlərimizi hər zaman hörmətlə anır, qəlb ağrısı ilə əziz xatirələri qarşısında baş əyirik.***

Nazim Cəbrayılov da Vətənin şəhid övladlarındandır və əgər yaşasaydı, martın 2-sində 50 yaşı tamam olacaqdı. Heyhat! Amansız müharibə yüzlərlə yaşıdı kimi Nazimin də gənc ömrünü yarıda qırdı, neçə-neçə arzusunu ürəyində qoydu. Ən böyük arzularından biri isə doğma Qarabağı murdar ləpirlərdən təmizlənmiş, müstəqil Azərbaycanı isə azad və bütöv görmək idi.

Müharibə başlayanda Nazim Cəbrayılov polis sıralarında xidmət edirdi. Ürəyi isə Vətən torpağının müdafiəçilərinin yanındaydı. Müntəzəm olaraq hərbi əməliyyatların gedişini izləyir, cəbhə xəttindən xəbər tuturdu. O vaxt cəbhə xətti Ağdamdan keçdiyindən Nazimin nigarançılığı daha çox idi. Azərbaycanın müstəqilliyini gözü götürməyənlərin respublikanı təkləməsi, ölkə daxilində hakimiyyət uğrunda arasıkəsilməz mübarizə getməsi, milli ordu yaradılmasının uzadılması - bütün bunlar torpaqların etibarlı müdafiəsində çətinliklər yaradırdı.

- Xocalı müsibəti Nazimi bərk sarsıtmışdı, - deyə həyat

yoldaşı Rəhilə xanım qəhərini boğaraq söhbətə başlayır. - Özünü qoymaqa yer tapmırdı. Mühasirədən çıxaraq ətraf meşələrdə gizlənən xocalıların tapılıb Ağdama gətirilməsində döyüşçülərə kömək etdi. Qaçqınlardan bir neçəsini evimizə gətirdi. Onlara isti paltar verib bir neçə gün saxladıq da... İşgəncə ilə öldürülmüş adamların meyitlərini görəndən sonra tez-tez kövrəlirdi. Ağdamın düşmən əlinə keçməsi isə Nazimin hərbçi paltarı geyinərək Vətənin müdafiəçiləri sırasına qoşulması fikrini qətiləşdirdi.

Könüllülər batalyonuna yazılan Nazim Cəbrayılovun müəyyən hərbi biliyə və döyüş təcrübəsinə malik olduğunu nəzərə alaraq taqım komandiri təyin etmişdilər. Nazim və onun başçılıq etdiyi taqım Kosalar, Cavahirli, Salahlı, Kəngərli və digər kəndlərin müdafiəsində igidliklə iştirak etmişdi. Döyüş bölgəsində orta məktəb yoldaşım Nazimlə mən də görüşmüşdüm. Nazim uşaqlıqdan mehriban, güləruz və zarafatcıl idi. Silah yoldaşları onu bu xasiyyətinə, adamları ruhlandırmaq, ürəkləndirmək məharətinə görə də çox sevirdilər. Müharibə onun xasiyyətinə müəyyən sərt cizgilər də əlavə etmişdi. Döyüş vaxtı qəzəbli və qorxmaz, tələbkar olurdu. Ölümün gözünə dik baxmağı bacarır, düşmən qabağından qaçmağı özünə sığışdırmırdı. Görüş vaxtı xeyli söhbətləşmişdik.

- Bizdəki uşaqların əksəriyyəti təcrübəlidir, neçə illərdir ki, vuruşurlar, - demişdi. - Torpaq bizimdir, onu da biz qorumalıyıq. Bu uşaqları torpağa məhəbbət və düşmənə nifrət hissi birləşdirir. Özü də Azərbaycan torpağını ermənilərdən tamam təmizləməyənə qədər silahı yerə qoymamağa and içmişik.

Nazim öz andına axıradək sadiq qaldı, son nəfəsinə qə-

dər düşmənlə vuruşdu, qəhrəmanlıqla həlak oldu. Son döyüş isə Cavahirli kəndi ətrafında baş vermişdi.

1994-cü ilin aprel ayının 13-də düşmən zirehli texnika və xeyli əsgərlə Nazimgilin qoruduğu mövqelərə hücuma keçdilər. Əlverişli mövqedə dayanaraq igidliklə vuruşan əsgərlərimiz ağır zərbə vuraraq onu geri oturtdular. Bundan qəzəblənən düşmən yeni qüvvə toplayaraq aprelin 18-də ikinci dəfə hücum edir. Əsgərlərimiz hücuma hazır olsalar da, zirehli texnika və canlı qüvvə sarıdan düşmən daha üstün idi. Xeyli döyüşdən sonra Nazimin taqımı da geri çəkilməli olur. Bu məqamda komandir özü səngərdə qalaraq şəxsi heyətin itkisiz geri çəkilməsinə şərait yaradır. Düşmən tanklarından biri düz onun üstünə gəlir. Nazim onu yaxına buraxaraq qumbara atanın sərrast atəşi ilə susdurur. Bunu görən düşmənin daha bir T-80 tankı da həmin istiqamətə yönəlir. Qumbaraatanın atəşi bu dəfə tankın zirehinə təsir göstərmir. Cəsur komandir son qərarını qəbul edir. Tank əleyhinə qumbaranı əlinə alaraq özünü tırtılların altına atır...

***Tabur komandiri R. Dəmirov Nazimin atası İbrahim kişiyə göndərdiyi məktubda yazır: "Nazim hadisələrin gedişini əvvəlcədən duyub, lazımı tədbirlər görmək qabiliyyətinə malik, tabeliyində olan heyətə qarşı qayğıkeş və tələbkar komandir idi. O, suveren Azərbaycanın dövlət mənafeyini müqəddəs tutaraq, torpaqlarımızın bütövlüyü uğrunda öz zabit borcunu layiqincə yerinə yetirmişdir".***

Nazimin üç yadigarı qalıb. Fidan laborant işləyir, Jalə isə BDU-nun üçüncü kurs tələbəsidir. ***Litseydə təhsil alan 14 yaşlı Orxan isə böyüyəndə atasının yolunu davam etdirəcəyinə söz verib. "Mən bilirəm torpağı necə azad et-***

***mək, düşməni necə gəbərtmək olar" - deyir.*** İgid ataları ilə fəxr edib onlara oxşamağa çalışan yeniyetmələr həm də müstəqil dövlətimizin gələcəyidir.

Nazim və qızı Fidan eyni gündə - 2 martda anadan olublar. Biz bu sevincli və kədərli gündə Fidan balamızı təbrik edir, igid komandir Nazim Cəbrayılova isə Allahdan rəhmət diləyirik!

***Bəxtiyar Sadıqov,***
***"Azərbaycan" qəzeti***
***02.03.1999-cu il***

***Müəllifdən:***



*Bəxtiyar Sadıqov*

***Dəyərli oxucularım! Yeri gəlmişkən diqqətinizi bir məsələyə cəlb etmək istərdim. Respublikanın əməkdar jurnalisti, "Qızıl qələm" mükafatı laureatı, neçə-neçə kitabların müəllifi Bəxtiyar Sadıqov Qarabağ hadisələri başlayandan həmişə cəbhə xəttində olur, qızğın döyüş gedən yerlərdə əsgərlərin vəziyyəti ilə tanış olur, müsahibələr aparırdı. Belə günlərin birində - 1994-cü ilin mart ayının ortalarında, o, cəbhədə düşmənlə üzbəüz postda dayanan Nazim Cəbrayılovla rastlaşır. Səngərdə qarşılaşan rota komandiri ilə hərbi müxbirin görüşü və müsahibəsi o za-***

*man qəzetlərdə öz əksini tapmışdı. O hələ Nazimin sağlığında bu igid komandirin döyüş yolunu işıqlandırmış, onun qorxmazlığını, cəsartini ön plana çəkmişdi. Yazısında üç uşaq atasını könüllü surətdə nəmli səngərə gətirən hansı ali hisslərdir sualına özu də cavab vermişdi: Torpaq məhəbbəti, Vətəni azad görmək arzusu! Həyatının son anına qədər əqidəsindən dönməyən Nazim Cəbrayılovu Bəxtiyar Sadıqov yazılarında həm qəhrəman döyüşçü, həm orta məktəb yoldaşım, dostum adlandırırdı.*

*Biz - Nazimin ailə üzvləri, onun haqqında qələmə alınan dəyərli yazıların müəllifini uzun müddət axtardıq. Sonralar Qarabağdan reportaj aparan jurnalistin adını titrlərdə oxuduq, belə demək mümkünsə, onu tapdıq. Müxbirlə görüşmək arzusuyla redaksiyaya üz tutduq. Nazimi ona xas olan mehribanlıq, gülərüzlük, zarafatcıllıq, döyüşçüləri ruhlandırmaq, ürəkləndirmək kimi məziyyətləri ilə xalqına təqdim edən, tanıdan bu jurnalistə "Çox sağ olun!" deyib, təşəkkür etmək istədik.*

*Ölümlə üzbəüz dayanan Nazim və onun kimi bir çox Vətən oğullarının şəxsiyyətini, həyatını, döyüş yolunu işıqlandırmaqla onların adlarının döyüş tariximizin salnaməsinə həkk edən bir insanın, jurnalistin özüylə nəhayət ki, yaxından tanış olduq, Nazim haqqında ətraflı söhbət etdik.*

*Əslində 1992-94-cü illərdə - amansız döyüşlər gedən o dövrdə ön xətdə döyüşçülər arasında olmaq, onların döyüş yolunu izləmək, bəzən də bu döyüşlərin bilavasitə iştirakçısına çevrilmək özü də böyük vətənpərvərlik idi. Şəhid olan oğulların qəhrəmanlıqları məhz belə yazılarda təsdiqlənib. Bu qəbildən olan yazıların müəllifi, qələmi ilə cəbhə yollarını keçmiş, səngərdən səngərə keçən, mətbu-*

*at səhifələrində imzasına tez-tez rast gədliyimiz hərbi müxbir Bəxtiyar Sadıqov da öz cəbhəsinin müsəlləh əsgəri idi.*

*Bu gün Respublikamızın rəsmi dövlət qəzeti olan "Azərbaycan" qəzetinin baş redaktoru, həmçinin millət vəkili Bəxtiyar müəllimə Cəbrayılovlar ailəsi bir daha təşəkkür edir, cansağlığı arzulayır.*

*P.S. Nazim Cəbrayılovun ad və anım gunləri mütəmadi olaraq "Azərbaycan" qəzetində qeyd edilir, oxuculara çatdırılır.*




AĞDAM

## RƏSMİ SURƏTDƏ MİLLİ QƏHRƏMAN ADI ALMAYAN XALQ QƏHRƏMANI

Nazim Cəbrayılov 1949-cu ildə Ağdamda dünyaya göz açıb. Rayonda hamı onu "Əlifoğlu" kimi tanıyırdı. Şəhər 1 saylı orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunda təhsil alıb, əmtəəşünaslıq ixtisasına yiyələnmişdi. Türkmənistanın paytaxtı Aşqabad şəhər milis idarəsiiə göndərilmişdi. Daha sonra Kalininqrad milis məktəbində iki illik kursda ixtisasını artırıb, yenidən əvvəlki iş yerinə qayıtmışdı.

Nazim Vətəndən uzaqda yaşayırdı, maddi cəhətdən heç nəyə ehtiyacı yox idi. Onun bircə Vətənə, torpağa, doğmalara ehtiyacı tükənməz idi... Doğma elini-obasını, Şuşasını, Ağdamını canından çox sevirdi. "Şuşanın dağları" mahnısının vurğunu idi. Bəzən özü də onu sevə-sevə zümzümə edərdi. El məhəbbəti, el istəyi onun içindən gəlirdi. Bu duyğu, bu hiss onun canında, qanında Xanqızının bulağı kimi çağlayardı, Qarqar təki ləpələnərdi.

Qarabağ hadisələri başlayan gündən Nazimin gecəsi-gündüzü yox idi. Yuxusu ərşə çəkilmişdi, heç nə gözünə görünmürdü. Bu narahatçılıq onu doğma Qarabağa çəkib gətirdi... Türkmənistandan Azərbaycana dönüşünü Nazim belə xatırlayırdı: "Bir azərbaycanlı, bir qarabağlı kimi o vaxtlar Aşqabadda qalıb işləyə bilməzdim. Vətənin ağır günləri idi, torpaqlarımızda qanlı döyüşlər gedirdi. Bir vətən oğlu kimi həmin vaxt mən səngərdə olmalı idim"...

Elə o vaxtlardan Əlifoğlunun səsi döyüş bölgələrindən gəldi. Təcrübəli bir zabit kimi müharibənin ən qaynar nöqtələrində şücaət göstərirdi, düşmənə zərbələr endirir, can-

lı qüvvəsini və zirehli texnikasını aradan götürürdü. Axıra qədər də ön cəbhədə oldu, döyüşçüləri ruhlandırdı. Bacarıqlı döyüşçü Xocalı faciəsi zamanı azğın düşmən əlində həlak olanların və yaralıların daşınmasında əlindən gələni əsirgəmədi.

Adı gələndə ermənilərin tük saldığı Ağdamın xəyanət nəticəsində boşaldılması Nazimi tamam sarsıtdı. 1993-cü ilin məlum 23 iyul hadisələrinə qədər könüllülərdən ibarət batalyonun tərkibində döyuşən "Əlifoğlu"nun döyüşdüyü hərbi hissə Müdafiə Nazirliyinin tərkibinə keçəndən sonra, baş leytenant Nazim Cəbrayılov Nazirliyin əmri ilə taqım komandiri təyin olunur.

Döyüşçülər arasında "Əlifoğlu" insanpərvərliyi, mehribanlığı, səmimiliyi və düşmənə qarşı barışmazlığı ilə həmişə seçilərdi. Tabeliyindəki əsgərləri öz balası kimi sevirdi. İlk növbədə əsgərlərin geyiminə, yeməyinə fikir verərdi. "Əlifoğlu" deyirdi ki, hərbi sursatı olmayan, toqqasının altı boş olan əsgər heç vaxt döyüşə ürəyincə gedə bilməz. Ona görə də hətta aylıq maaşını da əsgərlərə xərcləyirdi. Təki əsgərlərimiz döyüşə bilsinlər, - deyirdi. "Əlifoğlu"nun ən ümdə bir arzusu var idi. Tezliklə komandir olduğu tağımla doğulub ərsəyə çatdığı Ağdam şəhərini, Şuşanı azğın erməni işğalçı ordusundan azad etsin. Qələbəmizə böyük inamı vardı Nazim "Əlifoğlu"nun!

1994-cü il aprel ayının 13-də Ağdamın Kosalı, Cavahirli, Salahlı, Kəngərli kəndləri istiqamətində hücuma geçən erməni silahlı birləşmələri Nazim Cəbrayılovun başçılıq etdiyi taqımın döyüşçuləri ilə qarşı-qarşıya gəldi. Düşmən bu döyüşdə 30 nəfərdən çox piyada və xeyli miqdarda texnika itirərək, geri çəkilməyə məcbur oldu. Bu döyüşdə

təcrübəli komandir Nazim Əlifoğlu göstərdiyi böyük hünər və şücaətə görə vaxtından əvvəl kapitan rütbəsinə təqdim olunsa da, bu rütbəni daşımaq ona qismət olmadı. Nazimin döyüş yolundan çox danışmaq olar. Onun hər bir döyüşü yadda qalan olub. Amma 1994-cü il 18 aprel döyüşü həm Nazim Əlifoğlu üçün, həm də hamımız üçün daha yadda qalandır.

Bu, onun getdiyi son döyüşü oldu...

Quduzlaşmış ermənilər ruslarla birləşib 5 tank, 3 BTR və xeyli canlı qüvvə ilə Cavahirli, Salahlı və Kəngərli kəndləri istiqamətində qəflətən hücuma keçdilər. İgid və qorxmaz taqım komandiri bu dəfə də düzgün və ağıllı tədbirlər görərək çəsur döyüşçülərindən düşmənlər qarşısında möhkəm sədd çəkdi. Onlar and içdilər: “Düşmən qarşısında bir addım da olsa geri çəkilməyəcəklər”.

Döyüş getdikçə şiddətlənirdi. Müdafiə xəttində möhkəm dayanmış döyüşçülərimiz Nazim Əlifoğlunun döyüş hayqırtısından daha da ruhlanır, erməni əsgərlərini avtomatdan açdıqları güllə ilə pencər kimi biçib yerə sərirdilər. Lakin düşmən qüvvəsinin üstünlüyü açıq-aydın hiss olunurdu. Onlar həm də mühasirə vəziyyəti yaratmaq istəyirdilər.

Zirehli tanklar sürətlə irəliləyirdi. Döyüşçülərimizi dəhşətə gətirən bu idi ki, atılan mərmilər tanklara təsir etmir, elə bil qırılıb yerə duşürdü. Nazim Əlifoğlu başa düşdü ki, bunlar mərmi təsir etməyən, rusların bəxş etdiyi son modelli xüsusi tanklardır. Fəlakət yaxınlaşırdı və heç kim səngərdən çıxmaq istəmirdi.

Təcili tədbir görmək lazım idi. Taqım komandiri Nazim Cəbrayılov özü birinci olaraq səngərdən çıxıb lap yaxında-

kı tankla üzbəuz gəldi. Və qumbara ilə onu partlatdı. Geriyə yol yox idi. Sonra sonuncu qumbara ilə ikinci tankın altına atıldı. Düşmən tankını susdurmaqla Nazim özü də qəhrəmanlıqla həlak oldu. Beləliklə, döyüşçülərimiz mühasirədən çıxdılar. Nazimlə çiyin-çiyinə döyüşən Habil Tağıyev öz komandirinin son döyüşdəki igidliyindən belə danışdı:

***- Düşmən texnikası geri çəkilməyə bizə aman vermirdi. Komandir Nazim Cəbrayılov bu barədə bizimkilərə məlumat versə də, arxadan bizə heç bir kömək gəlmədi. Düşmən tankları artıq səngərə çatmışdı. Komandir bizə ferma tərəfə çəkilməyi əmr etdi, özü isə qumbaranı götürüb düşmən tankının altına atılaraq onu məhv etdi.***

***Döyüşçü dostu Tahir Müsayevin dediklərindən: "Nazim Cəbrayılov bizə geri çəkilməyi əmr edəndə onun da bizimlə getməsini xahiş etdik. O isə bizə qəti olaraq son əmrini bildirdi. Biz döyüşə-döyüşə fermaya çəkildik. Nazim və onun müavini İlqar isə qumbarını götürüb tanklara tərəf irəlilədilər. Bu, onların son cəhdləri idi".***

Torpaqlarımızın bütövlüyü uğrunda göstərdiyi igidlik və şücaətə görə Nazim Cəbrayılovun Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülməsi üçün 1994-cü il aprelin 18-də briqada komandanlığı tərəfindən Respublika Müdafiə Nazirliyinə təqdimat göndərildi. Eyni zamanda 1994-cü ilin may ayının 10-da Ağdam rayon İcra Hakimiyyətinin başçısı Nazim Cəbrayılova Milli Qəhrəman adı verilməsi üçün 153 saylı məktubla Müdafiə Nazirliyinə müraciət etsə də, bu günə kimi heç bir nəticəsi olmamışdır.

Bu il mart ayının 2-də Nazim Cəbrayılovun 50 yaşı tamam olur. Onun yubileyini Nazimsiz keçirəçəyik. Nazim aramızda olmasa da qəlbimizdə həmişə əbədi olaraq Milli Qəhrəman adı ilə yaşayacaq. Heç vaxt Vətən oğulları, xalq arasında qəhrəman adını daşıyan oğullar unudulmur.

İllər keçəcək, qərinələr ötəcək, qan yaddaşımızda Nazim kimi qəhrəmanlarımız əbədi yaşayacaq.

*Qələndər Xaçınçaylı,*
*"Ədalət" qəzeti*
*02.03.1999*



***Dünyada yeganə olan Ağdamda çörək muzeyi də bu gün erməni vandalzminin qurbanı olub***

## VAR MƏNİM

*Dostum döyüş komandiri baş leytenant*
*Nazim Cəbrayılova həsr olunur*

**Xəyalım dolanır bütün elləri,**
**Tapmıram elimdə bitən gülləri.**
**Görmürəm dərədən axan selləri,**
**Tənələr qoynunda gəmim var mənim.**

**Dağılıb, talanıb viran olubdu,**
**Qarabağda xarı-bülbül solubdu.**
**Əlim yetməz oldu, gözüm dolubdu.**
**Hələ biçilməmiş zəmim var mənim.**

**Nazim, ruhun dağlarımda dolanır**
**Şəhidlər səninlə oda qalanır.**
**Göz görür, ağıl kəsir, el talanır,**
**Qarabağ boyda qəmim var mənim.**

**Qoşa gəzdiyimiz günlər olaydı,**
**Qələbə ruhunda izlər qalaydı,**
**Allah canımızı sonra alaydı**
**Qəlbimi yandıran dəmim var mənim.**

**Abdal Qəhrəmanam, elə bağlıyam,**
**Şəhidlər dərdindən sinə dağlıyam.**
**Başı bəlalıyam, Qarabağlıyam,**
**Zilimi göynədən bəmim var mənim.**

*Abdal Qəhrəman*
*02.03.1999-cu il*

*Atın məni tank altına -*
*Qarşımdakı bir körpəni xilas edim!*
*Səni, onu xilas edim!*

**Məmməd Araz**

**Bu gün Nazim Cəbrayılovun xatirə günüdür. Qarabağda hamının tanıyıb hörmət etdiyi Nazim Cəbrayılov Qarabağ torpağının azadlığı uğrunda öz şirin canından keçib, şəhidlik zirvəsinə ucalmışdır. Artıq həmin gündən 5 il keçir. 1994-1995, yaşasaydı, 50 yaşı olardı! İllər keçəcək qərinələr ötəcək, qan yaddaşımızda Nazim kimi qəhrəmanımız əbədi yaşayacaq.**

## HƏSRƏT ÇƏLƏNGİ

*Sevimlimiz, canımızdan çox istədiyimiz,*
*dağ vüqarlı Atamız Nazim Cəbrayılova*
*ithaf edirik*

**Anam tək vüqarlı, Atam kimi mərd,**
**Bir insan olaydıq kaş ki, həyatda.**
**Düşmənin bağrını qana döndərən,**
**Atam tək ad alıb, qalaydıq yadda.**

**Atam qəlbimizdə yaşar, yoxsa da,**
**Heç kəsi onun tək sevə bilmirik.**
**Həsrəti yandırıb oda yaxsa da,**
**Anamçün susuruq, qəlbən gülmürük.**

**Atasız övladlar arxasız yaşar,**
**Ana dayağımız, həmdəmimizdir.**
**Bir istək bizimlə hey coşar, daşar -**
**Atam hər bir zaman gərəyimizdir.**

**Anama borcluyuq biz bü cahanda,**
**Bizim nazımızı nə qədər çəkib.**
**Ötən günümüzə nəzər salanda,**
**Deyirik, analar gör nələr çəkib.**

**Nə qədər çəkiblər eh, əziyyəti...**
**Analar atadır bizə, bilmirik.**
**Kaş heç kəs çəkməsin ata həsrəti,**
**Bu dərdi biz çəkdik.... dözə bilmirik.**

**Ata da, ana da bizimçün əziz,**
**Anamı sevirik biz Atam kimi,**
**Ancaq bir söz deyək, onu biləsiz,**
**Vətəni  sevirik Atamız  kimi.**

***Övladları - Fidan, Jalə  və Orxan***
***02.03.1999***



## ƏLLİ YAŞLI ŞƏHİD

Nazimi heç vaxt görməmişəm. Amma haqqında oxuduqlarım məndə belə bir inam yaradıb ki, Nazimi çoxdan tanıyıram. Həmişə də odun, alovun içində...

Nazim Cəbrayılov Qarabağda doğulmuşdu, Qarabağda da şəhid oldu. Lakin özündən sonra Azərbaycan adlı məmləkətdə, onun qədirbilən xalqının qəlbində elə bir iz qoyub getdi ki, bu iz, bu zirvə çoxları üçün əlçatmaz olacaq.



***Nazim döyüşçü yoldaşları ilə. 1993-cü il***

Bu əlçatmazlıq bir anın içində olsa da illərlə, əsrlərlə ölçüləcək, Nazimsevərlərin qəlbinə kədər qarışıq bir qürur, fərəh dolduracaq.

Vətən sevgisi, Vətən həsrəti, torpaq məhəbbəti qəlbinə

hakim kəsilən Nazimin bu ilin mart ayının 2-də 50 yaşı tamam oldu. Nazimsiz Nazimin ad gününə toplaşanlar həsrətlə, həm də daxili bir qürurla onu yad etdilər. Həyat yoldaşı, qızı, yaxın qohumları, cəbhə dostları Nazimin tarixə düşən igidliyini, qəhrəmanlığını qeyd etdilər.

Biz də "Ədalət"in səhifələrindən birində Nazimi yad etdik, xalqın yaddaşında Milli Qəhrəman kimi yaşayan, hünəri bir nəslə örnək olan qeyrətli eloğlumuzun doğum günündən şəhid gününə qədər olan şimşək ömrünə işıq tutduq... Sonra istədik ki, Nazimin dostları ilə birlikdə olan şəklini də verək ki, onu qəlbən sevənlərə bir təsəlli olsun, amma səhvən Nazimin şəkli əvəzinə onun silahdaşlarından birinin şəkli gedib. Bu təsadüfdü, alın yazısıdı, ya bizim səhlənkarlığımızdı, bilmirəm. Bildiyim təkcə odur ki, Nazim Cəbrayılov kimi oğullar ürəklərdə elə qərar tutublar ki, onu heç kimlə səhv salmaq mümkün deyil.

Onun qəhrəmanlığı haqqında yazılan isə kağız üzərindən silinsə də ürəklərdən silinməyəcək. Çünki bu sətirlər qanla yazılıb, qanla yoğrulub və nə vaxtsa göyərəcək, Nazimin arzularına dönüb Qarabağda, bütün Azərbaycanda bitəcək.

***ASİF,***
***"Ədalət" qəzeti***
***04.03.1999***

## ÜNVANI MƏLUM OLMAYAN MƏKTUB

Redaksiyanın iş otağına bir qadın daxil oldu. Döyüş bölgələrindən yaxşı tanıdığım Nazim Cəbrayılovun həyat yoldaşı idi. Adı Rəhilə, soyadı Cəbrayılovadır. Ali təhsilli müəllimədir. Şuşada anadan olub. Üç uşaq anasıdır. Doqquz ildir ki, övladlarını atasız böyüdür. Həyat yoldaşı Nazim 1994-cü ilin aprelində Qarabağ uğrunda döyüşlərdə həlak olub... Nazimə ünvanladığı məktubu mənə verərək:

- Burada ətraflı yazmışam, - dedi. - Xahiş edirəm, vaxt tapıb oxuyasınız.

Məktubda yazılırdı: "İllərdən bəridir yolunu gözləyirik, Nazim. Niyə səsin-sorağın, hənirin yoxdur? Belə də insafsızlıq olar? Evdən çıxanda demişdin ki, tezcə qayıdacaqsan. Bəlkə yolun uzaqdır? Yüzü yüz söz deyə, vallah, heç birinə inanmıram. Sən yaşayırsan. Sən varsan. Səni məndən artıq üç balan - Fidan, Jalə, Orxan gözləyir."

***Haşiyə:*** *Nazim İbrahim oğlu Cəbrayılov 1949-cu ildə Qarabağ torpağında anadan olmuşdu. 1970-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirib göndərişlə Aşqabad şəhərində DİŞ-nin SƏDM bölməsində çalışmışdır. Xidmət sahəsində peşəkar keyfiyyətlərini nəzərə alıb, ona vaxtından əvvəl baş leytenant rütbəsi vermişdilər. Nazim işdən ayrılmadan Kaliningrad şəhərindəki iki illik milis məktəbini də yüksək qiymətlərlə başa vurmuşdu. Lakin qərib ölkələrdə qalıb işləməyə hövsələsi çatmadı. Çünki doğma Qarabağ dar gündə idi. Zaman-zaman millətimizə yarınan, yaltaqlanan ermənilərin üzündəki maska*

*yırtılmışdı: ata-baba torpaqlarımıza sahib çıxmaq həvəslərini gizlətmirdilər. Belə çətin vaxtda təbii ki, Nazim də vətənə qayıtmağı hər şeydən - rütbədən də, dinclikdən də üstün tutdu.*

Məktubdan sətirlər: "Bəd nəzərdən uzaq olsunlar, ağıllı, mərifətli balaların var. Fidan, Jalə artıq ali təhsillərini başa vurublar. Orxan bir zamanlar sən bitirdiyin Azərbaycan Dövlət İqtisad Universitetinin üçüncü kursunda oxuyur. Özüm Bakı şəhərində orta məktəbdə çalışıram. Bir sözlə, Nazim, günümüz-güzəranımız pis deyil. Təkcə sən yoxsan, əzizim. Övladlarımız, dost-tanışlarımız səni məndən soruşurlar, nə cavab verim, bilmirəm?! Ovundurmaq, yol gözləmək axı, bu qədər də olmaz?! Heç olmasa son ünvanını bilsəydim, azacıq da olsa təskinlik tapardım. Bunu da Tanrı mənə çox görüb. Bir zamanlar döyüşdüyün, vuruşduğun yerlər hələ də düşmən işğalı altındadır. Yoxsa, vallah, o yerləri qarış-qarış gəzərdim, axtarardım, soraqlardım səni. Sən ki, su deyildin buxarlanasan, ərşə çəkiləsən..."

***Haşiyə:*** *Könüllülər batalyonuna yazılan Nazim Cəbrayılovun müəyyən hərbi biliyə və döyüş təcrübəsinə malik olduğunu nəzərə alaraq taqım komandiri təyin etmişdilər. Onun başçılıq etdiyi taqım Kosalar, Cavahirli, Salahlı, Kəngərli və digər kəndlərin müdafiəsində igidliklə döyüşmüşdü. Cəbhə yoldaşları onun sərt, düşmənə qarşı amansız olduğunu bilirdilər. Eyni zamanda, Nazim yeri gələndə şux zarafatından da qalmazdı, həmişə silahdaşlarını qələbəyə ruhlandırardı. Döyüş zamanı cəsarətli və həddən artıq tələbkar idi. Ölümün gözünə dik baxmağı bacarır, düşmən qabağından qaçmağı özünə sığışdırmazdı. Bu sözlər*

*onun dilinin əzbəriymiş: "Torpaq bizimdir, onu biz qorumalıyıq. Cəbhə yoldaşlarımla məni torpağımıza məhəbbət və düşmənə qədərsiz nifrət hissi birləşdirir. Yurd yerlərimizi büsbütün ermənilərdən təmizləməyincə silahı yerə qoymamağa and içmişik. Öldü var, döndü yoxdur."*

Məktubdan sətirlər: "...Fidanı, Jaləni birtəhər sakitləşdirə, ovundura bilirəm. Doqquz ildir dözmüşəm. Daha bacarmıram. Oğlan uşağına mütləq və mütləq ata həniri, ata zəhmi lazımdır. Doğrudur, onun and yeri, güman ünvanı sənsən, sənin adındır. Amma... Bu yaxınlarda sevincək gəlib ki, bəs İqtisad Universitetində bir sıra şəhid olmuş məzunlarla yanaşı atamın da şəklini Şəhidlər guşəsindən asıblar. Uşaq həm sevinirdi ki, sən unudulmamısan, həm də qüssələnirdi ki, daha sən... Yox, dilim-ağzım qurusun, sən mütləq qayıdacaqsan. Sənin yolunu üç balandan bəlkə daha artıq qan düşmənlərimizin tapdağı altında inildəyən torpaqlarımız gözləyir."

... 1994-cü il aprel ayının 18-də Cavahirli istiqamətindən düşmənin ən müasir texnika ilə silahlanmış artilleriya birləşmələri, nəyin bahasına olursa-olsun, mövqelərimizi yarıb irəliləmək istəyirdi. Həmin vaxt Nazimin komandir olduğu taqım ön xətdə idi. Ölüm-dirim mübarizəsi gedirdi. Düşmənə layiqli cavab vermələrinə, müqavimət göstərilməsinə baxmayaraq, qüvvələrin qeyri-bərabər olduğunu hiss edən igid komandir çox itki verməmək üçün döyüşçü dostlarına geri çəkilməyi əmr etdi. Özü isə yağılarla üz-üzə qaldı. Qarşı tərəfin bir tankını partlatdıqdan sonra ikincini də susdurmaq üçün irəli getdi. Ancaq bu dəfə düşmənin sərrast atəşi onu haqladı. Son nəfəsində istəyinə çatsa da, amansız əcəl başının üstünü aldı.

İnam varsa, demək, həyat davam edir. Ölümündən sonra "Azərbaycan bayrağı" ordeni ilə təltif edilən qəhrəman döyüşçü Nazim Cəbrayılovun ailəsi əzizlərinin yoxluğuna inanmır.

Bəlkə elə buna görə də ömür-gün yoldaşı Rəhilə müəllimə ürək sözlərini yazdığı məktubu məlum olmayan ünvana ərməğan edib.

Bu ünvan onda bəlli olacaq ki, torpaqlarımız işğaldan azad ediləcək.

*"Azərbaycan" qəzeti*
*29.01.2003*


26 İYUN SİLAHLI QÜVVƏLƏR GÜNÜDÜR

Bütün peşələrdən xalq üçün, millət üçün, hər bir vətəndaş üçün, dövlət üçün ən vacib, ən dəyərli peşə milləti, xalqı, torpağı qorumaq peşəsidir. Yəni hərbi peşədir. Mənim üçün hər bir əsgər, hər bir döyüşçü, hər bir zabit Azərbaycan vətəndaşlarının hər birindən daha da qiymətlidir, daha da yüksəkdir.

Rəsmi dövlət qəzeti

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

## NAZİM İBRAHİMOĞLU ÖZÜNÜ TANKIN ALTINA ATMIŞDI Kİ, ARXAMIZDA VƏTƏN VAR!

Tarixdə məşhur Panfilovçular var. 28 nəfər olublar. Son damla qanlarınadək vuruşublar ki, arxamızda Moskvadır. 24-ü həlak olub və onların içərisində azərbaycanlı da olub.

Həmin qəhrəmanlığı Ağdamda baş leytenant Nazim Cəbrayılovun komandirlik etdiyi taqım da göstərdi. Panfilovçular tarixə düşsələr də, biz Cəbrayılovçuları tarixə sala bilmədik. Yekə-yekə danışmaqla deyil. Unuduruq qəhrəmanları. Qəhrəmanları təbliğ eləmirik. Tumançaq oxuyan müğənniləri təbliğ edirik, milləti 120 partiyaya bölən siyasətçiləri təbliğ edirik. Və sair və ilaxır.

Nazim Cəbrayılov (Onları hamı Əlifoğulları kimi tanıyır, çünki ataları İbrahim kişi Qarabağın ağsaqqallarından biriydi və hamı onu Əlifoğlu İbrahim kimi tanıyırdı.



***Nazimin valideynləri Xalidə xanım və İbrahim kişi***

Ona görə də oğlanlarını da Əlifoğlu İbrahimin oğulları kimi çağırırdılar. Nazimə də bütün Qarabağda Əlifoğlu İbrahimin oğlu Nazim deyirdilər) mühəndis idi. Müharibə başlayanda əyninə əsgər paltarı geyindi və ən ağır döyüşlərdə öz qəhrəmanlığı ilə bütün əsgərlərə nümunə göstərdi.

Əlifoğlu İbrahimin oğlu Nazimi Ağdamda davakar adam kimi tanımırdılar, zarafatcıl, həddən artıq yumor hissi olan, istədiyi adamı zarafatla "dolamaq" qabiliyyəti olan bir oğlan kimi tanıyırdılar. Amma müharibə başlayan gündən yumoru da getdi, zarafatı da. Müharibə çox papaq altda yatan oğlanları üzə çıxartdı, həmin oğlanlardan biri də Əlifoğlu İbrahimin oğlu Nazim idi.

Müharibədə insanların göz yaşı quruyur. Ən yaxın dostun belə şəhid olanda ağlaya bilmirsən. Göz yaşın içəriyə axır. Çox istedadlı şairə xanım Rəhilə İsmayıllının elə göz yaşı qədər acı olan bir misrası var:

***"Göz yaşının ən acısı içəriyə axandır"***. Bizim göz yaşlarımız da içəriyə axır. Nazimin şəhid olduğu xəbərini eşidəndə bir dost kimi hönkürüb ağlaya bilmədim, elə əlim ilə üzümü qapayıb oturdum yerə. Və bütün içim göz yaşının ən acısını daddı.

Hər bir qəhrəman öləndə, heç qəhrəman yox, hər bir əsgər öləndə elə bilirdim Ağdamın beli qırılır. Hər gün beli qırılırdı Ağdamın. Özü də neçə yerdən. İlahi, bu Ağdam nə qədər böyük dözüm və qüdrətə malik imiş. 6 min yerdən beli qırılıb, yenə də Ağdam sınmır. Sındıra bilmirlər Ağdamı. Sındıra bilmirlər ağdamlıları.

Əlifoğlu İbrahimin oğlu Nazimin şəhid olduğu xəbərini eşidəndə bir dost kimi hönkürüb ağlaya bilmədim, elə əlim ilə üzümü qapayıb oturdum yerə və bütün içim göz

yaşının ən acısını daddı. Bircə onu deyə bildim: "Ağdamın beli qırıldı. Panfilovçular. 28 nəfər idilər. 24-ü şəhid oldu: "Arxamızda Moskvadır".

Cəbrayılovçular. Onlar da 28 nəfər idilər. 26-sı şəhid oldu: "Arxamızda Vətəndir!". Çıxmadılar səngərdən. Düşmən 7-8 tankla hücuma keçmişdi. Amma 28 oğlan 2 saat idi ki, düşmənin tanklarını oturtmuşdu yerinə. Əlifoğlu İbrahimnin oğlu Nazim əsgərlərinə - Bu 28 oğlana hayqırırdı: "Öləcəyik, amma səngəri tərk etməyəcəyik. Arxamızda Vətəndir!"

***Cəbrayılovçular öldülər, səngəri tərk etmədilər, çünki arxalarında Vətən idi!***

Lap sonda Əlifoğlu İbrahimin oğlu Nazim qumbaraları götürüb özünü düşmən tankının altına atdı, bir düşmən tankını da belə partlatdı.

***Cəbrayılovçular öldülər, səngəri tərk etmədilər, çünki arxalarında Vətən idi!***

Cəbrayılovçular düşmən tanklarının tırtılları altında qaldılar. Amma səngəri tərk etmədilər, çünki arxalarında Vətən idi!

Yalnız ikicə nəfər sağ qaldı. Onlar da əsgərlərin ən cavanları idi. Son anda Nazim bu iki cavanı sursat gətirmək üçün arxaya göndərmişdi. Kim bilir bəlkə də Nazim hələ qadın gözəlliyini dadmayan bu iki cavanın, balaları yaşda olan bu iki cavanın, onunla birlikdə ölməsini istəmədi. Bilmirəm, bunu bilmirəm. Və onlardan biri öz gözləri ilə görmüşdü Nazimin özünü düşmən tankının altına atdığını. Öz gözləri ilə görmüşdü düşmən Cəbrayılovçuların səngərinə çatandan sonra tankları necə səngər boyu çəpəki sürdüklərini.

***Cəbrayılovçular öldülər, səngəri tərk etmədilər, çünki arxalarında Vətən idi!***



***Orxan Nazimoğlu hərbi xidmətdə***

Eşidirsənmi, mənim əsgər balam?! Eşidirsənmi?! Cəbrayılovçular öldülər, səngəri tərk etmədilər! Çünki arxalarında Vətən idi!

***Eşidirsənmi, mənim əsgər balam?! Sənin də arxandakı Vətəndir! O Vətən ki, dünyada ondan müqəddəs heç nə ola bilməz!***

Eşidəndə ki, möhtərəm prezidentimiz Heydər Əliyev Əlifoğlu İbrahimin oğlu Nazimi (Cəbrayılov Nazim İbrahim oğlu) "Azərbaycan Bayrağı" ordeni ilə təltif edib, elə bildim ki, o ordeni mənə veriblər, balalarına veriblər, bütün ağdamlılara veriblər. Müharibədə şəhid olan 20 min Vətən oğluna veriblər.

Eşidirsənmi, mənim əsgər balam?! Cəbrayılovçular öldülər, səngəri tərk etmədilər, çünki arxalarında Vətən idi! O Vətən ki, dünyada ondan müqəddəs heç nə ola bilməz!

***Aqil ABBAS,***
***"Ədalət" qəzeti***
***26.06.2003***

## QƏHRƏMANLIQ ZİRVƏSİ

***On il əvvəl özünü tank altına ataraq Vətən yolunda şəhid edən Nazim Cəbrayılov məhz bu zirvəyə qalxdı.***

***Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında" 24 iyun 2003-cü il tarixli fərmanı ilə baş leytenant Cəbrayılov Nazim İbrahim oğlu ölümündən sonra "Azərbaycan bayrağı" ordeninə layiq görülüb.***

Kim deyir ki, torpağın üzü soyuq olur?! Belə deyil. Həyatını Vətən uğrunda qurban verən Nazim Cəbrayılovun ölümündən on il keçəndən sonra da onun xatirəsi xalqı, dövləti üçün unudulmaz, əziz və müqəddəsdir.

Yox, torpağın üzü soyuq deyil. Belə olsa idi, 1990-cı ilin 20 Yanvar gecəsindən üzü bəri azadlıq və müstəqillik uğrunda özünü şəhid edən igidlərimizin itkisinin göynərtisi qəlbimizi hələ də belə yandırmazdı. Bəzən deyirlər: onlar üçün ağlamamalıyıq, bu, zəiflikdir. Niyə? Kövrəliriksə, deməli, unutmuruq, unuda bilmirik. Həm də göz yaşları heç də həmişə acizlik əlaməti deyil. Şəhid üçün axan göz yaşı üsyandır. O, sanki mübarizəyə və intiqama səsləyir, unutqanlığa sədd çəkir.

Nə gizlədim, Qarabağ torpağı uğrunda şəhid olan Nazim Cəbrayılovun ömür-gün yoldaşı Rəhilə xanımı daha da kövrəltməmək üçün özümü güclə saxlasam da, ondan ayrılandan sonra mən də ağladım. Elə bil, Nazimi nə vaxtsa görmüşdüm, yaxından tanımışdım. Elə bil, o mənim qardaşım idi...

Ola bilsin ki, bizlər cavan canını el və torpaq yolunda

qurban verən oğulların hamısını adbaad tanımırıq. Amma qəlbimizdə, xəyalımızda, xatirimizdə daim bir müqəddəs şəhid obrazı yaşayır. Bu, onların hər biridir!

Bax, indi, bu sətirləri yazarkən mənim üçün bütün şəhidlərin obrazı Nazim Cəbrayılovun şəxsiyyətində cəmlənib. Onu tanıyanların xatırladığına görə, mehriban, xoşxasiyyət, zarafatcıl, nikbin bir insan olub. Kiməsə kömək durmaqdan, əl tutmaqdan məmnunluq duyub. Amma varlığına həmişə qətiyyət hakim kəsilib, daxilində bir qeyrət damarı kükrəyib. Bunlar Azərbaycanın ən yaxşı oğullarına müyəssər olan keyfiyyətlərdir.

Ömürnaməsi o qədər də uzun deyil:

1949-cu il martın 2-də Ağdam rayonunda anadan olub. Vaxt gələndə yaşıdları ilə məktəbə gedib. Sonra ali məktəbə qəbul olunaraq mühəndis diplomu alıb. Bununla belə, ordu sıralarında hərbi xidmət borcunu da yerinə yetirib. Kalininqrad milis məktəbini bitirdikdən sonra Aşqabad şəhərində milis orqanlarında çalışıb.

Namərd yağı torpaqlarımıza susayanda Nazim artıq Vətəndə idi. Bir zamanlar azərbaycanlıların qapısında işləyib süfrəsinin artığını yeyən ermənilərin belə quduzlaşması onun qəzəbini aşırıb-daşırırdı. Bir yandan da onu cəbhə xəttindən aldığı xəbərlər sarsıdırdı.

Xocalı faciəsi baş verən zaman döyüşçülərin köməyinə yetdi. Ətraf meşələrdə gizlənmiş xocalıları tapıb Ağdama gətirdilər. Hətta bir neçəsini öz evinə apardı. Ağdam işğal ediləndən sonra isə... Nazim dərhal hərbçi paltarı geyib döyüşçü oldu.

Zəngin iş və həyat təcrübəsini nəzərə alaraq onu taqım komandiri təyin etdilər. Və Nazimin indiyədək bir çox ya-

şıdlarınınkından o qədər də fərqlənməyən tərcümeyi-halının qeyri-adi səhifələri bundan sonra yazıldı. Onun döyüş məharəti və komandirlik səriştəsi üzə çıxdı. Başçılıq etdiyi taqımla Kosalar, Cəvahirli, Salahlı, Kəngərli və digər kəndlərin müdafiəsində iştirak etdi.

Vaxtından əvvəl kapitan rütbəsinə təqdim olunmuşdu...

Düşmənlə mərd-mərdanə vuruşmaq qəhrəmanlıqdır. Döyüşdə yara alıb son nəfəsədək meydanı tərk etməmək də həmçinin. Məsləkindən dönməyərək yağı gülləsinin qənşərinə getmək, ölümü dirigözlü qarşılamaq da əsl qəhrəmanlara xas olan hərəkətdir. Amma cömərdlərə məxsus bir dostlarını qorumaq və nəyin bahasına olursa-olsun, düşmənə zərbə vurmaq naminə özünü həlak etmək, özünü fəda etməkdir. Nazim Cəbrayılov 1994-cü il aprelin 18-də məhz belə bir hünər göstərərək qəhrəmanlığın və şəhidliyin zirvəsinə yüksəldi.

Hadisə belə baş verdi: döyüşlərin birində Nazim zirehli texnika ilə hücuma keçən düşmənin qüvvəcə üstün olduğunu gördü. Xeyli vuruşduqdan sonra taqımı geri çəkməli oldu. Özü isə səngərdə qalıb şəxsi heyətin itkisiz yeni mövqelərə keçməsinə şərait yaratmağa çalışdı. Düşmənin öndə gedən bir tankını qumbara ilə partlatdı. Bundan qəzəblənən düşmən həmin istiqamətə daha bir tank yönəltdi. Nazim bu dəfə atəşin tankın zirehinə gözlənilən təsiri göstərmədiyini görüb dərhal son qərarını qəbul etdi. Qumbaranı əlinə götürərək özünü tankın tırtılları altına atdı...

Xatırladaq ki, bu hərəkəti 18-20 yaşlı dəliqanlı bir oğlan deyil, ay yarım ondan əvvəl 45 yaşı tamam olmuş kamil bir insan tam ağıl və şüurla etmişdi.

Adətən, mərhum haqqında danışanda onun adını astadan,

hüznlə deyirlər. Xüsusilə doğma adamları bəzən heç ad çəkə bilmirlər. Nazimin ailəsində onun adı hər gün, hər saat çəkilir və bu ad elə səslənir ki, sanki onun sahibi indicə evə dönəcək, işdə, yaxud səfərdədir. Bunları həyat yoldaşı Rəhilə xanım danışır. Özü də xahiş edir ki, mənim barəmdə heç nə yazmayın: "Şəhiddən bəhs edəndə onu böyüdüb boya-başa çatdıran, tərbiyələndirən ana, onu vətəndaş kimi yetişdirən, püxtələşdirən Vətən haqqında yazmaq lazımdır". Biz gənc nəslə dilimizi, ədəbiyyatımızı öyrətməklə yanaşı, mənəviyyat, vətənpərvərlik dərsi keçən Rəhilə müəllimənin bu sözlərinə etiraz etmirik. Amma şəhid yadigarı böyüdən, şəhidin evinin od-ocağını qoruyan, çırağını sönməyə qoymayan gəlinlərimizin çiyninə necə ağır yük düşdüyünü də unuda bilmərik. Bir də ki, hər kəsin qurduğu ailə onun şəxsiyyətini göstərən şəffaf bir güzgüdür. Qəhrəmanımızın qoyub getdiyi ailə də onun necə həyat yoldaşı, necə ata, bir sözlə, necə insan olduğu barədə çox şey deyir.

Nazim Cəbrayılovun üç ağıllı-kamallı övladı var: Fidan, Jalə və Orxan. Üçü də ali məktəbdə təhsilini davam etdirir. Onların balaca bir Nazimi də var. Jalə öz ilkinə atasının adını verib. Mən Cəbrayılovlar ailəsinin müqəddəs bir sirrindən (qoy bu, sirr olmasın, buna arzu deyək) də xəbər tutmuşam. Övladları ayrı-ayrılıqda qərara alıblar ki, gələcəkdə hər birinin ailəsində Nazim olsun, yəni hərəsinin öz Nazimi olsun...

Su gələn arxa bir də gələr. Bu torpaqda hələ çox Nazimlər doğulacaq. Nazim kimi oğulları olan yurdun isə bir qarış torpağı da yağıya qala bilməz!

***Flora Sadıqlı***
***"Azərbaycan" qəzeti***
***18.07.2003***

Nazim Cəbrayılovun 55 illik yubileyi Dövlət səviyyəsində qeyd edilmişdir.

***Həmin tədbir proqramının gündəliyi:***

***Giriş sözü*** - pedaqoji elmlər namizədi Hacı Rəfiqə xanım Əsgərova

***Hörmətli dinləyicilər!***

Bu gün Azərbaycan bayrağı ordenli şəhid Nazim İbrabim oğlu Cəbrayılovun xatirə gününə yığışmışıq. Cəmi 45 il ömür sürmüş, vətən yolunda canından keçmiş Nazimin 55 ilik yubileyini onsuz qeyd edirik.

Nazim 1949-ci ildə Ağdam şəhərində anadan olmuşdu. Onun ömür yolu əvvəldə öz yaşıdlarından o qədər də fərqlənməyib. Orta məktəbi doğma Ağdamda bitirdikdən sonra ali maktəbə - Xalq Təsərrüfatı İnstitutuna daxil olub. Daha sonra Kalininqradda milis məktəbində oxumuşdu. Vətən torpaqlarımızın mənfur erməni namərdləri tərəfindən təcavüzə məruz qaldığını görən Nazim hərbi zabit və bu torpağın oğlu kimi Vətənin müdafiəsinə qalxır, Güllücə, Qərvənd kəndləri uğrunda gedən döyüşlərdə rəşadətlə döyüşdüyünə görə kapitan rütbəsi qazanır. Lakin Nazimə bu adı daşımağa tale imkan vermədi. Onu da qeyd edim ki, Nazimin doyüş fəaliyyəti, qəhrəmanlığı haqqında "Ədalət", "Qarabağ", "Azərbaycan", "Xalq" qəzetlərində, Əlizaminin "Vətən fədailəri", Sarvan Ağayevin "Ağdam şəhidləri", Qara Hüseynovun "Şəhidlər" kitablarında çox yazılmışdır. Bundan əlavə müxtəlif telekanallarda, xüsusilə "Heç kəs unudulmur" adlı hərbi vətənpərvərlik

verilişlərində onun haqqında vaxtaşırı dolğun materiallar getmişdir. Doğum günü də diqqətsiz qalmamış, xüsusi verilişlərlə qeyd edilmişdir.

Vaxtı ilə Nazimin oxuduğu Azərbaycan Dövlət İqdisad Unversetinin həyətindəki tarixi qala divarına barelyefi vurulmuşdur. Həmin Unversitetin Tarix Muzeyində ona ayrıca güşə ayrılmışdır ki, burada Nazimin keçdiyi döyüş yolu və bir sıra qəhrəmanlıq məqamları qeyd edilmişdir.

Xalqımızın Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyev Nazim Cəbrayılovun qəhramanlığını yüksək qiymətləndirərək hərbi qulluqçulara (23 nəfərə) fəxri adlar verilməsi baradə 25 iyun 2003-cü il tarixdə imzaladığı fərmana onun adını da daxil etməyi unutmamışdı.

Yeri gəlmişkən, əbədi prezidentimiz, milli fəxrimiz olan mərhum Heydər Əliyevin və Şəhidlərimizin xatirəsini bir dəqiqəlik ehtiram sükutu ilə yad etməyi xahiş edirəm. Ruhları şad olsun. Allah rəhmət eləsin.

Bu məclisdə Nazimin sinif yoldaşları və müəllimləri, tələbə yoldaşları, onun döyüşçüləri, dostları, şairlər iştirak edir. Məclisin araya çıxması Nərimanov rayon İcra Hakimiyyəti, Azərbaycan Respublikası Zabitlər Evi, Nazimin həyat yoldaşı Rəhilə xanımın, ailəyə hörməti olan Nazimsevər insanların əməyi nəticəsində olmuşdur.

Hərbi vətənpərvərlik mövzusunda çıxış etmək üçün sözü Zabitlər evinin şöbə müdiri Arif Məmmədova veririk.

Şəhidlik zirvəsinə ucalmaq Vətənə sonsuz məhəbbət, onu candan əziz bilmək deməkdir! Şəhidlərimizin sayı heç də az deyil. Və bəlkə bu ağrılı siyahının qısa olmaması bizə diktə edir ki, onların anım gününü məhz aprelin 18-də - 26 igidin

qəhramanlıqla həlak olduğu gündə geniş anma mərasimi kimi dövlət səviyyəsində qeyd edək. Bunun üçün ölkənin Prezidentinə müvafiq müraciət qəbul edə bilərik. Bu zaman bir daha vurğulanmalıdır ki, şəhid balalarımıza verdiyimiz qiymət bugünkü yeni nəsilə qəhrəmanlıq, vətənpərvərlik aşılayır. Unutmayaq ki, düşməni məğlub etmək, Vətənə zəfər marşı, qələbə müjdəsi nəsib etmək məhz onların payına düşür. Əks halda biz bir xalq, bir millət kimi qeyrətsizliyi boynumuza almış olarıq.

**Çıxışlar:**

***Arif Məmmədov,*** *"Zabitlər evi"nin şöbə müdiri* - "Hərbi vətənpərvərlik";

***Prof. Zəhra Quliyeva*** , *Qadın problemləri üzrə Dövlət Komitəsinin sədri* -"Gənclərin hərbi vətənpərvərlik tərbiyəsində qadınların və anaların rolu";

***Flora Xəlilzadə,*** *yazıçı-publisist* - "Qəhrəmanların ömür yolu vətənpərvərlik məktəbidir";

***Prof. İradə Hüseynova,*** *Təhsil nazirinin müavini* - "Şəhidliyin tarixi kökləri";

***Aqil Abbas,*** *"Ədalət" qəzetinin baş redaktoru* -"Nazim Cəbrayılov mətbuat səhifələrində";

***Prof. Elmira Süleymanova,*** *Ombudsman* - "Şəhid övladlarının hüquqlarının qorunması";

***Zemfira Məhərrəmli,*** *mətbuat işçisi* - "Qırx qız dastanı"nın yaranması;

***Çimnaz xanım Əliyeva,*** *Mədəniyyət Fondunun əməkdaşı* - "Nazim Cəbrayılovun məktəb illəri - vətənpərvərlik haradan başlayır";

***Bəxtiyar Sadıqov,*** *"Azərbaycan" qəzetinin baş redaktoru* - "Nazim Cəbrayılovun döyüş yolu";

***Prof. Şəmsəddin Hacıyev***, ***i.e.n. Həsən İsrafilov***, - "Tələbəlik illəri haqqında";

***Prof. Ənvər Əhməd,*** *Təhsil problemləri institutunun şöbə müdiri* -"Ana və Şəhidlik";

***Tofiq Qarayev, Abdal Qəhrəman, Əkbər Rüstəmov,*** *döyüş yoldaşları* **-**"Cəbhə xəttində hərbi vətənpərvərlik nümunələri haqqında";

***Zülfüqar Kazımov****, Nərimanov r-n İcra Hakimiyyətinin başçısı* -"Hərbi vətənpərvərlik və onun mahiyyəti";

***Fatma xanım Təhməzova,*** *Nərimanov r-n Uşaq-Yaradıcılıq Birliyinin direktoru öz qrupu ilə birlikdə* - "Məktəblərdə vətənpərvərlik hisslərinin tərbiyə edilməsi təcrübəsindən" ;

***İslam Muradov****, Nərimanov r-n Qaçqın və Məcburi Köçkünlərlə iş üzrə şöbənin midiri* - "Şəhidlik ən uca zirvədir";

***Qüdrət Həsənquliyev,*** *millət vəkili* - "Şəhid ailələrinin müasir sosial vəziyyəti və onlara münasibət" -

***Zöhrab Cəfərov,****"Şəhid ailələri və veteranlar" təşkilatının sədri* - "Arxaya bax igid, arxada Vətəndir";

***Elmira Bünyadzadə,****"Əsgər Anaları" Cəmiyyətinin sədri* - "Hərbi çağırış prosesində əsgər analarının rolu";

***Vüsalə Fətəliyeva,*** *Şuşa Qadınları Cəmiyyətinin sədri* - "Şəhidlərlin xatirəsi heç vaxt unudulmayacaq";

***Havva Məmmədova,*** *Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının əməkdaşı, tarix elmləri namizədi* - "Qarabağ tarixi yaddaşımızdır".

## HÜNƏRİ İLƏ ƏBƏDİYYƏTƏ QOVUŞDU

Yaşı 40-ı ötsə də əsgər paltarı geyinən, isti ocağını, rahat iş otağını, üç körpə balasını qoyub silaha sarılan, Xocalı faciəsinin və Ağdam işğalının intiqamını alaraq düşmənə qan udduran, vaxtından əvvəl kapitan rütbəsinə təqdim edilib bu sevinci yaşamağa macal tapmayan baş leytenant Nazim İbrahim oğlu Cəbrayılov elə bir qəhrəmanlıq nümunəsi göstərib ki, onun çağdaş Azərbaycan tarixini yaradan oğulların sırasında dayanmağa haqqı var. Qəhrəmanlığın özünün də ayrı-ayrı nümunələri olur. Ölümü gözünün altına alıb odlu döyüşə atılmaq da, düşmənlə mərd-mərdanə vuruşmaq da, bu savaşdan qalib çıxmaq da, şəhid olmaq da qəhrəmanlıqdır... Azərbaycan oğulları əsrlər boyu çox qəhrəmanlıq göstəriblər. Qeyri-adi bir qəhrəmanlıq nümunəsi də var ki, döyüş meydanında düşmənə zərbə endirməyin bütün yolları tükənəndə cömərdlər məhz bu üsulu seçirlər: qumbaranı kökslərinə sıxaraq yağı üstünə atılırlar. Düşməni məhv etmək naminə özlərini də həlak edirlər.

1994-cü il aprel ayının 18-də Nazim Cəbrayılov bax belə bir qəhrəmanlıq göstərdi. Hələ Xocalı faciəsi baş verən zaman polis sıralarında xidmət edən Nazim Cəbrayılov döyüşçülərə çox kömək etmişdi. Ətraf meşələrdən Xocalı sakinlərini tapıb Ağdama çatdırmışdı. Onlardan neçəsini öz evinə gətirmişdi. Hərbçi paltarı geyinəndən sonra Nazimin döyüş məharəti və rəhbərlik səriştəsi üzə çıxdı. Onu taqım komandiri təyin etdilər. Başçılıq etdiyi taqımla Ağdamın Cavahirli, Kosalar, Salahlı, Kəngərli kəndlərinin müdafiəsində hünər göstərən Nazim Cəbrayılov növbəti bir döyüşə atıldı. Bu zaman zirehli texnika ilə hücuma keçən düş-

mənin qüvvəcə üstün olduğunu gördü. Xeyli vuruşduqdan sonra onun taqımı geri çəkilməli oldu. Özü isə səngərdə qalıb şəxsi heyətin itkisiz yeni mövqelərə keçməsinə şərait yaratmağa çalışdı. Düşmənin öndə gedən bir tankını qumbara ilə partlatdı. Bundan qəzəblənən düşmən həmin istiqamətə daha bir tank yönəltdi. Nazim bu dəfə atəşin tankın zirehinə gözlənilən təsiri göstərmədiyini görüb son qərarını qəbul etdi: qumbaranı əlinə götürərək özünü tankın tırtılları altına atdı...

24 iyun 2003-cü il tarixdə ümummilli liderimiz Heydər Əliyevin fərmanı ilə Müdafiə Nazirliyinin yüksək mükafatlarla təltif olunan hərbi qulluqçuları arasında Nazim İbrahim oğlu Cəbrayılovun da adı var. O, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeninə layiq görülüb.

Şəhidlik zirvəsinə yüksələndə Nazim Cəbrayılovun 45 yaşı vardı. Bu bahar onun şəhidliyinin 10, anadan olmasının 55 ili tamam olur. Bu ərəfədə Nazimin döyüş dostları, keçmiş məktəb yoldaşları, həmyerliləri, ailə üzvləri və doğmaları, ictimai təşkilatların nümayəndələri onun xatirəsinin işığına toplaşdılar. Bakının Nərimanov Rayon İcra Hakimiyyətinin, respublika "Zabitlər evinin, "Şəhid anaları" mərkəzinin və "Əsgər anaları" cəmiyyətinin təşkil etdiyi xatirə günü əslində hərbi - vətənpərvərlik mövzusunda keçirilən geniş bir tədbirə çevrildi. Aparıcı - Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərovanın anası, pedaqoji elmlər namizədi Rəfiqə Əsgərova Nazim Cəbrayılovu Ağdam şəhər 1 saylı orta məktəbində və Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil aldığı dövrdən, döyüş illərindən yaxşı tanıyan tədbir iştirakçılarına söz verdi. Onlar Nazim Cəbrayılovun vətənpərvərliyindən, insani

keyfiyyətlərindən söz açdılar.

Nərimanov rayonunun "Uşaq yaradıcılığı" birliyinin və respublika "Zabitlər evi"nin ansanblının üzvləri ədəbi-bədii kompozisiya ilə çıxış etdilər.

Bütün çıxışların qayəsi bu idi ki, "Torpaq, uğrunda ölən varsa, Vətəndir". Vətən uğrunda həyatlarını qurban verənlər isə unudulmazdır. Əgər düşmən ipə-sapa yatmayıb torpaqlarımızı sülh yolu ilə qaytarmasa, Nazim kimi igidlərin nümunəsi ilə böyüyüb tərbiyə alan gənclərimiz yağı tapdağındakı hər qarış torpağımız üçün mübarizə etməyə, döyüşməyə, yeri gəlsə isə ölümə getməyə də hazırdırlar.

***Flora Sadıqlı***
***"Azərbaycan" qəzeti***
***02.03.2004***




***Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin hazırladığı bu xatirə kitabında Nazim Cəbrayılovun qəhrəmanlıqla döyüşüb şəhid olması barədə məlumat verilmişdir.***


«Şəhid Anaları»
Mərkəzi
Azərbaycan
Respublikası
Zabitlər Evi

«Əsgər anaları»
Cəmiyyəti
Nərimanov
rayon
İcra Hakimiyyəti

Azərbaycan Bayrağı Ordenli
Nazim İbrahim oğlu Cəbrayılovun
şəhidliyinin 10 illiyi və 55 illik yubileyinə
həsr olunmuş "Hərbi vətənpərvərlik"
mövzusunda xatirə günü

PROQRAMI

Bakı - 2004

*Nazim Cəbrayılovun Dövlət səviyyəsində qeyd edilmiş 55 illik yubileyinin proqramı və dəvətnaməsi*

*Oğulları İgid,*
*Ordusu Güclü Olan Xalq Basılmaz!*

**Heydər ƏLİYEV**




***Hörmətli ______________________!***

***Sizi 23 fevral 2004-cü il tarixində saat 12.00-da "Ülviyyə" Şadlıq sarayında keçiriləcək xatirə gününə dəvət edirik.***

*Ünvan: Azadlıq, 116*

## ÜNVANI VƏTƏN OLDU

*Öləndə torpağa qarışmağım da,*
*Torpağa qovuşub yaşamağımdır.*
**Bəxtiyar Vahabzadə**

Görkəmli şairimiz Bəxtiyar Vahabzadənin belə bir müdrik fikri var: "Torpağa sadəcə torpaq kimi baxanlar onun nə üçün "ana torpaq" adlandırıldığının fərqinə varmaz, onun uğrunda lazım gələrsə, ölümə getməyin zərurətini də dərk edə bilməzlər..." İ.Məlikzadənin "Dədə palıd" povestinin qəhrəmanlarından biri isə belə deyir: "Torpağa "ana torpaq" ona görə demirlər ki, onun üstündə ömür sürürlər, sevib-sevilirlər, küsüb-barışırlar və axır aqibətdə gözlərini əbədi yumub torpağa qarışırlar? Yox, qardaş, yox! Torpağa ona görə "ana torpaq" deyirlər ki, o da ana məhəbbətlidir, ana səxavətlidir, övlad canlıdır". Bəli, bu bir həqiqətdir. Bu ülvi məhəbbətin, təmənnasız səxavətin, özünün varlığını üstündə gəzənlərin yolunda əsirgəməyən Ana torpağın qədr-qiymətini bilən qiymətli oğullar keçmişdə də olub, bu gün də var.

... Vətənə, torpağa, xalqa bağlı bir igid oğul vardı. Yaşasaydı 55 yaşı tamamlanacaqdı. Düz on il əvvəl Vətənimizin azadlığı, bütövlüyü uğrunda öz əziz canını ana torpağa qurban verdi.

Biri var, təsadüfən minaya düşəsən, ya nəqafil gülləyə tuş gələsən, biri də var, ölümün gözünə dik baxa-baxa, şüurlu surətdə özünü Vətən, torpaq yolunda fəda edəsən... Bu ikiqat qəhrəmanlıq, əsl vətənpərvərlikdir, əsl fədailik-

dir. Nazim də belə oğulluq etdi doğma obasına, millətinə.

İlin ən gözəl fəslində baharda, cənnət Qarabağın Ağdam rayonunda doğulmuşdu, elə o rayonda da yaz fəslində torpağa qovuşdu. Ülvi Bünyadzadənin təbirincə desək, həyat üçün doğulmuşdu, Vətən üçün də şəhid oldu.

Kim idi Nazim İbrahim oğlu Cəbrayılov? Uşaqlıqda dəcəlliyi, cəldliyi və çevikliyi, dost-tanışlara qarşı həssaslığı, istiqanlılığı ilə fərqlənən, yeniyetməliyində səylə çalışaraq orta məktəbi müvəffəqiyyətlə qurtaran və elə ilk cəhddən çoxlarının həsrətində olduğu, ora "dayısız" girməyin mümkün olmadığını söyləyənlərin fikrini öz biliyi ilə alt-üst edən savadlı oğlan, daha sonra təyinatla o zaman bizə indikindən daha yaxın olan Türkmənistan Respublikasının Aşqabad şəhər DİŞ-nin əməkdaşı kimi fəaliyyətə başlayan orqan işçisi, aldığı təhsillə kifayətlənməyərək Kalininqraddakı milis məktəbində müdavimlik edən və oranın diplomunu alan inadkar xarakterini bir daha sınayan bir gənc!.. Və sonra da mükəmməl təhsil və təcrübəsi ilə Vətən həsrətinə dözməyərək doğma yurduna dönən, hərbi avtomobil dəstəsində mühəndis kimi işə düzələn zəhmətsevər bir cavan! Bütün bu illər, bu təhsillər, çalışdığı vəzifələr və işlər bircə şeyi dəyişməmişdi onda. Çalışqanlığı, səmimiliyi, dost yolunda dönməzliyi, etibarı və bir də Vətənə oğulluq məhəbbətini. Ona görə də hamının yanında hörməti və nüfuzu vardı. Heç kəsin bir sözünü iki eləmədiyi kimi onun da bir sözünü iki eləyən olmazdı. Nazimin ailəsində də hörməti və nüfuzu yüksək idi. Vəfalı ömür-gün yoldaşı Rəhilə müəllimə qeyd edir ki, Nazim ailəsi, övladları Jalə, Fidan, Orxanla nəfəs alırdı. Amma Vətəni özündən, ailəsindən ucada görürdü. Hər cür imkanı olma-

sına baxmayaraq qığılcımlar alova çevrilməyə başlayanda o, özünü müqəddəs Vətəninin yaşaması naminə oda-alova atdı. Vətənpərvər zabit kimi həqiqi yerini səngərdə, cəbhə xəttində gördü. İlk könüllü dəstələrin yaranmasını təşkil edənlərdən biri oldu. Özü isə həmişə öndə getdi. Göstərdiyi igidlik və şücaətini Müdafiə Nazirliyində də qiymətləndirdilər. Vaxtından qabaq kapitan rütbəsinə layiq görüldü. Amma o nə vəzifə, nə də rütbə üçün döyüşmürdü. Düşmənə güclü nifrət hissi ilə vuruşan Nazim neçə-neçə döyüşdə yağıya sarsıdıcı zərbələr vurdu. O, düşmənin böyük canlı qüvvəsini məhv etdi. Onları külli miqdarda texnika, hərbi sursat itkisinə məruz qoydu.

"Arxalı köpək qurd basar", - deyiblər. Düşmən onu qısqırdanlara arxalanaraq daha da quduzlaşır, güclü texnikasına, çoxlu canlı qüvvəsinə arxalanaraq irəliləməyə cəhd edirdi. Arxada isə Vətən dururdu.

Vaxtı ilə bizə Panfilovçuların qəhrəmanlıqlarını dönədönə tədris və təbliğ edən müəllimlərimiz çox-çox sonralar, yəni "20 Yanvar" hadisəsində, Qarabağ döyüşlərində gördülər ki, bizim xalqın qəhrəman oğulları arasında elələri var ki, ölümün özünü öldürməyə qadirdir. Onlardan biri də Nazim ibrahim oğlu Cəbrayılov oldu. Nazim və onun bölüyü üçün 1994-cü ilin aprel ayının 18-i son döyüş oldu. Düşmənlə amansız çarpışmada son qanınadək vuruşan komandir və bölük əsgərləri qəhrəmanlıqla həlak oldular. Yalnız iki nəfər xilas ola bilmişdi, onlar da ağır vəziyyətdə idilər. Şahidlərin söylədiklərinə görə, Nazim son nəfəsdə "Vətən uğrunda!" hayqıraraq qumbaranı belinə bağlamış və heç olmasa bir düşmən texnikasını sıradan çıxarmaq naminə tankın altına atılmış və onu partlatmışdı. Və

beləlikfə, özü həlak olmuş, tankı isə sıradan çıxarmışdı. Düşmən tərəf ondan o qədər yanıqlı idi ki, hətta meyidinin qalıqlarını da vermədi. Atəşkəsə isə cəmi barmaqla sayılacaq günlər qalırdı! Bu ərəfədə Nazim Cəbrayılov öz ölümü ilə  düşmənə acı bir dərs verdi və sübut etdi ki, Azərbaycan zabiti və döyüşçüsü ölər, amma təslim olmaz.

***İgid ölər, adı qalar***

Nazim cismən dünyasını dəyişsə də, əbədiyaşar qəhrəman kimi dostlarının, tanıyanların, ümumiyyətlə, xalqımızın qəlbindədir. Mərd, cəsur, hünərli və vətənpərvər oğul kimi. Bir vaxt təhsil aldığı ali məktəbdə indi övladı təhsil alır, həyat yoldaşı Rəhilə xanım çalışır, şəhid yoldaşı kimi diqqət və qayğı ilə əhatə olunub. Məğrur, qartal baxışları, narahat, nisgil ifadə edən çöhrəsi ilə torpaqlarımızın taleyi üçün narahat ruhlu Nazimin İçərişəhərdə Qala divarlarından boylanan əksi barelyef şəklində əbədiləşdirilmişdir. Tez-tez bura gələn Universitenin professor-müəllim heyəti, ailə üzvləri, qohumları, dost-tanışları tər gül-çiçək dəstələri ilə onu yad edirlər. Nazimin özü Azərbaycan Respublikasının Prezidenti, ümummilli liderimiz Heydər Əliyevin fərmanı ilə”Azərbaycan Bayrağı” ordeniylə təltif olundu. O bayraqla ki, uğrunda canını əsirgəmədi. Övladlarına “şəhid övladı”, valideynlərinə “şəhid valideyni” kimi mənəvi ucalıq, mənəvi qürur və iftixar hissi bəxş etdi. Nazim Cəbrayılovun adı tarix durduqca duracaq, xatırlanacaqdır. Çünki müqəddəs Qurani-Kərimin Əl-Bəqərə surəsində qeyd olunduğu kimi, “Şəhidlər ölmürlər, onlar haqqın dərgahında daimidirlər. Çünki Vətən, millət, torpaq yolunda canlarını qurban vermişlər”.

**P.S.** Bu yaxınlarda “Azərbaycan Bayrağı” ordenli igid zabit Nazim İbrahim oğlu Cəbrayılovu anma mərasimi ke-

çirildi. Mərasimdə cəmiyyətin bütün təbəqələrinin təmsilçiləri vardı. Uşaqlıq və məktəb yoldaşları, dostları, tələbə, iş, döyüş yoldaşları, qohum-əqrəba, ailə üzvləri, müxtəlif təşkilatların məsul nümayəndələri, jurnalsitlər, mədəniyyət işçiləri; şagirdlər... Xatirələr söyləndi, ədəbi-bədii kompozisiya səsləndi, musiqi ifa edildi. Bu, əslində əksinə canlı insan kimi müraciət olunan igid, insanpərvər şəxsiyyət tək səciyyələndirilən və ehtiram əlaməti olaraq yubileyi keçirilən Nazim Cəbrayılovun əbədiyaşar qəhrəmanlığının təsdiqi idi. Bu mənada dahi şairimiz Hüseyn Cavidin gözəl deyimi yada düşür: ***“Ölüm var ki, həyat qədər dəyərli”.***

***Vahid Hacıyev,***
***“Fədai” qəzeti***
***27 mart-02 aprel, 2004***

## QƏHRƏMANLAR ÖLMÜRLƏR

***On il əvvəl özünü tank altına ataraq Vətən yolunda şəhid olan Nazim Cəbrayılovun əziz xatirəsi heç vaxt unudulmayacaq.***

Tarixdə məşhur Panfılovçular olublar ki, onlar son damla qanlarınadək vuruşublar ki, arxamızda Vətəndir. Həmin qəhrəmanlığı Ağdamda baş leytenant Nazim Cəbrayılovun komandirlik etdiyi taqım da göstərmişdir. Panftlovçular tarixə düşsələr də, biz Cəbrayılovçuları tarixə sala bilmədik. Nazim Cəbrayılov (onları hamı Ağdamda Əlifoğulları kimi tanıyır) ixtisasca mühəndis olsa da, müharibə başlayanda əyninə əsgər paltarı geyinərək ən ağır döyüşlərdə öz qəhrəmanlığı ilə bütün əsgərlərə nümunə göstərmişdir. Cabrayılovçular 28 nəfər idilər və 26-sı şəhid oldular ki, "arxamızda vətəndir". Son damla qanlarınadək vuruşdular, lakin səngəri tərk etmədilər. Yalnız sursat dalınca gedən iki nəfər həmin döyüşdə sağ qaldı. Onlardan biri Nazimin özünü düşmən tankının altına qumbaranı əlinə götürərək necə atdığın öz gözləri ilə görmüşdü. *(Aqil Abbasın "Ədalət" qəzetində Nazim Cəbrayılov haqqında yazılan bu abzas olduğu kimi verilir).*

1990-cı ilin 20 Yanvar gecəsindən üzü bəri azadlıq və müstəqillik uğrunda şəhid olan igidlərimizin itkisinin göynərtisi qəlbimizi hələ də yandırır. Şəhidlər üçün axan gözyaşı mübarizəyə, intiqama səsləyən, unutqanlığa sədd çəkən üsyandır. Biz canını el və torpaq yolunda

**Oğulları İgid,**
**Ordusu Güclü Olan Xalq Basılmaz!**

*Heydər ƏLİYEV*

Mahir Hüseynov

Əkbər Fərəcov

10

Şamil Rəcəbov



Rabil Hüseynov

Adil Hüseynov

Torpaq, Bayraq, Vətən, Ordu sevgisilə
Mərdlik, Qeyrət, Dəyanət əks etdirən bir görüş

Kamil Məmmədov

Cahid Mehdiyev

Mehman Gülmalıyev

Fərhad Əsgərov

Xasay Teymurov

Teymur Yusifov

German Göyüşov


Fazil Zeynalov
Məmmədağa Məhərov
Ramil Quliyev
Zaur Əmirov
Abil Əmirov
Nəriman Nərimanov
Elşən Hümbətov
Murad Muradov
Habil Teymurov
Elxan Həsənov
Tofiq Əliyev
Füzuli Hüseynov
Şamil İsmayılov

qurban verən oğulların hamısını, onları vətəndaş kimi yetişdirən, püxtələşdirən Vətən haqqında yazmağı heç vaxt unutmamalıyıq.

***Eşidirsənmi, mənim əsgər balam?! Cəbrayılovçular öldülər, səngəri tərk etmədilər, çünki arxalarında Vətən idi! O Vətən ki, dünyada ondan müqəddəs heç nə ola bilməz!*** *(Aqil Abbas)*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi" haqqında 24 iyun 2003-cü il tarixli fərmanı ilə baş leytenant Cəbrayılov Nazim İbrahim oğlu ölümündən sonra "Azərbaycan bayrağı" ordeninə layiq görülüb.

Su golən arxa bir də gələr. Bu torpaqda hələ çox Nazimlər doğulacaq. Nazim kimi oğulları olan yurdun isə bir qarış torpağı da yağıya qala bilməz! Həyatnı Vətən uğrunda qurban verən Nazim Cəbrayılovun ölümündən on il keçsə də onun xatirəsi xalqı, dövləti üçün unudulmaz, əziz və müqəddəsdir.

***Vüqar,***
***"Naxçıvanın səsi" qəzeti***
***18.03.2004***

## O GÜN UZAQDA DEYİL

Qarşımdakı qalaq-qalaq qəzetləri vərəqlədikcə yarımçıq qalmış bir insan taleyi ilə tanış olurdum. Özü də mənimlə həmyaşıd olan bir insanın taleyi ilə. Müxtəlif başlıqlı yazılar, müxtəlif yanaşma üsulları. Məndən fərqli olaraq, Nazim Cəbrayılov haqqında yazanların demək olar ki, əksəriyyəti ya onunla bir sinifdə oxumuş, ya qonşu olmuş, ya bir ali məktəbdə təhsil almış, ya da ki, ümumiyyətlə onu yaxından tanıyan insanlardır. Onunla bağlı çoxlu xatirələri olduğu üçün bəlkə də Nazim haqqında yazı hazırlamaq onlar üçün o qədər də çətin başa gəlməmişdi. Mən isə onların yazdıqlarına əsasən nə isə hazırlamalıydım. Özü də fərqli şəkildə. Çox düşünüb-daşındıqdan sonra qəzetləri kənara qoyub mərhumun ömür-gün yoldaşı Rəhilə xanımla söhbətləşməyi qərarlaşdırdım.

Rəhilə xanım gəlincəyə qədər düşüncələrimlə baş-başa qalmışdım. Fikirləşirdim ki, insanın dünyadan köç etmiş əzizləri yadına düşəndə, kövrələndə, qəlbini hüzn, kədər bürüyəndə adətən onun məzarı üzərinə gedir, daşını-torpağını öpüb, göz yaşı axıdır, onunla dərddil edir. Kədərini paylaşır, sevincini bölüşür və oradan bir qədər yüngülləşmiş halda qayıdıb gedir. Və beləliklə də doğmalarımızın uyuduğu o kiçicik məzar yeri getdikcə hər birimizin and yerinə, inanc yerinə çevrilir.

Bəs, görəsən, qəlbini qəm-qüssə bürüyəndə, qarşılaşdığı çətinliklərdən baş aça bilməyəndə ürəyini boşaltmaq üçün Rəhilə xanım haralara üz tutur? Məzarı belə bilinməyən o cəsur, pəhləvan kimi ərini kimlərdən xəbər alır? Gül parçası kimi üç ciyərparəsinin sual dolu baxışları qarşısın-

da necə dözür, tab gətirir? Qəlbimi didib parçalayan suallar qarşısında aciz qalmışdım.

Bir azdan Rəhilə xanım da gəlib çıxdı. Nə qədər çətin olsa da ürəyimə daş bağlayıb Nazim bəyin özü kimi cəsur, özü kimi dəyanətli qadınına məni narahat edən suallarla müraciət etdim:

- Doğrudan da, Rəhilə xanım, Nazim bəyin ildönümünü...

Sualımın arxasını tamamlaya bilmədim. Qadının yanaqlarından üzüaşağı süzülən göz yaşları məni yamanca kövrəltmişdi. Ürəyimdə söhbətə bu cür başladığıma görə özümü qınayırdım. Lakin Rəhilə xanımın qırıq-qırıq söhbətə başlaması məni bir qədər toxdadıb özümə qaytardı. Və mən kağız-qələmi qarşıma çəkib onun bir kəlməsini də ötürmədən yazmağa başladığım.

- Qəribədir, çox qəribədir. Həyatın nə yaman amansız qanunları olurmuş. Yaşadıqca hər dəfə bir üzü ilə tanış olursan. Bəzən sevinirsən, bəzən də mənim kimi həyat yoldaşının həyatında baş vermiş faciəli anlarla qarşılaşmalı olursan.

Hər ilin aprel ayının 18-i bizim ailəmiz üçün dözülməz bir gün olur. Həmin günü evdə-eşikdə qərar tuta bilmirik. Dərdimizi bir az yüngülləşdirmək üçün üç balamla evdən çıxıb hara gəldi üz tuturuq. Azacıq da olsa təsəlli yerimiz Şəhidlər xiyabanı olur. Hər bir şəhid məzarı qarşısında ayaq saxlayıram. Nazimdən bir soraq almaq ümidilə onlara and-aman edirəm. Özüm də bilirəm ki, bu mümkünsüz bir işdir. Ancaq neyləyim, özümlə bacara bilmirəm.

Bu sözlərdən sonra Rəhilə xanım susub gözlərini yerə dikmişdi. Ortada hüznlü bir sükut yaranmışdı. Artıq mən heç bir sual vermədən söhbəti Rəhilə xanımın özü istədiyi

kimi davam etdirməsini gözlədim. Hələlik onun danışacaqlarına qulaq asmağa üstünlük verdim.

Rəhilə xanım danışdıqca gah qəhərlənir, gah da xəyala dalırdı. Nazimlə bağlı günlərə qayıdır, dolaşıq düşmüş fikirlərini toplamağa çalışırdı. Söhbət uzandıqca uzanıb gedirdi. Birdən Rəhilə xanım saata baxıb gec qaldığını hiss etdi. Üzümə baxıb getmək istədiyini bildirdi. Sağollaşıb ayrıldıq.

Rəhilə xanım getdikdən sonra onun danışdıqlarını beynimdə canlandırıb belə bir yazı formalaşdırdım.

1949-cu ilin mart ayının 2-də Ağdamlı "Əlifoğlu" İbrahimin ocağında bir oğlan uşağı dünyaya gəldi. Adını Nazim qoydular. İbrahim kişi adını mən qoydum, bəxtini allah versin, deyib, sevincini bölüşmək üçün küçəyə çıxdı. Sinəsini irəli verib, küçə aşağı, küçə yuxarı addımladı.

Ana fərəhləndi. Gecə-gündüz oğlunun beşiyinin başından ayrılmadan əzizlədi, həzin laylaları ilə onun qəlbini ana məhəbbəti, vətən sevgisi ilə doldurdu.

Şairin sözləri ilə desək:

***Ana oğul böyütdü, gur çatmaqaş, gen sinə***
***Ana oğul böyütdü, oğul deyirəm sənə.***

Nazim birinci sinfə gedir, ana sevinir. Bir sinifdən o biri sinfə addadıqca anasının sevincinin üzərinə bir az da sevinc ələnir. Və bir gün olur ki, Ağdamdan orta təhsilini başa vurub ali təhsil almaq məqsədilə Bakıya getməli olan oğlunun arxasınca ana bir qab su atıb, "Get, yolun uğurlu olsun, bala!", deyir.

Nazim gedir. Ananın duaları hökmə keçir. Elə həmin il-1967-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun "Ticarətin iqtisadiyyatı" fakültəsinə daxil olur və institutu bi-

tirdikdən sonra təyinatla işləmək üçün Aşqabad şəhərinə göndərilir.

Bir müddət Aşqabad şəhər DİŞ-nin SƏDM bölməsində müfəttiş işləyən Nazim Cəbrayılov sonralar Kalininqrad milis məktəbində ikinci təhsil alır və vətəninə qayıdır. Burada o hərbi avtomobil dəstəsində hərbi mühəndis vəzifəsində çalışır. Bu illər ərzində kollektivin sevimlisinə çevrilir.

Müharibə başlayanda Nazim Cəbrayilovun bir hərbi zabit kimi bütün fikri cəbhə xəttindən gələn xəbərlərdə olurdu. O vaxtlar cəbhə xətti Ağdamdan keçdiyindən Nazimin nigarançılığı daha çox idi. Müntəzəm olaraq əməliyyatların gedişini izləyirdi.

Xocalı müsibəti Nazimi bərk sarsıtmışdı. Bir yerdə qərar tuta bilmirdi. Mühasirədən çıxaraq ətraf meşələrə səpələnmiş adamların tapılıb Ağdama gətirilməsində döyüşçülərə yaxından köməklik göstərmiş, qaçqınlardan bir neçəsini evinə aparıb, onları isti paltarla təmin etmiş və bir neçə gün evlərində saxlamışdı. İşgəncə ilə öldürülmüş insanların meyidlərini gördükdə Nazimin qəlbindəki intiqam hissi daha da güclənir və o hərbiçi paltarı geyinərək torpağının müdafiəsinə qalxır.

Müdafiə Nazirliyinin zabiti Nazim Cəbrayılov müəyyən hərbi biliyə və döyüş taktikasına malik olduğu nəzərə alınaraq taqım komandiri təyin edilir. Onun başçılıq etdiyi taqım Kosalar, Cavahirli, Salahlı, Kəngərli və digər kəndlərin müdafiəsində igidliklə iştirak etmişdi.

Nazim və onun silahdaşları torpaqlarımızın erməni qaniçənlərindən tamam təmizlənməyənədək silahlarını yerə qoymayacaqlarına and içmişdilər. Onlar öz andlarına sadiq qaldılar. Son nəfəslərinə qədər düşmənlə vuruşdular. Son

döyüş isə Cəvahirli kəndi ətrafında baş vermişdi.

1994-cü ilin aprel ayının 18-də düşmən zirehli texnika və xeyli əsgərlə Nazimgilin qoruduğu mövqelərə hücuma keçirlər. Düşmənin ilk qüvvəsi rotanın ağır zərbəsi nəticəsində geri oturdulur. Lakin məkrli düşmən qəzəblənərək güclü qüvvələrlə yenidən hücuma keçir. Əsgərlərimiz nə qədər hazırlıqlı olsalar da düşmən texnika sarıdan onlardan üstün idi. Xeyli döyüşdən sonra Nazimin taqımı geri çəkilməli olur. Bu zaman Nazim vaxt qazanmaq üçün özü səngərdə qalır. Heyətin itkisiz geri çəkilməsinə şərait yaradır. Düşmən tanklarından biri düz onun üstünə gəlir. Nazim onu yaxına buraxaraq qumbaraatanın sərrast atəşi ilə susdurur. Düşmən hiddətlənərək daha bir tank göndərir. Nazim yaxınlaşmaqda olan tankı qumbaraatanla vura bilməyəcəyini başa düşüb son qərarını verir. Qumbaranı əlinə alıb tankın tırtılları altına atılır.

Taqımın əsgərləri mühasirədən çıxa bilirlər. Salamat qalan göyüşçülər Nazimin yoxluğuna inana bilmirlər.

Düşmən tərəf döyüşlərdə onlarlın bir çox əsgərini məhv etmiş, döyüş nöqtələrini zərərsizləşdirmiş igid döyüşçümüz Nazim Cəbrayılovun meyidini əzizlərinə qaytarmadı. Düşmən bu hərəkətiylə özü də hiss etmədən Nazimi ölümsüzlüyə, əbədiyyətə qovuşdurdu.

Son olaraq onu deyə bilərəm ki, bir yaz günündə dünyaya göz açıb, elə bir yaz günündə də dünyadan köç etmiş Nazimin yarımçıq qalmış ömrünü üç gözəl balası davam etdirir. Jalə, Fidan, Orxan. Hər biri özlüyündə bir Nazim ömrü yaşadır, atalarının yarımçıq qalmış əməllərini davam etdirmək üçün analarından onunla bağlı hər şeyi öyrənib bilmək istəyirlər.

Rəhilə xanımın arzusu isə torpaqlarımızın tezliklə düşmən tapdağından azad edilməsini görməkdir. O deyir ki, on-

da mən üç övladımı da götürüb yurda qayıdacam. Ağdam torpağını gəzib Nazimimi soraqlayacam. Heç ola bilməz ki, o yerlərdə Nazimin qanından suvarılıb boy atmış gül-çiçəyə rast gəlməyim. Yalnız o çiçəklərdən dərib qoxulayanda inanacam ki, Nazimin ruhu ilə qarşılaşmışam. O günü səbrsizliklə gözləyirəm. Və mən inanıram ki, o gün uzaqda deyil.

***P.S.*** Martın 2-si Nazim Cəbrayılovun doğum günü idi. Yaşasaydı bu il onun 56 yaşı olardı. Təəssüf, çox təəssüflər.

Torpaqlarımızın müdafiəsi yolunda canını qurban vermiş igid döyüşçümüzə Allahdan qəni-qəni rəhmət diləyir, ruhu şad olsun deyirik.

***Xatın Qocayeva,***
***"İqtisadçı" qəzeti***
***17.03.2005-ci il***



## ŞƏHİD ATANIN ƏSGƏR OĞLUNA NƏSİHƏTİ: "OĞUL, ARXAMIZDA VƏTƏN VAR!"

Qarşımda qalaqlanan xeyli saralmış qəzet var. Qızıl payız yarpaqlarını xatırladır. Bu qəzet qalaqlarını mənə 1994-cü il aprelin 18-də yalnız Vətəni göz önünə alaraq, qumbaranı bağrına basıb özünü düşmən tankının tırtılları altına atan Nazim İbrahim oğlu Cəbrayılovun həyat yoldaşı, Nazimin üç yadigar balasını böyüdüb əmrazıya çatdıran, fədakar qadın Rəhilə xanım gətirib. On iki ildir ki, şəhid ərinin ruhunu öz ruhuna köçürüb, özündə yaşadır. Müxtəlif illərdə onun haqqında dərc olunmuş yazılara və qəzet səhifələrində donmuş şəkillərinə baxıram.

İlahi, gör nə qədər sayseçmə oğullarımız azadlıq yolunda, torpaqlarımız uğrunda şəhid oldu, sağlamlığını itirdi, həyatından keçdi.

Bernard Şou yazırdı ki, ***iradə olmayan yerdə, azadlığa yol yoxdur.*** Bu millətin azadlıq cığırını Azərbaycan balaları öz iradələri, sevgiləri, cəsarətləri ilə açdılar. Sinələrini silahlara sipər etdilər.

Nazim İbrahim oğlu Cəbrayılov 1949-cu ildə Ağdam şəhərində anadan olmuşdu. Orta məktəbi doğma Ağdamda bitirdikdən sonra indiki İqtisadiyyat Universitetinə daxil olur. Sonra Kalininqradda o zamankı Ali Milis məktəbində oxuyur.

Vətən torpaqlarımızın mənfur erməni terrorçuları tərəfindən təcavüzə məruz qaldığını görən hərbi zabit Nazim bu torpağın əsil sahibi kimi yurdunun müdafiəsinə qalxır. Ağdamın Güllücə, Qərvənd və başqa kəndləri uğrunda gedən döyüşlərdə göstərdiyi rəşadətə görə kapitan rütbəsi

alır. Başçılıq etdiyi taqım Kosalar, Cavhirli, Salahlı, Kəngərli və digər kəndlərin müdafiəsində igidliklə döyüşür. Onun son döyüşü Ağdamın Cavahirli kəndi ətrafında olmuşdu.

1994-cü ilin aprelin 13-də düşmən zirehli texnika və xeyli əsgərlə Nazimgilin qoruduğu mövqelərə hücüma keçdilər. Əlverişli mövqedə dayanan əsgərlərimiz düşmənə ağır zərbə vuraraq onu geri oturdurlar.

Növbəti dəfə düşmən yeni qüvvə toplayaraq aprelin 18-də ikinci dəfə həmin mövqelərə hücuma keçir. Əsgərlərimiz qəhrəmanlıqla döyüşsələr də düşmən zirehli texnikası və canlı qüvvə sarıdan daha üstün idi. Müvəqqəti olaraq Nazimin də taqımı geri çəkilməli olur. Bu məqamda komandir Nazim Cəbrayılov özü səngərdə qalır və şəxsi heyətinin itkisiz geri çəkilməsinə şərait yaradır. Bu vaxt düşmən tanklarından biri düz onun üstünə gəlir. Komandir onu yaxın buraxaraq qumbaraatanın sərrast atəşi ilə susdurur. Bunu görən düşmənin daha bir T-80 tankı həmin istiqamətə yönəlir. Açılan atəş bu hədəfə dəymir. Cəsur komandir bu an həyatının ən ali, ən şərəfli rütbəsini seçir. Şəhidlik. Və ölümün düz gözü içinə baxaraq qumbaraatanı sinəsinə sıxır, özünü



***Orxan Cəbrayılov Bakı Mülki Müdafiə alayının əsgəridir***

düşmən tankının altına atır. Onun qəhramanlığı, rəşadəti az qala əfsanəyə çevrildi. Mətbuat səhifələrində bu qəhrəman Vətən övladının göstərdiyi igidliklərdən yazıldı, televiziya kanalları dolğun verilişlər hazırladi. Vaxtilə Nazimin oxuduğu Azərbaycan Dövlət İqtisad Unrversiteti tinin Tarix muzeyində ona ayrıca guşə ayrılıb ki, burada şəhidin keçdiyi döyüş yolu və bir sıra qəhrəmanlıq məqamları qeyd edilib. Ümummilli liderimiz Heydər Əliyev 2003-cü il iyunun 25-də hərbi qulluqçulara fəxri  adlar verilməsi haqqında fərmanı imzalayarkən Nazim İbrahim oğlu Cəbrayılovu da unutmamış, bu qəhrəman  şəhid ölümündən sonra "Azərbaycan bayarğı" ordeninə layiq görülmüşdür.



***Şəki, 2005-ci il.***
***Orxan (soldan birinci)***
***hərbi xidmətdə***

Rəhilə xanım deyrir ki, bu xəbəri eşidəndə elə bildim böyük öndərimiz Heydər Əliyev bu fəxri adı mənə, övladlarıma və müharibədə şəhid olan 20 min Vətən oğluna verib.



***Ataların yolu, oğulların yoludur***

Nazim Cəbrayılov şəhid olanda kiçik övladı Orxan körpə idi. Şəhid oğlu olması ilə öyünən Orxan böyüyəndə atasının yolunu davam etdirəcəyinə söz verir. Balaca igid - özünə müraciət edirmiş: ***"Mən bilirəm torpağı necə azad etmək, düşməni necə gəbərtmək olar".***

Orxan Cəbrayılov indi yetkin, çinarboylu atasının yerini tutmuş igid bir oğlandı. Allah anasına, bacılarına və Vətənə doyunca versin. Vaxtilə o atasının oxuduğu İqtisad Universitetinin məzunudur. Hazırda əsgəri xidmətdədir. Mülkü Müdafiə Alayında əsgəri borcunu şərəflə yerinə yetirir. Mülkü Müdafiə Alayının Şəki Xilasetmə Mərkəzinin açılışında iştirak edir. Alayın qərargah rəisi polkovnik-leytenant Amil Alıcanov Rəhilə xanıma deyib ki, nümunəvi davranışı, biliyi və tərbiyəsi ilə mənim yaddaşıma həkk olub.

Az-TV-nin "Aypara" verilişi Orxan Cəbrayılovun xidmət etdiyi alayda çəkiliş zamanı Orxanı nümunəvi əsgər olaraq ön plana çəkərək müsahibə aparıb. Əsgər həyatından bəhs edən bu veriliş dəfələrlə ekranlarda nümayiş etdirilib. Anası Rəhilə xanım haqlı olaraq onunla fəxr edir.

Bu Vətən Nazim kimi yüzlərlə, minlərlə şəhid oğullarından yüzlərlə, minlərlə Orxan kimi əsgər oğullara əmanətdir. Necə ki, əfsanəvi qəhrəman Nazim Cəbrayılov haqqında yazılarından birində Aqil Abbasın dediyi kimi, ***"Eşidirsənmi, mənim əsgər balam! Cəbraylıvçular öldülər, ancaq səngəri tərk etmədilər. Çünki arxalarında Vətən idi. O Vətən ki, dünyada ondan müqəddəs heç nə ola bilməz, heç nə!"***

***Nazim Cəbrayılovun ölməz ruhunu özündə yaşadan, cəfakeş həyat yoldaşı Rəhilə xanım, hərdən mən də şəhidlərin rəmzinə çevrilən qırmızı qərənfillərə bürünüb Nazimin görüşünə getmək, onunla dərdləşmək istəyirəm***, -deyir. - ***Ancaq hara gedim? Məzarı olmayan Nazim mənə bütün Axzərbaycan torpağını ünvan verib.***

Rəhilə xanımın bu sözləri nəinki məni, yer üzünü yandırıb külə döndərdi. Onun yeganə arzusudur ki, üzərində şəhid Nazim Cəbrayılovun adı, soyadı, doğum və şəhidlik tarixi olan balaca bir daş Şəhidlər xiyabanına qoyulsun. O da təsəllisini bu daşdan alsın, dərd-sərini bölüşmək, sevincini paylaşmaq istəyəndə qırmızı qərənfillərlə görüşünə getsin. ***Rəhilə xanım deyir ki, xərcini də özüm çəkərəm, təki icazə versinlər.***

***Bu, sənin halal haqqındır Rəhilə xanım, sənin də balalarını başına yığıb ziyarət etməyə və görüşə getməyə yerin olmalıdır.***

***Rəsmiyyə RZALI,***
***"Azərbaycan" qəzeti***
***25 iyun 2006***

## ATANIN VƏSİYYƏTİ

*Düşmən toxmağısan, oğlum, ay oğlum,*
*Ay mənim qanadım, ay mənim qolum.*
*Səhvimi öyrənmə qurbanın olum,*
*Yaxşı adətimə sən adət eylə.*

*Bir doğma Vətəndir, bir də ki, məslək,*
*Həmişə vətəni sevəsən gərək...*
*Ümidin parlamaz yanmasa ürək,*
*Çalış ümidləri həqiqət eylə.*

*Atanam, ağanam, gəl tut yerimi,*
*Görsün nəsillərim diləklərimi.*
*Ay oğul, mən sənə dediklərimi*
*Sən də övladına nəsihət eylə.*

*Ağa Laçınlı*



## QALX AYAĞA, VƏTƏN OĞLU!

Bu günlər bizim üçün çox ağrılı keçir. İşğal altında qalan torpaqlarımız vəhşi düşmən tərəfindən yandırılır. Bu alov neçə illərdi ürəyimizi göynədən Vətən yanğısının məntiqi davamıdır. Şəhid ruhları səsləyirik. Ancaq səsimizə səs verən yoxdur. Ürəyimizə çalın-çarpaz dağlar çəkib yağı düşmən.

Vətən, torpaq, yurdsevərlərimizin çoxu şəhid oldu bu müharibədə. Qalanları isə didərgin, qaçqın, məcburi köçkün adlanır bu məmləkətdə. Torpaqlarımız işğal olunan gündən özümüzə yer tapa bilmirik. Neçə illərdi obalarımız, yurd yerlərimiz işgəncə içərisindədir. Ağdamsız, Qarabağsız qaldığımız üçün vüqarımızı itiririk deyəsən.

Hərdən keçmiş döyüşçü dostlarımı, şəhid olan qəhrəman qardaşlarımı səsləyib qışqırmaq istəyirəm: "Nə yatmısan, qalx ayağa, Vətən oğulları - Eldar, Allahverdi, Nazim, Nizami..."

Sonra fikirləşirəm, onlar Vətən, torpaq qarşısmda borclarını veriblər. Öz qanları bahasına... Yəqin ki, ruhları narahatdır. Çünki torpaqlarımız hələ də düşmən tapdağı altındadır.

Nazim Cəbrayılovla Ağdamda qonşu məhəllələrdə yaşayırdıq. 5-6 yaş fərqimiz olmasına baxmayaraq, aramızda xoş münasibət var idi. Yaşda məndən böyük olsa da, o, özünü həmişə çox sadə, mehriban, qayğıkeş bir insan kimi aparırdı. Nazim dostları, tanışları, işlədiyi kollektivin arasında da özünə hörmət qazanmışdı. Yeri gələndə ciddi, həddindən artıq diqqətli, qayğıkeş, yeri gələndə zarafatcıl, yumor hissi olan bir insan olması onu hamıya sevdirirdi.

Ağdamda hörmətli bir ailədə "Əlifoğlu" İbrahim kişi kimi tanınan, sayılıb-seçilən bir ağsaqqal ailəsində böyüyüb boya-başa çatan Nazim 1970-ci ildə Xalq Təsərrüfatı

İnstitutunu bitirdikdən sonra, təyinatla bir müddət Türkmənistanın paytaxtı Aşqabad şəhərində hüquq-mühafizə orqanlarında çalışdıqdan sonra, Vətənə dönmüş və ixtisası üzrə Ağdam rayon hərbi avtomobil dəstəsində mühəndis vəzifəsində çalışmışdır.

1988-ci ildə Ermənistanın Azərbaycana qarşı torpaq iddiaları başlayanda o vaxtkı Azərbaycan hakimiyyəti qətiyyətsizlik göstərdi. Hər şeyə Moskvanın həll edəcəyinə sadəlövcəsinə inandıqları üçün ciddi addımlar atılmırdı. Hakimiyyətin faktiki fəaliyyətsizliyini görən xalq özü torpaqlarımızın müdafiəsinə qalxdı. Və 1988-ci ildə özünümüdafiə dəstələri yaradılmağa başladı. Təbii ki, Nazim Cəbrayılov kimi oğullar da kənarda qala bilməzdi. O da xalq hərəkatına qoşuldu və tezliklə onun aparıcılarından birinə çevrildi.

Münaqişə açıq müharibə vəziyyətinə çatdıqda isə Nazim mülki paltarını hərbi paltarla dəyişdi, Baş leytenant rütbəsində Ağdam rayonu ətrafında gedən döyüşlərdə mərdliklə iştirak etdi. Hərbi biliyi sayəsində bir çox döyüşlərdə göstərdiyi şücaət, gənc əsgərlərə qayğısı tezliklə hərbçilər arasında ona hörmət qazandırdı. Döyüş bölgələrində tez-tez görüşürdük. Onun qayğısını burda da hiss edirdim. Narahatlığını gizlətmirdi. Həmişə deyirdi: “Sən evin tək oğlusan. Çalış ehtiyatlı ol. Bu müharibə hələ çox qan aparacaq. Mənə baxma, mənim heç olmasa qardaşlarım var”. Son vaxtlar isə ümumiyyətlə, səngərdən çıxmırdı. Hətta başqa döyüşçülər kimi arxaya dincəlməyə belə getmirdi. Rəhbərlik etdiyi gənc əsgərlərdən narahat idi...

Müdafiə nazirinin əmri ilə taqım komandiri təyin edilmiş Nazim Cəbrayılov göstərdiyi hünər və cəsarətə görə 1994-cü ilin aprelin 3-də kapitan rütbəsinə təqdim edilir.

Lakin bu rütbəni çiyinlərində daşımaq ona qismət olmur.

1994-cü ilin aprelin 18-də erməni-rus hərbi birləşmələ-

ri Nazimin rəhbərlik etdiyi taqımın yerləşdiyi istiqamətdə zirehli texnika ilə hucuma keçir. Ağır döyüşdən sonra o, düşmənlərin qüvvədə onlardan üstün olduğunu görür və taqıma geri çəkilməyə əmr edir. Özü isə səngərdə qalaraq əsgərlərini itkisiz, mövqelərini möhkəmlətməsi üçün şərait yaratmağa çalışır. Qumbara ilə qarşıdan gələn bir tankı sıradan çıxarır. Sonra isə hücuma keçən növbəti tankın altına atılaraq əlindəki qumbara ilə onu da partladır. Öz həyatı bahasına əsgərlərini xilas edir.

Göstərdiyi qəhrəmanlığa görə Nazim İbrahim oğlu Cəbrayılov "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir. Nazim Cəbrayılovun ailəsində iki qızı və bir oğlu böyüyür. Hər üçü ali təhsillidir. Həyat yoldaşı Rahilə xanım müəllimədir. Nazimdən sonra o, övladlarına həm atalıq, həm də analıq etməklə bərabər, gənc nəslin elmi biliklərə yiyələnməsi, vətənpərvər ruhda böyüməsi yolunda çalışır. İndi bu ailənin heç bir qayğıya ehtiyacı yoxdur. Oğlu Orxan hazırda Azərbaycan Ordusu sıralarında hərbi qulluqdadır. Torpaqlarımızın azad olunacağı, atasının intiqamını alacağı günü gözləyir.

***Ailənin yeganə arzusu bu gün məzarı olmayan Nazimin Şəhidlər Xiyabanında heç olmasa kiçik bir nişanəsinin olmasını istəməsidir. Heç olmasa şəhidlərimizin qəbrini ziyarət edəndə atalarının da adını bir dəstə güllə yad etsinlər və bir az da olsa təskinlik tapsınlar.***

***İnanırıq ki, Bakı şəhər rəhbərliyi onların bu arzusunun həyata keçməsində yardımçı olacaqlar...***

Ruhun şad olsun, qardaşım!

Tezliklə doğma torpaqlarımızda görüşmək arzusu ilə...

***Rüstəm HACIYEV,***
***"Ədalət" qəzeti***
***24.06.2006***



*Rəssamı Natiq Ağayevdir*

*Dostlarımın sədaqətinə ölümümdən sonra*
*daha çox ehtiyacım var...*
**German Əlioğlu**



# Sən unudulmamısan

*Yoxluğun xəyaldı, var kimisən Sən!*
*Adını söyləmək şərəfdir mənə.*
*Könüllər mülkündə bar kimisən Sən!*
*Ölüm, ölümsüzlük bəxş edib sənə.*

*Həsən İsrafilov*

## XATİRƏLƏR...

Nazimlə biz 1966-ci il, sentyabrın 1-də tanış olmuşuq. O vaxt Azərbaycan Xalq Təsərrüfatı İnsitutunun 904-cü qrupuna 25 nəfər oğlan qəbul olmuşdu. 50 nəfər tələbədən ibarət patokda isə cəmi 2 qız təhsil alırdı. İş elə gətirmişdi ki, bu qızlar da öz təbiətləri etibarı ilə heç də oğlanlardan fərqlənmirdilər. Hətta belə demək mümkündürsə, onlar elə kişi kimi, kişi qeyrətli qızlar idi.

Fakültədə 902-904-cü qrupun tələbələri həm yüksək bilik səviyyəsinə, həm idmanın bütün çəldlik tələb edən növlərindəki uğurlarına, həm də mehribançılıqlarına görə digər qruplardan müsbət mənada çox fərqlənirdilər. Bizim patokda qətiyyən xəbərçilik adlı bir şey yox idi. Əslində isə xəbərçiliə yer verə biləcək hadisələr də baş vermirdi. Onlar sanki qrupu idarə edir və qruplarda dekanlığı narazı salacaq heç bir hadisəyə yol verməzdilər. Qrup nümayəndələrindən biri hal-hazırda Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, Azərbaycan Dövlət İqdisad Universitetinin rektoru, professor Şəmsəddin Hacıyev, o birisi isə bu xatirələrin müəllifi idi. Təsadüfi deyil ki, fakültənin ilk dekanı, dosent və müharibə veteranı Soltan Salmanov bu qrupların tələbələrini çox sevərdi. Tez-tez söyləyərdi: ***Əgər mənim fakültəmdən Vyetnamda döyüşmək üçün 50 nəfər istəsələr, mən elə bu qrupun tələbələrini göndərərdim.***

Fakültənin II kursdan sonra dekanı olmuş proffessor İsmayıl Feyzullabəyli də bizim qrupun tələbələrinin xətrini çox istəyərdi. Mən özüm-özümə düşünərdim, görəsən onlar bizi tək yaxşı oxumağımıza görəmi çox istəyirlər?..

Ancaq sonradan başa düşdüm ki, dekanlarımız və bizə dərs deyən müəllimlərimiz bizi təkcə yaxşı oxumağımıza görə deyil, eyni zamanda məğrurluğumuza və həddindən artıq vətənpərvər olduğumuza görə sevirlər. Bütün bunları deməkdə məqsədim odur ki, bu gün millətin and yerinə çevrilmiş və qəhrəmanlığın zirvəsinə adını yazmış şəhid Nazim Cəbrayılov məhz bu mühitdə formalaşmışdı. Onun qəhrəmanlığı, Vətən uğrunda göstərdiyi şücaətlər heç də təsadüfi deyildi.

Nazim hələ tələbə olarkən Qarabağ mahalının gənclərinə xas olan qüruru və mətinliyi ilə seçilirdi. O, həmişə hər işdə müsbət mənada fərqlənməyə çalışırdı. Nazim, valideyinlərini xüsusi məhəbbətlə sevər, kəlməbaşı "Atam canı", - deyərdi. Bundan başqa Nazim həm də həyatsevər və zarafatcıl idi. Güclü fantaziyası və yumor hissi olduğundan söhbətləri duzlu və maraqlı olar, ətrafdakıları özünə cəlb edərdi.

Nazim institutu bitirdikdən sonra ikinci ixtisas almaq qərarına gəldi və Kalininqrad şəhərində milis məktəbinə daxil oldu. O, rus dilini də mükəmməl bilirdi. Təhsilini bitirdikdən sonra savadı və biliyi ilə yoldaşlarından fərqləndiyi üçün onu birbaşa Türkmənistan Respublikasının paytaxtı Aşqabad şəhərinə göndərdilər və o burada DİN-in SƏDM bölməsində işləməyə başladı.

Qrup yoldaşlarımın əksəriyyəti ilə  tez-tez görüşsəm də respublikadan kənarda işlədiyi üçün məhz bu səbəbdən Nazimlə tez-tez görüşmək mənə qismət olmurdu. Demək olar ki, biz çox təsadüf hallarda görüşərdik.

Nazim öz Vətənini, öz torpağını, elini-obasını sonsuz məhəbbətlə sevirdi. Elə bu sevgi ona vətəndən kənarda ya-

şamağa imkan vermirdi. Bir neçə ildən sonra el-obasına dönərək hərbi mühəndis kimi iş fəaliyyətini davam etdirir. Vətənin başının üzərini qara buludlar aldığı ağır günlərdə kənarda qalmayan Nazim onun müdafiəçilərinə qoşularaq Qərvənddə yaradılan könüllülər batalyonuna yazılır. Ağdam mənfur qonşuların xəyanətinin qurbanı olduğu günlərdə, Nazim silahı və canı ilə, qeyrəti ilə düşmən qabağında dağ kimi dayandı. Təcrübəsinə, hərbi biliyinə, göstərdiyi məharətə görə Nazirliyin əmri ilə taqım komandiri təyin edildi.

Nazimin göstərdiyi şücaətlər barədə eşidəndə heç də təəccüb etmədik və bunu təbii qarşıladıq. Çünki Nazim bu məharətə, bu cəsarətə malik olan şərəfli bir insan idi.

Bu gün, təəssüflər olsun ki, Nazim sıralarımızda yoxdur. Lakin yeganə təsəllimiz odur ki, onun əsl kişi qeyrətli həyat yoldaşı Rəhilə xanım və Nazim ruhda tərbiyə etdiyi üç övladı var.

Nazim yalnız cismən sıralarımızdan gedib, mənən isə yaşayır və daim qəlblərimizdə yaşayacaqdır.

***Yoxluğun xəyaldı, var kimisən sən,***
***Adını söyləmək şərəfdir mənə.***
***Könüllər mülkündə bar kimisən sən,***
***Ölüm, ölümsüzlük bəxş edib sənə.***

***Canlı görünmürsə cismin gözlərə,***
***Ruhun ruhumuzla birdir, qoşadır.***
***Hünərin güc verdi ümidsizlərə,***
***İgid şücaətin səni yaşadır...***

Ulu tanrıdan Nazimə və onun simasında bütün Vətən uğrunda həlak olmuş şəhidlərə, eləcə də dünyasını dəyişmiş qrup yoldaşlarımıza rəhmət diləyirəm...

***Həsən İsrafilov,***
***Nazim Cəbrayılovun qrup yoldaşı,***
***Azərbaycan Dövlət İqdisad Universitetinin***
***Magistr Hazırlıq Mərkəzinin direktoru,***
***Respublikanın Əməkdar müəllimi***



***Tələbəlik illərindən xatirə. Soldan üçüncü Həsən müəllim, sağdan axırıncı Nazimdir***

## NAZİM

*Özünü dar gündə dada yetirdi,*
*Dayandı səngərdə diqqətlə Nazim.*
*Yurdu xəyanətə qurban gedirdi,*
*Barışa bilmirdi qarətlə Nazim.*

*Qoşuldu döyüşə, igid şir oldu,*
*Koroğlu gücünə o qadir oldu.*
*Tezliklə taqıma komandir oldu,*
*Atıldı irəli heyətlə Nazim.*

*Mən zəfər səsiylə dinəcəm! - dedi,*
*Düşməni məhv edib, yenəcəm! - dedi,*
*Narahat olmayın, dönəcəm! - dedi,*
*Görüşüb, gedərkən külfətlə Nazim.*

*Analar göz yaşı içməsin deyə,*
*Kədər ömürləri biçməsin deyə,*
*Düşmən, torpağıma keçməsin deyə,*
*Atıldı tank alta cürətlə Nazim!*

*İndi olub adı dillərdə əzbər,*
*Keçdi öz canından, vermədi səngər.*
*Ölümü Cavad xan ölmünə bənzər,*
*Can verdi möhtəşəm qeyrətlə Nazim.*

*"Bayraq" ordeni tək fəxri ad aldı,*
*Vətən tarixində əbədi qaldı.*
*Şəhiddi, müqəddəs ada ucaldı,*
*Hopdu ürəklərə hörmətlə Nazim.*

*Tural İsgəndərov,*
*Azərbayca Dövlət İqdisad Universitetinin*
*IV kurs tələbəsi*
*06.02.2009*



***Nazim Cəbrayılov 1970-ci il məzunu***


Д.Бунiјадзадә адына АзХТИ тичарәт-игтисад
факултәсинин I бурахылышы.
Ахундов Б.
проректор проф.
Асланов С.
ректор
Вәлиjев Т.
проф.
Зейналов М.
дос.
Фейзуллаjев И.
декан.
Пашаjев К.
дос.
Самадов К.
дос.
Аллаһвердиjев Һ.
дос.
Талыбов Г.
дос.
Ахундов П
баш муәл.
1966-1970


Маммадов С.
Надиров Һ.
комсорг
Исрафилов Һ.
староста
Исмаjылов Һ.
Халилов Р.
Багырзаде А.
Ганбаров Н.
Јолчуjев Ј.
Гасымов Т.
Аллаһвердиjев Л.
Бабаjев З.
Маммадов И.
Әлиjев Ә.
Сеид-заде В.
Әһмадов Е.
Латифов Ф.
Јусифов Ј.
Бабиров Һ.
Губадов Т.
Агаjев С.
Каримов Р.
Гулмалыjев И.
Џабраjылов Н.
Мустафаjев Р.

## CƏSUR ROTA KOMANDİRİ NAZİM CƏBRAYILOV HAQQINDA TƏƏSSÜRATLARIM



1968-1970-ci illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda Nazim İbrahim oğlu Cəbrayılovun oxuduğu qrupda "Ticarətin iqtisadiyyatı" və "Ticarətin texnikası" fənlərindən dərsləri mən aparmışam. Nazim dərs vaxtı aktivliyi, cəldliyi və çevikliyi ilə fərqlənirdi. Bu da onun gələcəkdə qeyri-ordinar bir insan olacağına dəlalət edirdi.

Nazim Cəbrayılov 1949-cu ildə Ağdam şəhərində anadan olmuşdur. Şəhər 1 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Xalq Təsərrüfatı İnsitutuna daxil olmuşdur. Təyinatla Türkmənistan Respublikasının Aşqabad şəhər Daxili İşlər Nazirliyinin SƏDM bölməsində işləyib. Burada iki il işlədikdən sonra ona baş leytenant rütbəsi verilmişdi. Fəal təşkilatçı kimi özünü təsdiqlədiyinə görə Nazimi Kalininqraddakı iki illik milis məktəbinə oxumağa göndərirlər. Oranı bitirdikdən sonra o, ikinci ixtisas diplomunu alır. Bir müddət işlədikdən sonra öz doğma vətəninə - Ağdama gəlir. Az sonra 2711 №-li Ağdam avtomobil dəstəsində hərbi mühəndis vəzifəsində işləyir və eyni zamanda həmin müəssisənin nəzdində olan benzin doldurma məntəqəsinə də başçılıq edir.

Doğma Qarabağ torpaqları uğrunda mənfur erməni faşistləri ilə döyüşlərdə canını əsirgəməyən cəsur rota ko-

mandiri Nazim İbrahim oğlunun igidliyini eşitdikcə, mən hələ o vaxt, tələbəm olanda onun haqqında zəndimdə yanılmadığımı düşünür, fəxr edirdim. 1993-1994-cü illərdə oxuduğum qəzetlərin hər birində ilk növbədə cəbhə xəbərlərinə baxırdım və mütləq Nazimin adına rast gəlirdim. Oxuduqlarımdan məlum olurdu ki, Nazim düşmən qabağında Vətənini, torpağını qeyrətlə qoruyan, sinəsi ilə sipər olmağa qadir əsl kişi kimi dayanır, döyüşür. Vətəni özündən, ailəsindən ucada görən bu vətənpərvər zabit öz yerini səngərdə, cəbhə xəttində, düşmən qabağında seçmişdi. Təsadüfi deyildi ki, ilk könüllü dəstələrinin yaranmasını təşkil edənlərdən biri də Nazim olmuşdu.

Bir gün oxuduğum qəzetlər dəhşətli bir xəbər yaydı: 1994-cü ilin aprel ayının 18-i Nazim və onun rotası düşmənlə qanlı döyüşə girmiş, düşmənin qarşısını almağa nail olsalar da, bu döyüş onlar üçün son döyüş olmuşdur. Düşmənlə amansız çarpışmada son qanınadək vuruşan komandir və onun əsgər yoldaşları qəhrəmanlıqla həlak oldular.

Nazim son nəfəsdə "Vətən uğrunda!" hayqıraraq qumbaranı belinə bağlamış və daha bir düşmən texnikasını sıradan çıxarmaq naminə tankın altına atılaraq onu partlatmışdı. Və beləliklə də, özü həlak olmuş, düşmən tankını isə sıradan çıxarmışdı. Oxuduğum xəbər nə qədər sarsıdıcı olsa da mən onunla qürur duydum, çünki sevimli tələbəm Nazim Cəbrayılov öz ölümü ilə düşmənə acı bir dərs verdi və sübut etdi ki, Azərbaycan zabiti döyüşdə ölər, amma təslim olmaz. Qurani-Kərimin Əl-Bəqərə surəsində qeyd olunduğu kimi: ***"Şəhidlər ölmürlər, onlar haqqın dərgahında daimidilər. Çünki Vətən, millət, torpaq yolunda canlarını qurban vermişlər".***

Hüznlə oxuduğum qəzet qarşımda fikrə getdim. Özüm də bilmədən beynimdə xalq şairimiz Bəxtiyar Vahabzadənin "Şəhidlər" poemasından yadımda qalan dörd misra təkrarlanırdı:

***Qatil gülləsinə qurban gedərkən,***
***Gözünü sabaha dikdi şəhidlər.***
***Üçrəngli bayrağı öz qanlarıyla,***
***Vətən göylərinə çəkdi şəhidlər.***

... Yenidən xatirələrə daldım. Nazimin şücaəti məni bir az əvvələ apardı. 190 saylı hərbi hissənin zabiti, rota komandiri Nazim Cəbrayılov 1994-cü il aprelin 13-də göstərdiyi böyük hünər və şücaətdən sonra vaxtından əvvəl kapitan rütbəsinə təqdim olunur. Bir neçə gün əvvəl oxuduğum bu məlumat məni nə qədər qürurlandırmışdı. Təəssüf ki, bu rütbəni daşımaq ona qismət olmadı...

Cəsur komandir Nazim Cəbrayılovun keçdiyi döyüş yolundan bəhs edən Azərbaycan Dövlət İqtisad Universitetinin "Tarix muzeyi"ndə Universitetin 15 nəfər şəhid tələbəsinin guşəsi təşkil olunmuşdur. Mən 25 ilə yaxındır ki, bu muzeyin direktoruyam.



Hər tədris ilinin sentyabr ayında universitetə qəbul olmuş I kurs tələbələrinin "Şəhid tələbələr" guşəsində üçrəngli bayrağımız qarşısında andiçmə mərasimi təşkil olunur. Həmin tələbələr vətənə, torpağa və təhsil alacaqları universitetə sadiq qalacaqlarına and içirlər.

2001-ci ilin yanvar ayının 18-də Azərbaycan Dövlət İqtisad Universitetinin həyətində "20 yanvar" faciəsi zamanı və Qarabağ torpaqları uğrunda həlak olmuş şəhid tələbələrə həsr edilmiş "Xatirə lövhəsi"nin açılış mərasimi keçirilmişdir. Həmin gün universitetdə şəhidlərin ruhuna ehsan süfrəsi açılmış və yasin oxunmuşdur.

Ümumiyyətlə, hər ilin "20 yanvar" hüzn gününün keçirilməsi münasibətilə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, millət vəkili, professor Şəmsəddin Hacıyev universitetin şəhid tələbələrinin valideynlərinə vətənpərvərlik qayğısı göstərərək onlara lazımi maddi və mənəvi yardım göstərir.

Qəhrəman tələbəmiz, "Azərbaycan Bayrağı" ordenli Nazim Cəbrayılovun ömür-gün yoldaşı, universitetin əməkdaşı Rəhilə xanım da bu tədbirlərdə iştirak edir. Mən bir müəllim kimi sevimli və cəsur tələbəm olmuş Nazim Cəbrayılovla fəxr edirəm. Düşünürəm ki, belə cəsur tələbənin yetişməsində az da olsa mənim də əməyim olmuşdur.

Allah ona rəhmət etsin!

***Pərviz Axundbəyli,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin"Tarix muzeyi"nin direktoru, dosent, Nazim Cəbrayılovun müəllimi***

## TANRININ SEVDİYİ İNSAN



Qayğısız uşaqlığımızın, bəxtəvər gəncliyimizin ünvanı - Qarabağımızın qeyrət qapısı olan Ağdamda 1 saylı orta məktəb respublikanın xalq təsərrüfatının müxtəlif sahələrinə, elmə, mədəniyyət və incəsənətinə yüzlərlə əvəzsiz korifeylər bəxş etmişdir.

Bu məktəbdə 1965-1966-cı tədris ilində $X^a$ sinfi vardı. Şagirdləri doğma bacı-qardaş münasibətində olan bu sinfin özünəməxsus xüsusiyyətləri, ənənəsi mövcud idi. Bir-birinə sonsuz hörmət, məhəbbətlə bağlanan, müəllimlərini (ibtidai sinif müəlliməsi Barat müəllimə, sinif rəhbəri Qönçə müəllimə idi, hər ikisinə Allah rəhmət eləsin) öz doğma anaları kimi sevən bu sinfin uşaqları sanki xüsusi seçimlə bir yerə toplanmışdılar. Hər kəs xeyirxahlıq etməyə, daha yaxşı oxumağa can atırdı. Məktəbin o illərdə ən savadlı, eyni zamanda ən dəcəl, ən ərköyün uşaqları bu sinifdə idi.

Hər an qəhrəmanlıq göstərməyə, zəiflərə arxa, dayaq durmağa, xeyirxahlıq göstərməyə hazır olan sinfimizin hər bir şagirdi müəllimlərin sevimlisi idi. Hər cür şıltaqlıqlarımız, dəcəlliyimiz bağışlanırdı. Günahkarı özümüz tənbeh edərdik. Yüksək ziyalı, mənəviyyatlı, qayğıkeş müəllimlərimiz - məktəbimizin direktoru, pedaqoji elmlər namizə-

di Süleyman Zeynalov, tədris hissə müdiri Asif Əsədov, ağsaqqal ədəbiyyat müəllimimiz Kərrar Mikayılov, fizika müəllimi Kamal Qaradağlı, riyaziyyat müəllimimiz çox tələbkar Musa Muradov və başqaları hər birimizin qəlbində əbədi məskən salmışlar və xatırlanırlar.



***İbtidai sinif şəkillərindən.***
***(birinci cərgədə soldan birinci Çimnaz xanım, üçüncü Nazim)***

Müəllimlərimiz bizə elmin sirrlərini dərindən mənimsətməklə yanaşı, dostluq-yoldaşlıq, yüksək mənəvi keyfiyyətlər də aşlayır və hər zaman bizim sinfimizin uşaqlarının fəal həyat mövqeyi qazanacaqlarına inamlarını bildirirdilər. Onlar bizim gələcəyimizə, müxtəlif sahələrdə fərqlənəcəyimizə, gərəkli vətəndaşlar olacağımıza inanırdılar.

Dünyagörmüş bu pedaqoqlar zənnlərində yanılmadılar. Məktəbi 1966-cı ildə bitirərək əksəriyyətimiz elə həmin ili, digərləri isə növbəti ildə ali məktəblərin tələbələri oldular.

Həyat uzaqgörən, müdrik müəllimlərimizin inamlarını və arzularını təsdiq etdi. Bir-birimizdən ayrılaraq müxtəlif sahələrdə çalışsaq da doğmalarımızı itirmədik, sinif yoldaşlarımızla tez-tez xəbərləşir, görüşür, uğurlarımızın sevincini bölüşürdük.

Qürur hissi ilə qeyd etməliyəm ki, uşaqlarımızın hər biri müxtəlif sahələrdə peşəkar fəaliyyətləri ilə seçilərək bütün respublikada tanındılar.

Dilqəm Tağıyev - elmlər doktoru, Azərbaycan Tibb Universitetinin professoru, kimya kafedrasının müdiri, AMEA-nın həqiqi üzvüdür.

Tofiq Babayev - istefada olan Milli Təhlükəsizlik general mayoru, uzun illər Milli Təhlükəsizlik orqanlarında qüsursuz işləmiş, nazir müavini vəzifəsinədək yüksəlmişdir.

Şamil Qurbanov - uzun müddət Daxili İşlər orqanlarında müxtəlif vəzifələrdə işləmişdir. Hazırda istefadadır.

Valeh, Rafiq, Rizvan, Adikə, Sara, Həqiqət, İlduzə və başqaları da müxtəlif sahələrdə çalışırlar. Hər biri özünəməxsus nüfuz sahibidir.

Hamımızdan daha nadinc, istənilən konfliktli hadisəyə hamıdan əvvəl qarışan Nazim atasının rayonda olan böyük nüfuzuna arxalanaraq adətən uşaqların günahını öz üzərinə götürərdi. Belə xasiyyətlərinə görə hamımız onu çox sevirdik. Nazim məktəbi qurtaran ili Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutuna daxil olur. İnstitutu bitirdikdən sonra ikinci ixtisas təhsili alan Nazim hələ gənc yaşlarından Türkmənistan Respublkasının Daxili İşlər Nazirliyində və sonralar isə digər müxtəlif sahələrdə qüsursuz işləmişdir. 1988-ci ildən başlanan Qarabağ hadisələrindən kənarda qala bilməyən Nazim özünümüdafiə dəstələrində

erməni təcavüzkarlarına qarşı mübarizəyə qoşuldu. Biz - onun dostları, Nazimin cəbhə həyatını, qəzet və telereportajlarda verilən qaynar xəbərlərdən izləyirdik. Xarakterinə uyğun olaraq ən çətin, ən gərgin nöqtələrdə döyüşdü. Onun cəbhə həyatı da hamımıza məlumdur. Tanrı onu hamımızdan çox sevirmiş. Ona görə də onu öz dərgahına aparıb, şəhidlik zirvəsinə ucaltdı. Həyatdan vaxtsız getdi Nazim, ancaq şərəflə yaşadı, hər birimizin baş ucalığımız, qürur mənbəyimiz oldu. ***Məzarı yoxdur Nazimin. Ancaq onun ünvanı hər birimizin ürəyindədir.*** Onu tanıyanların qəlbində yaşayan sonsuz nisgil və qürur hissidir. Təsəllimiz adını yaşadan və ucaldan ailəsi, övladlarıdır. Cismən yoxdur aramızda, mənən bizimlədir Nazim. Ruhu şad olsun. Ruhunun rahatlığı isə Qarabağ torpaqlırının, doğma Ağdamımızın işğaldan xilas ediləcəyi, övladlarının, nəvənəticələrinin o yerlərdə gəzib dolaşacağı zaman olacaqdır.

Ümidlərimiz tükənməyib. İnanırıq, o gün gələcək!

***Çimnaz Əliyeva,***
***I çağırış Azərbaycan Respublikası***
***Milli Məclisinin deputatı,***
***respublikanın əməkdar Mədəniyyat işçisi,***
***AYT-nin Qarabağ filialının sədri***

# VƏTƏN HALLI KOMUTAN

Bilirsinizmi, Azərbaycan yazarı niyə miskin, yaltaq, aşağılayıcı duruma düşürülür, niyə yazdıqları urvatlı olmur artıq? Bilirsinizmi, çünki Azərbaycanın bu gün yeni yaranan ədəbiyyatında şəhid mövzusundan, ədəbiyyatına gələn yazarın şəhidlərlə bağlı heç bir əsərini, misrasını oxuya bilməzsiniz. Bu millətin şəhid oğullarının şəhidliyi heç vaxt bizim alnımızın açıq, üzümüzün ağ, qələmimizin iti, kəsərli olmağına imkan verməyəcək. Yenə çünki, biz ədəbiyyatda, yazıda haramlıq edir, haqsızlığımızı dağ başına çıxarırıq. Bu qədər də olmaz. Azərbaycanlı hər bir yazar onun şəhid övladından sevərək yazmalı, bunu özünə şərəf, namus, ən böyük missiya bilməlidir.

Adama deyirlər, qafil, sən axı kim olursan da, bu millətin uğrunda canını fəda etmiş, geridə gözləri yaşlı ana, bacı, övlad, sevgili buraxıb getmiş, qanı ilə torpağımı sulamış o qutsal vətən övladları haqqında qələmini götürüb yazı yazmırsan. O qələm əlində qurumazmı? O qələmin sındığı, sındırıldığı gün gəlməzmi?

Azərbaycanda bəlkə də ən çox bədii kitab verilən adam mənəm. Fikir verdiyim qədərincə, hələ bir kitabda Azərbaycanın bir şəhid övladından əməlli-başlı, sanballı bir əsər oxuya bilməmişəm. Yarpağın saralmasından, bir daşın ikiyə bölünməsindən, parçalanmasından, bir ağacın kəsilməyindən guya ürəyi yaxılan, canı yanan, ağrıyan Azərbaycan yazarlarının hansı səmimiyyətinə bundan sonra inanasan? Soruşasan, a balam, qanı torpağa qarışmış, bu bayraq, yurd, dövlət,həm də sizin namusunuz uğ-

runda qurşunlanan, gül bədəni tiftik-tiftik olan o peyğəmbərin, Allahın sevimlisi şəhidinin ruhu, xatirəsi yarpaqdan, daşdan, ağacdan daha canlı, daha insani, daha real, daha poetik deyirsən poetik, bədii deyirsən daha bədii deyilmi? Yəni bir yarpaq, bir külək, Allah eşqinə düzünü deyin, bir canlı insandan, bir şəhiddən daha dəyərli ola bilərmi?! Bu bilirsinizmi, bir az da nəyə bənzəyir. Gözümüzün qabağında bütün dəyərlərimiz uğrunda birisi əsl qəhrəmanlıq göstərir, qanı tökülür, onu qoyuruq burda, gedib 1000 il, 500 il əvvəldə tarixi qəhrəmanlar axtarıb guya yazarlıq səmimiyətimizi "straxofka" elətdiririk. Bu bağışlanılmır, əsla. Nə Allah, nə o şəhidlər, nə də tarix qarşısında. Sənə bu qədər Allah imkan, xoşbəxtlik verib, belə bir məmləkətin belə şəhidlərinin yazarlıq missiyasını sən daşıyasan, paylaşasan.

Şəhid, şəhid dediyim o iki dünyanın sevimlilərindən biri də sayqıdəyər Rəhilə xanımın həyat yoldaşı, üç övladının atası, sevilən, izzət, ehtiram görmüş bir nəslin-kökün təmsilçisi komutan Nazim İbrahimoğlu Cəbrayılovdur. Qumbaranı belinə bağlayaraq özünü düşmənin zirehli texnikasının altına ataraq əsl qəhrəmanlıq nümayiş etdirən bu igid kişi, ər, ərən geriyə tüklərimizi ürpərdən, amma sonucda ürəyimizi qabardan bir ruh halı qoyub gedir. Bizlər - gözü-könlü bəsirət pərdələri ilə qapanmış qafil insanlar heç zaman inana bilmirik ki, yurd, vətən, torpaq dedyimiz qutsal varlıq da nəsə istəyə bilər, uma bilər. Necə? Məsələn, torpaq da, Vətən də bir gün hər yoldan ötənə deyil, elə kamutan Nazim bəy kimi oğullara aydırar, ayan-bəyan edər, gəl, Sən, məhz Sən mənim uğrumda şəhid ol, qanın varlığıma qarışsın, mənim yolumda o gülləyə sən tuş gəl,

qoy sənin sinən qanasın!!!! Allah da, Vətən də bu şərəfi, bu ucalığı hər kəsə nəsib etmir, hər kəsə vermir. Bu ülviliyi, əlçatmazlığı, ünyetməzliyi doğma, əziz bildiyi yurdu, torpağı Nazim bəyə nəsib eylədi. Onu seçdi. Mənə elə gəlir, Nazim bəy şərəfi iki quruşluq etməyərək, düşmən tankinin altina özünü atib partladarkən, düşmənlərin qarşısını alarkən Vətən halında, Vətən ruhunda olub. ***Halı Vətən halında olanlar şəhidliyin dadlı şərbətini içməyə layiq oğullardır.***

Mənə elə gəlir, yurd, vətən, torpaq o yurdun qiymətli, cəsur, qorxmaz oğullarından başlayır. Bizim uduzmağımızın kökündə əlědüşməz cəsur oğulları qoruyub saxlaya bilməməyimiz, onların vətən torpağımızın ən həssas parçası olduğunu anlamamağımız durur. Əslində komutan Nazim kimi oğulların şəhid olmağının şərəfini anlayır, bir tərəfdən də bu millətin geninin sağlam, cəsur, qorxmaz, əyilməz kişilərinin ruhunda, varlığında olduğunu da unutmuram.

Məncə, gələcəyimizin sağlam nəslinin ortaya çıxması naminə Nazim kimi kişilərin geridə abidə, can, örnək kimi qoyduqlarına sahib çıxmağımız şəhidliyə bərabər bir məqamdır. Düşünə bilsək...

***Xanəmir TELMANOĞLU,***
***"Doqquz iqlim" jurnalının baş redaktoru***

# O QƏHRƏMAN KİMİ DOĞULDU, ŞƏXSİYYƏT KİMİ YADDA QALDI

***"...Kişi qızı olmaq azdır, gərək kişi arvadı olmağı bacarasan".***

***Nazimin deyimlərindən***



Böyük Vətən müharibəsinin vurduğu yaraların qaysağı sinəmizdən getməmiş, ikinci bir müharibə üstümüzü haqladı. QARABAĞ müharibəsi.

Hər zaman televiziya ekranlarından, kitablardan Böyük Vətən müharibəsinin xalqımıza, vətənimizə, eləcə də millətimizə gətirdiyi fəlakətləri gördükdə və oxuduqda dəhşətə gəlirdik. Bu müharibədə çox şey itirdik. Qazandığımız isə torpaqlarımızın bütövlüyü oldu. Hər halda bu qələbə təkcə Azərbaycan üçün yox, Sovetlər İttifaqının tərkibində olan bütün respublikalar üçün idi. Amma bir şey yadımızda əbədi qaldı.

Minlərlə azərbaycanlı bu müharibənin qurbanı oldu. Rəhmətlik atam bu müharibənin iştirakçısı olduğundan o qanlı-qadalı illərdən, keçdiyi əzablı yollardan ürək ağrısıyla danışardı. Gözlərimdən yaş sel kimi axardı. O, gözlərimin yaşını silərək, -Ağlama, deyərdi,- Biz görmüşük, Allah sizlərə göstərməsin.

O vaxtı bu sözlərin fərqinə bir o qədər varmazdım. Deyirdim, necə yəni bir də müharibə olar, bir də anaların gözü yaşlı qalar? Düz deyirlər, "Sən saydığını say, gör fələk

nə sayır". Sən demə, biz də bu dəhşətlərin şahidi olarmışıq. Biz də müharibənin ağrı-acısını görə bilərmişik. Zaman dəyişir, tarix təkrarlanır.

Azərbaycan oğulları, öz cəsarəti və şücaəti ilə Qəhrəmanlıq məktəbinin məzunu, Şəhidlik deyilən zirvənin sakini oldular. Həzilərimiz, Qafurlarımız, Mehdilərimiz, İsrafilllərimizin keçdikləri əbədiyyət yolu, qoyduqları iz tarixin və bizlərin qan yaddaşına əbədi həkk olundu. Neçə min ocaqlar sönülü, neçə min qadınlarımız başsız qaldı. Lakin vətən oğullarının bu şücaəti vətən qızlarımızın həyata baxışını dəyişmədi. Onlar daha da mətinləşdi. Qeyrətiylə, namusuyla işlədi, vətənə layiq övlad boyütdülər. Müharibənin verdiyi əzabları çiyinlərində çəkə-çəkə, gecəni gündüzə qatıb bu məşəqqətin hər əzabına sinə gərdilər. "Azərbaycan qadını" adlı müqəddəs varlığı Şəhidlik zirvəsiylə bir tutdular. Zaman dəyişdi, tarix isə təkrarlandı. Bu müharibənin acısını duya-duya, agrısını yaşaya-yaşaya, qəhrəmanlarımızın adını sinəmizə yaza-yaza bir zaman özümüz də bilmədən qəhrəmana çevrildik. Şair Ramiz Duyğunun bir şeirində deyildiyi kimi:

***Məni döyüşə burax,***
***Döyüş düşüb könlümə.***
***Məni döyüşə burax,***
***Qalib gəlib ölümə,***
***Son qoymaqçün xalqımın***
***Ələminə, qəminə!***
***Könlümə döyüş düşüb,***
***Qarı düşmən üstündə***
***İlk qələbə naminə!***
***Son qələbə naminə!***

Qara taleli, qara baxtlı Qarabağımızın başı üstünü qara buludlar aldı. Bədnam qonşularımız- mənfur ermənilər,

rus işğalçıları ilə birləşərək əsrlər boyu vətənimizə qarşı yeritdikləri çirkin niyyətlərini həyata keçirmək məqsədi ilə, qondarma Qarabağ iddiasını irəli sürdülər. Lakin qəhrəmanlar yetişdirən, qəhrəmanlar diyarı kimi tanınan Azərbaycan və onun igid ərənləri, vətənin azadlığı üçün ayağa qalxdılar.

Mustafa Kamal Atatürk yazırdı: ***"...Ən böyük şəxsiyyətlər özlərindən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunmması yolunda həyatını verən insanladır...".***

Bəli, hər bir zaman özünün qəhrəmanını, şəxsiyyətini yetişdirir. Bu gün məhz belə bir şəxsiyyət, iğid ərən, qəhrəman oğul kimi tanınan, adıyla, əməlləriylə tarixdə əbədiyyət qazanan Nazim İbrahim oğlu Cəbrayılov və onun ömür-gün yoldaşı, qəhrəman qadın- sözün əsl mənasında Niğar, Həcər qeyrətli Rəhilə xanım haqqında fikirlərimi qeyd etmək istəyindəyəm.

Haqqında çox yazılıb, çox deyilib Nazimin. Ancaq bu onun bir qəhrəman kimi etdiklərinin hamısını əhatə etmir. Onun yazılmamış iç dünyasına baş vurmaq, yüksək insani və mənəvi dəyərləri ilə oxucularımızinda yaxından tanış olması arzusundayıq.

Qəhrəman təkcə xalqın, millətin qəhrəmanı olmayıb, ayrı-ayrılıqda hər bir kəsin qəhrəmanı, yaddaşlara həkk olunan əyilməzlik obrazıdır. Lakin bu obrazı ümumiləşdirən, şəxsiyyət kimi formalaşdıran və mənəviyyat adlanan bir vicdan kürsüsü var ki, bu da hamıda eyni cür deyildir. Yaxşı və pis işlərimizin dəyər ölçüsü, qiymət vahidi olan vicdan! Nə vaxtsa qəbul etdiyi və uğrunda mübarizə apardığı həqiqəti, haqqı-ədaləti cücərdən və yaşadan, tapınma-

dığı haqsızlığı isə içində boğan Vicdan! Bu dəyər ölçüsü hamıda eyni biçimdə olmur. Bəlkə, onda yaxşı ilə pis seçilməzdi. Hətta qəhrəmanlarımız da.

Vətənin darda olmasını eşidib, harayına gələn, rahat şəraitini, keçirdiyi gözəl həyat tərzini Vətəninə bağışlayan, qucağında böyüdüyü, boya-başa çatdığı, torpağında qarış-qarış gəzdiyi doğma yurdunun harayına rəğmən nər igid kimi meydana atılan Nazim Cəbrayılov. İgid, cəsur, qəhrəman döyüşçü - təmiz vicdan simvolu, kişilik, mərdlik etalonu.

Sanki vətənin bu agır gününü qabaqcadan duyurmuş kimi, o hərbiçi kimi artıq yetişmişdi. Rusiyanın Kalininqrad şəhərində milis məktəbində hərbi zabit peşəsinə sahib olan Nazim Cəbrayılov, vətənində ilk xidmətinə belə başladı. Vətəni uğrunda mübarizəyə!!! Gecəsi gündüzünə, gündüzü gecəsinə qarışdı. Ailəsinin qayğısız və ərköyün böyüyən qəhrəman oğlu, Vətənə ərköyünlük edə bilmədi. Silaha sarılıb, döyüş paltarını geyindi. Çox çəkmədi ki, göstərdiyi şücaəti elə-obaya səs saldı. Düşmənə qan uddurdu. Onların içərisinə vəlvələ saldı. Bundan qeyzlənən mənfur düşmən Nazimin başına qiymət də qoydu. Amma Nazim öz bildiyini elədi. Qana-qanla cavab verdi. Vətəni uğrunda sona qədər mərdliklə vuruşdu.

Təsadüfdən zərurət doğar, deyib atalarımız. Təsadüf elə gətirdi ki, qəhrəmanın həyat yoldaşı Rəhilə xanımla yaxından tanış oldum. Tanışlığımız belə başladı. “Qurban bayram”ında döyüş bölgəsinə - Beyləqan rayonuna əsgərlərlə görüşə gedirdik. Bir şəhid haqqında yazdığım şeiri söyləyirdim. Hamının gözləri dolmuşdu. Bu zaman gözlərini silən bir xanım nəzərimi cəlb etdi.Yaxınlaşıb tanış oldum. Bu Rəhilə xanım idi. Yol boyu ömür-gün yoldaşı

Nazim Cəbrayılov haqqında söhbət etdi:

- Torpaqlarımızda döyüş başlanan gündən dinclik tapmadı. Bizi Bakıda dostunun evinə yığıb, Qarabağa döndü. Könüllülər batalyonunda taqım komandiri oldu. Torpaqlarımızda qanlı döyüşlər gedirdi. Azğınlaşmış erməni faşistləri çoxdan bu müharibəyə hazır imişlər. Nazimin batalyonu ermənilərə göz açmağa imkan vermirdi. Hərbi təcrübəsi böyük olduğundan hamı ona güvənirdi. Arabir, gec-gec də olsa evə gəlirdi. Uşaqlara baş çəkib, tez də qayıdardı. Növbəti dəfə gələndə noyabrın 4-ü idi. Payızın son ayı özünü göstərirdi. Səhər-səhər uşaqların əyin-başından gileylənərək şikayətləndim ki, onlar üçün isti pal-paltar almaq lazımdır, qabaqdan qış gəlir. Bir az imkan eləsəydin, gedib alardıq, dedim. O mənim üzümə qəribə nəzərlərlə baxaraq, çox mehribanlıqla, qayğılı-qayğılı: - "Doğru deyirsən - dedi, - elə mən də onu fikirləşirdim. Əyin-başları qaydasında olmalıdır ki, yaxşı da döyüşsünlər".

Onun məni anlamadığını görüb: "Nazim, mən öz uşaqlarımızı deyirəm, sənsə deyəsən cəbhədəki uşaqlardan danışırsan" - dedim. Sözlərimdən onun nəsə ciddiləşdiyini gördüm. Baxışları da elə bil sərtləşdi, üzümə baxaraq: - "Məni əsgərlərim daha çox narahat edir. Balacalar nə olsa geyinə bilər, evdədirlər. Döyşçülərim isə ev üzü görmürlər. Daim soyuq səngərdədilər".

Nazimin fikri-zikri ancaq cəbhədə idi. Evə də gələndə ürəyi əsgərlərinin yanında qalırdı. Onlar üçün lazımlı şeyləri alıb, maşına yükləyər, tez də qayıdardı. O vaxtın puluyla bir milyon manata qədər maaş alırdı. Onun hamısını əsgərlərə və ehtiyacı olanlara xərcləyərdi. Qadın, ya kişi, fərq eləməzdi, kimin ehtiyacı olsa Nazim kömək

edirdi. Heç kimi əliboş geri qaytarmazdı.

Rahilə xanımla söhbət etdikcə Nazimin həyat yoldaşı olmağından qürur duyması daha çox nəzərimi cəlb edirdi. Sanki Nazim onun haqqında olan söhbəti özü də eşidir, fəxrlə qulaq asırdı. Bunu duyan Rahilə xanım onun vaxtilə komandir olduğu əsgərlərinə qarşı olan qayğısından və elinə-obasına, vətəninə bağlılığından danışırdı. Bu da ərinin ruhuna böyük hörmətin təzahürü olmaqla, həm də Nazim şəxsiyyəti barədə bizlərdə tam təsəvvür yaranmasına kömək edirdi.

Nazim Cəbrayılov bir insan kimi yaddaşlarda xoş xatirələrlə yaşayır. Onu tanıyanlar, qohumlar, dostlar-tanışlar Nazimin yüksək insani keyfiyyətlərindən, mənəvi zənginliyindən ağız dolusu danışır, əzizləyə-əzizləyə xatırlayırlar. O, doğma Vətəni uğrunda sözün əsl mənasında son nəfəsə qədər çalışdı, vuruşdu və qəhrəmanlıqla həlak oldu. Çoxlarının bəlkə də təsəvvür etmədiyi və bacara bilmədiyi bir ölümlə Vətəninin Şəhidi oldu...

...Düşmən tankı irəliləyirdi. Döyüş sursatı tükənmişdi. Səngərdə 28 nəfərlik briqada düşmənlə üz-üzə qalmışdı. Komandir Nazim Cəbrayılov tutduqları mövqeni düşməndən qorumalı, "uşaqlarım" adlandırdığı əsgərlərini döyüşdən salamat çıxarmalı idi. Vəziyyət isə olduqca ağır idi. Düşmənin bir neçə zirehli tankını sıradan çıxartdıqdan sonra Komandir mühasirəyə düşməmək üçün əsgərlərinə geri çəkilməyi əmr etdi. Lakin heç kəs geri çəkilmək istəmirdi. Bu sınaq anında Vətənə əsl məhəbbət hissinin hər şeydən güclü olduğu sərgilənirdi. Ancaq komandirin qəti əmri qəbul olunmalıydı. Komandir əmrini təkrar etdi, "Çəkilməsəniz, sizi özüm güllələyəcəm!" Artıq düşmənin

yaxınlaşdığını görən əsgərlər komandirləri ilə vidalaşıb, onun əmrini yerinə yetirmək məcburiyyətində qaldılar. Çox da uzaqlaşmağa macal tapmayan döyüşçülər çox keçmədən arxada böyük bir partlayış səsi eşitdilər: Nazim Cəbrayılov düşmənin bir tankını da məhv etdikdən sonra, axırıncı qumbaranı belinə bağlayıb özünü düşmənin yaxınlaşmaqda olan daha bir tankının altına atmışdı. Vətənininini ruhuyla, canıyla, bütün varlığı ilə sevən Komandir vətən torpağına qarışmışdı...

Özünün və əsgərlərinin düşmən əlinə keçməməsi üçün bu yeganə çıxış yolu idi. Bu onun son qərarı idi...

Müdriklərdən biri ***"Cəsarət qol gücündən deyil, ruh gücündən yaranır",*** deyib. İgidliyin gücü həm də soyuqqanlı ola bilməyi bacarmaqdadır. Bu mənada cəsarət və iradədən doğulan igidlik xoşbəxtliyə, mübarizəyə aparan fəzilətdir. Məhz Nazimin bu hərəkəti onun mühasirədən çıxartdığı əsgərləri üçün əsl həyat məktəbi və dönüş nöqtəsi oldu. Nazimi itirmək onun döyüş dostları üçün nə qədər ağır olsa da, onun ruhuna hörmət əlaməti olaraq, vətən uğrunda döyüşməyə və lazım gələrsə canlarını qurban verməyə and içdilər. Və bu məqamda türk əsgərinin "Torpaq, uğrunda ölən varsa, Vətəndir!", deyimi yada düşür. Azərbaycan türkləri Nazimin silahdaşlarıda bu anda sona qədər sadiq çıxdılar. Komandirini itirən rotanın 26 nəfər döyüşçüsü qisas üçün geri döndülər, döyüşləri davam etdirdilər, yalnız iki nəfər əsgərdən başqa hamısı qəhrəmancasına həlak oldu. Komandir isə "balalarım" dediyi, onların xilası naminə vaxt qazanmaq üçün özünü qurban verdiyi döyüşçülərinin həlak olmalarını görmədi... Yaxşı ki görmədi...

Ölümündən qabaq kapitan rütbəsi almışdı Nazim. Lakin bu rütbəni daşımağa ömür möhlət vermədi. Onunla bir səngərdə son damla qanına qədər vuruşan silahdaşları - Mahir Hüseynov, Əkbər Fərəcov, Şamil Rəcəbov, Adil Hüseynov, Rabil Hüseynov, Cahid Mehtiyev, Kamil Məmmədov, Mehman Gülmalıyev, Fərhad Əsgərov, Xasay Teymurov, Teymur Yusifov, German Göyüşov, Fazil Zeynalov, Məmmədağa Məhərov, Ramil Quliyev, Zaur Əmirov, Abil Əmirov, Nəriman Nərimanov, Elşən Hümbətov, Murad Muradov, Habil Teymurov, Elxan Həsənov, Tofiq Əliyev, Fizuli Hüseynov, Şamil İsmayılov- bizim adlarını fəxrlə çəkdiyimiz qəhrəmanların cərgəsindədi.

Bütün mətbuat Nazimdən və onun cəbhə dostlarının əzmkar mübarizəsindən, keçdiyi həyat yolundan, qəhrəmanlığından ürəkdolusu yazdı. Özü də çox dəyərli qələm sahibləri. Televiziya kanalları Nazimin igidliyindən, göstərdiyi şücaətdən verilişlər hazırladı, içtimaiyyətə göstərdi. Bu onların mənəvi borcu olsa da, xalq Nazım Cəbrayılovu bir qəhrəman kimi vaxtında tanımalıydı. Tanıdı da. Lakin sözümüzdə, yazılarımızda, ürəklərimizdə qəhrəman kimi yaşayan bu insanı, bu gün biz tanıdığımız qədər gələcək nəsil də tanımalıdı. Bunun üçün isə onun Milli Qəhrəman adına layiq görülməsi təqdirəlayiqdir. Biz tarix yaradan qəhrəmanlarımızı yaşatmaq üçün onları yaxından tanımalı , sevdirməli, və milli yaddaşımıza həkk eləməliyik. Onların təbliği Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə milli qəhrəmanlıq səviyyəsinə qaldırılmalı və tarix dərsliklərində öz əksini tapmalıdır. Keçmiş qəhrəmanlarını unudan xalq, gələcək qəhrəmanlarını yetişdirə bilməz.

Üç körpəsini qoyub getdiyi qəhrəmanın ömür-gün yoldaşı Rahilə xanımın da fədakarlığı unudulmaz və ölçüyəgəlməzdir. Onun Nazimin adına, ruhuna necə hörmətlə yanaşması, heç kəsin nəzərindən kənarda qalmadı. Bütün agrılara, çətinliklərə sinə gərən Rəhilə xanım Nazimsiz, Nazimli ömrünü yaşaya-yaşaya, onun yadigarlarını elə böyütdü ki, onlar atasız olduqlarını belə hiss etmədilər. Övladlarına layiqli ana olmaqla yanaşı, ata da oldu, dəyərli və nümunəvi qadın simvoluna çevrildi. Ön cəbhədə qəhrəmancasına həlak olan yoldaşı və eləcə də gül balaları üçün arxa cəbhənin əsl qəhrəmanı oldu.

Həyatın da özünəməxsus qəribəlikləri var. Və bizi Yaradan, bu qəribəlikləri qanunauyğun şəkildə qismət deyilən bir alın yazısında elə nizama salır ki, istər-istəməz vaxtilə qəbul edə bilmədiklərimizi taleyin qədəri kimi onunla razılaşırıq. Məhz elə Rahilə xanımın da heç vaxt yuxusuna gəlməzdi ki, bir zaman Nazimlə keçirdiyi xoşbəxt günlərinin belə acı sonluğu olacaq. Özü də belə tez və gözlənilmədən. Və onu üç körpə ilə birgə yarıyolda "qoyan" Nazim, həyatın çətin, əzablı yollarını keçməyi ona "öyrədəcək", ruhən ona "dəstək" olacaq. Ancaq özündə qüvvə, cəsarət tapan, Nazimin sevgisindən güc alan, onun qəhrəmanlığıyla fəxr edən Rahilə xanım, nağıllardakı kimi bənzərsiz bir qəhrəmana çevrilir. Koroğlunun Nigarına, Nəbinin Həcərinə. Bu onun qanından, qeyrətindən və ömür-gün yoldaşına olan sonsuz məhəbbət və hörmətindən irəli gəlir. Nazim Cəbrayılov tanınmış, nüfuzlu bir ailənin övladı idi. Atası Əlifoğlu İbrahim "Əlifoğlu"lar nəsli kimi eldə-obada tanınmış bir nəsildən idi. Anası Eyvazlı Mehdiqulunun qızı Xalidə xanım Qarabağın kübar xanımlarından olub.

Rəhilə xanımın fikirlərinə üz tuturam: Mən elə bir ocağın gəlini olmuşam ki, o ocaqda sadəlik, mənəviyyat, hörmət çox yüksək olub. Qaynanam türk şairi Nazim Hikməti çox sevirdi. Odur ki, oğlunun birinin adını Nazim, o birisinin adını Hikmət qoyub. Bu evdə türk xalqına, onun ədəbiyyatına, şeirə, sənətə, musiqiyə böyük hörmət görmüşəm. Evin yuxarı başına pianino qoyulmuşdu. Qardaşların ikisi də çox gözəl çala bilirdilər. Onların söhbəti klassik ədəbiyyatımızdan, tariximizdən qaynaqlanardı. Belə bir müasir dünyagörüşlü, ziyalı ailənin gəlini olmaq ən böyük xoşbəxtlik deyildimi?

Bəli, yenə xoşbəxtlik... Bu xoşbəxtliklərin pərvazında qol-qanad açan Rəhilə xanım, hələ də o abı-havada, o əvəzedilməz günlərin bahar qoxusundadır. Ona elə gəlir ki, heç kəs bu gözəllikdən onu ayıra bilməz. Danışdıqca o səadət dolu günlər dodağındakı gülüşə, yanagındakı təbəssümə çevrilir, hardasa o günlərin çox uzaqda olmamasını hiss edırsən. Və bəlkə də qayıtmasını gözləyir. “Nazim sağdır, o günlər yenidən qayıdacaq. Biz yenidən xoşbəxt olacağıq”, deyə-deyə, Nazimin yoxluğunu qəbul edə bilməyən, hər zaman xəyallarıyla özünü də, Nazimi də yaşadan Rəhilə xanımın gözləri dolur, uzaq bir nöqtəyə zillənir. Göz yaşlarını onu dinləyənlərdən gizlətmək üçün gülümsəməyə çalışır. Və ani bir ötkəmliklə qürurunun sınmasından ehtiyatlanaraq, onun yaddaşında silinməyən sözlərini xatırlamağa çalışır və onunla təskinlik tapır:

- Bir dəfə əsgərlərə aparmaq üçün maşına ərzaq yüklənirdi. Birdən balaca oğlum əlini atıb, nəsə götürmək istədi. Bunu görən kimi atası yaxınlaşıb oğlunu qucağına götürdü, kövrək baxışlarıyla onu süzdü, dərindən köks ötür-

dü və başını sığallayıb, ona :-Cəbhədə döyüşənlərin bu ərzağa daha çox ehtiyacı var.

- Biz onun xüsusiyyətlərini bilirdik. Bu onun insanlığı idi. O qıymaz idi ki, əsgərlərinin adına alınan bir şeyə əl vurulsun. O canıyla, qanıyla bağlıydı Vətənə və onu qoruyanları öz doğma balaları hesab edirdi.

Nazimin qəhrəmanlığından danışa-danışa, özü də bir qəhrəmana çevrilmişdi Rəhilə Cəbrayılova. Bunu, o, özü hiss etməsə də, onu tanıyanlar qəhrəman, igid bir qadın kimi sevir, ona hörmət bəsləyirlər.

Ömür-gün yoldaşının dediyi bir fikri müdrik kəlam kimi özünə örnək seçib: ***"Kişi qızı olmaq azdır, gərək kişi arvadı olmağı bacarasan"***. Bu şüar onun həyat yolunun meyarı olub. Həqiqətən sinəsinə döyərək, bir kişi arvadı kimi və bir azərbaycanlı qadını kimi fəxrlə öyünməyə haqqı var Rəhilə xanımın.

Bəli, "Azərbaycan qadını" adını yüksəkliklərə qaldıran, onun enməzliyinə mənliyi, ləyaqəti və məğrurluğu ilə sipər olan, sədaqəti, etibarı ilə sadiq qalan Rəhilə Cəbrayılova kimi qadınlar bizim fəxrimiz və örnəyimizdir. Bu məğrurluq vətənin şərəfini, onun yolunda Şəhid olmuş qəhrəmanın qeyrətini qorumaqdır. Öz məlahətliyini, zərifliyini itirmədən dözümünə, iradəsinə arxalanan bu xanım, həyatın çətinliklərinə mərdliklə sinə gərərək, daxilində bir mənəviyyat yaşadıb. Bir şeyi yaddan çıxarmamalıyıq ki, tarix boyu bizim qadınlar abır və ismət rəmzi olublar. Bununla bərabər ömürləri boyu güc və mərdlik rəmzi sayılan kişilərimizlə yanaşı addımlayıb, müəyyən məqamlarda onları əvəz etməyə çalışıblar. Bəzən qadın Tomris səviyyəsinə yüksəlir, lakin bütün hallarda qadın olaraq qalır.

Qədim Çin kəlamında deyilir: ***"Su dünyada ən yumşaq və zərif şeydir. Amma bərk və möhkəm maneəni dağıtmaqda tayı-bərabəri yoxdur".*** Bəli, zərifliyi və yumşaqlığı bacaran qadın ən çətini və keçilməzi keçir. Bu mənada ictimai və pedaqoji sahədə özünü tam qurmağı bacaran, olduğu kimi tanıdan və sevdirən Rəhilə xanım, kollektiv və Nazimsevərlər içərisində böyüklüyü, nizam-intizamı ilə seçilir. Tərbiyəçi-müəllim, tərbiyəçi-qayğıkeş ana kimi heç kəsdən kömək ummadan, atasız üç övlad böyüdüb, onlara ali təhsil vermək əsl qəhrəman qadının rəşadətindən irəli gəlir. Bu fəxrdi, bu qürurdu. Allah bu varlıqları sizdən əskik eləməsin Rəhilə xanım.

Mən Cəbrayılovlar haqqında bir daha onu xatırlatmaq istəyirəm ki, nümunəvi Azərbaycan ailəsi kimi tanınan, bu günümüzün və sabahımızın örnəyi olan və cəmiyyətdə xüsusi ilə vətənpərvər mövqeyi ilə seçilən bu ailə vətənimzin güvənc və inanc yeridir.

Sonda bir neçə fikirlərimi qeyd etməyi özümə borc bilirəm. "Azərbacan Bayrağı" ordenli, şəhid Nazim Cəbrayılovun hal-hazırda qəbri yoxdur. Onun rəmzi qəbrinin qoyulması, göstərdiyi rəşadətə görə Milli Qəhrəman adına layiq görülməsi xalqımız tərəfindən dəstəklənib. Bu haqda hörmətli Prezidentimizə müraciət qəbul olunmasını bütün Nazimsevərlərdən xahiş edirik.

Qoy Nazim Cəbrayılov kimi qəhrəmanlarımızın adı Milli Qəhrəman kimi tarıximizin səhifələrində fəxrlə çəkilsin. Şəhidlərimizlə bərabər onun qəbri ziyarət olunsun. Cəsarət simvolu kimi, qəhrəmanlıq rəmzi kimi qəlbimizdə əbədi yaşayan, ürəklərimizi fəth edən xalqımızın bu igid oğluyla tarixi qəhrəmanımız kimi fəxr edək. Xalqımız

qəhrəmanlarını həmişə uca tutur və onları heç zaman unutmur. Buna bizim heç birimizin haqqı yoxdur. Unutmayaq ki, qəhrəman hər birimizin azadlığı və torpağımızın bütövlüyü uğrunda canından keçən fədakarlardır.

Allahdan Nazim Cəbrayılova, bütün şəhidlərimizə rəhmət diləyirəm.

Rəhilə xanım Cəbrayılova kimi qadınlarımıza səbr, dözüm və **QADINLIQ** zirvəsindən enməməyi arzulayıram.

O gün olsun ki, Qarabağımız düşmən əsarətindən qurtarsın. O gün olsun ki, o torpaqlarda didərgin şəhid ruhları rahatlıq tapsın. O günə inanıram. Nazim kimi igidlərimiz yenidən yetişəcək, yağı düşmənlərdən torpaqlarımızı geri alacaq. Amin!

***Həsrət qaldım doğma elə,***
***Yanıb-yanıb döndüm külə,***
***Şuşamızda bitən gülə,***
***Kaş çataydı əlim, Allah.***

***Ünüm çatmır Murov dağa,***
***Canım Ağdama sadağa,***
***Vətənimiz Qarabağa,***
***Nə vaxt düşər yolum, Allah?!***

***Nəcibə İlkin,***
***şair- publisist,***
***“Azad Qələm” qəzetinin baş redaktoru,***
***“Qızıl qələm” mükafatı laureatı***

## ŞƏHİDLƏR
## XALQININ QƏHRƏMANLIQ TARİXİNİ YAZIRLAR.
## QƏHRƏMANLIQ QOCALMIR



Bu yazıya başlamazdan öncə, nələr keçmədi beynimdən?.. Nələr gəlmədi göz önünə?.. Acılı-şirinli xatirələr... Uşaqlıq, gənclik illərimin yaddaşına şirin, gözəl təəssüratlarla hopmuş, mənə çox doğma, ab-havası səfalı, yayları çal-çağırlı, zəngin mədəniyyətli, başı cəfalı tarixli, öz musiqisi, şeiriyyatı və bütün bunları yaradan, iştirakçısı olan, vəsf edən insanları ilə digər rayon və şəhərlərdən özünəməxsus danışıq tərzi, şivəsi, və bu kimi bir çox məziyyətləri ilə seçilən, sevilən, indisə, əlim çatmayan Şuşam yadıma düşdü, cənnətməkan Qarabağım yadıma düşdü...

Bu şəhərdə doğulub-böyümək, qismətimə düşməsə də, mən bu məkanı özümə çox doğma, əsl vətənim (anam Şuşadandır, bura ana vətənimdir) hesab etmişəm. Valideynlərimlə Azərbaycanın başqa dilbər guşələrində yay tətillərini keçirsək də, istirahətdə olsaq da, ola bilməzdi ki, 10-15 günlüyə də olsa, əsrarəngiz gözəlliyi ilə hamını heyran qoyan, özünə cəlb edən bu doğma şəhərə gəlməyək, baba yurdumuzda dincəlməyək... Şuşa təkcə yay aylarında deyil, ilin bütün fəsillərində gözəl idi, qışda isə



***Şuşa. Hamının sevimli seyrəngah yeri məşhur "Cıdır düzü"***



***Şuşa. Qala divarları***



bircə dəfə tələbəlik vaxtı qış sessiyasından sonra oldum. Sakit şaxtalı havada, günəş şüalarının altında göz qamaşdıran qarın bəyazlığı, ayaq altında xışıltılı səsi, təmiz mavi səması qardan ağ papaq geymiş evlərin daşları, minarələrin gümbəzləri, hər şey göz oxşayırdı...

Belə bir cənnət məkanda doğulan, böyüyən insanların xasiyyəti də sanki bu təbiətlə həmahəng olurdu. Şuşalılar təbiətən incə təbli, həssas, gözəlliyi qiymətləndirə bilən, şairanə, poetik ruhlu insanlardılar. Hər bir Şuşalıya xas olan həyata, torpağa, Vətənə bağlılıq, məhəbbət, comərdlik, yüksəklikləri fəth etmək qabilliyəti də elə buradan bəhrələnirdi.

XIX əsrin əvvəllərindən başlayan, XX əsrin sonunda isə xüsusi vüsət almış və indiyədək davam edən, vaxtaşırı baş qaldıran mənfur, xəyanətkar erməni "qonşularımızın" kənar havadarları tərəfindən qızışdırılan torpaq iddiası ilə Qarabağ torpaqları üstündə aparılan murdar siyasətdən doğan ziddiyyətlər, müharibəyə, qırğına çevrilən proseslərə biganə qalmayan Qarabağda dünyaya göz açmış, o torpaqdan su içib, böyüyüb ərsəyə çatmış, torpağa məhəbbətlə duyğulanmış, mərd təbiətli, elin qeyrətli oğullarından biri də Əlif oğlu İbrahimin oğlu Nazim Cəbrayılovdur.

Nazim 1949-cu ildə Ağdamda, camaat arasında sayılıb-seçilən "Əlifoğlu" İbrahim kişinin ailəsində anadan oldu.

Nazim orta və ali təhsilini bitirdikdən sonra respublikamızdan kənarda təhsilini davam etdirərək təkmilləşdi, Türkmənistanın Aşqabad şəhərində məsul işlərdə çalışdı.

80-cı illərin sonlarından başlayan və "böyük ermənistan" yaratmaq iddiasında olan xain ermənilər əvvəllər özlərini dost, "kirvə" kimi tanıdan, sonradan isə satqın xis-

lətləri üzə çıxan bu daşnakların azğınlıqlarına dözə bilməyənlərdən biri də Nazim oldu.

İsti, rahat şəraiti buraxıb, bu hadisələrə biganə qalmayan elin təəssübkeş oğlu Vətənin çağırışına ilk hay verənlərdən oldu. Gecə-gündüz soyuq səngərlərdə, döyüş meydanlarında həmişə öndə oldu. Üç balasını və qeyrətli həyat yoldaşı Rəhiləni, anasına, atasına, xalalarına tapşırıb cəbhəyə getdi.

Nazim Cəbrayılov 1994-cü ilin 18 aprelində Ağdamın Cəvahirli kəndi ətrafında gedən qeyri-bərabər qanlı döyüşlərdə, düşmən doğma torpaqlara daxil olmasın deyə özünü tankın altına atıb, qumbarası ilə zirehli maşını partlatdı, neçə-neçə düşmən leşini torpağa sərdi. Komandiri olduğu taqımın gənc döyüşçülərinin xilası naminə öz canını qəhrəmancasına qurban verdi. Öz adını Azərbaycanın mənfur ermənilərlə döyüş tarixinə şərəflə yazaraq, şəhidlik zirvəsinə qalxdı.

Qarşımda bir çox qəzetlərdə onun haqqında həm sağlığında, həm də ölümündən sonra müxtəlif illərdə yazılmış materiallar, məqalələr var. Həyatda özünü görmək şərəfinə nail olmamışdımsa da, gözümün önündə onun portreti, şəxsiyyəti canlandı, qarşımda sözün əsl mənasında məğrur bir igid, Vətənini sonsuz məhəbbətlə sevən, qeyrətli oğul, qeyrətli ata, qeyrətli həyat yoldaşı, güvənməli dost gəlib dururdu...

Bu aslan ürəkli zabitin həyat yoldaşı Rəhilə xanımla ilk tanışlığım Ulu öndərin dəfn mərasimi günündə oldu.

Biz, müxtəlif Qadın təşkilatlarının fəal nümayəndələri böyük izdihamla birlikdə addımlayır, Respublika, indi isə Heydər Əliyev adlandırılan saraya doğru gedirdik...

Hamı astadan söhbət edə-edə, tanış olur, fikir bölüşdürür, bu ağır itkiylə barışmağa çalışırdı...

Sağımda çox məlahətli bir qadın kişi hünəri ilə gedirdi... Sonradan söhbətdən məlum oldu ki, bu xanım, bir qədər irəlidə haqqında söz açdığımız qəhrəman Nazim İbrahim oğlu Cəbrayılovun həyat yoldaşıdır. Biləndə ki, mənim anam ellisidir, Şuşadandı, doğmalar kimi bir-birimizi qucaqladıq. Bu məni çox təsirləndirdi.. Bu istiqanlılıq bizim torpağın suyundan irəli gəlirdi...

Böyük şəhərlərin sakinləri çox vaxt bir-birini tanımadığı halda, rayonda belə deyil.

Yaydan-yaya getdiyim vaxtlarda Şuşada belə bir adət var - evə dönənə kimi yol boyu rastlaşdığın hər kəs hal-əhval tutur, səni qonaq dəvət edirlər. Qayda belə idi.. Xalamgildə verilən ziyafətlərdə kimləri görməmişdim, ilahi! ... Şuşanın yerli ziyalıları, Bakıdan gələn, əslən şuşalı olan Süleyman Ələsgərov ailəsi ilə, Xan Şuşinski ailəsi ilə, Bədəlbəylilər ailəsi və daha nə qədər tanınmış insanlar....

Bu isti münasibətlərdən, ünsiyyətlərdən məhrum olan, müharibədən sonra respublikanın müxtəlif şəhər və rayonlarına didərgin, köçkün düşmüş şuşalılar xüsusilə də, yaşlı nəsil onlara yad olan soyuqqanlığa, biganəliyə, yurdsuzluğa, vətəndə vətənsizliyə dözüm gətirə bilmədilər, çoxları dünyasını erkən dəyişdi...

Rəhilə xanımla görüşümdə həsrətində olduğum həmin mehribanlığı görüb təsirləndim. O, mənə lap çoxdan tanıdığım bir rəfiqə təsiri bağışladı.

Şuşada Mərkəzi rayon kitabxanasının müdiri işləmiş Şura xalamdan, Şuxəddin xalam və onun həyat yoldaşı Ramizlə atası Qaçay müəllimin çox səmimi münasibətlə-

rindən söhbət etdik.

Xatirələr canlandı... Ünsiyyətimiz zamanı mən, bu qadının dəyanətinə, mətinliyinə, iradəsinə, evini-yurdunu itirməsinə, həyat yoldaşı itkisinə mərdliklə sinə gərən bu məğrur Şuşalı qızına heyran olmuşdum.

Şuşanın gözəl vaxtlarında müxtəlif məsul vəzifələrdə işləmiş, sonralar isə maliyyə şöbəsinin müdiri olmuş el ağsaqqalı Qaçay Məmmədovun - əsl vətənpərvər, ziyalı, hünərli, duz-çörəkli bir kişinin belə də qızı olmalıydı...

Sonralar tez-tez müxtəlif tədbirlərdə mən Rəhilə ilə görüşürdüm. Onunla daha yaxın münasibətdə olduqca məndə yaratdığı ilk təəssüratın təsdiqini gördum. Qarabağsız olan qarabağlıların xeyir-şər mərasimlərində görüşdükcə, bu insanların ruhdan düşməmələrinə, gələcəyə olan inamlarına, işgüzarlıqlarına, dəyanətlərinə heyran olurdum, bu insanlara hörmətim bir az da artırdı. Vətənə igid oğullar, şəhidlər verdiklərinə rəğmən özlərini o adlara layiq aparmaları özü də bir hünər idi. Mən bu insani ucalıq qarşısında baş əyirəm!..

İgid, comərd Nazimın övladları atalarının adına layiq yaşayır, həyatda öz sözlərini deməyi bacarır, özlərinə hörmət qazana bilirlər. Rəhilənin övladlarıı - 2 qızı və 1 oğlu öz təhsilləri, əməlləri və davranışları ilə analarının əməyini yerə vurmadılar, onun fəxr yerinə çevrildilər. Atanın adını nəvəyə qoyaraq, əzizlədilər.

Vətən Nazim kimi oğulları unutmur, ununtmayacaq da! Belə insanlar zaman-zaman yer üzünə gəlir, seçilmişlərdən olur, yaddaşlarda həkk olunur, ürəklərdə yaşayır!

Nazim Cəbrayılovun ölümündən sonra ölkə başçısı tərəfindən Respublikanın ən ali ordeni olan “Azərbaycan

Bayrağı" ordeni ilə təltif edilməsi bü cəsur zabitin qəhrəmanlığının rəsmi təsdiqi oldu..

Vətənin qəhrəman oğulları bizim fəxrimizə, and yerimizə çevrilən xiyabanlarda uyuyur, adları yaşadıqları qəsəbələrə, kəndlərə, işlədikləri müəssisələrə, oxuduqları təhsil ocaqlarına verilir. Onların həyat yolları, əqidələri, amalları, dəyanətləri, cəsarət və igidlikləri yüzlərlə, minlərlə cavana örnək olur... Yeni-yeni Nazimlər, Ramizlər, Əşrəflər, Sərxanlar doğulur. Vətənin çağırışına daim hazır olan oğullar, qızlar böyüyür.

Vətən! Doğma Qarabağ! Gözlə, biz mütləq sənin doğma qucağına qayıdacağıq. Səni mütləq mənfur erməni qəsbkarlarından, düşməndən azad edəcəyik! İgidlərimizin can qoyduğu torpağa  baş əyib, səcdə edəcəyik! Məzarları belə bilinməyən şəhidlərimizin qanı tökülmüş torpağını öpəcəyik, düşməndən onların qisasını alıb, ruhlarını şad edəcəyik!!! Xarıbülbül bitirən torpağı əbədi ziyarətgaha çevirəcək, igid oğulların şərəfinə heykəllər ucaldacağıq! O gün çox da uzaqda deyil!

***Nazim bir qəhrəmandır,***
***Diyarı dağ, arandır,***
***O ölməyib! O sağdır!..***
***Daim yaşar, yaşardır!.***

***İgidlər unudulmaz!***
***Tarix - faktdır, pozulmaz.***
***Düşmənin qan qusacaq,***
***Nahaq qan yerdə qalmaz!***

*Əzizim nələr oldu?...*
*Quzular mələr oldu..*
*Dünənin oğulları*
*Vətənə gərək oldu.*

*Düşmən səngərə çatdı...*
*Torpaqlar qana batdı.*
*Nazim əldə qumbara*
*Özün tank alta atdı.*

*Əzizim, həvəslədi,*
*Ana oğul bəslədi.*
*Torpağı basılarkən,*
*Vətən oğul səslədi.*

*Şirin-şəkər noğullar,*
*Ər böyümüş oğullar,*
*Vətənin xilasına*
*Sinə-sipər durdular!...*

*Əzizim belə olmaz!*
*Ümid doğular, solmaz.*
*Torpaqlar alınacaq -*
*Ayaqlar altda qalmaz!*

*Ağlama yana-yana,*
*Həyat bitmir, duysana?..*
*Üç övladı böyütdü,*
*Səcdəyə layiq ana!*

*Ərə vəfalı qadın,*
*Nə dostun, nə də yadın*
*Yanında əyilmədi -*
*Ucaltdı sənin adın!*

*Dərdi boğub içində,*
*Asi düşmədi göyə*
*Durdu, dözdü möhnətə,*
*Ruhun şad olsun deyə!...*

***Sədaqət Rəşad,***
***Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasının Qadınlar Şurasının sədri,***
***“Qafqaz MEDİA” ictimai birliyinin şöbə müdiri,***
***həkim-şairə***

*Azərbaycan xalqı dünyanın ən igid, comərd,*
*çalışqan və anlayışlı xalqlarındandır.*
*Tarixin faciəsi onu parçalamışdır.*
**Cavad Heyət**




*Qədim Şuşa. Gəncə Qapısı*



*Rəhilə OrXAN*

# DÜNYA SƏNSİZ...
# ...DÜNYAM SƏNLİ...

*Bir də görürsən ki, açılan solur,*
*Düşünən bir beyin bir torpaq olur.*
*Bir yandan boşalır, bir yandan dolur,*
*Sirrini verməyir sirdaşa dünya.*

*Səməd Vurğun*

## NAZİMİM

*Vətən, Vətən! deyib, ölümə getdin,*
*Vətən qürbətində qalan Nazimim.*
*Nə suya tutuldun, nə də kəfənə,*
*Cavankən həyatı talan Nazimim.*

*Gözlərim yoluna dikilib hər an,*
*Sənsizlik qəlbimdə qoparıb tufan,*
*Sənsiz yollarım da borandı, boran.*
*Özümü-özümdəm alan Nazimim.*

*Sən qeyrət qalası oldun Vətənin,*
*Vətən də oğlu tək yaşadır səni,*
*Hünərlə susdurdun yağı düşməni,*
*Doğma torpağında solan Nazimim.*

*Üç körpəm olubdu təkcə həyanım,*
*Tanrı güc verib ki, dözüm, dayanım,*
*Sənin yoxluğuna necə inanım?!-*
*Gəlişi, gedişi yalan Nazimim.*

*Səninlə fəxr etdim, - ucadır adın!*
*Sönməz ürəyimdə atəşin, odun.*
*Sən mənim kədərim, sevincim oldun*
*Ömrümə bir ömür olan Nazimim.*

*Rəhilə OrXAN*
*2001-ci il*

## SƏNİ BİZDƏN ALAN DÜNYA BİR DƏ GERİ VERƏRMİ?..

Bu gün mən şəhid anası - Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərovanın anası, "Şəhid anaları mərkəzi"nin sədri, daha doğrusu şəhidlər anası, şəhidlərin balalarının nənəsi, şəhid gəlinlərinin, həyat yoldaşlarının məsləhətçisi, örnəyi bitib-tükənməyən səbri, enerjisi ilə, bu günün işini sabaha qoymayan, vətənpərvər qadın Rəfiqə xanım Əsgərovadan tapşırıq aldım. Şəhid Nazim Cəbrayılovun uşaqlıq illərindən, məktəb illərindən, institutda oxuyub işlədiyi vaxtdan, ta şəhidlik zirvəsinə qədər olan bir yola nəzər salmaq, onun ömür yolunu qələmə almaq tapşırığı...



*Qarabağın bənzərsiz mənzərələrindən*

*Xoşbəxtlik bu rəngdə olurmuş demə...*

Əlbəttə, bu, ananın anaya olan tapşırığı idi. Bu yuxarda sadalananlara Nazimin öz anası cavab verməli idi. Mən isə Nazimin uşaqlarının anasıyam. Lakin çox təəssüf, min təəssüf ki, Qarabağda xanımlar xanımı kimi tanınan Xalidə ana artıq həyatda yoxdur. O bəxtəvər ana ki, oğlunun şəhid gününü görmədən ondan bir az qabaq həyatdan getmişdi.

Bu ağır, ikiqat ağır yükün altına mən - evin gəlini Rəhilə girməli oldum. Nazimin mənə əmanət etdiyi 3 övladla birlikdə. Bir mahnıda deyildiyi kimi:

***Sənli xatirələr coşğun çay kimi,***
***Çağlayır qəlbimdə Ağdamım mənim.***

Uca dağlar arasında bir diyar var - Ağdam! Bu diyarın gözəl havası, minbir dərdin dərmanı olan bulaqları yağı düşmənin gözünə ox olub batdı. Eyniylə "Dədə Qorqud" dastanındakı Qazan xanın yurd-yuvası kimi. Qarabağ igidlər diyarı idi. Qazan xanın igidləri kimi. Qadınları Burla Xatun misallı idi. Bu diyarın igidlərini düşmənin gözü götürmədi.



***Bir yaşlı Nazim atası İbrahim kişinin quçağında***

Düşmən yenə bizi arxadan vurdu. Pusqular

qurdu, gecələr vurdu.

Belə bir diyarda 1949-cu ilin yazında Xalidə ananın və İbrahim Əlif oğlunun 3-cü oğul övladı dünyaya gəlir. Ananın altı bacısı var idi. Qardaşı yox idi. Ona görə də üçüncü oğulun dünyaya gəlişi baba evinə böyük sevinc gətirir. Uşağın adını Nazim qoyurlar. (Bütün bunları mənə Xalidə ana söhbət eləyərdi. Çünki mən ixtisasca filoloq idim. Ana da şeir, sənət aşiqi idi.) Xalalar böyük həvəclə uşağın nazını çəkirlər. Hətta ananın dediyinə görə ata babası onu “Lazım balam” deyə çağırarmış. Bəlkə də bu dünyagörmüş babanın qabaqcadan görmə hissiyyatı, qabiliyyəti imiş - hiss edirmiş ki, nəvəsi Nazim Qarabağın lazımlı oğlu olacaqdır.

Ana söyləyərdi ki, Nazim çox incə duyumlu, həssas qəlbli uşaq idi. Ad günlərindən birində - öz gözəlliyi ilə qadınlar arasında seçilən Adilə xalası ona qarmon bağışlayır. Xala onu qarmon çalmağa həvəsləndirir, balaca Nazimi özü ilə məktəb tədbirlərinə apardı. Qarmonu səhnəyə çıxarmağa gücü çatmayan Nazimə uşaqlar köməklik edərmiş. Çox sonralar Adilə xalası bunları həvəslə uşaqlara danışıb, gülərdi. Artıq qarmon çalmağı bacaran Nazim gənc yaşlarında piano çalmağa başlayır. O, böyük həvəslə pianoda “Cahargah” muğamını ifa edərdi. Ümumiyyətlə Nazim də, kiçik qardaşı Hikmət də boş vaxtlarında, bayramlarda, ailənin əlamətdar günlərində piano arxasında əyləşib sevdikləri mahnıları ifa edərdilər.

Nazimin şəhidlik xəbəri xalaya ağır zərbə oldu. “Naxışgöz balam” deyə-deyə az bir vaxtda, dünyadan köç etdi Adilə xalası. Qardaş zərbəsi aldı xalalar! Bir-birinin dalınca yana-yana köçdülər bu dünyadan. Hərəsi mənə

min öyüd-nəsihət etdi, yol göstərdi xalalar!

***Əzizim mərdə qoymaz,***
***Xalın namərdə qoymaz.***
***Gəlinimiz qeyrətlidir - ölər,***
***Nazimin balalarını minnətə qoymaz!***

Qaldı yaddaşımda, həkk oldu beynimə bu sözlər, nəsihətlər. Axı Nazim də, mən də xalaları sevir, hörmət göstərir, yaşlısının qayğısını çəkərdik. Bunu bilənlər çoxdur.

Mən də özlüyümdə xalalara belə cavab verərək, onları xatircəm etdim:

***Əzizim, tağım ağlar,***
***Basma, yarpağım ağlar.***
***Sağam - özüm ağlaram,***
***Ölsəm, torpağım ağlar.***

Arxayın yatın o dünyada Xalidə ana, xalalar. Siz mənə etibar edirdiniz, bel bağlayırdınız. Mən Sizin ruhunuzu inciməyə qoymayacağam, qoyduğunuz yolu davam etdirəcəyəm. Rahat uyuyun!

...Günlər keçdi. Nazim Ağdam şəhər 1 saylı orta məktəbi bitirdi. Elə həmin il - 1966-cı ildə sənədlərini Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna verdi. Ata-ana oğulları imtahan verib qurtarana qədər şəhərdə - Bakıda qalırlar. Nazim qəbul olunmaq haqqında sənədi aldığı həmin günü əbədiləşdirmək üçün birlikdə şəkil də çəkdirirlər.

***Məni görən ağlasın,***
***Dərdim bilən ağlasın.***
***İndi görən tanımaz,***
***Əzəl görən ağlasın.***

*(Anası Xalidə xanımın dilindən)*

## QAYĞISIZ GƏNCLİK İLLƏRİ

Gözəl, qayğısız tələbəlik illəri arxada qalır. Bu illərdə Nazimin qazancı yaxşı tələbə yoldaşları, həm də yaxşı dostları olur.



*Nazim valideynləri Xalidə xanım və İbrahim kişi ilə*



*Kalininqradda təhsil illəri*





## NAZİMİN ÖMÜR YOLUNUN TÜRKMƏNİSTAN SƏHİFƏSİ

Turan adlanan geniş məkanda hamının sevdiyi, bildiyi məşhur bir mahnıda deyilir:

***Özbək, türkmən, uyğur, tatar, azər bir boydur,***
***Qarakalpaq, qırğız, qazax bunlar bir soydur.***

Təhsilini bitirdikdən sonra Nazim Türkmənistana, Aşqabad şəhərinə gəlir və Daxili İşlər Nazirliyinin SƏDM bölməsində işə başlayır. Burda işlədiyi müddətdə xasiyyətinə rəğmən haqsızlığa dözmür, hər bir işə haqq-ədalətlə yanaşır.  Bu xüsusiyyətlərinə görə türkmənlər arasında böyük hörmət qazanır. Bunu Ağdamdan işlə əlaqədar Aşqabada gedən vəzifə adamları da qayıdanda atası İbrahim kişiyə söyləyirmişlər. Təsadüfi deyil ki, məhz buradakı xidməti dövründə Nazimə baş leytenant rütbəsi verilmişdi.

Türk xalqları ailəsinə mənsub olan türkmənlər Nazim üçün doğma insanlar idilər. Nazimin həyatında Türkmənistanın, türkmən xalqının xüsusi yeri var idi. Bu sadə, zəhmətkeş insanlar haqqında həmişə böyük hörmətlə, həvəslə danışardı. Qonaqpərvər, səmimi, xeyirxah, halal insanların yaşadığı bu ölkədə o, özünə çoxsaylı dost, tanış qazanmışdı. Onların xeyir-şər mərasimlərinin iştirakçısı olan Nazim bu xalqın adət-ənənəsini qəbul edir, öyrənirdi.  Türkmən mətbəxi, süfrəsi çox xoşuna gəlirdi. Hətta Vətənə qayıdandan sonra belə çox bəyəndiyi, türkmənlərə xas xalçalı taxt, mütəkkə və döşəklər dəstgahını eyniylə öz  evimizin həyətində yaratmışdı.

Türkmənistanda yaşayıb-işlədiyi vaxtda qəribə bir

təsadüf olmuşdu. Nazim bir zamanlar erməni qəsbkarlarının əlindən baş götürüb Aşqabada pənah gətirmiş, əslən Şuşalı Qönçə nənə və onun qızı Ədilə xanımın evində yaşamışdı.

Nazimin albomunda həmin dövrləri əhatə edən və türkmənlərlə qarşılıqlı hörmət və məhəbbəti əks etdirən çoxlu şəkillər var idi. Təəçssüf ki, həmin albomlar bu gün erməni işğalı altında olan evimizdə - Ağdamda qalmışdır. Bu şəkillərdən ancaq bir neçəsini ən vacib sənədlərin arasında qoruyub saxlaya bilmişəm. Əlimdə olan, Nazimdən qalan yadigar kimi saxladığım həmin fotolardan bir neçəsini təqdim edirəm.



***Türkmənistanla bağlı xatirələrdən***





*Ömrün Aşqabad səhifəsi*



*Nazimin dost olduğu türkmən ailəsi. Aşqabad, 1973-cü il*



***Nazim (sağdan birinci) türkmən ailəsinin qonağıdır. Aşqabad.***



***Türkmən ailəsinin süfrəsi arxasında***



***Türkmənistan həyatından səhifələr***
***Öndə Nazim** (əli belində)*



***İstiqanlılıq türkün kökündədir***



***Türkmən dostları Qarabağda (ayaqüstə dayanan Nazimdir).***
***Ağdam, 1974-cü il***



## YAŞADIQLARIM

### Sənli günlərim...

***Sənli günlərimi xatırlayıram... Bir zaman necə də bəxtəvərmişəm !!!***

Nazim elindən-obasından bir müddət ayrı yaşasa da Qarabağa, Şuşaya bağlı adam idi. Həmişə söyləyərdi ki, mən o zaman Türkmənistanın Firuzə yaylasında istirahət edəndə də Qarabağ üçün darıxır, Şuşanı görməyə can atırdım. Onun üçün Şuşa dünyanın ən gözəl, dilbər, pak güşələrindən biri idi. Ən çox sevdiyi mahnı isə Xan əminin "Şuşanın dağları" mahnısı idi. Yeri gəlmişkən, Nazimin böyük qardaşı Yelmarın üç gün, üç gecə davam edən toy şənliyində İbrahim kişi ilə dost olan Xan Şuşinski öz dəstəsiylə iştirak edibmiş. Nazimin Xan əmiyə sevgisi o qədər güclü idi ki, bayramların birində mənə onun ifasında orijinal kaset də bağışlamışdı. Onu indiyəcən qoruyub saxlayıram. Şuşaya vurğunluğu onun taleyini də Şuşa ilə bağladı. Yəni mən, Şuşada doğulub-böyüyüb, boya-başa çatmış Rəhilə Qaçay qızı Nazimin valideynlərinin gəlini, uşaqlarının anası oldum.

Birgə ailə həyatı bizi çox məmnun etmişdi. Hər ikimiz iki yaxın dostun övladları idik. Ailəmizdə iki qız , bir oğlan dünyaya gəlmişdi. İlk övladımız Fidan atasının ad günündə dünyaya gəldi - martın 2-də. Nazim bunu özü üçün ona göndərilən Tanrı hədiyyəsi hesab edirdi. Bacısı yox idi. Hər il ad günündə uşağa qızıldan bəzək əşyaları bağışlayardı. Zarafatca deyərdi ki, Fidanı bəhanə edib, özümə ad günü keçirirəm. Yeri gəlmişkən, bir məqam yadıma düşdü. - onun ilk hədiyyəsi də məhz mənə martın 2-də ağac budağına bəzədilmiş bənövşə dəstələri olmuşdu. O anları həyatımın ən xoş xatirəsi kimi xatırlayıram.

Biz övlad qayğısı çəkə-çəkə xoşbəxt yaşayırdıq. Ailəmizin bünövrəsini böyüklərin sözüylə desək ağıllı, sağlam və möhkəm qoymuşduq.

***Lakin... Müharibə!!!...***

***Lənətə gəlmiş erməni daşnaklarının torpaq davası başladı. Soyuq başlar qızışdı. Necə?! Torpağı azğın düşmənə vermək?! Heç vaxt! Hər şeydən keçmək olar. Vətəndən keçmək olmaz!***

Yandırılan evlər, dağıdılan kəndlər, xaraba qalan qəsəbə və şəhərlər bizimdir. Bir neçə nəslin tikib qurduğunu qısa bir vaxtda itirmək çətindir, çətin. Belə bir vəziyyətə Nazim heç vaxt dözməz, kənarda qala bilməzdi. Vətən məhəbbəti övlad məhəbbətindən, ailə məhəbbətindən üstün gəldi Nazimə. Vətən torpağını ermənilərdən təmizləməyənə qədər silahı yerə qoymayacağına and içdi. Qarabağı öz evi, komandir olduğu uşaqları isə öz övladı bildi Nazim. Başqaları kimi ailəsi üçün rahat ev-eşik haqqında düşünmədi. Hamı - bütün Qarabağ əhli bilir ki, o hər şeyə qadir idi, istəsəydi o zamankı SSRİ məkanının istənilən yerində uşaqlarını başına yığıb özünə, ailəsinə rahat yaşayış təmin edərdi. O bu barədə fikirləşmirdi də. “Hər şey yenidən düzələcək, yenə evimiz - isti ocağımız olacaq, deyirdi, Təki Vətən sağ olsun!”

Elə bu məqsədlə o, taqım komandiri kimi döyüşçüləri erməni hərbi birləşmələri və onların havadarları üzərində qələbəyə səsləyirdi. 1994-cü il aprelin 13-də Ağdamın Kosalı, Cəvahirli, Salahlı, Kəngərli kəndləri istiqamətində hücuma keçən düşmən baş leytenant Nazim Cəbrayılovun rəhbərlik etdiyi taqımın şəxsi heyətinin ciddi müqavimətinə rast gəlmişdi. Əsgərlərimiz 30 nəfər silahlı erməni quldurunu və xeyli hərbi texnikanı məhv edərək, sağ qalanları geri qaçmağa məcbur etmişdilər. Bundan möhkəm narahatlıq keçirən dı-

ğalar əlavə texnika və hərbi birləşmələr cəlb etməklə aprelin 18-də yenidən həmin istiqamətdə aramsız hücuma başladılar. Nazim Cəbrayılovun igidləri bu dəfə düşmənin 5 ədəd tankının, 3 ədəd BTR-nin, xeyli canlı qüvvəsinin qarşısında mətanətlə sinə gərdilər. Şir ürəkli komandir, dəli bir nərə çəkərək "Düşmən qarşısından bir addım da olsa, geri çəkilməyəcəyik!", dedi. Döyüş get-gedə şiddətlənirdi. Səngərdə möhkəm dayanan döyüşçülər Komandirin gurultulu nərəsindən daha da ruhlanır, silahlı erməni quldurlarını biçib, yerə sərirdilər. Düşmənin qüvvələrinin üstünlüyü açıq-aşkar hiss olunurdu. Onlar həm də mühasirə vəziyyəti yaratmaq istəyirdilər. Zəhmli tanklar sürətlə irəliləyir, ətrafa ölüm saçan mərmi yağışı səpələyirdilər. Cavab atəşi düşmənin zirehli tanklarına təsir etmir, mərmilər çırpılıb yerə düşürdü. Nazim başa düşdü ki, bunlar mərmi təsir etməyən xüsusi tanklardır. Deməli, vəziyyət heç də ürəkaçan olmayacaqdı.

Lakin heç kim səngərdən geri çəkilmək fikrində deyildi. Bəs nə etməli? Tankların hücumunun qabağını almaq, tankları dayandırmaq, geriyə çəkilmək üçün vaxt qazanmaq lazım idi. Komandir qərar qəbul etdi, uşaqlarına geri çəkilmək əmri verdi. Özü isə səngərdən birinci çıxdı. Yaxınlaşmaqda olan tankların qabağına atıldı. Tankın birini yaxından atdığı qumbara ilə vurub partlatdı. Əlindəki qumbaranı ikinci tanka tərəf tulladı. Namərd erməni faşistlərinin eyni vaxtda atdıqları güllə sinəsindən dəydi. Öndə gedən komandirlərinin həlak olduğunu görən gənc döyüşçülər hayqıraraq irəli atıldılar. Qeyri-bərabər döyüşdə yenidən mühasirəyə düşən 28 gəncdən 26-sı şəhid oldu. Yalnız 2 nəfər sağ qaldı. Komandirlə bərabər 26 gəncin ürəyi düşmən gülləsindən susdu. Özündən də çox sevdiyi bu gənclərin ölümünü görmədi komandir. O, bu gənclərə qıymazdı, öndə hə-

mişə özü gedərdi, onları qorumaq üçün. Bu son döyüşdə olduğu kimi... Əgər özü sağ qalıb bu mənzərəni görsəydi ürəyi partlayardı Nazimin... Tanrı ona belə ölümü qıymadı...

Nazim Cəbrayılov hərbi təşkilatçılığı, hünəri və cəsarəti, ən başlıcası isə düşmənə qarşı barışmazlığı ilə döyüş dostları arasında böyük hörmət qazanmışdı. O, mətin komandir idi. Bu keyfiyyətlərinə, əsgəri xidmətlərinə görə o, Azərbaycanın Milli Qəhrəmanı adına təqdim edilmişdi.

Amansız müharibə yüzlərlə yaşıdı kimi Nazimin də cavan ömrünü yarıda qırdı, neçə-neçə arzusunu ürəyində qoydu, balalarını isə atasız yaşamağa vadar etdi.

Ən böyük arzularından biri doğma Qarabağı düşmənin murdar izindən təmizləmək, müstəqil Azərbaycanı azad və bütöv görmək idi. O, zabit borcunu axıra qədər, əsl hərbiçi ləyaqətiylə, şərəflə yerinə yetirdi.

Sonralar həmin vaxt şəhid olmuş 26 gəncdən biri Şamil Rəcəbovun atası ilə tanış oldum. Kamil kişini ilk dəfə gördüyümə baxmayaraq onunla bir-birini çoxdan tanıyan adamlar kimi görüşdük. Yəqin bu dərdlərimizin eyni olmasından irəli gəlirdi. Onun Şamilinin gənc ömrü (23 yaşında) hələ qönçə ikən soldu. Vətən torpaqlarını erməni qəsbkarlarından qorumaq üçün vuruşan bu qönçə cavan sevdiyi komandiri ilə birlikdə vətən torpağına qarışdı... Yenidən dünyaya gəlmək, yenidən yaşamaq üçün. Kaş bu bir həqiqət olaydı...

***Həyat şirin, həyat acı. Nə qəribə daddır bu dad?***
***İçimizdə göyərdirik neçə arzu, neçə murad...***
***Ömürümüzlə bir doğulur sevinc, kədər, alqış, fəryad.***
***Yazılana pozu varmı? Yaman olur bala dağı!***
***Ya Rəbb, necə susduracam, ağı deyən dil-dodağı?!***

*(Zərxanım Ülvi)*

## Sənsiz günlərim...

***....Mən isə bundan sonra sənsiz günlər yaşamalı idim, Nazim. Bunu isə bilmirdim, heç öyrənmək, bilmək də istəmirdim sənsizliyə. Ancaq... Sən ön cəbhənin əsgəri idin və öz borcunu sona qədər əyilmədən, sınmadan yerinə yetirdin. Bura, yəni həyat deyilən arxa cəbhə isə mənim cəbhəm idi... Mənim də Sənin kimi sınmağa, məğlub olmağa ixtiyarım yox idi.. ən azı sənin adına görə... , sənin qəhrəmanlığına layiq olmağa görə. Bir də axı sən son döyüşünlə həm də mənə dərs vermişdin.. yaşamaq dərsini ... mən bunu belə qəbul etdim Nazim, bu dəfə mən səni həmişə olduğundan daha artıq başa düşdüm və yaşamağa davam etdim....***

1994-cü ilin may ayı idi. Respublikamızın ən çətin, ən ağır günləri idi. Bir yandan müharibə insanları yurd-yuvasından didərgin salmış, bir yandan gün-güzəran çətinliyi, bir yandan çörək qıtlığı, bir yandan isə daxili çəkişmələr... Pulun dəyəri ölür, özbaşınalıq tüğyan edir. Bütün bunlardan ən dəhşətlisi isə 3 uşaq anası yurdunu, doğma-ocağını, ev-eşiyini itirməklə bərabər ailənin başçısını da itirdi.

Odla su arasında qalmışdım. Nə etməli? Bu uşaqları (hələ məktəbli idi balalarım, dost evində qalırdıq onda) necə ovundurmalı, harda sığınacaq tapmalı, necə oxutmalı?

Ömür məsləhətçimə çevrilmiş el deyimi yenə harayıma çatdı:

***Ay doğdu peşman-peşman,***  
***Gün oldu peşman-peşman.***  
***Xəlvət ağla dərdini,***  
***Nə dost bilsin, nə düşman.***

Olub-keçənlərə sinə gərmək anadan dözüm tələb edirdi. Bir-birinin dalınca o illərdə mən ən yaxın adamlarımı

da itirməyə başladım. Ümid işığı öləziyən zaman gözümün önündən yurd-yuvası talan edilən, oğlu düşmənə əsir olan Qazan xanın xatunu Burla xatunun ana dözümü, Koroğlunun Nigarının mətinliyi, yenilməzliyi, Nəbinin Həcərinin ər igidliyi, Nəbiyə arxa olduğu anlar gəlib keçdi. Belə düşüncələrə daldığım an radiodan səslənən bir bayatı süzülüb ünvanını tapmış kimi qəlbimə hopdu.

***Naçar-naçar ağlama,***
***Gündü keçər, ağlama***
***Qapı bağlayan fələk,***
***Bir gün açar, ağlama.***

1994-cü ildə Zuğulbada məskunlaşmış qaçqınların həyatından verilən reportajda 94 yaşlı Məleykə nənənin dilindən səslənirdi bu bayatı. Şuşanın Malıbəyli kəndindən qaçqın düşmüş Məleykə Novruzova gənclərə bu bayatıyla təsəlli verir, yol göstərirdi.

Bu bayatı mənim də həyatımın dönüşü odu. Allah sənə qəni-qəni rəhmət eləsin Məleykə nənə.

***

***Redaktordan.*** *Elə həmin gündən üç uşaq anası kədəri qəlbinin dərinliyinə endirdi. Uşaqları sınmasın, "yetim" sözünü öz ünvanlarına aid etməsinlər deyə şəhid ailəsi adını uca tutaraq ora-bura üz tutmadı, özünü alçaltmadı. Minbir zəhmətə qatlaşdı Ana, özünün savadına, dünyagörüşünə güvəndi, ağılla, təmkinlə ailəsini başına topladı. Həyat yoldaşının şəklinə baxa-baxa onsuz yaşanan ömrün hər günü üçün hesabat verdi, "Razısanmı?" - deyə soruşdu ondan.*

*Ananın çəkdiyi zəhmətlər öz bəhrəsini verməyə başladı. Ailənin ilk qız övladı məktəbi qurtardı. Əvvəlcə tibb texnikumuna, sonra isə "Təfəkkür" universitetinin tibbi-biologiya fakültəsinə daxil oldu. Universiteti bitirdikdən sonra isə Azərbaycan Tibb Universitetinin tibbi-biologiya üzrə*

# HÖRMƏTLİ VALİDEYN!

Bakı Dövlət Universitetinin rektorluğu və bütün professor-müəllim hey'əti adından Sizə - ləyaqətli övlad yetirmiş bir insana dərin minnətdarlığımı bildirirəm.

Sizin övladınız Cəbrayılova Lalə Nazim qızı Universitetdə təhsil aldığı müddətdə özünü ağıllı, yüksək təhsil göstəricilərinə malik, təmkinli, bütün cəhətlərinə görə əsl Universitet tələbəsi, Azərbaycan Respublikasının layiqli VƏTƏNDAŞI kimi göstərmişdir. Sizin ailədə yaratdığınız sağlam mühitin və tərbiyənin, övladınızın istedadının nəticəsidir ki, o, Universitetin sevimlisinə çevrilmiş, elm yollarında mətanətlə irəliləyərək hamının hörmətini qazanmışdır.

Mədəni və nəcib, bilikli və müasir baxışlı övladı boya-başa çatdırdığınıza görə Sizə bir daha təşəkkür edir, müstəqil Respublikamızın, tərəqqipərvər xalqımızın xoşbəxt gələcəyi naminə Sizə və övladınıza can sağlığı, daha böyük sevinclər arzulayıram.

DƏRİN HÖRMƏTLƏ:

*PROF. ABEL MƏHƏRRƏMOV*



**Fidan Nazimqızı**
**Arzusu qızını həkim görmək idi...**

*internaturasını keçərək, həkim-laborant ixtisasını aldı.*

*Sonra isə ailənin ikinci qız övladı BDU-nun biologiya fakültəsinə daxil oldu, fərqlənmə diplomu alaraq magistraturaya daxil oldu. Ən böyük sevinc o zaman baş verdi ki, ana rektorluqdan tərbiyə etdiyi övladına görə təşəkkür məktubu aldı.*

*Ən nəhayət, ailənin kiçiyi, oğul balası Orxan Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi oldu. Atasının yolunun davamçısı olmağa, o yolda addımlamağa. Ata ömrünü də özündə yaşatmağa başladı.*



**Jalə Nazimqızı**

*Ananın ümidləri doğrulur. Cəbrayılovlar ailəsi atanı, yurd-yuvanı itirsə də, şərəfini, ləyaqətini, ad-sanını itirmədi. Ailələrdə söhbətləri getdi, qibtə edildi, barmaqla göstərildi, nümunə götürdülər bu ailədən.*



**Orxan Nazimoğlu**

*Zaman su kimi axıb keçdi. Ana qız övladını alnıaçıq, üzüağ gəlin köçürtdü. Çoxları Ananın üzünə qarşı bəxtəvərlik verdilər. Yalnız əsilzadə, nəcib, həssas insanlar bilirdilər ki,*

*bu “bəxtəvərlik”cavan bir ömrün şam kimi əriməsinin hesabına, sağlamlığının əldən getməsi, gözünün nurunun azalması hesabına, dəyanət, qeyrət hesabına başa gəlib. Axı, Nazim Cəbrayılov öz ciyərparalarını ona əmanət etmişdi. Hər şey öz yerini alırdı. Yalnız ananın, övladlarının qəlbində bir nisgil vardı, onlara rahatlıq verməyən bir nisgil.*

*Atanın ad günü, xatirə günü televiziyada, qəzetlərdə, ailədə qeyd edilir, haqqında danışılır, göstərdiyi igidliklər, şücaət yada salınır. Lakin onu ziyarət etmək, bir dəstə çiçək qoymaq üçün bir yer yoxdur. Çünki azğın düşmən onu dəfn etmək üçün ailəsinə verməmişdi. Bunu körpə balalar böyüyəndən sonra bildilər. Ana körpə balalarını qorumaq üçün cürbəcür sözlər uydurmuşdu, əsl həqiqəti onlardan gizlətmişdi, qorxmuşdu ki, hələ həyatı anlamayan məktəbli balalar psixoloji zərbə ala bilərdilər. Hər cür iztirab pərdə arxasında qalmalı idi.*

Bir gün evimizə telefon etdilər. Bizi tədbirə dəvət edirdilər. Bu tədbiri Azərbaycan Dövlət İqtisad Universitetin rektoru, akademik Əli Abbasov keçirirdi. Məlum oldu ki, universitetin həyət bağında, qədim qala divarlarına on şəhidin şəkli həkk edilmişdir. Onlardan biri də Nazim İbrahim oğlu Cəbrayılov idi. Təsəvvür edirsinizmi, tarixi qala divarına! Təzə tarix köhnə tarixə qovuşurdu. Əsrlərlə ömrü olan qala divarı! Bu yeri Universitetinin rektoru Əli Abbasov seçmişdi. Nə qədər ki, insanlar var, zaman keçsə də, Siz də xatırlanacaqsınız, Əli müəllim. Siz hansı ürəyə, qeyrətə malik olduğunuzu, vətənpərvərliyinizi bununla üzə çıxarmış oldunuz. Şərt o deyil ki, əlinə silah

alıb döyüşə gedəsən. Döyüşə gedənlərin qədrini bilmək, ataları vətən yolunda şəhid olan balaları əzizləmək Həsrəti Əlinin buyruğu idi. Bu adı daşıyan Əli Abbasova şəhid ailələri adından öz dərin minnətdarlığımızı bildiririk.

Eyni zamanda, universitetin tarix muzeyinin direktoru Pərviz Axundbəyli hər bir şəhidə guşə ayırıb, onlara məxsus sənədləri toplayaraq, qoruyur. Sağ olsunlar, qədirbilən insanlar!

Ailənin bu nisgili də qismən ortadan götürüldü. Hər il dəfələrlə şəhidlərin xatirə kompleksi önündə tədbirlər keçirilir, yada salınır. Tarix sübut edir ki, qəhrəmanlar unudulmur, əbədi yaşamaq üçün əməlləri, hərəkətləri ilə bizlərə nümunə olurlar.

***Redaktordan***. *Bu yazını yazan anaya övladları bir təsəlli də verib. Ailənin qızı öz oğul övladına atanın adını vermişdir. Bu, üç övladın üçünün də arzusudur. İndi artıq həyatı başa düşən, gənc ailə olan övladlar ananı daha yaxşı başa düşür, onun qəlbini ovundurmaq, çəkdiyi əziyyətləri unutdurmaq üçün ilk nəvəyə Nazimin adını verdilər. Şükürlər olsun, Allah-Təala bütün şəhid balalarını nəzərində saxlasın, atalarının yarımçıq ömrünü onların ömrünə calasın.*

*Bir gün söhbət zamanı Ananın oğlu: -* ***Ana, Allah-Təala yaşamaq üçün insana bir dəfə ömür verir, sən isə öz ömrünü, özü də cavan ömrünü bizə həsr etdin, ürəyini şam kimi əritdin, -*** *dedi.*

*Artıq böyümüş yecanə oğlünün ona verdiyi bu qiymət Ananı mütəəssir etdi: - Nə etmişəmsə, halal-xoşunuz olsun - dedi, - Ailənizin adını, qayda-qanununu həmişə uca tutun.*

Mən bu yazımı çox tanınmış bir jurnalistin, millət vəkili Bəxtiyar Sadıqovun Nazim Cəbrayılov haqqında yaz-

dığı bir neçə cümlə ilə tamamlamaq istəyirəm:

***Üç uşaq atasını könüllü surətdə nəmli səngərə gətirən torpaq məhəbbəti, Vətəni azad görmək arzusu olmuşdur.***

***Son dəqiqələrinədək öz əqidəsindən dönməyən Nazim Cəbrayılovu indi həm də qəhrəman döyüşçü kimi tanıyırlar. Bir vaxtlar Vətən uğrunda şəhid gedən dostum Nazim barədə yazacağımı ağlıma belə gətirməzdim. Amma Nazimin cavan ömrünü qurban verdiyi Qarabağın nə vaxtsa düşməndən təmizlənəcəyinə qəti əminəm.***

Budur, bir ailənin ömür yolu, tale yükü ilə siz də tanış oldunuz, hörmətli oxucular. Bu sətirləri mənə yazdıran Hacı Rəfiqə xanıma minnətdarlığımı bildirirəm. Həyatımıza yaxşı bələd olan Hacı Rəfiqə xanım ötən ömrümüzün günlərini vərəqləyir, xatirələrimizi çözələyir və insanlara bizi tanıdaraq deyir:

- Ey xalqım, bilin ki, bizim belə dözümlü analarımız, qeyrətli, mətin gəlinlərimiz var. Demək, torpaq da azad olacaq, bir millət kimi millətini də yaşadacaq. Çünki bu milləti dünyaya gətirən, böyüdüb boya-başa çatdıran belə qadınlarımız var. Qoy onları gələcək nəsillər də tanısın!

Mənimsə yadıma nədənsə tez-tez tanınmış şair Əbülfət Mədətoğluna məxsus bir bənd düşür:

***Ağrıdı çəkdiyim, dərddi çəkdiyim,***
***Bu boyda Bakıda dərddi çəkdiyim.***
***Mənim azadlıqda "şərti" çəkdiyim***
***Cəzanın dadını - çəkənlər bilər.***

***Xocalı soyqrımı XX əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş kütləvi qırğın hadisəsi öz amansızlığına və qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayətdir.***

***İlham Əliyev***

## VƏTƏNİN ŞANLI MÜDAFİƏÇİSİ

Artıq Sovetlər birliyi 1991-ci ildə süqut etdi. Ermənilər günbəgün azğınlaşmağa başladı. Torpaqlarımız zəbt olunur, qanlar tökülürdü. Qarşıda bizi Xocalı soyqırımı gözləyirdi.

Bir haşiyə çıxmaq istəyirəm. Hələ Qarabağın dinc dövrlərində, yəni bizim xoşbəxt günlərimizdə yeni layihə ilə təzə ev tikdirirdik. Ustalarımızın əksəriyyəti Xocalıdan idi. Onlar az müddət ərzində Nazimi o qədər çox sevdilər ki, hətta ən çətin günlərdə Nazimi özlərinə arxa bilirdilər. Onlardan birinin adını indi də xatırlayıram - Balakişi. Oğlu ilə birgə bizim evimizdə çox işləmişdi. Kişi söyləyərdi ki, artıq hadisələr qızışanda - erməni cəlladları yolları bağlayanda, Ağdamda, Qarabağın bir çox kəndlərində, rayon mərkəzlərində evlər tiksək də, çətinliyə düşəndə dərhal, fikirləşmədən Nazimin evinə pənah gətirərdik. O, bizi yaxın qohumu kimi qarşılayar, problemlərimizi həll edər, süfrə açdırar, sonra sakitlik olanda cib xərcliyi ilə yola salardı. Bizə öyüd-nəsihət edər, qorxmazlığa, əyilməzliyə ruhlandıraraq, arxanızda Ağdam var, biz varıq, deyirdi.

Erməni təcavüzü getdikcə azğınlaşırdı. 26 fevral - Xocalı soyqırımı. Qarlı qış gecəsi, donmuş sular. Hava qan ağlayır. Növbəti faciə. Planlaşdırılmış faciə. Hər şey plan üzrə həyata keçirdi. Soyuqqanlıqla.

Faciənin baş verməxəbəri Ağdama çatanda bütün Ağdamlılar ayağa qalxdı. Hamı, ayağı yer tutan başıpapaqlılar öz köməyini etmək üçün Xocalıya tərəf axışmağa başladı.

O zaman təcili yardım maşınında kolları, kosları yara-yara gedən həkim xalası oğlu söyləyirdi ki, bir də gördüm Nazim ölənlərin, yaralıların arasındadır. Maşından düşüb Nazimdən belə tez necə gəlib çıxdığını soruşub və yaralıları aparan maşınla geri qayıtmasını məsləhət bilib.

Bir neçə gün Nazim faciə qurbanlarının ailələrinə köməklik edir, yurdsuz-yuvasız faciə qurbanlarını evinə gətirirdi. Onların içərisində Balakişi dayı da var idi. Onun ailəsinin donmuş halda müsibətlərlə dağlardan, meşələrdən keçib birtəhər sağ-salamat Ağdama gəlib çıxmasına hamımız sevindik.

Əziz oxucular! Nazim Cəbrayılovun gördüyü bu kimi işlər saymaqla qurtarmaz. Ailəsi də, qonşuları da, qohumları da, evinə gələn qonaqları da, dostları da Nazimin son dərəcə həssas, diqqətcil, rəhmdil, səxavətli bir insan olduğunu yaxşı bilirdilər.

Bu epizodların hamısını qələmə almaq qeyri-mümkündür.

## Ölümsüzlük

Artıq Nazim valideynlərinə oğul, övladlarına ata olmaqdan da üstün bir amal uğrunda - Vətən uğrunda çarpışmağa, mücadilə etməyə başladı. Xalqının xilası, torpağının azadlığı uğrunda gecəsini gündüzünə qatdı.

Ulu öndərimiz Heydər Əliyevin aşağıdakı müdrik sözləri sanki Nazim üçün deyilmişdi: ***“... Hər bir insan ilk növbədə anasını, vətənini, torpağını, millətini sevməli, bu hisslərlə yaşamalıdır”.***

Münaqişənin müharibəyə çevrildiyini görən Nazimin qarşısına qoyduğu məqsədi də, işi də aydın idi... 2711 saylı hərbi avtomobil dəstəsinin hərbiçi-mühəndisi Nazim idarəyə məxsus maşınlarla ön xətdə dayanan zirehli texnikaya yanacaq, sursat daşıyırdı. O, sübh tezdən, ala-qaranlıqda evdən çıxar, öhdəsinə götürdüyü hərbi tapşırığı yerinə yetirdikdən sonra gecədən xeyli keçmiş ruh yüksəkliyi ilə evə dönərdi. O gələnə qədər anası da, mən də yatmazdıq. Evin kiçik qızı çox şıltaq idi, yuxuda atasının gəlişini duyar, dərhal oyanıb pilləkanlarin başına qədər qaçardı. Bunu görən nənənin gözlərindən yaş axar, sorğu-sualsız yataq otağına çəkilərdi. Çünki oğlunun həyatı bahasına başa gələn bir işi gördüyünü bilirdi. Əli ürəyinin üstündə qalardı. Qorxurdu ki, bir gün oğlu evə qayıtmaz, uşağın gülüşü dodağında qalar. Qorxurdu ana, oğul itirməkdən qorxurdu. Qorxurdu ki, cavan gəlin üç uşaqla əli qoynunda qalar. Oğluna da bir söz deyə bilmirdi. Bilirdi ki, oğlu geri qayıtmayacaq, o bu yolu axıra qədər gedəcək. Odur ki, əlacsız ana əli ürəyinin üstündə oğluna öyüd-nəsihətlər verir, diqqətli olmasını, özünü qorumasını dönə-dönə tapşırırdı.

Ana bilirdi ki, oğlu odla oynayır. Bir gün, bir an içində bu od onu yandıra bilər. Çünki dünyagörmüş qadının öz gəncliyi də müharibəyə düşmüşdü. Müharibənin, itkinin nə olduğunu yaxşı bilirdi. Yalnız bir fərq vardı, o müharibə - 1941-1945-ci il Böyük Vətən müharibəsi bizdən uzaqlarda, elan olunmuş müharibə idi. Bu müharibə isə evinin içində idi. Bunun nəticəsi daha dəhşətli ola bilərdi. Oldu da. Xocalı soyqırımı baş verdi.

Bir-birinin ardınca torpaqlar işğal olunmağa başladı. Artıq Ağdam şəhəri bir hərb meydanına çevrilmişdi. Ətraf rayon-



*Əsrin faciəsi. Xocalı 26.02.1992*



lardan, kəndlərdən insanlar Ağdama pənah gətirirdilər.

Əzizlərini itirən, qohum-qardaşının meyidlərini məscidlərdə axtaranlar, xəstəxanalara üz tutanlar hamısı Ağdamda idi. İşğal olunmuş ərazilərdən bura gəlmiş bu adamların arasında əli silah tutan cavanların, hətta yaşlı kişilərin hamısı yerli Ağdam camaatı ilə birlikdə savaşa atıldılar. Azğın düşmənə qarşı mübarizədə bir yumruq kimi birləşmək lazım idi. Bunu Vətənin səsi, harayı, Xocalıda axıdılan günahsız qanlar, yandırılan evlər, talan olan yurdlar tələb edirdi.

Mən nə tarixçiyəm, nə də siyasət adamı. İxtisasca filoloqam, sadə bir müəlliməyəm, bir ana, bir bacıyam. Yazdıqlarım təxəyyülün məhsulu deyil, gözümüzlə gördüyümüz, içərisində yaşadığımız, hər gün, hər saat ölümlə üz-üzə qaldığımız hadisələrdir ki, qələmə alıram. Hansısa bir verilişi dinləyəndə eşitdiyim bir cümlə yadımdan çıxmır: ***Türk tarixi yaradır, ancaq yazmır.*** Mən şahidi olduğum, yaşadığım hadisələri bəzəksiz, düzəksiz, olduğu kimi qələmə almışam.

Xocalı faciəsindən sonra Şuşanın işğalı başladı. Xəyanətin növbəti qurbanı olan Şuşamız 1992-ci il may ayının 8-ində süqut etdi. Şəhid oldu gözəl Şuşamız. Yarandığı gündən bəri bu şəhər heç vaxt yağı düşmənə təslim olmamışdı, indi isə xəyanətin qurbanı oldu.

Qarabağın qeyrətli oğulları səfərbər olaraq bir nəfər kimi müdafiəyə qalxdılar. Artıq hər küçə, hər ev cəbhə idi. Bir elin içində iki cəbhə yarandı. Haçansa dünyanın hər tərəfindən bir-bir, iki-bir gələn, sonralar isə çar fərmanı əsasında toplam halında Qarabağa köçürülən namərd, xəyanətkar, çörəyi dizinin üstündə olan dırnağarası qonşular bir tərəfdə, torpağını, doğma yurd-yuvasını, Vətənini yağı düşməndən qoruyan bu torpağın əsl sahibləri digər tərəfdə.

Dözmək çətin idi. Nəhayət, gec də olsa silahlı qüvvələr yaranmağa başladı. Azərbaycanın Silahlı Qüvvələrinin ordu sıralarına ilkin yazılanlardan biri də Nazim oldu.

Elə bu yerdə yaxın dostu, silahdaşlarından biri olan Rüstəm Hacıyevin sözlərini xatırlamaq yerinə düşərdi:

*Nazimi lap çoxdan, uşaqlıq illərindən tanıyıram. Lakin Qarabağın dərdi bizi daha da yaxınlaşdırmışdı. Onda müşahidə etdiyim bir kefiyyət vardı. Əgər bir yerdə lüzumsuz söz-söhbət, xalqa köməyi olmayan müxtəlif niyyətli insanlar görürdüsə dərhal ordan uzaqlaşırdı. Yox əgər vacib işlər görmək, xalqa kömək əlini uzatmaq, xeyirxah bir məqsəd olurdusa - Nazim öndə olardı.*

*Yaxşı adam bilirsənmi kimə deyirlər? Mövqeyi olan, nə iş gördüyünü bilən adama. Nazim belə adam idi.*

O, ilk öncə şəxsi təcrübəsinə və hərbi biliyinə əsaslanaraq pərakəndəlik olmasın deyə bölük komandiri kimi şəxsi heyəti formalaşdırdı. Bu heyətin tərkibində qardaşı oğlanları - Rəşad Ənvər oğlu Cəbrayılov və Yelmarın yeganə oğlu Kənan Cəbrayılov da var idi. Cəbhə bölgəsində yaralanan Rəşad bir müddət qospitalda yatdı.

> ***Haşiyə.*** *Çox təəssüf ki, Nazimin ölümündən bir müddət sonra Rəşad dünyasını dəyişdi. Müharibənin Rəşadın səhhətində buraxdığı izlər, psixoloji sarsıntılar onun vaxtsız, faciəvi ölümünə səbəb oldu. Ruhun şad olsun, Rəşad!*

***Şuşadan Laçına bax,***
***Ağdamdan Xaçına bax,***
***Yazıq anam saç yoldu,***
***Əlində saçına bax.***

*(Zəlimxan Yaqub)*

Şuşanın işğalı günü mənim kiçik bacımın həyat yoldaşı ***Əşrəf İsmayılov*** şəhid oldu. Dərdimizin üstünə dərd gəldi.



***Əlifoğlu İbrahim kişi və Xalidə ana***

Demək olar ki, hər gün yağı düşmən Xankəndi istiqamətindən Ağdamı "Qrad" atəşinə tuturdu. Bomba düşən evlər, tikililər, həyət-baca yerlə yeksan olurdu. Təxminən bir ay öncə qonşunun evinə düşən bomba mərmisindən bərk həyəcan keçirən Nazimin anası Xalidə xanım komaya düşdü. Bu hadisələrin fonunda onsuz da şəkəri olan ananın qanında şəkərin miqdarı daha da yüksəlib kritik həddə çatmışdı. Biz Xalidə ana ilə birlikdə yaxın kənddə yerləşdirilmişdik. Rahat yaşayışından məhrum olan, övladlarından nigaran ananın vəziyyəti birdən-birə daha da pisləşdi.

Azərbaycanın bütün rayonlarına, kəndlərinə, eləcə də paytaxta üz tutan insanlar qohum-qardaşının hara düşdüyünü axtardığı, əli silah tutan cavanların isə cəbhə xəttin-

də olduğu çox çətin, qarışıq bir zamanda Xalidə ana dünyasını dəyişdi. 30 may 1992-ci il idi. Xanımlar xanımı Xalidə ana böyük hörmətlə Ağdamda, “İmarət” adlanan müqəddəs tarixi məkanda torpağa tapşırıldı. Qədim tarixə malik olan bu yer İbrahimxəlil Xan ailəsinə məxsus olub. Vaxtiylə Qarabağ xanı Mehtiqulu Xanın qızı Xurşud Banu Natəvan da Şuşadan onu sevənlərin çiynində 40-50 km-dən artıq məsafəlik yolu gətirilərək burada dəfn olunmuşdu. Çoxdan bəri bu yerdə rəsmi qaydada dəfnə icazə verilmədiyinə baxmayaraq, dəfn mərasiminin istisna hal kimi məhz burada keçirilməsi Xalidə ananın özünün, həyat yoldaşı Əlif oğlu İbrahim kişinin və oğlanlarının Qarabağ camaatı arasında qazandıqları böyük hörmət və nüfuzu təsdiq edirdi.

Çox hörmətli Xan ailəsinin uyuduğu “İmarət” adlı tarixi məkan bir vaxtlar Ağdamın çal-çağırlı, gəlhagəlli bir guşəsi idi. Xurşud Banunun Şuşada keçirdiyi şeir, musiqi məclisləri illər keçdikdən sonra da sanki ənənəni yaşadaraq burda davam edirdi.

Hər il “Xarıbülbül” musiqi festivalı, muğam məclisləri, Qarabağ atlarının cıdır yarışı keçirilərdi burada. Azərbaycanın ən məşhur sənətkarları, qızıl səsli xanəndələri bu məkana tez-tez üz tutardılar.

Yeri gəlmişkən bir haşiyə də çıxmaq istərdim. Çünki bunları yada salmamaq, xatırlamamaq olmur. Ağdamın özünəməxsus əlamətləri vardı. Mən şəhər 1 saylı orta məktəbində müəllimə idim. Bu şəhərdə dünyada analoqu olmayan “Çörək muzeyi”nin, “Üzümçülər evi”nin, Ağdam Dram Teatrının fəaliyyət göstərdiyini bilirdim. Biz ailəliklə həmin teatr binasında məşhur artistlərin ifasında sə-



***Ağdam. "Xarıbülbül" musiqi festivalı***
***(Nazimin oğlu Orxan at belində)***

nət əsərlərinə, tamaşalarına baxardıq. Bir zamanlar görkəmli yazıçı-dramaturqumuz İlyas Əfəndiyevin demək olar ki, bütün dram əsərləri, yazıçı Xalidə Hasilovanın "Nəğməli könül" tamaşası dəfələrlə nümayiş etdirilirdi. O zaman aktyorlardan Mamed Əmirli, Narınc Məlikova, Simuzər Namazova, Fatma Mahmudova, Siyavuş Sultanov, Tofiq Qarayev kimi aktyorlar öz sözünü səhnədən demiş və dövlət adları ilə mükafatlandırılmışdılar. Burada Pionerlər evində "Qarabağ bülbülləri" uşaq ansamblı fəaliyyət göstərirdi ki, onun da yaradıcısı və bədii rəhbəri Murad Rzayev idi. Vaxtiylə



***Murad Rzayev***

onun yetişdirdiyi musiqiçilər artıq respublikada tanınmış sənətkarlardırlar. O Murad müəllim ki, bu gün də Bakının Nərimanov rayonunda, Təbriz küçəsində yerləşən köhnə bir zirzəmidə öz fəaliyyətini davam etdirir, əvvəlki əzmlə, coşqu ilə, heç bir mükafat gözləmədən gənclərlə işləyir. Bütün bunları xatırlamaqla erməni daşnaklarının doğma torpaqlarımızla bərabər daha nələri əlimizdən aldıqlarını bir daha vurğulamaq istədim.

Anası torpağa tapşırılandan sonra Nazim ailəsini paytaxtda - atasının Bakıdakı dostunun evində qoyaraq, geriyə baxmadan cəbhəyə döndü.

...***Yox, yox səhv etdim, geriyə boylandı. Ancaq onun üçün artıq irəli-geri söhbəti yox idi. Hara baxırdısa Vətənin qan verən yaralarını, yandırılan yurd-yuvasını, qanla suvarılan torpağını görürdü o. Ölümsüzlüyə doğru addımlayırdı Nazim.***

23 iyul 1993-cü ildə Ağdam işğal olmuşdu. Həmin gün biz ilk dəfə Nazimin göz yaşlarını gördük, hönkür-hönkür ağladı Nazim. Qərarı qəti idi. Alçala-alçala heç bir yerdə yaşaya bilmərəm, qaçqın damğası ala bilmərəm: - dedi Nazim.

O gündən biz - ailə üzvləri Nazimin üzünü çox az-az gördük. Onun cəbhə həyatını isə qəzetlərdən, televiziyadan izləyirdik.

Yaxşı yadımdadır, 1993-cü ildə yenidən hakimiyyətə gələn Heydər Əliyevin qayıdışı ön cəbhədə olan Nazimin qəlbində ümid çırağı yandırmışdı. Bunu televiziyadan izlədiyimiz bir süjetdən başa düşmüşdük. Qarabağ bölgəsindən reportaj aparan hərbi müxbir Allahverdi Əsədovun hazırladığı verilişə baxanda birdən zabit geyimli Nazimi və onun silahdaşlarını gördük. Onlar hansısa bir kənddə

idilər. Müxbir Nazimə cəbhədəki vəziyyət barədə müraciət edəndə o cavabında gülümsədi və arxayınlıqla, əminliklə aşağıdakı sözləri söylədi. ***Artıq Azərbaycan möhkəm əldədir. "Ata qartal" geri qayıtmışdır. Vətən xilas olacaq, pərakəndəlik ortadan qaldırılacaq. Hamı bir yumruq kimi birləşərək, Heydər Əliyev zəkasından bəhrələnəcək. İndi cəbhədəki ruh düşkünlüyü aradan qalxacaq, daha bizi arxadan vurmayacaqlar, əsgərlər döyüşə atılacaqlar. Mən yeraltı sığınacaqlarda, yerüstü döyüşlərdə bu dəyişkənliyi hiss edirəm. Böyük rəhbər hər şeyi yoluna qoyacaqdır.***

Çoxdan idi ki, onda belə ruh yüksəkliyi görməmişdik. Ön cəbhədə döyüşən komandir Nazim Cəbrayılovun çöhrəsindəki gülüş arxa cəbhədəkilər üçün, yurd-yuvasından uzaq düşmüşlərin hər biri üçün, hamı üçün bir məlhəm idi, bir ümid idi. Xalq, qarşısında təmkinli, qorxmaz, cəsur bir oğul, kişi görürdü. Biz də Nazimin seçdiyi bu yolla razılaşır, əlimiz ürəyimizin üstündə dua edərək qələbə müjdəsini gözləyirdik.

Qələbə müjdəli bir sabahın gəlişini indi də gözləyirik.

O gün gələcək. O günü mütləq görməliyik. Yoxsa əbədi dünyanın o üzündə şəhidlərimizin üzünə necə baxarıq!?

## Döyüş yoldaşlarının redaktora məktubu

### Şahidi olduğumuz hadisə

1993-cü ilin payız ayları idi. Nazim Cəbrayılovun komandirlik etdiyi taburun əsgərləri Ağdam rayonunun, Gülçülük-Göytəpə kəndi istiqamətində torpaqlarımızı yağı düşmənlərdən qoruyurdu. Bura ən qorxulu cəbhə bölgəsi idi, çünki Ağdam şəhərinə gedən magistral yol oradan keçirdi. Qərərgaha

məlumat gəldi ki, bəs Dağlıq Qarabağ Muxtar Vilayətinə getmək üçün Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayev və onun rəhbərlik etdiyi nümayəndə heyəti həmin ərazidən keçib getməlidir. Onların təhlükəsizliyini qorumaq tabur komandiri baş leytenant Nazim Cəbrayılova tapşırıldı. Nazim savadı, intellektual səviyyəsi, həm də rus dilini mükəmməl bilməsi ilə fərqlənirdi. O, əmri layiqincə yerinə yetirdi, nümayəndə heyətini Göytəpə kəndinə qədər apardı. Tərəflərin görüşü burada təşkil edilmişdi. Geri qayıdanda Nazim bizə söhbət elədi ki, erməni Vitaliki gördüm, o da orada idi. Üz-üzə gələn Nazim ona deyib: - Vitalik, biz ki, bir-birimizi uşaqlıqdan, özü də yaxşı tanıyırıq. İndi düşmənçiliyə başlasan da, kişiliyini göstər, şərait yarat, bir saatlıq da olsa, gedim Ağdama. Evimizi, oraları görüm, qayıdım. Vitalik cavabında: -Nazim, - deyir, - səni aparmağıma söz verirəm, ancaq sağ-salamat geri qaytara biləcəyimə, yox.

Çörəyi dizinin üstündə olan Vitalikin bu sözləri Nazimin yadından çıxmırdı.Vitalikə bax, mənə dediyi sözə bax,- deyirdi, - Yaxşı, Vitalik, sənnən mənimki qalsın sonraya.

Sonra deyəndə Nazim qələbə çalacağımız günü nəzərdə tuturdu. Qələbə gününün gələcəyinə o bütün varlığı ilə inanırdı və son döyüşü ilə düşmən üzərində mənəvi qələbə çaldı. Ölümdən uca olmağı ilə.

Qisas qalmaz qiyamətə deyiblər. Nazim, döyüş dostarın Sənin qisasını alacaq, nahaq qan yerdə qalmayacaqdır. Mütləq. Qoy düşmənlərimiz bunu bilsin!

***N hərbi hissəsi qərərgah rəisinin köməkçisi,***
***Qəhrəman Hüseynov,***
***Döyüş yoldaşları - Əkbər Rüstəmov, Nizami Rəhimov,***
***Füzuli Abbasov***

*Vüsalın hər kəsə səadət Şuşa,*
*Ey fitrən xəlq olmuş təbabət Şuşa!*
*(Bir mahnıdan)*

## LƏNƏT SƏNƏ, MÜHARİBƏ!

Bu birinci sətir məni çox-çox uzaqlara apardı. 1988-ci ilin fevral ayı... Hər bir fəslinin öz gözəlliyi olan Şuşamızın qışının çox füsünkar bir görünüşü olardı. Ayaq altda yeridikcə xar-xar edən yumşaq qar, çılpaq ağacların budağında üst-üstə qalaqlanmış qar topaları. Səma bəmbəyaz, dağlar, düzlər bombozdur.

Şəhərin səhərə açılan sükutunu sübhdən işə tələsən insanlar, maşınlar, bir az keçmiş isə məktəbə tələsən şagirdlərin, yuxudan qalxaraq qayğılarla məşğul olanların səs-küyü pozur, qaynar həyat başlayırdı Şuşamızda.

Şuşanın yayı nə qədər səs-küylü, çal-çağırlı, qonaq-qaralı olurdusa, qışı tam sakit, məhzun, öz qonaqları üçün sanki darıxan bir görkəmdə olardı.

Belə günlərin birində camaat şəhərin ən görkəmli yerlərində - Cıdır düzü adlanan yerdəki Üçmıx təpəliyində, bir də şəhərin çıxacağında - Xankəndinə gedən yolda, Şərq musiqi alətləri istehsal edən fabrikin yaxınlığında ağ bayraqların asıldığını gördülər. Xəbər ildırım sürəti ilə şəhərin bütün evlərinə və bütün ətraf rayonlara yayıldı. Məlum oldu ki, siçovullar kimi öz qınına girmiş, daş-kəsəklərin altında gizlənmiş mənfur erməni dığaları imiş bu işləri görən. Bu hamının təəccübünə səbəb oldu, amma heç kəs təşvişə düşmədi. Arxayınlığa baxın, görün ha, təəccübləndilər, amma təşvişə düşmədilər.

Sən bir naxələfliyə, nankorluğa bax, azərbaycanlıların, qa-

rabağlıların evinin içində çörək verdiyi özünə düşmən oldu.

Torpağımızda yer verdiyimiz, hər bir xeyir-şərimizdən yararlanaraq özünə yer eləmiş zatıqırıqların özbaşınalığının dalında nə gizləndiyi, onların məkrli niyyətləri hələ sonralar məlum olacaqdı. Onda isə hələ yuxudaydıq. Çünki, çox qədim zamanlardan el-elə sığar misalı ilə bizə tərbiyə verdikləri üçün, hamıya, hansı millətdən olduğuna fərq qoymadan hörmət edir, qayğı göstərirdik. Hardan biləydik ki, evimizin yuxarı başında, süfrəmizin qırağında əyləşdirdiyimiz, layiq oldu, olmadı elə həmin tərbiyə hesabına yaxşılıqlar eddiyimiz bu millətin paxıl, xəbis, xain xislətli, xəyanətkar, zaman-zaman bütün azərbaycanlıların qanına susamış qatil millətin törəmələri yenə baş qaldıraraq bizə - ömrü boyu əlindən çörək yediyi azəri millətinə yenidən düşmən çıxacaqlar. Sən deməyəsən Qarabağ igidlərini çalmaq üçün, yatdığı yerdə zəhərləyib öldürmək üçün öz qoynunda əfi ilan bəsləyirmiş.

Qarabağ ağsaqqalları, cavanları bu xəmirin deyəsən çox su aparacağını başa düşüb əl-ələ verməyə, bir yerə toplaşıb qərarlar qəbul etməyə, bu hadisələrin nə demək olduğunu aydınlaşdırmaq üçün seçdikləri məkanlara toplaşmağa başladılar.

Bütün bunları dərk etməyə başlayan ağsaqqal və ağbirçəklərimiz başa düşdülər ki, indiyə qədər qəlblərindən nifrəti, kini-küdurəti silməyən, əksinə öz nəvə-nəticələrinə də aşılayan, onları ta körpəlikdən bizə - türkə qarşı düşmən ruhunda tərbiyə edən erməni fürsət gözləyirmiş ki, daşın altından çıxıb “Qarabağ bizimdir!” desin.

O zaman Ağdamda da bu xəyanətə coşqu ilə cavab verən oğullar, ağsaqqallar “İmarət” adlanan müqəddəs məkana toplaşmağa başladılar. Günbəzlərin birində

"Fred Asif" ləqəbi ilə tanınan Asif Məhərrəmov onları başına yığar, hadisələri saf-çürük edər, ağsaqqallardan məsləhətlər alar, hadisələrin gedişatına birlikdə qiymət verərdilər. Belə vətənpərvər insanların arasında dünyanın hansı nöqtəsində olursa-olsun Qarabağın havasını, suyunu heç bir yerldə paylaşa bilməyən Əlifoğlu İbrahimin oğlu Nazim də var idi. Nazim Cəbrayılov hadisələrin önündə gedir, öz həmfikirləri ilə birlikdə hər bir hadisənin təhlilini verir, düzgün nəticə çıxarmaq istəyirdilər. "Ömürdən pay olar, vətəndən pay olmaz" deyə düşünürdülər.

> ***Haşiyə***: *Hadisələrin gedişinə maraq göstərdiyim üçün mən Nazimdən Fred Asif kimdir deyə soruşdum? Nazim isə cavabında: - O sanki bir filosofdur, çox dərin fəlsəfi düşüncələrə malikdir. Baş verən hadisələri düzgün analiz etməyi bacarır, ən başlıcası isə vətənpərvərliyi, köhnə Qarabağ kişilərinə məxsus kəsərli sözü ilə haqqı-ədaləti üzə çıxaran, gücsüzlərə kömək edən bir insandı, dedi Nazim.*
>
> *Elə bu xüsusiyyətlərinə görə Asif Məhərrəmov şəhidlik zirvəsinə ucalaraq Azərbaycanın Milli Qəhrəmanı oldu.*

Bəzən ailənin içində bir fərd fərqlənir. Niyə görəsən? Seçilmiş olmaq asandırmı? Bununla da Nazim Cəbrayılovun 39 yaşından sonrakı həyatı tamamən Vətən oldu. ***Vətənin qədrini o kəs bilr ki, vətən ilə ruhən rabitəsi olsun, vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün (N. Nərimanov).***

Bu deyimlər sanki Nazim Cəbrayılov üçün yazılıb. Elə yenicə mənfur ermənilərin məkrli siyasətini başa düşməyə çalışırdılar ki, dəhşətli 20 Yanvar faciəsi baş verdi. Artıq erməni təcavüzkarları planla hərəkət etməyə başlamışdı. Bu faciə bütün Qarabağı, bütün insanlığı sarsıtdı.



***Gözündə yaş gördüm, yanağında nəm,***
***Cıdır düzündəki xarı bülbülün,***
***Dərdin sinəsində dağlandı sinəm,***
***Didərgin düşmüşdü yarı bülbülün.***
*(Zəlimxan Yaqub)*



## VƏTƏNİN SƏSİ

Məlumdur ki, ailə hər bir insana əziz olan, müqəddəs hesab edilən varlıqlardan - ata-ana, övlad, bacı-qardaşdan ibarət toplumdur. Ailənin məskən olduğu ev də elə üzvlərin hər biri kimi əziz olur, əvəzsiz olur. 1990-cı ildə Nazim Cəbrayılovun ailəsində üç övlad - iki qız, bir oğul böyüyürdü..

1990-cı il 20 yanvar faciəsi baş verəndə hamı kimi biz də bu görünməmiş dəhşətdən sarsıldıq, özümüzü şəhid olanların biri saydıq, onları ailə üzvümüz hesab edərək ahnalə çəkdik. Artıq dözə bilməyən Nazim hadisələrin içində idi. Evə gec gəlirdi. Saçı da ağarmağa başlamışdı.

Mən isə 9-10 yaşlı qızlarıma nə baş verdiyini başa salır, onlarla birlikdə ağlayırdım. Körpələrlə birlikdə televizorun qabağında oturub şəhidlərin dəfn mərasimini izləyirdim. Bu böyük sarsıntını ailəlikcə çəkdik. Evin ab-havası dəyişdi. Qızlar şəhidlərə aid şəkilləri, şerləri toplayır, həmişəlik saxlasınlar deyə dəftərlərinə yapışdırırdılar.

Yaxşı yadımdadır, Orxan 90-cı ilin sentyabr ayında 1-ci sinfə getdi. Rus dili müəlliməsi sinfə daxil olub, özünü rus dilində şagirdlərə təqdim edir. (Müəllimə azərbaycanlı idi) Birdən 6 yaşlı Orxan ayağa qalxır və yenicə gördüyü sinif yoldaşlarına üzünü tutub: - Uşaqlar, siz rusun dərsini oxumayın, rus ermənilərin dostudur, - deyir.

Təsəvvür edin ki, 20 yanvar hadisəsi baş verəndə Orxan 5 yaşında idi. 8 ay bundan öncə baş verən hadisəni uşaq yadında saxlayıb ki, əli yalın cavanlarımızı, millətimizi muzdla tutulmuş rus əsgərləri, milli mənsubiyyəti dəqiq məlum olmayan əsgərlər qətlə yetiriblər.

Odur ki, sinifdə öz uca səsini qaldırıb. Sonra müəllimlər arasında səs yayıldı. Orxanın bu hərəkəti bütün evlərə yayılmışdı. Hamı söyləyirdi ki, Nazimin oğlu başqa cür ola bilməz. “Şərikli çörək” filmində deyildiyi kimi ***müharibə uşaqları başqa uşaqlara bənzəməz. Onlar yaşlarından tez böyüyürlər*** . Bu, doğrudan da belədir.



Ağdamda “Çay evi” adlanan bir məkan vardı. Hündürlüyü 20 metrə qədər olan yüksək zövqlə tikilmiş, dəmir məhəccərlə əhatələnmiş bu məkan şəhərin mərkəzində idi.

Həmin gün axşam bura toplaşan cavanlar, ağsaqqallar gün ərzində baş verən hadisələrdən söhbət eləyərdilər. Onlarla birlikdə çay süfrəsi ətrafında oturan Nazimə Orxanın rus dili müəlliməsinin həyat yoldaşı yaxınlaşaraq gündüz məktəbdə baş verən hadisəni özünəməxsus tərzdə gülə-gülə danışır.

Axşam Çay Evindən geri dönən Nazim Orxanı yanına çağıraraq başa salır ki, hər kəs düşmənin də dilini öyrənməlidir. Bu söz Orxanı sakitləşdirdi.

Bu gün artıq xalq üçün, ölkəmiz üçün əhəmiyyətli bir iş-

də işləyən Orxan Nazim oğlu Cəbrayılov bu dili mükəmməl öyrənir və başa düşür ki, bu dil heç də düşmənin dili deyilmiş. İndi dünyanın bir çox şəhərlərini gəzib-görmüş Orxan da eyni ilə atası kimi digər xalqların adət-ənənəsi, tarixi ilə maraqlanır, muzeyləri gəzir, tarixi abidələrlə tanış olur.



Bütün bunlar nə qədər gözəl, xoş və maraqlı olsa da, bir ali arzu var:

***Ağ dama,***
***Qara dama, ağ dama,***
***Bağlı yollar açıla,***
***El qayıda Ağdama.***



## MƏNİ ŞƏHİD GÖRÜB ƏYİLMƏ, VƏTƏN!

***Bu torpağı canımızdan artıq sevsək - Vətən olar!***
***Uğurunda candan keçsək - Vətən olar!***

**Nurəddin Rumi**

Fikirdən fikir doğur, əziz oxucular. Nazim haqqında yazıya başlayanda fikirlərim məni çox-çox maraqlı hadisələrə aparıb çıxarır, sanki şaxələnirəm. Gözümlə gördüyüm, bilavasitə iştirakçısı olduğum əhvalatları sevə-sevə qələmə alıram. Çünki bu əhvalatların arxasında 16 illik gözəl, firavan həyat, xoş günlər, kədərli anlar, gündən-günə daha da mükəmməlləşən, püxtələşən ailə həyatımız, övladlarımız durur. Ulu tanrıma şükür edirəm ki, heç olmasa birlikdə bir neçə illər keçirmişik, sevincimiz, kədərimiz bir olub.

Bəlkə də birlikdə keçiridiyimiz bu illərin yadda qalan maraqlı əhvalatlarıdır məni bu kitabı yazmağa sövq edən. Qəlbimdə Sənin kimi bir igidin, cəsarətli, şücaətli qəhrəmanın görünməyən tərəflərini açmaqla bərabər bir çoxlarına - səni tanıyan və tanımayanlara, dostlarına, qohumlarına, yaxınlarına məlum olan keyfiyyətlərini qələmə almaq ehtiyacı duydum.

Əlif oğlu İbrahimin oğlu Nazim! Sən evdə hörmətli ər, qonşulara xeyirxah insan, qohumlara məsləhət yeri, dostlara arxa, dayaq, davranışı ilə valideyinlərinin güvəndiyi oğul, gücü çatanda mütləq kömək edən, çatmayanda isə ən azı ruh yüksəkliyi verən bir insan idin. Sənin ətrafındakı insanlar həmişə səndən müsbət enerji alar, Səndən yüksək əhval-ruhiyyə ilə ayrılardılar.

Biz səninlə bir oğul, bir ər, bir ata, bir qardaş kimi fəxr edir, qürur duyuruq, Nazim! Xəbərin varmı ki, sənin həyat

dolu xatirələrin ölümündən güclü çıxdı.

***Xatirə dəftərimin səhifələrində 7 dekabr 1994-cü il tarixli bir yazı var. Ölümündən heç bir il keçməmişdi. Bir gün Orxanla söhbət edirdim. Dedim, mənim balam, gəl otur yanımda, atanın iyini səndən alım. Qayıtdı ki, ana, mən də səndən atamın iyini alıram, ağlamıram. Ona görə ki, atam deyirdi ki, kişi ağlamaz, elə bilirəm ki, atam Qərvənddədir, qayıdıb gələcək.***

Günlər ötdükcə sənlə bağlı xatirələrimiz yarpaq-yarpaq vərəqlənir, səni yanımızda görür, həmişəki kimi deyib-gülürdük. Evimizdə sənin zabit formasında çəkdirdiyin çox gözəl, böyüdülmüş bir portretin asılıb. Biz Səndən sonrakı həyatı da Səninlə yaşayırıq. Sanki Sənə hesabat verir, gördüyümüz işlərin, elədiklərimizin Sənin xoşuna gəlib-gəlmədiyini bilmək üçün şəklinə baxırıq. Mənim boynuma çox ağır bir yük qoymusan. Bunlardan biri də övladlarımızın gələcək həyatıdır. Mənim üçün ən əsası onların təhsili idi. Hər üçü bir-birinin ardınca universitetə daxil olanda böyük sevinc yaşamışam.

Həhayət, həyatımın ən sevincli günlərindən biri - Orxanın toy günü gəlib çatdı. Gözün aydın olsun, deyirəm, Nazim. Oğlun Orxan sənin soykökünə uyğun, sənin adını, şərəfini tamamlayan bir ailənin qızını evimizə gəlin gətirdi. Salmanovlar ailəsi ilə qohum etdi bizi oğlumuz. Azərbaycan xalqına fitri istedadlar bəxş etmiş bir ailənin - dünya şöhrətli neftçi-geoloq Fərman Salmanovun, incəsənət xadimi Mais Salmanovun, tanınmış ictimai xadim Amura xanım Salmanovanın, xeyirxahlıq, əliaçıqlıq simvolu olan, eli-obası üçün təmənnasız tikib-yaradan müdrik insanlar Telman Hüseynov, Yusif Yusifov kimi el ağsaqqallarının evində doğulub, boya-başa çatan bir qız bizim oğlumuzun

qisməti oldu. Oğlumuzu təbrik edənlər Orxanın bu seçimini çox yüksək qiymətləndirərək hər iki gəncin bir-birinə münasib ailədən olduğunu, bir-birini tamamladığını söylədilər. Vaxtı ilə rəhbər vəzifələrdə olmuş, nüfuzlu iş adamı olan Elman müəllim Orxanın bu seçimini xüsusilə alqışlayaraq, cavanlara xeyir-dua verdi.

Orxanın toy məclisində yaxın dostun, Səni bütün məziyyətlərinlə tanımayanlara tanıdan millət vəkili Aqil Abbas çox dəyərli bir nitq söylədi. O nitqində üzünü Sənin oğluna, məclisdəki qonaqlara tutub: - ***Biz hamımız Nazimdən bir az artıq ömür eləməkdəyik. Ancaq hər kəsə onun kimi ad qoyub getmək qismət olmayacaq. Sən, oğlum, həmişə belə kişinin, belə cəsarətli bir sərkərdənin oğlu olmağınla fəxr edəcəksən, dedi.*** Və nitqinin sonunda qeyri-adi, standartlardan, adilikdən uzaq bir hərəkət etdi. Sənin şərəfinə badə qaldırmağı xahiş etdi qonaqlardan. Nazim, hamı ayağa qalxdı, elan edilməmiş, ancaq duyulması mümkün olan bir sükutdan sonra Sənin şərəfinə badə qaldırıldı.

... Və mən bir daha Sənin varlığına inandım. Sən bizimlə idin, Nazim. Zalda qoyulmuş ekranlardan görünən çöhrəndə təbəssüm duyulurdu. Mehriban baxışların məni tapır, “Düz fikirləşirsən, mən burdayam, sizinləyəm, səninləyəm!” deyirdi.

Orxan Nazim oğlunun toy şənliyində iştirak edən dəyərli qonaqlar, sənin dostların övladına xoşbəxtlik arzuladılar, xeyir-dua verdilər. Sonra isə çox maraqlı, çox şən keçən toy məclisində yüksək əhval-ruhiyyə ilə, sevinclə qol götürüb oynadılar.

Məni də özləriilə, ailələrilə birgə oynadaraq, gözaydınlığı verdilər. Bu həm də Sənə verilən gözaydınlığı idi, Nazim. Sən yanımda idin.



*Aqil Abbas Orxanın toy məclisində*

## OCAQ KÜLÜNDƏN, İGİD ƏMƏLİNDƏN BƏLLİ OLAR

1988-ci il qondarma Qarabağ probleminin qaldırıldığı ilk gündən Nazim Cəbrayılov vətəni müdafiəyə qalxaraq torpaqlarımızın bütövlüyü və xalqımızın azadlığı uğrunda yorulmadan mübarizə aparır və bu yolda əlindən gələn köməyi edirdi.

Yüksək intellekti, mübarizliyi, xalqını qəlbən sevməsi və bu kimi bir çox insani keyfiyyətləri Nazimə Ağdam camaatı arasında böyük nüfuz qazandırmışdı. Öz bacarığı sayəsində iqtisadiyyatın, tarixin, hüqüq qanunlarının mükəmməl bilicisi kimi tanınmışdı.

Bu keyfiyyətlərinə görə 1990-cı il seçkilərində onu Rayon Sovetinə deputatlığa namizəd göstərmişdilər.

Nazim bütün münaqişə illəri ərzində Ağdamın və Qarabağın dağlıq hissəsində yaşayış məntəqələrinin müdafiəsi ilə bağlı əlindən gələn köməyi əsirgəmədi. Orada yaşayan azərbaycanlılarımıza maddi və mənəvi dayaq olmağa çalışdı.

Dövrümüzün ən dəhşətli faciəsi olan Xocalı faciəsi onu çox sarsıtmışdı. O, Xocalı camaatının mühasirədən çıxması üçün köməyə atılmış, işlədiyi avtomobil müəssisəsini də bu işə tam səfərbər etmişdi.

...Şuşa, Laçın, Ağdam və digər ərazilərimiz də işğal olundu. O gündən Nazim bir gün də olsun Ağdamın işğal olunmamış torpaqlarından kənara çıxmadı. Bir çoxları kimi var-dövlət, vəsifə dalınca qaçmadı. Könüllü olaraq yenidən silaha sarıldı. Pafossuz-zadsız, bir Vətən oğlu, torpağına düşmən gözü tikilmiş bir başıpapaqlı, qeyrət sahibi bir kişi kimi bu müharibə şəxsən ona aid oldu, bu şəxsən onun düşmənlə müharibəsi idi - Vətən uğrunda müharibəsi. Əlifoğlu İbrahimin oğlu Nazim başqa cür yaşaya bilməzdi...

Dəfələrlə torpaqlarımızın müdafiəsi ilə bağlı televiziya dakı çağırış-çıxışları ilə ətrafına neçə-neçə igidləri topladı. Müdafiə Nazirliyinin əmri ilə “N” hərbi hissəsinə rota komandiri təyin olundu.

Onun hərbi işi mükəmməl bilməsi sayəsində tapşırılan mövqelərdə güclü müdafiə yaradıldı və keçirilən bir neçə hərbi əməliyyatlarda uğurlar qazanıldı. Belə əməliyyatların birində Yusufcanlıya, Papravəndə, az qala daş karxanasına qədər gedib çıxılmış, az itki ilə neçə düşmən məhv edilmişdi.

Komandiri olduğu əsgərlərlə birlikdə Ağdamın Yusufcanlı, Cəvahirli, Kosalar, Salahlı, Atçılıq zavodu, Kən-

gərli və başqa yaşayış məntəqələrinin azad olunması uğrunda müxtəlif əməliyyatlar keçirmiş, onlarla erməni quldurunun məhv etmiş, neçə-neçə düşmən texnikasını zərərsizləşdirmişdi.

Nazimin bu şücaətləri Müdafiə Nazirliyindəki sənədlərdə, mətbuatda, televiziya verilişlərində də öz əksini tapmışdır.

Nazimin Vətən, xalq yolunda, müstəqil dövlətimiz uğrunda qəhrəmancasına həlak olması nə qədər böyük itki və nə qədər ağır olsa da, onunla təkcə ailəmizin başçısı olduğuna görə yox, ümumilikdə bir qeyrətli vətən oğlu olması ilə fəxr edir, qürur duyuruq.

Yeri gəlmişkən, Nazimin üç yaşı hələ tamam olmamış nəvəsi Hüseyn babasının hərbi paltarda olan şəklini görən kimi balaca əllərini ona tərəf uzadaraq, "Abaycan, Abaycan" deyir. Uşağa elə gəlir ki, əsgər Azərbaycan deməkdir. Doğrudan da, sözün düzünü uşaq deyər. Hüseyn, sən düz deyirsən, əsgər elə Azərbaycandır.

Nazimin qəhrəmanlığı hələ balacalıqda nağıllardan beynimizdə formalaşdırdığımız əfsanəvi qəhrəman surəti ilə üst-üstə düşürdü. Bizim qəhrəman məhz belə olmalı idi. Mərd, qorxmaz, dönməz, qeyrətli, Vətənini özündən, çox sevən...

Gün o gün olsun ki, Nazimin və onun kimi neçə-neçə oğullarımızın nahaqdan tökülmüş qanı ilə suvarılmış Vətən torpağı yağı düşməndən azad olsun. Şəhidlərimizin qanı yerdə qalmasın, torpaqlarımız bütövlükdə azad olsun, hamımız öz dədə-baba yurdumuza qayıdaq. Yer üzündə haqq-ədalət bərpa olunsun.

## ÇÖZƏLƏNƏN XATİRƏLƏR İŞIĞINDA...

Bir dəfə söhbət zamanı Xalidə ana mənə söylədi ki, qızım, mən böyük türk şairi Nazim Hikməti çox sevirdim, onun şeirlərini oxuyub əzbərləyirdim. Əhd etmişdim ki, oğluma onun adını qoyacağam. Ancaq mən türk xalqının böyük şairinin adını iki oğluma verdim. Nazimdən sonra dünyaya gələn oğlumu Hikmət adlandırdım. Xalidə ana Nazim Hikmətin şeirlərinin çoxunu əzbər söyləyərdi.



Bu kitab aşiqi olan duyğulu xanım nəvələrinin də adını özü qoymuşdu. Ən çox sevdiyi xanım sənətkarlardan biri də müğənni Fidan Qasımova idi. Onun adını Nazimin qızına qoymuşdu.

Mütaliəni çox sevirdi. Xalidə ana istirahətini kitab, qəzet oxumaqla keçirərdi. Əlibala Hacızadənin əsərlərini mütaliə edəndən sonra Nazimin ikinci qızına əsərdəki Jalə adını qoydu. Qızları çox sevir, hara getsə onlarla gedir, onlarla əylənirdi.



Ailədə üçüncü uşaq - oğlan dünyaya gəlir. Xalidə ana onun adını Ülvi qoymağı planlaşdırır. Nazim bu zaman anasına deyir ki, bu ad çox incə, zərif səslənir. Gəl uşağın adını Orxan qoyaq - bu ad əzəmətlidir, ordu xanı, ordu başçısı deməkdir. Ad ananın xoşuna gəlir. 1984-cü ildə



Orxan rayonda bu adı daşıyan ilk uşaq idi, bu ad hələ yayılmamışdı. Nazimin məhz bu adı seçməsi də onun türkçülüyündən, vətənpərvərliyindən, türk oğlu olması ilə fəxr etdiyindən xəbər verirdi. “Orxan” adı qədim türk abidələrində xatırlanır, həm də yazılı mənbələrdə türk xaqanlarından birinin öndə gedən qəhrəman oğlu kimi məlumdur.

Nazim sanki hər şeyi öncədən hiss etmişdi. Doğrudan da ata hissiyyatı güclü imiş, bu adı övladına verməkdə yanılmamışdı. Orxan atası ruhda, düzgün böyüdü. Şəhid atanın əsgər balası əsgəri xidmət zamanı Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə alayında öndə gedən əsgərlərdən biri oldu. Dəfələrlə televiziyadan hərbi hissəyə gəlib çəkiliş aparan müxbirlər Orxanla söhbət etmiş, müsahibə aparmışdılar.




Müxbirlərin suallarına çox dolğun cavablar verən Orxan Vətəninə xidmət etməsilə fəxr etdiyini söyləyirdi. Savadı, zəkası və dünyagörüşü ilə əsgərlər arasında seçilən Orxan komandirinin və zabit heyətinin hörmətini qazanmışdı. Fövqəladə Hallar Nazirliyinin mart ayının



2-də qeyd olunan peşə bayramı şənliyində öndə gedən maşınların birini Orxan idarə edirdi. Bayram iştirakçıları arasında olan mənim ana sevincim isə hüdudsuz idi...

Novruz bayramını Mülki Müdafiə Alayının əsgərləri ilə birlikdə qeyd edən Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov bayram süfrəsi arxasında oturarkən onların qayğıları ilə maraqlanmış, özünün də bir vaxt belə bir alayda xidmət etdiyindən fəxrlə söhbət açmış, bayram sovqatı paylamışdı. Elə həmin gün nümunəvi davranışı, intizamı və məsuliyyəti ilə fərqlənən bir neçə əsgəri 10 günlük növbədənkənar məzuniyyətlə mükafatlandırmışdı. Onlardan biri də Orxan idi.



Hərbi xidmətdən bayram sovqatı ilə evə dönən Orxan bizim təəccübləndiyimizi görüb, gülü-gülə, “Qarşınızdakı müstəqil Azərbaycanın Mülki Müdafiə Alayının əsgəridir!”, dedi.

Oğluma baxa-baxa düşünürdüm ki, atası ona Orxan adı verməkdə yanılmamışdı. Oğlu da eyniylə atası kimi vətənpərvər idi. Türk xalqının tarixini çox yaxşı bilən atası çox mütaliə edərdi. Ən çox sevdiyi kitablar N.Gəncəvinin “Xəmsə”si, M.S.Ordubadinin “Qılınc və qələm” tarixi romanı, Anri Massenin “İslam”, Y.V.Çəmənzəminlinin “Qızlar bulağı”, Onore Balzakın 5 cildlik əsərləri idi. Nizami Gəncəvinin “Xosrov və Şirin” əsərini əzbər söyləyərdi. Sədi Şirazinin “Büstan” və “Gülüstan”əsərləri onu valeh etmişdi. Məclislərdə bu əsərlərdən misallar çəkərdi.

Kitab rəfi türkün tarixini əks etdirən kitablarla zəngin idi. Hətta kitab mağazasının müdiri (rəhmətlik) Tağı Novruzova tapşırmışdı ki, xüsusi tapşırıqla şəhərə gətirilmiş 5 kitabdan biri ona çatmalıdır. Kişi də birinci olaraq bağlamalardan Nazimin kitablarını seçib ayırardı. Axşam işdən evə dönən Tağı dayı (Nazimin yaxın qohumu idi) Nazimin kitablarını özü evə verərdi. Sonralar Nazim hər şeydən çox öz kitablarını götürə bilməməsinə heyfislənərək, “Heyf kitablarım!” deyirdi.

Qızlar məktəbə gedəndən sonra ad günlərində onlara müxtəlif hədiyyələrlə bərabər mütləq kitab da bağışlayardı. Bunlar əsasən “Azərbaycan kulinariyası”, “Evdarlıq” və müxtəlif şirniyyatların hazırlanması barədə kitablar idi. Kitabların hamısının titul vərəqlərində öz arzularını yazar, qol çəkib, tarix qoyardı. Müharibənin qızğın çağında 13 yaşı tamam olan qızı Fidana “Gözəlliyin sirri” adlı kitab almışdı. Kitabın içərisində artıq böyüməkdə olan qızına nəsihətlərini və arzularını yazmışdı. Arzusu qızını həkim görmək idi.

## MARAQ DAİRƏSİ GENİŞ, HƏYAT EŞQİ TÜKƏNMƏZ İDİ...



Bir dəfə mağazaya gətirilmiş rəsm əsərlərinin içərisindən 3 dənə çox gözəl sənət əsəri olan tabloları seçib evə gətirmişdi Nazim. O zaman bu əsərlərin qiyməti çox baha idi. Bu mənzərələri əks etdirən tablolara baxmaqdan böyük zövq alar, onlara baxmaqdan aldığı ləzzətin qiyməti olmadığını söyləyərdi.

Nazim həm də "Qurani Kərim"in tərcüməsini oxuyardı. O, bu müqəddəs kitabın bütün tərcümə variantlarını əldə etmişdi. Hər gün "Həmdi-surə" oxuyar, kəlmeyi-şəhadətini söyləyərdi. Onun bu hərəkətinə fikir verən kiçik əmisi Rasim öz həyat yoldaşı Nilufərə Nazimin hərəkətlərindən danışanda onun xatirini həddindən artıq çox istəyən Nilufər "Nazim bənzərsiz insandır!" demişdi. Bu, həqiqət idi.



***Kislovodsk, 1969-cu il***





*Kislavodsk. 1969-cu il*



*Aşqabad. 1973-cü il*



*Qara dəniz sahilində. 1976-cı il*




***Nazim yaxın dostu Şükür əmi və oğlu Orxanla.***
***Şəki. Xan sarayı. 1984-cü il***

Getdiyi, gəzdiyi şəhərlərdə ilk öncə oranın tarixi abidələri ilə maraqlanar, görməli, baxmalı yerlərini gəzər, muzeylərdə olardı.

Onun davranış tərzi, sözü-söhbəti, həyata münasibəti adi deyildi. Vətən sözü, məfhumunun arxasında Nazim canlı bir varlıq görürdü - sevilməyə, fəxr edilməyə, qorunmağa layiq bir canlı. Sonralar həyatı, düşmən qabağındakı hərəkəti ilə bir növ son sözünü deyərək sanki əlavə etdi - həm də yolunda vuruşub ölməyə layiq bir canlıdı Vətən!

Nazim! Artıq sən mənim üçün təkcə həyat yoldaşı deyilsən. Sən xalqına qürur, fəxr bağışlamış mərd, igid bir türk oğlusan! Həm də adi oğul deyilsən. Sən türk oğlunun qeyrət rəmzi, cəsarət simvolusan! Ölümün gözünə dik baxmış, ölümü ilə ölümsüzlük qazanmış türk oğlusan!

Tələbə yoldaşın Həsən İsrafilovun "Qalx ayağa, Vətən oğlu" şeiri sanki sənə ünvanlanıb:

## QALX AYAĞA, VƏTƏN OĞLU

Bu gün mənə elə gəlir
qəhrəmanlar, nər igidlər
başdan-başa yalandı.
Ulu Tanrım yaxşı bilir,
ermənilərin zoruna
Vətənimin torpaqları
zaman-zaman talandı,
bölündü, parçalandı.
Şəhərlərim, kəndlərim
od-alova qalandı.
Cavad xanlar... Cələbilər...
neçə-neçə mərd oğullar danıldı.
Yalnız mənfur düşmənlərə
manqurt kimi yarınanlar
öz türkünə, soykökünə
kürəyindən zərbə vuran,
türkü türklə savaşdıran,
türk adına ləkə olan
o yalançı "qəhrəmanlar"
tarixlərə salındı.
Erməniyə düşmən deyən
mərd oğullar
zindanlara atıldı.
Vətən turp tək satıldı:
Nəticəsi bu oldu ki,
Laçın, Şuşa... Qarabağım alındı,
Millətimçün matəm marşı çalındı.

Ey türk oğlu!
İnsaf eylə, dön geriyə -
Hər qayana, daşına bax!
Çox qədim bir yaşına bax!
Qılınc götür, qalxan götür,
At belinə, yəhərə qalx,
Duşməninin başı üstə
Tufan qopar, şimşək ol  çax!
Bayrağını zirvəyə tax!
Xilas elə yağılardan
Babaların, nənələrin
Ruhu yatan torpaqları.
Sənin kimi mərd oğuldan
Vətən razı qalsın barı...
Ey türk oğlu, bir az düşün,
Qız-gəlini əsir millət
Xoş gün görməz, çəkər zillət.
Vətən oğlu, ayağa qalx!
Zəbt olunmuş torpaqların
Qoy qalmasın yad əllərdə!
Qaçqınlığı qaçqın salsın
Öz yurdunda, öz elində.
Ey türk oğlu!
Düşməninin başı üstə
Tufan qopar, şimşək ol çax!
Bir müqəddəs zəfər qazan,
Bayrağımı zirvəyə tax!

***Həsən İSRAFİLOV,***
***Əməkdar müəllim,***
***Nazim Cəbrayılovun tələbə yoldaşı***

## QARDAŞ YANĞISI



***Yelmar İbrahim oğlu Cəbrayılov***

Gənc yaşlarında ailə həyatı quran İbrahim kişinin ilk oğul övladı Böyük vətən müşaribəsinin sonlarında (1944-cü ildə) dünyaya gəlir. Əmiləri Şahmar və Şahların adına yaraşdıraraq uşağa Yelmar adı verirlər. İlk oğul nəvəsi ailəyə böyük sevinc bəxş etdi.

Müharibə yenicə qurtarmışdı. Müharibənin gətirdiyi bəlalar ölkə iqdisadiyyatını ağır vəziyyətə salmışdı. Bütün bu ağrı-acını da insanlar çəkirdi. Qıtlığa, cürbəcür xəstəliklərə qarşı mübarizə başlamışdı. Elə bu vaxtı dünyaya göz açan körpənin nazını xalalar çəkirlər. Mən Nazim haqqında yazılarımda Xalidə ananın bacıları - xalalar haqqında məlumat vermişdim. Onlar altı bacı idilər - Şəkil, Tavat, Sayat, Xalidə, Validə, Adilə.

Uşağı xəstəlikdən, aclıqdan qoruyur, göz bəbəyi kimi saxlayıb böyüdürlər ilk oğul nəvəsini. Yelmar İbrahim oğlu Cəbrayılov hamı kimi məktəbə gedir. Orta məktəbi bitirib diş həkimi olmaq arzusu ilə Bakıya gəlir. Təhsilini başa vurub geri qayıdan oğula xalalar baba həyətini bağışlayırlar. Sonra isə toy edib gəlin gətirirlər ailənin ilk oğluna.

Bu oğul o qədər əzizlənir ki, adı xalaların, özündən kiçik qardaşların, yaxın qohumların and yerinə çevrilir. Kiçik

qardaşları ilə bərabər çox xoşbəxt, firavan həyat keçirir.

Ataları İbrahim Əlif oğlu qoçaq, yorulmaz, işinə məsuliyyətlə yanaşan, dostluqda möhkəm, əqidəsi düz, zəhmətsevərliyi ilə ailəsinə xoş həyat, firavanlıq bəxş edən bir insan idi.



***Şuşa. Cıdır düzü. Arxada Topxana meşəsi görünür***

Yelmar da hər il istirahətini ölkənin müxtəlif şəhərlərində keçirər, o da qardaşı kimi muzeyləri gəzər, tarixi abidələrlə maraqlanardı. Kiçik qardaşı Nazimlə xasiyyəti, sözü-söhbəti də uyğun gələrdi. Bəlkə də elə bu səbəbdən onun itkisinə tab gətirə bilmədi Yelmar.

Qardaşların hansı biri xəstələnsə, o biri dərhal onun başının üstünü alar, əlindən gələn köməyi edərdi.

İllər keçdikcə, səninlə birgə həyatımda bir şey mənə aydın oldu, Nazim. Sən böyük qardaşın Yelmarı canından

çox istəyirdin. Bunu sübut edən bir çox hadisələrin şahidi olmuşdum.

Yelmar çox dostpərəst adam idi. Onun demək olar ki, bütün dostları ailə dostuna çevrilmişdi. Bu ailə dostlarının bizim üçün ən önəmlisi, hamımızın istəklisi çox dəyərli Biləsuvarlı Mirsultan ağa idi. Yelmarın vasitəsi ilə biz də ailəlikcə Ağanın ailəsi, uşaqları ilə tanış olduq.

Biz Yelmar həkimin (mən onu belə çağırırdım) erməni təcavüzkarlarının Qarabağı hərb meydanına çevirdiyi vaxtlarda Nazimə olan məhəbbətinin böyüklüyünü daha da açıq-aydın görürdük.

Özü xəstələnmişdi (şəkərli diabet idi). Hadisələr, namərd qonşu, tanrı qarğışı olan erməni faşistlərinin yağdırdıqları top atəşlərinin onun səhhətinə xüsusilə pis təsir etdiyindən ailə üzvləri, valideynləri ona şəhərdən getməsini məsləhət gördülər. O isə heç kəsi eşitmək istəmirdi. Xocalı soyqırımı xəbərini eşidən Mirsultan ağa Qarabağa maşın göndərdi və eyni zamanda telefon açaraq təkidlə səhhəti pisləşən Yelmar həkimi evinə çağırdı. Ağanın bu alicənab hərəkəti, canıyananlığı qarşısında Yelmar razılıq verməyə bilmədi. Lakin o, qardaşına uşaqlarla məni özü ilə birlikdə aparacağını söylədi. Nazim heç vaxt mənimlə Orxanı şəhərdən çıxartmırdı. O, söyləyirdi ki, hamı ailəsini şəhərdən aparsa şəhər boşalacaq, erməniyə də elə bu lazımdır.

O zaman demək olar ki, şəhərin əksər ailələri bütün çətinliklərə sinə gərir, bombaların, dolu kimi yağan “Qrad” mərmilərinin altında olsalar da evlərini tərk etməyi özlərinə sığışdıra bilmirdilər. Belə ailələrdən biri də Əlifoğlu İbrahim kişinin ailəsi idi.



*Hacı Mirsultan ağa*

Hacı MirSultan ağanın çağırışı, xəstə qardaşının təkidli sözündən sonra Nazim bizim bir neçə günlüyə Biləsuvara - Mirsultan ağagilə getməyimizə etiraz etmədi.

Ağır seyidlərdən sayılan **Hacı Mirsultan Ağa kimdir?** Bu suala vaxtilə Ağa ilə birlikdə Məkkə ziyarətində olan zəvvarların 11.06.1994-cü il tarixli "7 gün" qəzetində verilmiş aşağıdakı məqalədəki yazılar tam dolğunluqla cavab verir.

## ÖZ AYAĞI İLƏ BEHİŞTƏ GEDƏN ADAM

*Kim idi Hacı Mirsultan ağa? Bir yerdə olduğumuz qısa müddət ərzində hamının hörmətini qazanan, ağıllı, müdrik söhbətləri ilə zəvvarları daim öz ətrafına cəlb edən bu hörmətli şəxs haqqında çox şeyi biz geri qayıdandan sonra öyrəndik. Öyrəndik ki, onun ən böyük istəklərindən biri Allah evindən əbədiyyətə qovuşmaq imiş. Ziyarətdən bir gün əvvəl oğul-uşaqlarını başına yığmış, vəsiyyətini eləmişdi. Hətta yas mərasimini aparacaq rövzəxanla da halallaşıbmış. Biz öyrəndik ki, Hacı Mirsultan ağa bütün şüurlu həyatını dinimizin yayılmasına, təbliğinə həsr edib. Başı min bir əziyyətlər çəkib, sovet hökuməti onu dini əqidəsinə görə sürgünlə də sınayıb.*

*Lakin o, Əyyub peyğəmbər (ə) kimi səbrlə bütün çətinlik-*

*lərə dözüb. Biləsuvarda məscid bina edib, daim əli kasıbların üstündə olub, yetimlərə atalıq edib. Biz öyrəndik və bildik ki, bu nurlu insanı bütün bölgənin camaatı özünə ağsaqqal bilir, çətin vaxtlarda onun ayağına gəlirmiş. Hamının ayağına gəldiyi adam öz istəyi, öz arzusu ilə əbədi olaraq əcdadlarının ayağına getdi. Oğlu Miralim də təsdiq edir ki, Hacı Mirsultan ağa Məkkədə iyun aynın 4-də sübh namazından sonra haqq dünyasını dəyişəcəyini söyləyibmiş. Elə də oldu. Hacı Mirsultan ağa ziyarətin bütün şərtlərini həyata keçirəndən sonra öz arzusuna çatdı. Biz onu ulu babalarının - Məkkənin Şeybu Əbu Talib qəbristanlığında dörd imamımızın dəfn olunduğu şərafətli bir yerdə dəfn elədik.*

*Əməlisaleh adam olan Hacı Mirsultan ağa haqq dünyasına qovuşdu. Sən Allahın xoşbəxt bəndəsi imişsən ki, müqəddəs məkanda heç bir günaha batmadan haqq dünyasına qovuşdun. Deməli, yerin behiştlikdir. Allah sənə rəhmət eləsin Hacı Mirsultan ağa.*

Biz səhər tezdən Biləsuvara yola düşdük. Evdən çıxsaq da, fikrimiz Nazimin yanında idi. Ağa bizi çox qonaqpərvərliklə qarşıladı. Mən də, uşaqlar da Ağanın məscid kimi ziyarətgah evində gecə-gündüz dualar edir, Qarabağı qoruyan əsgərlərimizə cansağlığı arzulayırdıq.

Bir neçə gün Ağanın evində sakit, güllə yağışının altından kənarda olsaq da, fikrimiz evimizdə idi. Yelmar bizi orada qoyub Nazimin yanına qayıtmağa bəhanə axtarırdı. Bir gecə çox qarışıq bir yuxu gördüm. Səhər Ağdama qayıtmaq istəyən Yelmardan xahiş etdim ki, bizi də özü ilə aparsın, qayıtmaq istəyirik. O başa düşdü ki, mən qalmayacağam, odur ki, etiraz etmədi. Biz yenidən hərb meydanına çevrilmiş Qarabağa qayıtdıq. Nazim bizi çox bikef qarşıladı. Həqiqətən də ürəkaçan heç nə yox idi. O, demək olar ki, heç evə gəlmirdi.

1993-cü ilin iyul ayının 23-dən sonra bütün ailə üzlərimiz ailənin ağsaqqalı İbrahim kişi ilə birlikdə Bakıya gəldik. Əlbəttə ki, Nazimsiz.

Nazimdən xəbər bilmək üçün Yelmar Bakı ilə Quzanlı, Salahlı, Cəvahirli, Kəngərli yollarında qalmışdı. 1994-cü ilin aprel ayının 18-ində Nazimdən gələn qəfil xəbər Yelmarı sarsıtdı. Bir an hər şeyi unudan Yelmar sanki məndən başqa heç kimi görmürdü. Müharibəni, ermənini lənətləyərək mənə yaxınlaşdı. ***"Sənin də, Nazimin də Vətən məhəbbəti birləşib oldu 100 faiz", -*** deyərək məni də, Orxanı da götürüb Qarabağa Nazimin xəbərinin dalınca getdi. Bizimlə bərabər bir neçə maşın adam da yola çıxdı.

Nazim, xəbərini eşidən dostların, səni çox istəyən qohumlar da bizimlə birlikdə yola düzəldilər. Hamı Allaha yalvarır, xəbərin yalan olmasını istəyirdilər. Dostlarından biri qeyri-adi olaraq bərkdən , "Nazim, razıyam mən öləm, təki sən sağ qalasan", - dedi. Bunu söyləyən Yelmarın qaynı idi.

Getdik. Allah heç kəsə belə hüznlü, dəhşətli yol qismət etməsin. Sərhədə çatdıq. Maşınlar yoxlanır, heç kəsi irəli keçməyə qoymurdular. Atan artıq orada idi. Qarşımıza gələrək eşitdiklərimizin düz olduğunu təsdiqlədi, "Nazimim yoxdur!", deyərək hönkür-hönkür ağladı. Yelmarı qucaqladı. Nazim, düz 40 gün orada qaldıq. Səndən bir soraq almaq üçün hər gün atan, Yelmar sərhəddə gözləyir, düşmən tərəfindən gələn meyidləri yoxlayırdılar. Bütün günü siqaret çəkən, dərd-qəmlə qovrulan Yelmarın səhhəti pisləşdiyindən Bakıya qayıtmalı oldu.

Ən yaxın sirdaşı, dostu siqaret oldu Yelmar həkimin. Dərmanlarını vaxtında qəbul etmədi, yemək-içməkdən əlini üzdü. Qardaş yanğısı, qardaşın əfsanəvi ölümü bütünlüklə qəlbinə çökdü. Bu ölüm onu sarsıtdı, gecələr göz yaşı tökdü, gündüzlər otağından çıxmadı Yelmar.

Qardaşının nişanəsiz ölümü, onu yandırıb yaxdı. Bu cür ölümlə barışa bilmirdi Yelmar. Sanki ailəsini, uşaqlarım da unutmuşdu o. Nazimin itkisi onun əlini hər şeydən soyutmuşdu. Tez-tez bizə baş çəkirdi, uşaqları görməyə can atırdı. Keçirdiyi ağır stressdən Yelmarın mədəsində açıq yara əmələ gəldi. Artıq yatağa düşən Yelmara baş çəkmək üçün onlara getdim. Bizi görəndə sevindi. Dikəlib oturdu, mənimlə çox məhrəm, çox sərhədsiz söhbət etdi, açıq-aşkar. O, şeiri, musiqini çox sevirdi. Mən ona dərdimə uyğun bir şeir oxudum. Şeiri dinlədi. Şeirdə sonra üzümü mənə tutaraq, sən mənə deyirsən ki, mən həyat yoldaşımı itirmişəm, dərdim böyükdür. Balalarım atasız qaldı. Bəs mən?!! Mən isə Nazimi itirməklə atamı, qardaşımı, oğlumu, balamı itirdim. Mən də dözə bilmirəm. Nazim mənim arxam idi, arxamı itirdim, qolum-qanadım idi, qolumu-qanadımı itirdim. Nazim mənim dostum idi. Mən dostumu itirdim. Həyat gözümdə hecə enib. Deyəsən Nazimin dərdi məni aparacaq, Nazimin yoxluğuna dözə bilmirəm, dedi.

O danışdıqca başqalaşırdı. Sanki qarşımda tamamilə başqa bir insan dayanmışdı. Yüksək mədəniyyətlə danışığına, intellekt səviyyəsinə, qardaş balalarına münasibətdə çox incə davranışına heyranlıqla baxdım. Əvvəllər mən onu böyük qaynım, həkim kimi qiymətləndirirdim. Müsibətimizin içində, bu ağır günlərdə onu daha dərindən tanıdım, sanki yenidən kəşf etdim.

Uşaqlarla, mənimlə bir az söhbət eləyəndən sonra özünə gəldi. Ayağa qalxaraq bizi evə maşınla özü ötürəcəyini söylədi. Biz də ondan ayrılmaq istəmirdik. Maşında da sözündən-söhbətindən qalmırdı. Mənə öyüd-nəsihət verirdi. Özümdən, uşaqlardan muğayat olmağı tapşırır, ürəyində nə vardısa açıb-tökürdü. Sanki, axır görüşümüz olacağını duymuşdu. Yolda mənə söylədi ki, mən sabah-

dan xəstəxanaya gedəcəm, bir-iki gündən sonra əməliyyat keçirdəcəm. Ancaq səndən bir xahişim var, mənim içəridə rahat olmağımı istəyirsənsə, uşaqları bu yolda əsir-yesir eləmə. Hava da soyuqdur.

Reanimasiyadan palataya köçürülən kimi sənə yemək sifariş edəcəm. Bişirərsən, uşaqları da götürüb xəstəxanaya gələrsən.

Evə çatanda uşaqlarla öpüşüb-görüşdü, ananızın sözünə baxın, dedi. Ayrılanda bir də: "Söz verirsənmi gəlməyəcəksən?", - deyə soruşdu. Yaxşı, söz verirəm, dedim.

Bu bizim son görüşümüz oldu. Ayın 18-də, onu əməliyyata götürdülər. Həmin gün qardaşının itkisindən 9 ay keçirdi. Ayın tarixi məni diksindirdi - 18 yanvar. Özümü itirdim. Bərk həyəcanlandım. Söz verməyimə baxmayaraq, gec olduğundan evlərinə getdim. Vəziyyətin necə olacağı səhər məlum olacaqdı.

Mən çox narahat idim . Evə qayıtsam da özümə yer tapa bilmirdim. Heç xörək də hazırlaya bilmədim. Qərar tuta bilməyəcəyimi görüb uşaqlarla birlikdə Şəhidlər Xiyabanına getdim. Uşaqları Xiyabanda qoyub evə tələsdim. Demə Yelmar can üstə imiş. Elə mənim keçirtdiyim narahatlıq da bu səbəbdən imiş. Ürəyim bunu xəbər verirmiş mənə. Nazim, Sənin canından da çox istədiyin, and yerin Yelmar axşamüstü həyatla vidalaşdı.Yelmar mənə görüşmək üçün 20-də xəstəxanaya gəlməyi tapşırmışdı. Çox, çox təəssüf ki, həmin gün biz Yelmarla əbədi vidalaşdıq.

Nazim, Yelmarı itirməklə uşaqların əziz əmisini, arxamızı, dayağımızı itirdik. Heyf, səndən Yelmar, Nazimimin əziz qardaşı. Uşaqlarımın əziz əmisi, biz səni çox tez itirdik. Uşaqlar hələ də sənin adına and içirlər. Biz ailəmizin içindəki dostumuzu da itirdik.

Ölənə qədər gözləri yolda qalmışdı Yelmarın. Ümidi

kəsilməmişdi, yana-yana deyirdi ki, Nazimi öz əllərimlə torpağa tapşıra bilmədim. Bəlkə də Nazimdən sonra doqquz ay yaşamasına səbəb qəlbindəki bu nisgili oldu. Qardaş nisgili ilə getdi dünyadan. Qardaşının əfsanəvi qəhrəmanlığı da gözünə görünmədi. O, təkcə qardaşını istəyirdi, onu qucaqlamaq, bağrına basmaq, "Qardaş, od-alovun içinə getmə, cavansan, körpə balaların var, həyat yoldaşın gəncdir", demək istəyirdi. Arzusu ürəyində, gülüşü dodağında qaldı Yelmarın.

20 Yanvar günü torpağa qoyuldu. Qardaş yolunda şəhid oldu Yelmar. Artıq anan yoxdu səni oxşasın, bacın yoxdu lay-lay çalsın, bəlkə oyanasan. Atanın beli büküldü. Bir daha dikələ bilmədi. Zərbə üstdən zərbə aldı Əlifoğlular. Doğuluşun da müharibəyə düşdü, gedişin də. (1944 -1995) Amma sən həyatını çox firavan, xoşbəxt yaşamışdın. Sənə qibtə eliyənlər də çox idi. Hətta yas mərasiminə gələnlər təskinlik üçün bu sözləri söyləyirdilər - əzab-əziyyətlə, həyatın gözəlliyini, şirinliyini dadmadan, 80-100 il yaşamaqdansa Yelmar kimi 50 il yaşamaq yaxşıdır. Bəlkə də haqlı idilər.

Səndən sonra atan da dözmədi. İbrahim kişinin də ölüm tarixi 18-nə düşdü - sentyabrın 18-nə. İndi ata-oğul qəbiristanlıqda bir-birinin yanında uyuyurlar. İbrahim kişi Yelmarı qucaqlayaraq Nazimini gözləyir. Cəsədi torpağa tapşırılmayan Nazimin ruhu yəqin ki, doğmaları ilə görüşüb. Hərdən elə bil Xalidə ananın səsini eşidirəm:

***Ay mənim qoşalarım,***
***Toyda tamaşalarım.***
***Məni kimlər qarğadı,***
***Qoy ölsün qoşaların.***

Allah Sizə rəhmət eləsin, gözəl insanlar, mənim əzizlərim! Qəbriniz nurla dolsun!

# İLLƏRİN YOL YOLDAŞI ATAM



Atam. Mənim ən etibarlı dostum.

Mən - Nazim Cəbrayılovun həyat yoldaşı Rəhilə el ağsaqqalı Qaçay Yadigar oğlu Məmmədovun qızıyam. Nazimin valideynləri haqqında yazanda söyləmişdim ki, biz hər ikimiz iki dostun övladlarıyıq. Böyüklərin məsləhəti, xeyir-duası ilə ailə həyatı qurmuşuq. Atam Qaçay kişi gözümdə o qədər uca, o qədər əziz idi ki, məsləhətinə etiraz etmədim. Nazim də valideynlərinin seçimi ilə atasının dostu, Qarabağın el ağsaqqalı Qaçay Məmmədovun qızı ilə ailə qurmağa razılaşmışdı.

Qaçay kişinin ailəsi Şuşa şəhərində Mamayı məhəlləsində Mir Möhsün Nəvvab küçəsi 11 №-li evdə yaşayırdı. Çox böyük ailəsi vardı. Əslində bu ailə təkcə onun öz oğul-qızlarından ibarət deyildi. Bu evdə o bütün qohum-əqrabasını, dostlarını, qonşularını, şəhərə kənardan gələn qonaqları başına yığardı. Onları süfrə başında əyləşdirər, özü də onlarla birgə nahar edər, dərdlərinə qulaq asar, məsləhətlər verər, əlindən gələn köməyi əsirgəməzdi. Bütün ailə üzvlərinin də diqqətini bu qonaqlara yönəldər, onların yad olduğunu övladlarına hiss etdirməzdi. Biz uşaq

vaxtlarından belə mühitdə böyüyərdik. Anamız Dilşad xanım da atamızın bu xüsusiyyətini sanki tamamlayırdı. Bir-biri ilə qohum olan ər-arvadın xəmiri bir yoğrulmuşdu. Birinin başladığı işi o biri sona çatdırırdı. Biz böyüdükcə atamızın şəhərin nüfuzlu, vəzifəli, sayılıb-seçilən kişilərindən biri olduğunu başa düşürdük. İmzası da özü kimi sanballı idi. Dövlət qulluğunda olduğundan ona rəsmi olaraq, hörmətlə "Mamedov" deyə müraciət edən şəhər əhlinin dilincə mən də atamı belə çağırardım. Mənim digər bacı-qardaşlarımdan fərqli olaraq atamı "Mamedov" deyə çağırmağım yaşa dolduqca ona daha da xoş gəlir, könlünü açırdı. Ömrünün sonuna qədər mən ona belə müraciət etdim.

Atam haqqında, onun kim olması haqqında qəzetlərdə gedən materialları önə çəkməklə Qaçay kişinin şəhər əhalisi arasındakı hörmət-izzətini, tutduğu vəzifəsini, nüfuzunu, gördüyü işləri, camaatın ona olan məhəbbətini, əziz oxucular, sizə çatdıracağam. Və sonda deyəcəyəm: Bax, belə kişi idi bizim atamız! Biz bu kişinin övladı olmağımızla fəxr edirik. Övladlarımız da, belə kişinin nəvəsi olmaqdan qürur duyurlar. Bu ocaqda tərbiyə alanlar az yaşlarından sanballı, ədəb-ərkanlıdırlar. Biz heç vaxt onlara "Bu olar, bu olmaz" deməmişik. Çünki genetik bağlılıq öz təsdiqini tapdığı üçün bütün bunlara ehtiyac olmamışdır.

Mən ailə həyatımı atamın məsləhəti ilə qurdum. Bu işdə o heç də yanılmamışdı. Çünki Nazim onun ürəyincə olan bir kürəkən idi. Onlar həmişə bir-birini çox gözəl başa düşürdülər, ayrılıq gününə qədər hörmətli qohum, əziz dost kimi qaldılar.

Aprel ayı gələndə çox sevinərdim. İlin hər bir ayına



*Aprel ayında Şuşa bu çiçəklərlə bəzənərdi*

mən öz-özlüyümdə ad vermişəm. Apreli isə təmizlik, paklıq ayı hesab etdiyim üçün çox sevirəm. Bu ayda təbiət oyanır, ağaclar tumurcuqlayır, təbiət öz gələcək gözəlliyinin bünövrəsini qoyur. Valideynlərimiz də qohumluğun bünövrəsini məhz bu ayda qoydular. Apreldə başlanan qohumluq neçə illərdən sonra elə aprel ayında da başa çatdı. Çünki atam da, Nazim də aprel ayında dünyadan köçdülər.

Mən Qaçay Məmmədov haqqında bir ata kimi bəzi məlumatları sizə çatdırdım. İndi isə onun həm də mənim ən böyük dostum olmasından söz açmaq istəyirəm.

Vaxtı Tanrı yazar... Atamın övladları elə yenicə ailə həyatında qədəmlərini möhkəmlətmək istəyirdi ki, amansız müharibə başımızın üstünü aldı. Müharibənin bizim ailəyə vurduğu zərbə hamıya məlumdur. Öncə kiçik kürəkəni Əşrəf İsmayılovun şəhid olması, sonra isə Nazim Cəbrayılovun ölüm xəbərini alan Qaçay kişi ürək infaktı keçirərək xəstəxanaya düşdü. Kardiologiya İnstitutunun əməkdaşları və onun həkim kollektivi atamızı ölümün pəncəsindən xilas etdi. Neçə aydan sonra özünə gələn bu xeyirxah, nəcib, savab işlər sahibi olan kişini sanki neçə illər Allah özü qorudu. Çünki bizim ona ehtiyacımız çox idi.

Atalıqdan çox dostumuza çevrilmişdi. Hər an başımı-

zın üstünü alar, əzab-əziyyət, korluq çəkməyə qoymazdı. O qədər mütaliə etmişdi ki, sanki canlı ensiklopediya idi bu kişi. Yaddaşı o qədər iti idi ki, 80 yaşında belə hər bir işi yerli-yerində edir, dolğun, səlist danışmaqla fikirlərini izah edirdi. Bütün bunlar onun bir şəxsiyyət kimi güclü olduğundan xəbər verirdi. Gəncliyindən 80 yaşına qədər gördüyü xeyirxah işlər, insanlığa yaraşan nəcibliyi onun nurani simasında öz əksini tapmışdı. İnsanlar bu müdrik, mükəmməl insanı sevir, onu görmək, dinləmək üçün tez-tez evinə gəlir, Qaçay kişini ziyarət edirdilər. Biz onun məsləhətlərinə həmişə əməl edərdik. Dar, çətin günlərdən ləyaqətlə çıxmağı bizə atamız öyrətmişdi. Dövran bizi sıxsa da, əyə bilmədi. Çünki dəyanəti, həyat sınaqlarından büdrəməməyi, addımlarımızı qətiyyətlə, inamla atmağı, dostluqda möhkəm olmağı aşılamışdı bizə. Onu itirəndə bir daha dərk etdik ki, söykəndiyimiz dayağı, güvəndiyimiz dostu, sevdiyimiz insanı, ən əsası isə ümidimizi, pənahımızı itirdik. Bu itki səhhətimizdə dərin izlər buraxdı. Atamızın ölümündən bir neçə ay sonra möhkəm iradəli, heç vaxt heç nədən şikayətlənməyən, bütün dərd-qəmini qəlbinin dərinliyinə hopduran anamız Dilşad xanım da dünyasını dəyişdi. Həmişə iradəsi ilə xəstəliyə qalib gələn anamız, atamızın qəfil ölümünə dözə bilmədi.

Hər ikisi Pirşağı qəbiristanlığında torpağa tapşırıldı. Bü böyük insan qəbiristanlıqda da öz Şuşalılarının əhatəsində, qonşuları, dostları ilə birgə eyni məkanda uyuyur. Bu qərbiristanlığa bizlərdən ziyarətə kim getsə həmişə onun məzarını təmiz, səliqəli, güllərlə əhatəli görür. Bunları edən, onu çox sevən şuşalılardı. Qaçay kişinin süniliyi sevmədi-

yini bilən şuşalılar həmişə onun qəbri üstünə təzə-tər güllər qoyurlar. Allah sizlərə cansağlığı versin. Siz elinizin ağsaqqalına hörmət və ehtiramınızı göstərməklə bizə də təsəlli verirsiniz. Biz, yəni Mamedovun övladları ehtiramınıza görə sizlərə təşəkkür edərək, ürəyimizdə atamızın bir zamanlar bizə söylədiyi məşhur misraları təkrarlayırıq:

***Yaxşı da, yaman da köçür dünayadan,***
***Çalış yaxşılıqla düşəsən yada.***

Nizami Gəncəvinin bu misraları elə sənin kimi insanlara aiddir.

Bir zamanlar nəvənə yazdırdığın nəsihətli sözlər, aforizmlər bu gün də bizim gərəyimizə çatır. Əziz atamız, sənin bütün həyatın bizə örnəkdir. Biz yaşa dolsaq da yenə də sənin nəsihətlinlə, göstərdiyin yolla, möhkəm, titrəmədən, mükəmməl addımlayırıq. Bizi belə tərbiyə etdiyiniz üçün Sizə minnətdaram. Sizin şərəfli adınız həmişə dilimizdə, qəlbimizdədir, bizimlədir.

Mən bu gün öz çevrəmdə "kişi qızı, kişi xanımı" olmağımla fəxr edirəm. Bu sözlər Nazimin sözləri idi. O, mənim atamla qohum olmağı ilə fəxr edirdi. Cəbhəyə gedəndə isə bu sözləri söylədi: "Kişi qızı olmaq azdır, kişi arvadı olmaq da lazımdir". Hər ikiniz mənim üçün çox dəyərli idiniz. Odur ki, öz-özümə pıçıldayıram, ruhunuz şad olsun. Siz deyənlər öz yerini alıb. Ruhum ruhunuza qovuşana qədər bir an da olsun xatirimidən sözünüz, söhbətləriniz çıxmayacaq, mənim əzizlərim. Siz özünüz də zamanında ailələrinizin fəxr ediləsi oğulları olmusunuz. Bu gün Sizin davamçılarınız var. Rahat uyuyun, qəbriniz nurla dolsun. Ən şərəfli bəzəyimiz övladlarımızdır, arxayın olun. Şükür Tanrıya!

***Həyat yollarında xoşbəxtlik və səadətə nail olmaq üçün insan dözümlü, iradəli və mübariz olmalıdır.*** Bu

sözləri də Sən öyrətmisən bizə, əziz atamız.

Min qəddi əyən yük bir çiynə düşəndə dahilik yaradır. Sən çiynini min dərd altına verdin. Əziz atam, mən Nazimin itkisindən sonra həmişə fikirli gəzirdim. Bu Sənin gözündən yayınmırdı. Təbiətimdəki dəyişiklik Səni də, anamı da narahat edirdi. Bir gün məni yanında əyləşdirərərk yazı qovluğunu açdın. İçərisindən saralıb-solmuş bir qəzet səhifəsi çıxardaraq mənə verdin və tapşırdın ki, evə gedəndə oxuyarsan. Mən Sənin dediyin kimi də etdim. Evə çatan kimi qəzet parçasına baxdım. Tarixinə nəzər saldım: 15.01.1977-ci il. “Azərbaycan gəncləri” qəzetində dərc olunmuş bu şeirin adı “Həlak olmuş döyüşçünün sevdiyi qıza məktubu” idi. Rus dilində yazılmış şeir Hikmət Ziyanın tərcüməsində verilmişdi. Qəzet köhnəlib korlandığı üçün müəllif haqqında əlyazması şəklində verilən məlumatı oxumaq mümkün deyildi. Bircə onu başa düşdüm ki, bu şeir 1941-1945-ci illərdə Vətən uğrunda həlak olmuş gənclərə ithaf edilmişdi. Mən şeiri çox diqqətlə oxudum:

***Sevgilim,***
***Çıxmaz xatirimdən heç zaman adın,***
***Bu məktubu sənə, çox aram-aram***
***Mən, həlak olandan sonra yazıram.***
***O gündən nə qədər illər keçibdir,***
***Neçə-neçə axşam, səhər keçibdir...***
***Qərinəyə dönüb bu illər bəlkə.***
***Nə qədər oğlan var mənimlə birgə -***
***Hamısı cavan,***
***Heç biri boy atmır, ötsə də zaman.***
***Nə bir kamilləşir, nə yaşa dolur,***
***Il ötür, hamısı bir yaşda olur.***
***Nə sevib evlənə bilirlər onlar...***

*Əbədi yatırıq səssiz, səmirsiz,*
*Sağ qalanlar üçün həlak olduq biz.*
*Ilin hər fəslində qışda, ya yazda*
*Bir qədər duyuruq sükutumuzda -*
*Həyatçün bəxş etdik həyatımızı!*
*Yurdun milyon-milyon oğulu, qızı*
*Yaşayırsa - deməkk, bizlər də varıq,*
*Hər birimiz dinsək, nə danışarıq?*
*Deyərik: - Qoy dünya eşitsin bizi,*
*Əsla unutmasın bu kəlməmizi!*
*Insan yer altına vaxtsız getməsin,*
*Cavan ömürləri ölüm biçməsin.*
*Qardaşlıq qəbrində uyuyuram mən,*
*Ancaq xəbərsizik bir-birimizdən.*
*Nə eşidə bilir, nə də görürük.*
*Sevgilim,*
*görən neyləyirsən bu saat, bu an?*
*Qocasan, ya cavan?*
*Səndən nigaranam, yaman nigaran.*
*Əzizim, bacarsan məni bağışla,*
*Gələcəyəm dedim, gəlmədim amma...*
*Yurdum tapdaq altda qalmasın deyə,*
*Bilirsən, könüllü getdim cəbhəyə.*
*Döyüşdə sinəmə qurğuşun doldu,*
*Özüm də bilmirəm bu necə oldu.*
*Niyyətim düz yüz il yaşamaq idi,*
*Nəvə, nəticələr oxşamaq idi.*
*Döyünən ürəyim hanı, ver xəbər?*
*Onu məndən qabaq güllələdilər.*
*Güllə dönə-dönə qəlbimə dəydi,*
*Bir anın içində qəddimi əydi.*
*Bir ömrü puç edən güllə indi də*
*Soyuyub buz kimi, qalır köksümdə.*
*O mənə xəlvəti sözlər söyləyir,*
*Canım olmasa da, bağrım göynəyir,*

*Deyir: “Ürəkləri güllə deyil, tək*
*Məhəbbət alovu yandırsın gərək!”*

*Mən səni anıram bu an, əzizim,*
*Taleyə bir bax!*
*Bir onu bilirəm ki, mən*
*Biz qalib gəlmişik, azaddır Vətən!*
*Aydınca duyuram mən bunu hər vaxt,*
*Çünki üzərimdə yüngüldür torpaq.*
*Tapdamır onu yad soldat çəkməsi,*
*Eşidilmir nə top, nə də tank səsi.*
*Onu da duyuram başımın üstə*
*Yer şümlanır...Günəş başqa*
*Həvəslə... naməlum əsgərə heykəl qoyulur,*
*Pyedestal oluram mən ona, budur.*
*Abidəyə dönür hər nəfərimiz*
*Heç vaxt qocalmırıq gənc qalırıq biz.*
*Daha nə söyləyim? Əhdim, diləyim -*
*Mənə cavab yazma, qurbanın olum,*
*Nə ünvanım vardır, nə poçtalyonum,*
*nə də həyatım.*
*Qalan bir adımdır, şərəfli adım!*
*Mən gülürəm, ömrü vermədim yelə.*
*Tək bir günahımı yumaq istərdim -*
*Ölümümlə sənə kədər yetirdim.*
*Qəm etmə, gülümsə, xoşbəxt ol*
*hər an.*

Başımı qaldıraraq fikrə getdim. Kişidəki həssaslığa, diqqətə bax. Onun bir kəlmə işlətmədən mənə verdiyi şeirin məzmunu, mənası daxilimdə bir dönüş yaratdı. Şeirin sonluğu insanı gülüşə, həyata, var olmağa səsləyirdi. O bilirdi ki, mənim qarşımda uzun bir yol var. Bu yolda acı da var, şirin də, dost da var, namərd də. Mən varlıqla yoxluq arasında

idim. Atam heç nə demədən, bir kəlmə belə söz işlətmədən bu bir parça şeirlə mənə dözümlü olmağı, mətanətlə, dəyanətlə bu çətin yolda addımlamağı başa saldı. Kədərlə- sevinc, xeyirlə-şər əkiz yaranmışdır, "Sən buna əməl etsən, Nazimin də ruhu şad olar, çünki onun ruhu daim sizinlədir", demək istəmişdi atam. ***Üç uşaqlı ana ayaqüstə olmalıdır, yıxılmamalıdır! Buna sadəcə onun ixtiyarı yoxdur.***

Şeirin təsir gücü elə indi də məndə qalır. Öz yolumu seçmək üçün belə sözsüz psixoliji təsir qüvvəsinə ehtiyacım vardı. Allah Sənə rəhmət eləsin müdrik  kişi!

Biz özümüzü həyatda təsdiqləyən kimi itkilərimz başladı. ***Mənim qəlbimdə əziz atam, əziz anam, əziz dostum həmişə qəmli bir kaman çalır, qəmli bir kaman.*** Ölümün ürəyimizi parçaladı, sən dəyanətli kişi idin, lakin dost itkisi - həm qohumun, həm dostun ***Məhərrəm Quliyevin,*** eynən sənə bənzəyən, yaşasaydı sənin davamçın olardı, gənc yaşından Xocavənd rayonunda nüfuzlu rəhbər işçi kimi sayılıb-seçilən, fəxr etdiyin, gəncliyindən sanballı addımlayan bacın oğlu Fəxrəddini qəflətən ürək ağrısından dünyasını dəyişməsi sənin qəddini əydi. Əşrəfdən, Nazimdən sonra qarşılaşdığın dəhşətli itki. Sən həmişə bizə ***qohumla dost olun,*** deyərdin. Bu amalla böyütdün bizi. Sən tək öz ailəndə yox, hər evdə anılırsan. Qarabağlıların, şuşalıların el ağsaqqalı olan Qaçay kişinin hikmətli sözləri indi də qulaqlardadır.

Hər ekstrimal vəziyyətdə mən özümü itirməzdim. Sən dünyadan gedəndə isə əksinə oldu. Kiçk qızın Aybənizin "Mən atamı istəyirəm, verin atamı!" naləsi bizi varlığımızdan yox etdi. Sənin yanında biz nə qədər yaşa dolsaq da, yenə körpə uşaq idik.  Sən dünyadan gedən gün sanki birdən-birə qocaldıq. Körpə uşaq kimi, ümidsiz qoca kimi,

tənha qalmış gəlin kimi arxanca ağladıq. Ümidim ata, son pənahım ata, ölümün də heç kəsə əziyyət vermədi. Sönən şam kimi yavaş-yavaş bizə əlvida dedin. Ölümünü bilirdin, hamıyla halallaşdın, dostlarınla, işçilərinlə görüşdün, məsləhətlər verdin. Peyğəmbər (əleyhissəlam) 63 il yaşadı, mən isə çox yaşamışam, ondan artıq deyiləm, dedin.

Ən çox sediyi kitab, dost, təbiət, gül-çiçək idi . İndi sənin ətrafında dostların yatır. Dediyin kəlamlar dillərdə söylənir, gözəl təbiətin qoynundakı məzarın isə yaşıllıq, gül-çiçək içindədir. Nəvən Orxan həmişə mənə söyləyir ki, belə kişidən ötrü ağlamağa dəyər. Uşaqdan-böyüyə bütün Şuşa əhlinin yaddaşına həkk olmusan. Camaatın sənin qədrini bilir, hər kəs sənin onlara etdiyin yaxşılıqları xatırlayaraq nurlu ruhuna dualar oxuyurlar, bütün Qarabağ məclislərində anılırsan.

Özü gedib sözü qalan kişi! Səni heç kəs əvəz edə bilməz. Ata bütün övladların başının tacıdır. Sən isə təkcə öz övladlarının deyil, bütöv Qarabağ mahalının el ağsaqqalı, el atası adını almısan.

Qəzetlərdə  Sənin haqqındakı çap olunan yazılar mənim bu fikirlərimi təsdiq edir.

## ELDƏN GEDƏN AĞSAQQAL

Qaçay Məmmədov, müqəddəs şəhərimiz Şuşanın və eləcə də Qarabağın sayılıb hörmət edilən tanınmış şəxsiyyətlərindən, el ağsaqqalarından biri idi. 1941-1943-cü illərdə Şuşa Kənd Təsərrüfatı Texnikumunu fərqlənmə diplomu ilə bitirərək əmək fəaliyyətinə başlamış, ikillik Ağdam Müəllimlər İnsitutunda təhsilini davam etdirmiş, 1947-ci ildə Vilayət Partiya Komitəsi tərəfindən Gəncəyə, rəhbər kadrlar hazırlayan ikillik təhsilə göndərilmişdir. Oranı fərqlənmə diplomu ilə bitirərək rayona qayıtmış, bir müddət təsərrüfat orqanlarında kolxoz sədri kimi çalışmışdır. Kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirmiş, kolxozda məhsuldarlığın yüksəldilməsi, əməkgününün artırılması, təsərrüfat binalarının tikintisi sahəsində məqsədyönlü işlər görmüşdü. Onun rəhbərlik etdiyi təsərrüfatın Qarabağ cinsli atlarından Əsgəran qalasında çəkilən “Koroğlu” filmində istifadə edilmişdi. O, kənd təsərrüfatında qazandığı nailiyyətlərə görə (1958-ci ildə) Ümumittifaq Kənd Təsərrüfatı sərgisinin iştirakçısı olmuşdur. Sonra isə Bakıya gələrək “Maliyyə” fakültəsində təhsilini davam etdirmiş, MK yanında Marksizm-Leninizm Universitetinin dinəlyicisi olmuşdur. Təhsilini bitirdikdən sonra rayon maliyyə şöbəsində dövlət vergiləri üzrə rəis təyin edilmişdir. Müxtəlif vaxtlarda rayon XNK-də fəaliyyət göstərmiş, şəhər sovetinin sədri vəzifəsində çalışmışdır. Bundan sonra Şuşa şəhər maliyyə şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir. Rayonun ictimai-siyasi həyatında fəal iştirak edən Qaçay kişi xalqın dərin hörmət və məhəbbətini qazanmış, dəfələrlə yerli XDS- yə deputat seçilmişdi. Böyük

Vətən müharibəsi dövründə "Rəşadətli əməyə görə" və bir sıra orden və medallarla təltif edilmişdi. SSRİ və Azərbaycan Respublikası Maliyyə Nazirliklərinin "Əlaçı maliyyə işçisi" adına, dəfələrlə həmin orqanların, həmçinin Ümumittifaq Həmkarlar İttifaqı Şurasının və onun Respublika Komitəsinin Fəxri fərmanlarına layiq görülmüşdü. Onun rəşadətli əməyi həmişə dövlət tərəfindən qiymətləndirilmişdir.

Ömrümün mənalı 17 ilinin ən əziz, ən mötəbər dostu, yoldaşı, sirdaşı olan bu böyük insandan həyat dərsi götürmüşəm. Qaçay Məmmədov ömrünün 67 ilini Şuşada yaşamışdı. Şuşa Natəvan, Vaqif, Üzeyir bəy, Mir Mövsün Nəvvab, Əhməd Ağaoğlu, S.S.Axundov, Ə.Haqverdiyev,Y.V.Çəmənzəminli, Mehmandarovlar, Bülbül, Xan əmi, F.Əmirov, S.Ələsgərov kimi saymaqla qurtarmaq bilməyən görkəmli ictimai-siyasi xadimlərin vətənidir. Şəhərin 17 məhəlləsi, hər məhəllənin məscidi, hamamı və bulağı, ən əsası millətini, Vətənini canından əziz tutan qeyrətli kişilər olub. Onlardan biri də Qaçay Məmmədov idi.

Bahar təravətli ana təbiətin gözəlliklərini heyranlıqla duyan və böyük məhəbbətlə sevən bu insan, elə bahar fəslində də dünyasını dəyişdi. Biz onun yoxluğunu ağır bir dərd kimi ürəyimizdə gəzdiririk.

***Ziyəddin Məhərrəmov,***
***Azərbaycan Respublikası***
***Prezident yanında Dövlət İdarəçilik***
***Akademiyasının dosenti,***
***filologiya elmləri namizədi***

## AZƏRBAYCANPƏRƏST ZİYALI

Qaçay Məmmədovun 1970-ci illərdən etibarən camaat arasında böyük hörmətə malik olduğunun şahidiyəm. O vaxtlar cavan idi. Lakin söz-söhbətləri müdrik insanların söhbətlərindən seçilmirdi.

Ədəbiyyata, poeziyaya, folklorumuza, tariximizə, mədəniyyətimizə, el-obalarımıza, Vətənimizə və millətimizə bağlılığı məni valeh etmişdi. Öz dadlı-duzlu söhbətləri oxuduğu ədəbiyyatından gətirdiyi nümunələr onun gözəl yaddaş sahibi olduğunu göstərirdi. İxtisasca iqdisadçı olan bu insanın dərin savadı onu çoxlarından fərqləndirirdi. İşinə məsuliyyətlə yanaşırdı.

Ondakı gözəl kefiyyətlərindən biri də çox mütaliə etməsi, oxuyub-öyrəndiklərini həmsöhbətlərinə çatdırılması, fikir gerçəkliyinin üzə çıxarılmasına meylli olmasında idi. Haqsızlığa, ədalətsizliyə, yaltaqlığa nifrət edirdi. Millətin övladlarını qorxmaz və cəsarətli olmağa, torpaqlarımızı müdafiə etməyə çağırırdı. Dəfələrlə deyirdi ki, bu yaşında döyüşməyə hazırdı. Qarabağı, Şuşanı, Göyçəni, Xocalını, Kəlbəcəri çox sevirdi. Şuşaya, onun abidələrinə məhəbbətlə yanaşırdı.  Tez-tez memar Kərbəlayi Səfixan Qarabağlının adını çəkirdi. Azərbaycana, onun bütün insanlarına, məhəbbətlə yanaşırdı. Qəbim Qobustandan, Naxçıvandan, Təbrizdən, Dəmir Qapı Dərbənddən saatlarla danışırdı. Sanki o bütün bunları özünün vəzifəsi sayırdı.

Qaçay müəllim belə bir ziyalı idi. Artıq o, aramızda yoxdur. Şuşa, Qarabağ həsrəti ilə gözlərini əbədi yumdu. Onun məzarının üstünə Şuşa torpağı, Qarabağ gül-çiçəkləri səpiləcək gün gələcəkdir.

Dərin hörmət və ehtiramla,

***Əyyub Şırlanlı,***
***şair-publisist***

## EL AĞSAQQALI

Qaçay dayı bütün şuşalılar və eyni zamanda onu tanıyan bütün insanlar tərəfindən sevilmiş, hamı üçün əziz bir insan olmuşdu. Başlıca səbəbi onun insanlara qarşı xeyirxahlığı, mehribanlığı, sözün əsl mənasında el ağsaqqallarından biri olmasında idi. Qaçay dayını bütün varlığı ilə Vəiəninə, xalqına, elinə-obasına bağlı bir insan kimi tanıyırdım. Mən Qaçay dayı ilə bir neçə il əlaqəli şəkildə işləmişəm. O, həmişə insanlara qayğı ilə yanaşmağı özünə borc bilirdi. Mən inanıram ki, bu insani kefiyyətləri özündə cəmləşdirən el ağsaqqılının xatirəsi onu tanıyanların arasında daim yad ediləcək. Allah sənə rəhmət eləsin Qaçay dayı!

***Elxan Ələkbərov,***
***Şuşa Rayon İcra Hakimiyyəti***
***başçısının müavini***

## SƏMİMİ VƏ TƏMƏNNASIZ İNSAN

Şuşa Rayon Maliyyə şöbəsinin müdiri işlədiyindən maliyyə məsələlərini dərindən bilirdi. Ona görə də şəhərdə görülən abadlıq-quruculuq işlərinin vaxtında maliyyələşdirilməsində xüsusi diqqət yetirilir, bu zaman səmimiliyi, təmənnasızlığı ilə seçilirdi. Əhalinin dolanışığını istəyən adam idi. Xeyir-şərdən qalmaz, hamıya əl tuturdu.

Erməni separatizminin baş qaldırdığı illər ərzində hələ Şuşada olarkən özünə yer tapa bilmir, mənfur düşmənlərimizə qarşı mübarizənin lazımi səviyyədə olmadığından həmişə gileylənirdi. Bakıda onunla hərdənbir görüşlərimizdə bu barədə saatlarla ürək yanğısı ilə danışır, tez-tez

əsəbləşirdi. Bu zaman onu sakitləşdirmək də asan olmurdu. Elə Şuşasızlıq dərdi onu aramızdan apardı...

Allah rəhmət eləsin!

***V.H.Hüseynov,***
***Şəhər Sovetinin sədri***

## VƏTƏN AĞRISI ONU RAHAT BURAXMIRDI

Bu gündən çox hörmətli, savadlı, işinə dərin tələbkarlıq və qayğıyla yanaşan, ciddi, həm də qayğıkeş insan kimi tanıdığım bir şəxsiyyət haqqında söz açmaq istəyirəm. Qaçay Məmmədovun rəhbər vəzifədə çalışdığı dövr Şuşanın iqtisadi və mədəni inkişafının yüksəliş illərinə təsadüf edirdi. O, bir vətənpərvər insan kimi öz doğma şəhərinin ehtiyaclarını yaxşı bilir, onun inkişafı üçün mümkün qədər daha dolğun büdcə tərtib etməyə çalışır və rayon rəhbərliyini bu istiqamətdə iş aparmağa sövq edirdi.

O, bir rəhbər kimi öz işçiləri ilə gözəl ünsiyyətdə olur, adamlarla danışmağı bacarır və onların müraciətlərinə hörmətlə yanaşırdı. Bütün bunlar onun bir insan kimi sadə və güclü olmasını sübut edirdi. O həm də gözəl ailə başçısı idi. Bir ata kimi övladları ilə fəxr edirdi. Lakin ağır günlərimiz başlayarkən Q.Məmmədovun ailəsinə çox bəlalar üz vermişdi. Vətən ağrısı, torpaq həsrəti onu rahat buraxmırdı.

Öz işini bilən, savadlı, gözəl natiq, vətənpərvər insan, ciddi rəhbər olan Qaçay Məmmədovun işıqlı xatirəsi onu tanıyınların qəlbindən silinməyəcək.

***Sevil Babayeva,***
***Şuşa 1 saylı orta məktəbin direktoru***

## O, MİLLƏTSEVƏR BİR İNSAN İDİ

Mən Qaçay Məmmədov haqqında danışanda həmişə qəhərdən boğuluram. Onunla birgə keçirdiyim cavanlıq çağlarım yadıma düşür. Həmyaşıd kimi əlli ildən artıq dostluq etmişik. Çoxlarının bilmədiyi, yalnız mənim şahidi olduğum bəzi məqamlardan danışmaq istəyirəm. Onlarla Şuşalı ailəsi tanıyıram ki, Qaçay kişi onların maddi durumunu nəzərə alaraq müxtəlif dövlət vergilərindən həmişəlik azad etməyə nail olmuşdu. O, bir sıra dövlət komissiyalarının üzvü idi. Xalq məhkəməsində məhkəmə üzvü kimi həbsxanada yatan dustaqlara da ailə vəziyyətlərindən, tutulma səbəblərindən asılı olaraq verilmiş cəza müddətinin azaldılmasında mühüm rol oynamışdır. Vaxtilə dövlət tərəfindən müxtəlif səbəblərdən müsadirə edilmiş xüsusi mülkiyyətlərin - evlərin əsl sahiblərinə qaytarılmasında böyük işlər görmüş və mülk sahiblərinə sevindirmişdir. O bu qəbildən olan işləri təmənnasız görər, ədalətli nəticədən böyük zövq alardı.

Qaçay kişi maliyyə işlərinin mahir bilicisi, olduqca təmiz və təmənnasız insan idi. Məhz bu keyfiyyətlərinə görə camaat onu ürəkdən sevirdi. Hətta vəzifə səlahiyyətlərindən istifadə edərək kasıb insanların təqaüdə yüksək maaşla çıxa bilmələri üçün idarə rəhbərlərinə müraciət edir və onlara hər cür köməklik göstərirdi. Xeyirxahlıq onun canında, qanında idi. Şuşa əhalisi onun nəcib və savab işlərini bu gün də minnətdarlıqla xatırlayır. Olduqca alicənab, vətənpərvər bir insan kimi öz millətini sevirdi. Sadə adamlara hörmətlə yanaşırdı. Onun haqqında çox sözlər demək olar.

Əziz qardaşım, sənin yoxluğun qəlbimi göynədir. Döğ-

ma Şuşa torpağına qovuşmayan məzarın başında ürəyimi göynədən çox sözlər söyləmişəm. Səttar kişi də, mən də, neçə-neçə ağsaqqallar da səni unutmur, tez-tez yad edir, ruhuna dualar oxuyuruq. Qəlbimizdə bir xeyirxahlıq abidəsi ucaltmısan. Xatirən bu qəlblərdə əbədi yaşayır.

***Hörmətlə, dostun***
***Xasay Əliyev***

## XEYİRXAH VƏ LƏYAQƏTLİ KİŞİ

Qaçay dayı haqqında onun yaşadığı şüurlu ömrü qədər danışmaq olar. Çünki, həyatı mənasız yaşamayıb. Onun bütün əməlləri xeyirxahlıq üzərində qurulmuşdu. Əxlaqı pak, vicdanı təmiz idi. O, qeyrətli, vətənpərvər vətəndaş kimi övladlarını da Vətənə fəda ruhunda böyüdürdü. Qismət elə gətirmişdi ki, büdcədən maliyyələşən bir təşkilatın rəhbəri olmaqla rayon maliyyə şöbəsinin müdiri Qaçay Məmmədovla uzun müddət vəzifə münasibətində olmuşam. Onu tanıyanlar bilirdilər ki, bu şəxsiyyətli kişi vacib məsələlərin həllində vəzifəlilər qarşısında mövqeyindən dönməyən, sərt iradə sahibi idi.

Yaxşı mütaliəsi olan Qaçay dayı dövri mətbuatı diqqətlə izləyərdi. O, İcraiyyə Komitəsinin müzakirələri qurtardıqdan sonra xitabət kürsüsünə qalxıb maliyyə sahəsinə aid yeniliklərlə yanaşı, mütaliə etdiyi maraqlı informasiyalarla həmkarlarını da məlumatlandırardı...

Qarabağ uğrunda yaxınları şəhid oldu. Qaçay dayı şəhid övladı olan nəvələrini də himayə etdi, dövran onu sıxsa da, əyə bilmədi... Qaçay dayının ruhu onun cismindən ayrılaraq doğma Qarabağa getdi...

***Ramiq Məhərrəmov,***
***Şuşa şəhər xəstəxanasının baş həkimi***

## MƏNİM ATA ƏVƏZİM

Nakam taleyindən küsünüb erkən,
Dünyadan köç edib köçdü atamız.
Beş yetim uşaqla bir dam altında,
Ağlaya-ağlaya qaldı anamız.
Özünü yetirdi Qaçay dayımız.

O vaxt sən anamın halına yandın,
Onun hər dərdinə, qeydinə qaldın,
Anama qayğıkeş bir qardaş oldun,
Sevdik ata kimi səni hamımız,
Ay bizim vəfalı Qaçay dayımız.

Oxşayıb ata tək hər birimizi
Sınmağa qoymadın sən qəlbimizi,
Biz səni sanmışıq ata əvəzi,
Övladtək bağlıdır sənə canımız.
Ay bizim Şuşalı Qaçay dayımız.

***Təranə Əlabbasqızı,***
***Mart, 1998-ci il***

## QARABAĞ HƏSRƏTİ

Qaçqın çağırırlar mənim adımı,
Çadır yazdırıblar ev ünvanımı.
Ay ellər, obalar sorma halımı,
Satılmış torpağın həsrətindəyəm,
Anam - Qarabağın həsrətindəyəm!

Sən demə ölərmiş şəhər də, kənd də,
Ay Allah, itərmiş bar, bərəkət də,
Canlıyam, ölüdür can da, ürək də,
Bir udum havanın həsrətindəyəm.
Loğman Qarabağın həsrətindəyəm!

Getdi, cah-calallı bağlarım, getdi,
Yay-qış başı qarlı dağlarım, getdi.
Şirin söz-söhbətli çağlarım getdi.
Bircə xoş novrağın həsrətindəyəm,
Cənnət Qarabağın həsrətindəyəm!

Ürəyə sevinc yox, qəm-qüssə dolur,
Bu dərdə təsəlli göz yaşı olur.
Qız-gəlin çöhrəsi gül kimi solur,
Ay üzlü, al yanağın həsrətindəyəm,
Gözəl Qarabağın həsrətindəyəm!

İnsan yaşayarmı, deyin, arzusuz?
Olarmı obasız, qalarmı yurdsuz?
Ürəyim odlanır, qalmışam susuz,
Mən İsa bulağın həsrətindəyəm,
Sərin Qarabağın həsrətindəyəm!

Susub Cıdır düzün şeyda-bülbülü,
İtirib illərlə sevdiyi gülü,
Söndü ocağımız, sovruldu külü,
Sönməyən ocağın həsrətindəyəm,
Odlu Qarabağın həsrətindəyəm!

Ürəyim, qəm yemə, dünya düzələr,
Yatmış qara bəxtim oyanıb gülər.
Bəxtəvər günlərim yenidən gələr,
Deməz, Qarabağın həsrətindəyəm,
Deməz, Qarabağın həsrətindəyəm!

***Təranə Əlabbasqızı,***
***(Xocavənd qaçqını - Beyləqan rayonu)***

## Şuşa mənzərələri



*Şəhərin qoruyucu qüllələri*



*Xan qızı Natəvanın evi*



***Şuşada hələ  XVIII əsrdə tikilmiş yaşayış evi  və içəridən görünüşü***



## *Qarabağın dünya şöhrətli, tanınmış şəxsiyyətləri*



***Molla Pənah Vaqif***



***Xan qızı Natəvan***



***Üzeyir bəy Hacıbəyli***



***Bülbül (Murtuza Məmmədov)***



# Ölümdən uca olanlar



*Dünya sənin,*
*Dünya mənim,*
*Dünya heç kimin!*
***Məmməd Araz***

***Şuşa. Çöl Qala***
***məhəlləsi***




***Şuşa Azərbaycan mədəniyyətinin parlaq incilərindən biri olub, olaraq da qalır. Bu gün o həm də bizim işğal olunmuş torpaqlarımızın bir rəmzidir. Nə qədər ki, Şuşa erməni əsirliyindədir, biz hər birimiz Şuşalıyıq.***

**Heydər Əliyev Fondunun Prezidenti,**
**YUNESKO və İSESKO-nun xoşməramlı səfiri,**
**millət vəkili**
**Mehriban ƏLİYEVA**

***Qədim Şuşa qalası. Bu qalanın gerçək tarixi, inşası, bərpası və nəhayət, niyə Şuşa adlanması haqqında faktlar tarixi kitablarda var. Şuşa ərazisi Azərbaycanın qədim yaşayış məskənlərindən biridir. Şuşanın tərəqqisində onun Qarabağ xanlığının mərkəzinə çevrilməsi böyük rol oynamışdır. Qarabağ xanlığı Nadir şahın (1736-1747) imperiyasının dağılmasından sonra Azərbaycanda meydana gələn iyirmiyədək xanlığın biri idi. Xanlığı görkəmli dövlət xadimi Pənah xan Cavanşir (1748-1763) yaratmışdı.***



***Azərbaycan ərazisində bir erməni dövləti yaradılıb. 1918-ci ildə İrəvan xanlığı olan torpaqlarımız onlara bağışlandı. Bu gün isə ikinci bir erməni dövləti olmayacaq.***

**İlham ƏLİYEV**

## QARABAĞIN GERÇƏK TARÍXÍ

Qarabağ xanlığının ləğvindən sonra burada rus üsul-idarəsi yaradıldı. Çar hökumətinin Şimali Azərbaycan torpaqlarını erməniləşdirmə siyasətində Qarabağ və onun mərkəzi Şuşa şəhərinə xüsusi yer ayrılmışdı. Qarabağ xanlığının ləğv edilməsi ilə əlaqədar Rusiyanın həyata keçirdiyi 1823-cü il təsvirinə görə Şuşa şəhərində 1050-yə yaxın azərbaycanlı ailəsi (70%-dək) yaşayırdı. 1917-ci il Qafqaz təqviminin məlumatına görə isə Şuşa şəhərində 43.869 nəfər qeydə alınmışdı. Onlardan 19.121 nəfəri (43,6%) azərbaycanlılar, 23.396 nəfəri (53,3%) ermənilər idi. Şuşa əhalisinin etnik tərkibinin ermənilərin xeyrinə dəyişdirilməsi göz qabağındadır!

Ermənilərin Şuşada say etibarilə artmasının digər səbəbi onların azərbaycanlılara qarşı törətdikləri soyqırımı idi. Ermənlərin azərbaycanlılara qarşı 1905-1906-cı il soyqırımı Şuşada daha geniş miqyas almışdı. Çar hakim dairələrinin müdafiə etdiyi ermənilər burada yüzlərə azərbaycanlını qətlə yetirmişdi. Azərbaycanlı və ermənilərin eyni zamanda Rusiya imperiyasının tərkibində olduğu dövrdə (XIX-XX əsrin əvvəlləri) ermənilər azərbaycanlılara qarşı soyqırımı vasitəsilə regionda mövqelərini möhkəmləndirməyə çalışırdılar. 1918-ci ilin mayında Azərbaycan tor-

paqlarında "Ermənistan" adlı dövlətin yaradılmasından sonra ermənilərin azərbaycanlılara qarşı soyqırımları həm də ərazi iddiaları ilə müşahidə olunmağa başladı. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bunun qarşısını almaq məqsədilə 1919-cu ilin yanvarın 15-də mərkəzi Şuşa olan Qarabağ general- qubernatorluğu təşkil etmişdi.

Ermənistanda Sovet hökümәti qurulduqdan sonra (1920, noyabr) o daşnak hökümətinin siyasətini davam etdirdi. Sovet Rusiyasının yaxından köməyi ilə Qarabağın dağlıq hissəsinə muxtariyyət verilməsi uğrunda mübarizə başladı. Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz bürosunun 1921-ci il 5 iyul tarixli qərarı ilə Dağlıq Qarabağa muxtariyyət verilməsi qərara alındı. Maraqlıdır ki, qərarda muxtariyyətin inzibati mərkəzinin Şuşa şəhəri olması nəzərdə tutulurdu.

1923-cü il iyulun 7-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən Dağlıq Qarabağa muxtariyyət verildikdən sonra mərkəz Xankəndinə (1923-cü ilin sentyabrından Stepanakert adlandırıldı. Hazırda tarixi adı bərpa edilib) keçdi.

Şuşa şəhəri isə sonradan, 1923-cü il iyulun 16-da Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil edildi. Qarabağın mərkəzi kimi Şuşanın Azərbaycanın sosial-iqdisadi və mədəni həyatında layiqli yerini davam etdirməsi, erməni şovinizmi və separatizminə qarşı qətiyyətlə dayanması ermənilərin düşmənçilik fəaliyyətini daha da artırırdı. 1980-ci illərin ortalarından Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində güclənən erməni separatizmi faktiki olaraq Azərbaycana qarşı geniş miqyaslı işğalçı müharibəyə çevrildi. 1992-ci il mayın 8-də Şuşa şəhəri erməni-

lər tərəfindən işğal edildi. Ermənilər Şuşanın işğalında rollarını hər vəchlə artırmağa çalışsalar da, əslində tarix yenə təkrar olundu. 1797-ci ildə olduğu kimi şəhər bu dəfə də heç bir məntiqə sığmayan şərait üzündən ermənilərin əlinə keçdi. Erməni işğal ordusu və ona qoşulan qarətçi mülki dəstə Şuşada qalan azərbaycanlılara və Azərbaycanın bu tarixi şəhərinə amansız divan tutdular. Erməni vandalları Şuşada 70-ə dək nadir tarixi memarlıq abidəsini dağıtmışdır. Şəhəri erməniləşdirmək üçün miqrasiya tədbirlərinə, uydurma təbliğata ("Şuşa xeyriyyə marafonu" və s.) əl atılır. Azərbaycan Respublikası Ermənistanın Azərbaycan torpaqlarını işğalı ilə heç bir zaman barışmamış, respublikanın ərazi bütövlüyünü bərpa etmək əzmində olduğunu bəyan etmişdir. Bütün işğal olunmuş torpaqların, o cümlədən Qarabağın ürəyi Şuşa şəhərinin azad olunacağı gün uzaq deyil! Yalnız o zaman Azərbaycanın Şuşa nisgilinə son qoyulacaq.

***Mənbə:*** *Elturan Avalov. "Şuşa" qrafik albomunda tarix elmləri doktoru Kərim Şükürovun məqaləsi. Heydər Əliyev Fondunun nəşri. Bakı - 2008)*

# RUHUMUZUN VƏTƏNİ ŞUŞA



"Əlimiz çatmayanı, könlümüzün həsrətinə, nisgilinə çevrilən Şuşa! Harada doğulub, boya-başa çatmağımızdan, yaşamağımızdan asılı olmayaraq Şuşa bizim ruhumuzun, mənəviyyatımızın əbədi ünvanıdır". Xalq yazıçısı Anara məxsus fikirdir: "Şuşa bütün azərbaycanhların ruhunun vətənidir".

Dirilərə atılan güllələr namərdlərin ürəklərini soyutmadı. Heykəl ömrünə köçüb getmiş insanların - Natəvanın, Üzeyir bəyin, Bülbülün abidələrinə silah tuşlandı. Canlı soydaşlarımız kimi yerindən, yurdundan didərgin düşdülər. İndi onların ruhları Şuşanın başında, heykəlləri isə Bakıda nigarandırlar. O açılan günün, o doğacaq al səhərin, gətirəcək şad xəbərin intizarını çəkirlər. Hələ ki, hamımız o müjdəli günü gözləyirik.

Şuşa dünyanın yeganə şəhərlərindən idi ki, bütövlükdə memarlıq abidəsi sayılırdı. Başqa şəhərlərlə müqayisədə bəlkə də ən müasir şəhərlərimizdən biri Şuşadır. Amma təsəvvür edin ki, Pənahqulu xan bu şəhərin binəsini quranda onun kanalizasiya xəttinin layihəsini də hazırlatmışdı. Şuşa əsl şəhər üslubunda salınmışdı. Gövhər Ağa məscidi, Aşağı Gövhər Ağa məscidi, İbrahim xanın qəsri, Xan sara-

yı bu şəhərin emblemi idi. Babalarımız bizə 1 dünya, 110 respublika, 117 yerli əhəmiyyətli tarix-memarlıq abidəsi qoymuşdular. Maddi-mənəvi sərvətlərlə zəngin olan Şuşa 1976-cı ildən qoruq zonası elan edilmişdir. Əgər şuşalılar bir tərəfdən sıradan çıxmışları bərpa edirdilərsə, digər tərəfdən də yeniləri yaradılırdı. Müxtəlif sənətkarların qəbirüstü abidələri götürülür, məqbərələr, bulaqlar tikilir, parklar, xiyabanlar salınırdı. Şərq memarlıq üslubunda yaradılan hər bir yeni əsər qədim nümunələrdən heç də geri qalmırdı. Şuşa əsl Şərq şəhəri idi.

XVIII əsrin yadigarı olan Qala divarları, Pənah xanın sarayı, Əsəd bəyin evi, Mehmandarovların kompleksi, qız monastrı, müxtəlif türbələr, qədim yaşayış evləri, bürclər, bulaqlar, karvansaralar, malikanələr, qədim hamamlar, mədrəsələr, sonradan yaradılmış muzeylər - hər biri ayrılıqda dünya mədəniyyətinin incisi idi.

Şuşadan danışanda Xarıbülbülü xatırlamamaq, ondan söz açmamaq olmur. Bu qəribə görünüşlü təbiət gözəli haqqında müxtəlif rəvayətlər, əhvalatlar danışırlar. Onlardan biri də Qarabağ xanları ilə bağlıdır. İbrahim xan



*Aşağı məscid*

müəyyən münasibətləri nizamlamaq üçün öz sevimli qızını İranm hökmdarı Fətəli şaha ərə verib. Qərib bir diyarda ömür-gün sürən, min nazın, nemətin içində bəslənən Ağabəyim vətən həsrətini söylədiyi bayatılarda dilə gətirib:

***Əziziyəm, Qarabağ,***
***Şəki, Şirvan, Qarabağ,***
***Tehran cənnətə dönsə,***
***Yaddan çıxmaz Qarabağ!***

Qələm də, bayatı da, göz yaşları da vətən həsrətini ovuda bilmir. Ağabəyim ağanın könlünü şad etmək, onu sevindirmək üçün Fətəli şah Tehranda möhtəşəm bir bağ saldırıb. Şuşada bitən bütün ağac, gül-çiçəyi burada əkdirib ki, Ağabəyim doğma yerlərin havasmı bu bağdan ala bilsin. Bəlkə onda könlu toxtayar. Hətta bağbanı da Şuşadan gətiriblər. Bu gülüstanın da adını “Vətən bağı” qoyublar. Ağabəyim həmin bağa seyrə çıxarkən çox qəmlənib. Dərindən ah çəkərək ağlayıb. Bütün saray əhli bu vəziyyətə heyrət kəsilib. Çünki “Vətən bağı” elə Şuşanın bir parçası idi. Ağabəyim üzüntüsünü belə ifadə edib:

***“Vətən bağı” al-əlvandır,***
***Yox içində Xarıbülbül.***
***Nədən hər yerin əlvandır,***
***Köksün altı sarı bülbül.***

Xarıbülbül də məhz Şuşa təbiətinin ilahi tərəfindən yaradılmış təbii bir emblemi idi ki, onu heç bir torpaqda göyərtmək, bitirmək mümkün deyildir. Niyə xatırladım bu şirin və qəmli hekayəti? Mənə elə gəlir ki, məhz şuşalılar da bu Xarıbülbül kimi heç harda vətənləşə, bütövləşə, kök sala bilmirlər və bilməyəcəklər də. Nəfəs alsalar da, vaxtsız qocalsalar da, saralıb solsalar da, Şuşasız günlər ömür-

dən sayılmır. Şuşalı ömrünü yaşıllaşdırmaq üçün öz yerinə, doğma Şuşaya qayıtmalıdır.

Şuşanın adı və məhəbbəti qonmuş nəğmələr adamın içindən bir ah kimi püskürür:

***...Şuşanın dağları, başı dumanlı,***
***Dərdindən ölməyə çoxdu gümanlı.***

Gümanlı, gümansız sinəmizə yığdığımız bu nisgili bir yolluq uzaqlara qovmalıyıq. Vətən oğlu, vətən qızı! Ruhumuzun çağırdığı, ürəyimizin atlandığı, könlümüzün uçduğu, yuxularımızın qovuşduğu, gözlərimizin açıldığı o yerlərə - Şuşaya qayıtmalıyıq. Bunu bizdən Xan qızı Natəvanın, Üzeyir bəyin, Bülbülün, Vaqifin, Zakirin, Soltan bəy Hacıbəyovun ruhları tələb edir. Bunu bizdən avazımıza, səsimizə, ləngərimizə həsrət qalmış Cıdır düzü tələb edir. Bunu bizdən bu gün zaman özü tələb edir. Bizi oraya o yerlərin əlçatmaz təbiəti, dağları, daşları, qayaları, bulaqları, yolları, izləri səsləyir. Bizi oradan Zəngəzura dönən yollar gözləyir...



***Yuxarı Gövhər Ağa məscidinin arxası***

## ALƏM CƏNNƏTƏ DÖNSƏ...

Azərbaycan ədəbiyyatında yalnız bir bayatısı ilə möhtəşəm yer tutan Ağabəyim ağanın bu bayatısı yurd həsrəti ilə qovrulan insanlann könül havadarıdır:

***Əziziyəm Qarabağ,***
***Şəki, Şirvan, Qarabağ.***
***Aləm cənnətə dönsə,***
***Yaddan çıxmaz Qarabağ.***

İndi bütün dərdlərimiz bir simin üstündə köklənib. Hansı səmtə, hansı tərəfə boylansaq da, bir yolumuz var - Qarabağa getmək! Bu, adi bir səfər, adi bir görüş deyil. İllərdir qəlbimizdə yığılıb qalmış həsrətin, nisgilin bağrını sökmək üçün dikəlməyimizdir. Milli varlığımızın əzəmətini nümayiş etdirməyimizdir. Yüz il belə davam edə Qarabağ Azərbaycan torpağıdır. “Biz getsək də, getməsək də, o yol bizim yolumuzdur” - deyənlərə söyləmək istərdim ki, daha getmək gərəkdir. Ən uzun sürən ayrılığın da bir sonu var. Olumun da ölüm adlı ünvanı var. Qoy torpağımızı yandırıb lap kül etsinlər, daşımızı, qayamızı, qızılımızı, zinətimizi, varımızı, dövlətimizi talan edib aparsınlar, necə ki, aparıblar. Vətənin başı sağ olsun. Vətən oğlunun əli silah tutsun.

İndi təbiətin də, mənim yaşımın da elə vədəsidir ki, ruhumuz hər havaya qanad açmaz. Böyük Səməd Vurğun demişkən:

***Könlüm keçir Qarabağdan,***
***Gah o dağdan, gah bu dağdan.***
***Axşamüstü qoy uzaqdan,***
***Havalansın Xanın səsi,***
***“Qarabağm şikəstəsi”.***

***Flora Xəlilzadə,***
***yazıçı-publisist***



***Mamayı məhəlləsi***

## MƏN BELƏ BİR ELİN QIZIYAM

*Səni düşününcə, səni anınca,*
*Gözyaşı tökürəm xatırlayınca...*

Layiq olduğu yeri sovet dövründə də itirməyən Şuşa şəhəri Ümumdünya mədəniyyət mərkəzlərindən biri kimi tanınmış və Ümumittifaq kurort mərkəzinə çevrilmişdi. Qeyri-adi, füsünkar təbiəti və özünəməxsus gözəlliyi ilə qonaqlarını heyran edən bu şəhər həmişə istirahət və müalicə üçün ən arzu olunan bir məkan idi.

Mən isə bu şəhərdə - Mamayı məhəlləsində doğulan, bu şəhərin təmiz havasıyla, şəffaf suyu ilə, halal çörəyi ilə böyüyən, tanınmış bir ailənin qızı, sonra isə elə doğulub tərbiyə aldığı ailəyə uyğun bir ailənin gəlini olan bir qız, bir gəlin haqqında danışmaq istərdim.

Bu qızcığaz dünyaya gələndə o qədər gözəl, o qədər qəşəng idi ki, ailənin dostları qıza Aybəniz adı qoydular. Ailənin üçüncü qız övladı idi. O, çox məsum, saf, ağıllı və sözəbaxan, qayğısız bir qız kimi böyüyürdü. Evin böyüklərinin tapşırığına heç vaxt etiraz etmir, deyilənləri sakitcə qəbul edirdi. Aybəniz məktəbdə də nizam-intizamlı idi. Dərslərini yaxşı və əla qiymətlərlə oxuyardu. Orta məktəbi başa vuran qızın təhsilini davam etməsi məsələsi ortaya çıxanda onu gözlərindən kənara qoymaq istəmədilər. Şəhərin özündə Şuşa şəhər pedaqoji texnikumunda təhsilini davam etdirməsi məsləhətinə gəldilər.

Aybəniz məktəbdə də, texnikumda da oxumağı, davranışı ilə müəllimlərinin, tələbə yoldaşlarının sevimlisinə çevrildi. Ailənin sevimli qızı, yeniyetməlik qədəmlərini

atdığı və yavaş-yavaş addımladığı cəmiyyət içərisində də hamının hörmətini qazandı. Hamı onu əzizlədi. Təhsilini başa vuran Aybəniz Qaçay qızı Məmmədova Şuşa rayon kitabxanasında əmək fəaliyyətinə başladı.

Sakit təbiətli, xanım-xatın bir həyat tərziylə yaşayan evin bu kiçik qızına elçi düşdülər. Valideynlər qızlarını şəhərdə tanınan, hörmət-izzət sahibi olan Dayandur İsmayılovun oğlu Əşrəfə nişanladılar. Aybəniz Məmmədova Aybəniz İsmayılova oldu.

Axar-baxarlı, havası, suyu, xəstəyə loğman təbiətinin gözəlliyi, sakinlərinin insansevərliyi, mədəniyyəti ilə saysız-hesabsız qonaqlarını və turistləri heyran qoyan, Ümumittifaq statuslu kurort sayılan Şuşanın - bu qədim qalanın bəxtəvərliyi, sakitliyi 1988-ci ildən etibarən pozuldu.

Şəhərin asayişini zaman-zaman yersiz-yurdsuz, məzlum halda ordan-burdan gəlib bu şəhərin qoynunda sığınacaq və çörək tapmış naxələf, çörəyi dizinin üstündə olan namərd ermənilər pozdular.

Bu hadisələr hər iki gəncin nişan-toy mərasimi ilə üst-üstə düşdü. Toy mərasiminə dəvətli qonaqlar baş verməkdə olan hadisələrlə bağlı təhlükələrə baxmayaraq vertalyotla Şuşaya gəldilər.

Vertalyot Cıdır düzünə enirdi. Artıq Xankəndindən Şuşaya gedən yol mənfur düşmən tərəfindən bağlanmışdı. Şəhərə yalnız Laçın koridoru adlanan bir yerdən giriş-çıxış var idi ki, bu da çox uzaq və əziyyətli idi.

Bütün bu əziyyətlərə baxmayaraq gənclərin toy mərasimini lazımi səviyyədə başa çatdırdılar.

Əziz oxucular! Görün bu söz nə qədər asan səsləndi. "Başa çatdırdılar"! - Yox, yox başa çatdırmadılar, əksinə

ailədə kədərin, ürəyim gəlmədən söyləyirəm, göz yaşının təməlini qoydular.

***

***Redaktordan:*** *Ermənilər illərlə gəzdirdikləri maskalarını yırtıb öz yırtıcı, xain, namərd xislətlərini, məkrli sifətlərini göstərərək açıq-aşkar düşmənçiliyə, təcavüzkarlığa başladılar. Ağsaqqallar ağır düşüncələrə daldılar. Niyə o vaxt dünyanın hər yerindən qovulan bu yürdsüz-yuvasızların belə günə düşmələrinin səbəbini araşdırmadıqlarının peşimançılığını çəkdilər. İndi məlum olurdu ki, bu ilan xislətli millət elə buna görə bu gen dünyada özünə yer tapa bilmirmiş. (Bizə rast gələnə qədər!) Çünki bütün dünyada qadınları məlum, kişiləri namərd kimi tanınıbmış. Bəlkə elə ayaq basdıqları yerə, "Yer mənim!" deyirlərmiş ki, bu haylara sonradan "erməni" deyilib?..*

***

## VƏTƏN SİZƏ OĞUL DEDİ...

İsmayılovlar ailəsinin ən xoş, ən firavan günlərinin şahidi idi bacım Aybəniz. Ailədən kənarda təhsil alan sevimli övladları tətil günlərində, bayramlarda doğma ocağa dönər, qonaq otağında qoyulmuş böyük stolun başına yığışar, zarafatlaşar, deyib-gülərdilər. Minayə ana cür-bəcür xörəklər hazırlayar, evin gəlini isə qayınlarını əzəzləyə-əzizləyə onlarn sevdikləri minbir nemətlərlə süfrəni bəzəyər, hərdən söhbətə qoşular, qardaşlarla birlikdə anaya sataşardılar. İsmayılovlar ailəsinin xoşbəxt günlərinin, firavanlığının, qayğısız günlərinin şahidi idi gəlin Aybəniz. Ailədə qız övladı olmadığına görə qardaşlar dərd-sər-

lərini, sevinclərini də gəlin xanımla bölüşərdilər.

Onlar beş qardaş idilər.

Əşrəfin ilk qız övladı dünyaya gəldi. Qaynana qol götürüb oynadı bu qız uşağının dünyaya gəlişinə. *"Beş qardaşa bir bacıyam, Mən ellər turacıyam"* xalq mahnısını zümzümə edərək hamını - ailənin üzvlərini, qohum-qardaşını öz sevincinə şərik etdi. Körpəyə Mədinə adını verdi, ana. Müqəddəs bir ziyarətgahın, peyğəmbərimizin yaşamaq üçün seçdiyi bir yurdun adını. Üzlərdə gülüş gəzdi, qəlblərə sevinc axdı. Əmilərinin əlləri üstündə gəzdi balaca Mədinə.



Uzun sürməyən sevinc! Pusquda duran kədər! Namərd güllələri tətikdə gözləyirmiş. Ailənin iki növcavan oğluna tuşlanmışdı bu namərd gülləIəri. Fürsət gözləyirdi açılmaq üçün. Bir bəxtəvərliyə son qoymaq üçün.

Bu cavanlardan biri ailənin ilk şəhid balası, ailənin sonbeşik balası Sərxan Dayandur oğlu İsmayılov, o birisi isə ailənin məsləhət yeri, elminə, ağlına güvəndikləri, ailəyə ilk toy sevincini gətirən, ilk nəvəni bəxş edərək ata-anasını sevindirən, qardaşların öyündüyü Əşrəf Dayandur oğlu İsmayılov idi...

Hörmətli oxucular! Mən, yəni Rəhilə Cəbrayılova İsmayılovlar ailəsinin yaxın qohumuyam. Kiçik bacım Aybəniz o zaman bu ailənin yeganə gəlini idi.

Beş il öncə Nazim Cəbrayılovun 55-illik yubiley tədbirində öz ürək sözlərini söyləyən Dayandur kişi - İsmayı-

lovların atası - tədbirdən sonra mənə yaxınlaşıb tədbir haqqında təəssüratını söylədi və əlimi sıxaraq, “Sərxanı, Əşrəfi unutma!” dedi. Dayandur kişidən ayrılsam da yaddaşıma həkk olundu bu ikicə kəlmə! Unutma onları! Mən qapıya sarı addımlayan iki oğlu şəhid olmuş atanın arxasınca onun iri cüssəsinə baxa-baxa qəlbimdə söz verdim: “Baş üstə! Dayandur əmi”, dedim.

Bu məqam artıq yetişmişdir. Qəlbimdə Dayandur kişiyə verdiyim həmin sözə əməl etmək vaxtı çatmışdır. Bu kitab bir abidədir. Şəhid abidəsi! Yox, təkcə şəhid abidəsi yox, həm də sağlığında əməlləri ilə özlərinə abidə qoyanların abidəsidir bu. Bir-biri ilə təkcə qohum yox, həm də bir-birinə böyük hörmətlə yanaşan dost oğullara da yer verdim bu sözdən ucalan abidədə. Yaddaşlarda unudulmaz bir iz qoyan, vətən uğrunda, torpaqlarımızın ərazi bütövlüyü uğrunda, müstəqilliyimiz uğrunda düşmən qabağına oğul kimi çıxıb, Vətən uğrunda şəhid olan bu igidlərdən, belə oğullardan həmişə danışılmalıdır. Onları unutmaq olmaz. Tarixin qara səhifələrinin bir də yazılmaması naminə. Gələcəyimiz naminə! Qələbəmiz naminə!

***Vətən mənə oğul desə, nə dərdim,***
***Mamır olub qayasında bitərdim!***

Müdrik, vətənpərvər şairimiz Məmməd Arazın bu düşündürücü sözləri sanki bu iki qardaşa, bir ailənin iki gəncinə ünvanlanmışdı. Adi vətəndaş kimi dünyaya gəldilər, lakin vətən daşına, torpağına düşmən ayağı dəyməsin deyə sinələrini sipər edərək Vətən yolunda qəhrəmancasına canlarından keçdilər.

Gəlin, öncə ailənin sonbeşik oğul balası, həm də ilk şəhid oğlu Sərxan Dayandur oğlu İsmayılovun cavan, ömrü

kimi qısa, lakin şərəfli həyatına bir nəzər salaq.

Sərxan Dayandur oğlu İsmayılov 1970-ci il avqustun 11-də Şuşa şəhərində anadan olmuşdur. 1977-ci ildə şəhər 2 №-li orta məktəbin I sinifinə daxil olmuş, 1987-ci ildə məktəbi müvəffəqiyyətlə bitirmişdir. Həmin il N.Nərimanov adına Tibb İnstitutuna daxil olur. Arzusu diş həkimi olmaq idi. Sərxanı tanıyanlar deyirdilər ki, biz onunla fəxr edirdik. Çox çalışqan olduğuna görə onun gözəl həkim və bacarıqlı mütəxəssis olacağına hamı inanırdı. İnsitututda oxuduğu dövrdə yarım ştat üzrə işə də girmişdi. Deyirdi ki, həm diş həkimliyini mükəmməl öyrənərəm, həm də maaş alıb öz gücümlə gələcəyimi quraram..

Qarabağ uğrunda savaşın qızğın dövrü idi. İnstitutdan qış tətilinə çıxmışdılar. Sərxan heç nədən qorxmadan müharibənin qızğın çağında Şuşaya dönməyi qərara aldı. Anası o zaman Bakıda xəstəxanada yatırdı. Anası qoymurdu ki, getmə, oğlum, şəhər mühasirədədir, düşmənlər gündən-günə azğınlaşır. ***Cavabında Sərxan dedi ki, belə bir vaxtda doğma Şuşada olmalıyam. Nə mən müharibədə ölənlərdən artıq deyiləm, nə də sən onların anasından.***

Şuşa od içində idi. Yanvarın 26-da Daşaltı əməliyyatı baş vermişdi. Bu əməliyyatda iştirak edən gənclərin heç biri geri qayıtmadı. Onların hamısı şəhid oldular.

Ermənlərin bu vəhşiliyindən sarsılan Sərxan Şuşalı qonşusu Fazillə görüşərək yanvarın 27-də Gəncəyə gedirlər. Bacardıqları qədər silah alıb Şuşaya köməyə yollanırlar. Şuşa mühasirədə idi. Şəhərə ancaq Ağdamdan vertalyotla getmək mümkün idi. Onlar yanvarın 28-də Ağdamdan Şuşaya gedən MI-8 vertolyotu ilə uçdular. Lakin Şuşa səmasında vertalyot ermənilər tərəfindən atəşə tutul-



du. Vertalyotda olan 40 nəfərə qədər şuşalı erməni təcavüzünün qurbanı oldu, bütün insanlar dəhşətli faciə ilə həlak oldular, yanıb külə döndülər.

***Aybəniz xanımın dediklərindən:***

Bu çox ağır bir faciə idi. Qaynım Sərxan mənim yadımdan heç vaxt çıxmır. O, qəlbimdə həmişə əbədi bir məşəl kimi yanacaq. Sərxanın böyük qardaş kimi Əşrəfə hörməti, diqqəti, sevgisi sonsuz idi. Onların şirin söhbətləri, duzlu zarafatları, elmi mübahisələri gözlərimin önündədir. Bütün bunları yazmaq çox çətin və çox sarsıdıcıdır. Mən onda ikinci uşaq gözləyirdim. Bütün ailə ermənilərin törətdiyi bu faciənin kədəri və dəhşəti içərisində olsa da məni qoruyub, ovundurmağa çalışırdılar.

Başına bombalar tökülən, paltarlarını soyunmadan yatan, harada gəldi bir qismət çörək yeyən, zirzəmilərdə bir-birinə qısılıb səhəri diri gözlə açan şuşalıların Şuşası məhvərindən çıxmışdı. Şəhər bütün yas içərisində idi. Hətta Sərxanın dəfni güllə yağışının altında həyata keçirildi. Sərxanın dəfnindən bir neçə gün sonra qadınları - məni və qaynanamı şəhərdən çıxarmaq qərarına gəldilər. Bu vəziyyətdə şəhərimizdən ayrılmaq məcburiyyətində qaldıq. Şəhər düşmənlər tərəfindən mühasirədə olduğu üçün "Laçın koridoru" adlanan Həkəri yolu ilə çox böyük əzabla hər an ölüm təhlükəsi ilə üz-üzə dayanıb uzaq bir

məsafəni qət edərək Ağdama - bacımın evinə gətirildik. Yoldaşım Əşrəf isə şəhərdən bir an belə ayrılmadı. Vətəni qorumaq lazım idi. Artıq hamı silaha sarılmışdı.

Mən bunları yazdıqca hər şey gözlərim önündə bir kino lenti kimi canlanır. Hadisələri yenidən xatırlamaq nə qədər acı, ağır və dəhşətlidir. Biz qaynım Sərxanın faciəsindən aldığımız sarsıdıcı zərbəni yaşayarkən, bilmirdik ki, bizi qarşıda nələr gözləyir, 21 yaşlı oğlunun ölümü Minayə ananı yazıçıya, şairə çevirmişdi. Ana ucaboylu, ağıllı, yaraşıqlı Sərxanı haqqında həqiqət olan nağıllar, əfsanələr qoşurdu. Dincələ bilmirdi ana. Üç aydan sonra ikinci oğlu Əşrəfin Şuşa döyüşləri zamanı 1992-ci il may ayının 8-də şəhəri müdafiə edərkən şəhid olması haqqında aldığı dəhşətli xəbər ananın nitqini qurutdu, ana lal heykələ çevrildi. Mən isə heç bir şey dərk etmədən xəbər gətirələnlərin, üzümə baxanların, mənə baxıb pıçıltı ilə danışanların, saçlarını yolub ah-nalə ilə ağlayanların üzünə baxıb, baş verən hər şeyin yalan olduğunu eşitmək istəyirdim.



***Lakin təəssüf, min təəssüf!!! Bu xəbər doğru idi. Həqiqət idi... dəhşətli həqiqət...***

Əşrəf Dayandur oğlu İsmayılov qəhrəmanlıqla Şəhid olmuşdu.

Sevimli qardaşı Sərxanı itirən Əşrəf Şuşanı tərk etmədən, qardaşının intiqamını vəhşi ermənilərdən alacağına söz vermişdi. O öz intiqamını ermənilərdən aldı - bir neçə erməni faşistini qanına qaltan edib - özü də qəhrəmanlıqla həlak olub.

İsmayılov Əşrəf Dayandur oğlu 1961-ci ildə aprelin 26-da Şuşa şəhərində ziyalı ailəsində anadan olmuşdu. Hələ uşaqlıqdan çox zəkalı və əməksevər idi.

1968-ci ildə Şuşa şəhər 1 №li orta məktəbinə daxil olmuş, 1978-ci ildə əla qiymətlərlə məktəbi bitirmişdi. Məktəbdə oxuyarkən əlaçı şagird olmaqla yanaşı, ictimai işlərdə də fəal iştirak edirdi. O, "Üfüqdə parıltı" hərbi idman oyunlarının məktəb üzrə komandiri idi. Cıdır düzündə yarışlar keçirilirdi. Bu yarışda Əşrəfin komandası I yeri tutmuş, kubok almışdı. Bu özünü ermənilərlə döyüşlərdə də göstərmişdi. Orta məktəbi bitirdikdən sonra Çingiz İldırım adına Politexnik İnstitutunun "Maşınqayırmanın texnologiyası" fakultəsinə qəbul olunur. Fizikadan qəbul imtahanını Süleyman adlı orta məktəb müəllimi götürürmüş. Müəllim haqsızlıq edib, abuturiyentləri otaqdan çıxaranda Əşrəf qorxmadan öz yazdıqlarını tələb edərək, yenidən yoxlatdırıb. Müəllim onun cəsarətini görüb, yazısını yenidən yoxlamış və doğru qiymətini yazmışdır. Belə cəsarəti ilə biliyini təsdiqləmiş  və instituta daxil olmuşdur. Hətta o vaxt onu televizora da çəkmişdilər.

Müvəfəqiyyətlə institutu bitirib təyinatını Sverdlovsk Maşınqayırma zavoduna alaraq mühəndis kimi fəaliyyətə başlayır. Oradan da qabaqcıl işçi kimi çoxlu təşəkkür və fəxri fərmanlarla geri qayıdır.

Şuşada hamı bu ailəni savadlı, mədəni, tərbiyəli bir ai-

lə kimi tanıyırdı. Əşrəf çox diqqətcil, ailəcanlı bir insan idi. Öz ailəsini, ocağını heç vaxt yadından çıxarmırdı. 1988-ci ildə Şuşaya qayıdan Əşrəf Şuşa tikiş fabrikində mühəndis kimi əmək fəaliyyətini davam etdirir. Fabrikin fəhlələri onu çox sevirdilər. O, hər zaman fəhlələrə qayğı göstərir, onların həyat səviyyəsinin yüksəlməsinə çalışırdı. Şuşanın kəndlərində bir neçə tikiş sexləri açılmasına nail olmuşdu. Məqsədi o idi ki, qadınlarımız işləyib, ailələrini dolandırsınlar.

1989-cu ildə çox sevdiyi qızla ailə qurdu. İkinci təhsil almaq üçün Moskva Dövlət Universitetinin III kursuna qəbul olunması haqqında məktubu toyundan üç gün sonra aldı. O, buna çox sevindi, çünki dünya arenasına çıxmağı çoxdan arzulayırdı. Kubalı mütəxəssis m-r Vinhauzla tanış olub, birgə müəssisə yaratmaq arzusu ilə yaşayırdı. Böyük planları var idi. Dərin biliklərə malik olan Əşrəfin gözəl gələcəyi olacağına inanırdıq. 1991-ci ildə qızı Mədinə dünyaya gəldi. Qızını sonsuz məhəbbətlə sevirdi...

Ancaq... namərd qonşuların xəyanəti ucbatından bir çoxları kimi onun da arzuları, gələcək planları pozuldu. Vətən təhlükədə idi. Vətəni müdafiə etmək lazım idi. Vətən igidlərini haraylayırdı. Əşrəf bu haraya, çağırışa ilk səs verənlərin sırasında oldu. Çünki onun qəlbi Vətən məhəbbəti ilə döyünürdü, damarlarında təmiz türk qanı axırdı.

Kiçik qardaşı Sərxanın həlak olması onu çox sarsıtdı. Daima elmlə məşğul olan Əşrəf Vətənin təhlükəsini hiss edən kimi silaha sarılaraq müsəlləh bir əsgərə çevrilib Vətəninin müdafiəsinə qalxdı. Əşrəf qardaşı Sərxanın intiqamını ermənilərdən alaraq döyüşlərdə bir neçə erməni faşistlərini qanına qaltan elədi...



*Əşrəf İsmayılovun övladları Əşrəf və Mədinə*

Həqiqətdən xəbərsiz bir çox ağzıgöyçəklərin dediyi kimi Şuşa qalası heç də müdafiəsiz deyildi. Şəhərin əli silah tutan sakinlərinin hamısı səngərdə idi. Müharibə gözləməyən, ona hazır olmayan, kənardan heç bir kömək ala bilməyən dinc şəhər əhli  təpədən dırnağa kimi silahlanmış rus-erməni təcavüzkarları ilə üz-üzə dayanaraq qeyri-bərabər döyüş aparırdı. Bu da qədim Şuşamızın süqutu ilə nəticələndi. Bizim tarixi şəhərimiz 1992-ci il may ayının 8-də şəhid oldu. Əşrəf də doğma şəhəri kimi həmin gün - yəni may ayının 8-də qəhrəmanlıqla döyüşərək şəhid oldu. Namərd erməni onu snayperlə vurmuşdu.

Aybənizin anası Dilşad xanım qızının taleyini dilə gətirdi:

*Yamacı endim ancaq,*
*Əlimdə yaşıl sancaq.*
*Nə qız oldum, nə gəlin,*
*Biçarə qaldım ancaq.*

Ölümündən üç ay sonra oğlu dünyaya gəldi. Qızı Mədinə isə bir yaş beş aylıq idi. Oğluna atasının adını verdilər. Balaca Əşrəf Əşrəf oğlu İsmayılov nəslin davamçısı oldu.

Onun cəsədini qayınatası Qacay kişi çox böyük çətinliklərlə müharibə zonasından çıxarıb Bakıya gətirə bildi. Məzarı Dağüstü parkda salınmış "Şəhidlər Xiyabanı"ndadır.




Şəhidlik zirvəsi deyilən ucalıq bizim nəslin kişilərinə nəsib oldu. Sonda bunu demək istəyirəm ki, mən və mənim övladlarım öz qəhrəmanımızla fəxr edirik.

# SƏNƏ KİM QIYDI SƏRXAN?

*Ağlayan başdan ağlar,*
*Kirpikdən, qaşdan ağlar,*
*Oğul itirən analar*
*Durar obaşdan ağlar.*



Ағлајан башдан ағлар,
Кирпикдән гашдан ағлар,
Оғлу өлән аналар
Дурар обашдан ағлар.

Сәрхан Али мәктәбә дахил оланда бүтүн гоһум-танышлар Минаје

Сәрханын гардашы Сәрвәрлә сөһбәт едәјирәм. Даныша билмир, көзләри долур, сөзләр гырыг-гырыг донур додагларында. Һәјәчанланыр, сөз тапа билмир. Башыны ашағы дикиб арамла сөзә башлајыр:

Евимизин сонбешији иди. Һамы кими биз дә сонбешијимизи чох истәјирдик. Елә бил үрәјимә даммышды ки, она нәсә олачаг. Тез-тез она әлифба өјрәтмәјим јадыма дүшүрдү.

Јанварын 20-дә Шәһидләрин икинчи илдөнүмүндә "Шәһидләр Хијабаны"на зијарәтә кетмишди. Адам чох олдуғундан нөвбәјә дурмушду. Евә лап кеч келди.

Евдә һамымыз севинирдик ки, артыг бир илдән сонра һәким олачаг. Өзү үчүн тибби аваданлыглар әлдә етмишди. Февралын 1-дән ишә чыхачагды...

Сәрвәрлә бирликдә өлүмүндән бир нечә күн габаг магнитафона јадә бирка от
отурдуғумуз
деди: "Тез-те
өкәр мәнә бі
мы бир хатира
сән". Онда бі
рафат кими гә
Өлүмүндән
мүшдүм ону.
Дедим көл ш
олмады. Деді
чәкдирәрик".
олачаг...
Һикмәт Өл
Ону лап у
Көзәл, истә'д
на бөјүк үми
тәләбә олмағ
гардашымын
едирди.
Фуад Һәсә
Јола дүшм
баг бизә көлм

Галибә ЕЈНУЛЛАЈЕВА

Sərxan ali məktəbə daxil olanda bütün qohum-tanışlar Minayə anaya, Dayandur ataya gözaydınlığı verdilər: Gözünüz aydın olsun. Sağ-salamat oxuyub, başa vuranlardan olsun. Lakin... Bu, qismət olmadı Sərxan qardaşımıza.

Sərxan 1970-ci ildə Vətənimizin dilbər guşəsi olan qədim Şuşada dünyaya göz açmışdı. Azərbaycan Dövlət Tibb Universitetində oxuyurdu. Təhsilini başa vurmasına cəmisi il yarım qalırdı.

“28 Yanvar” 1992-ci il. Ağdamdan Şuşaya uçan “Azal” aviaşirkətinin 24137 nömrəli Mİ-8 vertalyotunun partladılması neçə-neçə ailəyə bədbəxtlik gətirdi. Bu ailələrdən biri də İsmayılovlar ailəsi idi.

Sərxan qış imtahan sessiyasını başa vurub Şuşaya doğma dədə-baba ocağına yollanırdı. O istirəhətə yox, torpağı amansız düşməndən qorumaq üçün səngərdə dayanan qocaman atasını əvəz etmək üçün gedirdi. Axı o hardan biləydi ki, onun uçduğu vertalyotu ermənilər raket mərmisi ilə vurub partladacaqlar.

Getməmişdən əvvəl xəstə yatan anasına baş çəkdi, iynəsini vurdu. Təsadüfən şəhərdə rastlaşdığı maktəb yoldaşı Fazil Əzizovla birgə yola düşdü.

İlahi, taleyin qismətinə bir bax. Bir həyətdə böyümüş, bir yerdə oxumuş Sərxanla Fazil indi Şuşadakı Şəhidlər Xiyabanında qoşa uyuyurlar.

Sərxanın qardaşı Sərvərlə söhbət eləyirəm. Danışa bilmir, gözləri dolur, sözlər qırıq-qırıq donur dodaqlarında. Həyacanlanır, söz tapa bilmir. Başını aşağı dikib aramla sözə başlayır:

Evimizin sonbeşiyi idi. Hamı kimi biz də sonbeşiyimizi çox istəyirdik. Elə bil ürəyinə dammışdı ki, ona nəsə olacaq. Tez-tez ona əlifba öyrətməyim yadıma düşürdü.

Yanvarın 20-də Şəhidlərin ikinci ildönümündə “Şəhidlər Xiyabanı”na ziyarətə getmişdi. Adam çox olduğundan növbəyə durmuşdu. Evə lap gec gəldi.

Evdə hamımız sevinirdik ki, artıq bir ildən sonra həkim olacaq. Özü üçün tibbi avadanlıqlar əldə etmişdi. Fevralın 1-dən işə çıxacaqdı...

Sərvərlə birlikdə ölümündən bir neçə gün qabaq maqni-

tafona yazılmış söhbətinə qulaq asırıq. Sərxanın qrup yoldaşları Almaniyaya oxumağa gedən Mehdini yola salarkən son sözlərini bu kasetə yazmışdılar. Hamı öz ünvanını deyirdi. ***Sərxan isə məni axtaran Şuşaya gəlsin deyir...***

Sərxan qardaşım, doğrudan da səni axtaran Şuşaya gələcək. Lakin evinizə yox... "Şəhidlər Xiyabanına"

Sərxanın tələbə yoldaşları ilə söhbət eləyirəm.

***Vüqar Xəlilov (qrup yoldaşı):***

Sərxan mənə qardaşdan da əziz idi. Çox savadlı oğlan idi. Siyasəti də gözəl dərk edirdi. Həmişə mitinqlərə də birgə gedərdik. 1990-cı il Yanvar hadisələrində başqa yoldaşlarımız kimi o da yaralılara yaxından köməklik göstərmiş, qan vermişdi. Dərslərdə də birgə oturardıq. Bir dəfə oturduğumuz yeri mənə göstərib dedi: "Tez-tez Şuşaya gedirəm, əgər mənə bir şey olsa mənim adımı bir xatirə kimi bura qeyd edərsən". Onda biz onun sözlərini zarafat kimi qəbul etdik. Sən demə...

Ölümündən iki gün avvəl görmüşdüm onu. Şəhərdə gəzirdik. Dedim gəl şəkil çəkdirək, razı olmadı. Dedi: "Gələndən sonra çəkdirərək". Əgər bilsəydim belə olacaq...

***Hikmət Əlişov:***

Onu lap uşaqlıqdan tanıyıram. Gözəl, istedadlı həkim olacağına böyük ümid bəsləyirdim. Hələ tələbə olmağına baxmayaraq balaca qardaşımın dişlərini müalicə edirdi.

***Fuad Həsənov:***

Yola düşməmişdən iki gün qabaq bizə gəlmişdi. Dedi: "Şuşaya gedirəm". Dedim bəlkə ketməyəsən, yollar təhlükəlidir. Dedi: "Nə danışırsan mənim yerim oradadır, mənim kimi oğlu olan ata səngərdə dayanmamalıdır. Belə bir dar gün-də qismən də olsa doğma torpağıma xeyir vermə-

liyəm. Tətili orada qalmağı qat eləmişəm.

***Nəcəf Allahverdiyev:***

-Savadlı oğlan idi. İstədiyi fənni asanlıqla qavraya bilirdi. Heç yadımdan çıxmaz. Axırıncı imtahanda bir çətin sual var idi. Demək olar ki, bütün biletlərə düşürdü. İmtahana girməmişdən qabaq Sərxan dedi "Mənə o sual düşməyəcək" həqiqətən də bəxti gətirdi. Kaş həmişə bəxti gətirəydi...

***Ceyhun Qurbanov:***

- İkimiz də Şuşalı idik.Təhsilimizi başa vurub Şuşaya qayıdaçaqdıq.

Ceyhun danışa bilmir. Təmkinli görünməyə çalışsa da, özünü saxlaya bilmir. Kədər, qüssə onu danışmağa qoymur.

Bəli bu cür idi, bizim Sərxan qardaşımız.

Artıq 1990-cı ildən bəri Azərbaycan Dövlət Tibb Universiteti üçüncü şəhidini torpağa tapşırır. Görəsən Tibb Universiteti şəhid tələbələrinin xatirəsini əbədiləşdirmək üçün hansı əməli işlər görmüşdür? Ən azı Universitet rəhbərliyi onların adını xatirə lövhəsi, muzey, yada ki, adları ilə bağlı təqaüd təsis edə idi. Bununla şəhidlərimizin müqəddəs ruhu qarşısında öz borclarını yerinə yetirmiş olardılar. *(Hazırda Universitetin həyətində şəhidlərin adına xatirə bulağı kompleksi tikilmişdir. Bulağın üstünqə həkk edilmiş şəkillərdən biri Sərxanındır.- Red).*

Bəli, indi Şuşada "Şəhidlər Xiyabanında" nakam bir gənc ruhu sakit deyil. Axı necə də sakit olsun? Hər gün quduz ermənilər onun doğma torpağına hücum edir, onun qocaman atası səngərdə durur. Neçə-neçə igid oğullarımız onun yanında dəfn olunur. Axı necə sakit olsun bu nakam gəncin ruhu. Necə?...

Nə qədər ki, bizim dövlət rəhbərlərimiz yağı düşməni doğma torpağımızdan çıxarılmayıblar, nə qədər də qurbanlarımız olacaq. Nə qədər ki, "rus-böyük qardaşlarımız"ın sözü ilə oturub-duracayıq (necə deyərlər, onlar çaldığı ilə oynayacayıq) bir o qədər torpağımızda qeyrətli oğullarımızın qanı töküləcək.

Yetər! Ayılın, ey xalqımın başında durub başına bir çarə qılmayan rəhbərlər! Tarix, Müqəddəs torpaq, Anaların göz yaşı bunu sizə bağışlamaz!

Başınızı uca tutun! Minayə ana, Dayandur ata, Şəmsi, Sənan, Sərvər qardaşlarım.

*(Bu yazı 1992-ci ilin 27 fevralında mətbuatda dərc ounanda Əşrəf sağ idi. Amma ömrünün sonuna sayılı günlər qalan Əşrəfin adı nədənsə burda çəkilməmişdi... bir təsadüfmü... ya olacağa bir işarəmi?- Red.)*

Düzdür, indi sizi heç bir təsəlli ilə ovundurmaq mümkün deyil. Axı ailəmizin sonbeşiyi Sərxanı heç kim, heç nə ilə əvəz edə bilməz.

Başını uca tut mənim ağsaçlı Minayə anam, Dayandur atam!

Xalqımız Sərxan kimi igid, qeyrətli oğullarını heç vaxt unutmayacaq.

Ürəyimi sızıldadan, göynədən bayatı ilə başladığım nakam Sərxan haqqında bu yazımı elə bayatı ilə də bitirirəm.

***Əlimdə kaman ağlar,***
***Eyləyər Fəğan ağlar,***
***Ölmə gözüm giləsi***
***Dalınca anan ağlar.***

***Qalibə Eynullayeva***
***"20 yanvar" qəzeti***
***№8 (23) 27 fevral 1992***



***Əşrəf həyatdan getsə də həmişə yoldaşı Aybəniz xanım, qızı Mədinə və oğlu Əşrəflədir***

***Goranboyda doğulub Qarabağda Azərbaycanın ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı savaşda şəhid olan bir oğulu da xatırlamaya bilmərəm. Gül ömürlü bir oğulu - İftixar (Azad) İsrayil oğlu Nuriyevi. O, bu kitabın redaktoru Sevda Mikayılqızının əzizlərindəndir. Kitab üzərində işlədiyimiz zamanı dəfələrlə dolub-boşalmış, ixtiyarsız göz yaşlarımızı, qəhərimizi lal sükutla udmuşuq. Belə məqamların birində Sevda xanım  həmişə ürəyində gəzdirdiyi və haqqında heç vaxt söhbət aça bilmədiyi bir hekayət olduğunu etiraf etdi. Gül ömürlü Vətən şəhidi Azad haqqında. Bu hekayət ilk dəfə bu kitabın səhifələrində oxuculara çatdırılır. Ruhun şad olsun Azad. Qoy Qarabağ oğulları, bütöv Azərbaycan sənin də hekayətini dinləsin, çünki bu kitab sənin kimi oğullar haqqındadır.***

***Rəhilə Cəbrayılova***

## GÜL ÖMÜRLÜ

Azərbaycan adlı məkanın saya-hesaba gəlməyən igidləri, qəhrəmanları var. Mən onlardan biri - Qarabağ uğrunda gedən savaşlarda şəhid olmuş bir qəhrəman haqqında danışacağam.

1967-ci ilin soyuq fevral ayında Qaraqoyunlu kəndinin (qəhrəmanlar diyarı adlandırılan bu kəndin üç Milli Qəhrəmanı var) ziyalı ailəsində göz açan İftixar gəlişiylə doğma od-ocağa işıq, istilik gətirdi. Evin sonbeşiyini hamı Azad deyə çağırırdı... Yaşıdlarından çevikliyi, mərdliyi,

zirəkliyi, biliyi, gözəl musiqi duyumu ilə seçilirdi. Bu xüsusiyyətlər onun müvəffəqiyyətlə orta məktəbi bitirməsinə və indiki Azərbaycan Dövlət Neft Akademiyasında təhsil almasına imkan yaratdı.



Ömrünün ən parlaq, çiçəklənən dövrünü yaşayırdı Azad. Neçə-neçə arzuları, ümidləri vardı hələ həyata keçməmiş. Qəlbində yenicə cücərməyə başlayan məhəbbət toxumunun üstünü xəfif utancaqlıq pərdəsi örtürdü. Bu pərdə götürülməmiş qaldı... Gənçliyi bu müdhiş müharibəyə təsadüf edən bir çox həmyaşıdları kimi onun da ümidlərini, arzularını yarımçıq qoydu erməni xəyanəti, onların torpaq iddiası.

Ağıllı. Mərd. İgid. Cavan və yaraşıqlı. Bəlkə də müharibənin ən acı reallığı elə budur ki, Azad kimi sülhsevər, hər an köməyə çatmağa hazır olan, rəhmdil adam əlinə ölümsaçan silah götürməli olur. Vətənin müdafiəçisinə çevrilir. Hünərli olur. Müqəddəs Vətən torpaqlarına göz tikənin qabağında qala kimi ucala bilir. Onun haqqında yeni sözlər, yeni epitetlər işlədilir - dönməz, igid, cəsur, düşmənə qarşı amansız.

Xəyanətkar ermənilərin başladığı işğalçı müharibənin oğullarımızı korun-korun udduğu, yaralayıb şikəst etdiyi vaxtlarda Azad hələ tələbə idi. Dərsdən sonra mütləq hərbi qospitala gəlir, gecədən keçənə qədər yaralılarla olur, onların qayğısına qalırdı. Onun gəlişini hər gün gözləyər-

di palatadakılar. Azad özünəməxsus ufallıqla onların yerini rahatlayar, üzlərini təraş eləyər, hər istəklərini yerinə yetirərdi. Hələ ki, arxa cəbhənin əsgəri idi Azad.

Qospitala döyüş meydanından çox ağır vəziyyətdə bir yaralı gətirmişdilər. 7-ci palatanın onu yaxşı tanıyan uşaqları döyüş yoldaşlarından bərk narahat idilər. Məlum oldu ki, reanimasiya bölməsində yatan oğlanı həyata qaytarmaq üçün çox nadir qan qrupundan olan qan lazımdı. Çoxlu miqdarda. Azad heç kəsə demədən instituta qayıdır. Tələbələr arasında elanlar yayır. O vaxt fəaliyyət göstərən radio "Sara" vasitəsilə camaata müraciət edir. Çox keçmədən həmin qrupun qan daşıyıcıları qospitala gəlməyə başlayırlar. Döyüşçünün xilasında Azadın da rolu var idi.

İnstitutu qurtarıb təyinatla Əzizbəyov rayonu Neftçıxarma İdarəsində işə başlayan Azad bir-iki aydan sonra könüllü olaraq cəbhəyə yollandı.

Vətəni darda idi. O, buna laqeyd qala bilməzdi və etməli olduğunu etdi. Silaha sarılaraq Vətəninin müdafiəsinə qalxdı. Birdən-birə kişiləşdi, igidləşdi, enlikürək oldu mənim kiçik leytenantım. Müharibənin vurhavurunda da hər bir mənada təmiz və təmizkar olaraq qaldı. O, əsl zabit idi. Görkəmi ilə, ağılı, mərdliyi, ləyaqəti, cəsarəti ilə.

Bir çox döyuşlərdə təmkini, savadı ilə düşmənə göz açmağa aman vermədi, canlı qüvvəmizin nahaq itkisinin qarşısını aldı. Ədalətsizliyə qarşı barışmaz olduğundan döyüşçülər arasında seçildi, tanındı.

Ağdamın Güllücə kəndində gedən qanlı döyüşlər zamanı, Vətənimizin, torpağımızın azadlığı, xalqımızın, millətimizin gələcəyi naminə şəhid oldu Azad. İftixar İsrayil oğlu Nuriyev. Azadın qısa və şərəfli ömür yolu 1993-cü ilin

dekabrında döyüş meydanında sona çatdı. Bəlkə də Vətənini çox sevdiyindən idi ki, onun torpağına iki dəfə dəfn olundu. Əvvəl Bərdədə, qırx gündən sonra isə doğma kəndimizdə. Son mənzilə əli sinəsinin üstündə köçdü. Əlinin altındakı beş güllə yerini öz gözlərimlə görmüşdüm. Məninm kiçik leytenantım düşmənə arxa çevirməmişdi...

***Gül ömürlüm!***
***Sən həm varsan,***
***həm də yoxsan...***
***Mən neynəyim?!***
***Asi düşüm, üsyan edim,***
***Yeri-göyü silkələyim?***
***Qəlb evimi didib-sökən***
***Bu nisgili kimə deyim?***
***Gül ömürlüm!***
***Ömürmüzdə, dünyamızda,***
***Sən varıydın dolu-dolu,***
***şirin-şirin,***
***İndi yoxsan!?***
***Arzuları çiçək-çiçək,***
***ləçək-ləçək solan oğlan,***
***necə yoxsan?!***
***Ölmədin Sən!***
***Sağlam gözəl varlığınla***
***Mərdliyinlə, qürurunla,***
***Sən sadəcə qala oldun.***
***Ölmədin Sən!***
***Namus, qeyrət qalasına çevrilərək,***
***Vətəninə Şəhid oldun.***
***Sən sadəcə qala oldun,***

*Uca, köhnə qədim qala:*
*Yol üstə qəfil dikələn,*
*Düşmən qabağını kəsən,*
*Uçurtmasan - keçəmməzsən!*
*Heç uçurda da bilməzsən!*
*Eynən qala divarı tək,*
*Yağan güllə yağışından*
*Sinən oldu oyuq-oyuq.*
*Qaynar qanın buza döndü,*
*Gül üzündə dondu Sənin*
*soyuq-soyuq.*
*Gül ömürlüm!*
*Nə qədər ki, əsirlikdə qalır hələ*
*doğma yurdlar,*
*Nə qədər ki, narahatdır şəhid ruhlar -*
*düşmənlə qan davası var!!!*
*Sən rahat yat! Müqəddəs qan yerdə qalmaz!*
*Qisasını alacaqdır özün kimi mərd oğullar!*

Mənə elə gəlir ki, Vətəninə şəhid olmuş arzu-kam dolu cavanlarımız ölməyiblər. Hardasa kiminsə vicdanında yaşayırlar, qəlbi Vətən eşqi ilə döyünən hər bir Azərbaycan oğlunun, qızının qəlbində, ruhunda, qan yaddaşında uyumaqdadırlar. Və bir gün oyanacaq o yatmış ruhlar. Gec ya tez, mütləq oyanacaq.

Və ruhların oyandığı həmin gün Qisas Günü, həm də Qələbə Günü olacaqdır.

***Sevda Mikayılqızı***
***(Azadın əmisi qızı)***



# XEYİRXAHLIQ KÜBARLIQ ƏLAMƏTİDİR

*Alimdir gözümdə ən böyük insan,*
*Elmlə, hünərlə: - başqa cür heç kəs*
*Heç kəsə üstünlük eyləyə bilməz.*
*Rütbə ilə seçilir onlardan biri,*
*Hamıdan ucadır alimin yeri.*

*Nizami Gəncəvi*

## SEVGİ, ŞƏFQƏT VƏ NƏCABƏT BÖYÜKLÜKDƏN GƏLİR

***Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar.***

*Heydər Əliyev*



Əli Məmməd oğlu Abbasov. Üzündə, qəlbində Həzrəti Əli nişanəsi olan işıqlı şəxsiyyət. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, akademik, informatika, telekommunikasiya və hesablama texnikası üzrə tanınmış mütəxəssis, AMEA-da kompyuter şəbəkələri laboratoriyasının və İnformasiya-Telekommunikasiya Elmi Mərkəzinin əsas təşkilatçılarından biri.

Respublikada internet sistemlərinin yaradılması və inkişafının elmi-praktiki əsaslarının qoyulması da Azərbaycanın rabitə texnologiyaları və informatika naziri Əli Abbasovun adı ilə bağlıdır. Yüksək titullarının, elm sahəsindəki nailiyyətlərinin siyahısı çox böyük olan, öz xalqını ən yaxşı mənada təmsil etməyə layiq bu şəxs həm elmi, həm ictimai, həm də siyasi fəaliyyəti ilə Vətənimizin dünyada tanı-

nmasına xidmət edir.

Dünya iqtisad elminə böyük töhfələr vermiş, bir çox layihə və proqramlar üzrə aparılan elmi-texniki işlərin rəhbəri, həmçinin NATO-nun Elm Departamentinin kompyuter şəbəkələri texnologiyaları sahəsində Azərbaycanın təmsilçisi akademik Ə.M.Abbasov haqqında elm adamları, mütəxəssislər çox dəyərli fikirlər söyləmişlər.

Əli Abbasovu ilk dəfə görənə qədər onun haqqında elə bir geniş məlumatım yox idi. Başımız 1988-ci ildən bəri mənfur erməni təcavüzkarlarının Qarabağda başladıqları müharibəyə elə qarışmışdı ki, yalnız Vətən haqqında düşünürdük və Vətənin ləyaqətli oğullarını tanımağa macalımız olmamışdı. Xəyanətin, satqınlığın, namərdliyin qurbanı olan Qarabağımızdan məcburi köçkün kimi paytaxtımıza üz tutmağa məcbur olmuşduq. Özü də necə? Həm yurdumuz viran oldu, həm var-dövlətimiz talan oldu, ən dəhşətlisi isə - ər igidlərimiz şəhid oldular. Bu igidlərdən biri də mənim ailəmin başçısı, uşaqlarımın atası Nazim Cəbrayılov idi.

Bu dərdlərlə baş-başa qaldığım çox ağır bir vaxtda xəbər gəldi ki, Azərbaycan Dövlət İqtisad Universitetinin həyətindəki qədim qala divarlarının üstündə Vətən şəhidlərinin barelyefi vurulub. Açılış mərasiminə mən də dəvət olundum. Qala divarında adı əbədiləşdirilən on bir nəfər şəhidin arasında Nazim Cəbrayılovun da adı var idi.

Mərasimdə respublikanın rəsmi nümayəndələri, elm adamları, xarici ölkələrdən gəlmiş qonaqlar da var idi. Şəhid adını yüksək dəyərləndirən əcnəbi qonaqlardan bir xanımın sözləri indi də yadımdadır: "Biz, adi insanlar nə




qədər uzun ömür sürsək də, dünyada şəhidlər qədər ad qoya bilməyəcəyik. Onlar elə bu qədim qala divarları kimi əbədi olacaqlar".

Mən mərasimdə çıxış edən Əli Abbasovu ilk dəfə görürdüm. Bu sadə, təmtəraqdan uzaq, mehriban və təvazökar insanın Azərbaycan Dövlət İqtisad Unuversitetinin rektoru olduğunu da həmin gün bildim.

Mərasimdən sonra qonaqları yola salan Əli müəllim onlarla çıxıb getmədi. Əksinə, geri qayıdaraq şəhid ailələrinə yanaşdı. Bizimlə birlikdə ehsan süfrəsi arxasında əyləşərək söhbət etdi, hətta bir şey lazım olsa əlaqə saxlamaq üçün öz şəxsi telefonunun nömrəsini də verdi. Üzündə, çöhrəsində nur olan Əli müəllimin bu hərəkəti onun alicənablığından, xeyirxahlığından, yüksək insani keyfiyyətlərindən xəbər verirdi. Mən sonralar haqqında

yazılanları oxuduqca, müxtəlif adamların fikirlərini öyrənib, söhbətlərini dinlədikcə onu daha yaxşı tanımağa başladım. Öyrəndim ki, bu nadir insan (mən onu belə adlandırıram) həm də millət vəkilidir. Sözün həqiqi mənasında millətinin vəkili. Doğrudan da insana əsl qiyməti onun gördüyü işlərə, əxlaqi-etik keyfiyyətlərinə, mədəniyyətinə, davranış tərzinə görə vermək lazımdır. İlk dəfə gördüyüm bu insan haqqında gəldiyim ilk qənaətin düzgünlüyünü sonralar zaman özü təsdiq etdi.

Çox təəssüf ki, onun kimi insanların sayı çox deyil. Mən ürəyimdən gələn ən xoş sözləri onun ünvanına söyləmək istəyirəm. Çünki bu açılış mərasimindən sonrakı bir neçə ildə də biz onunla dəfələrlə görüşdük. O, şəhid ailələri ilə özünəməxsus səmimiyyətlə görüşür, onların dərd-sərlərini öyrənir, qayğısına qalırdı.

Ulu öndərimiz Heydər Əliyevin "Azərbaycan Bayrağı" ordeni ilə təltif etdiyi, şəxsi şücaət və qəhrəmanlığına görə Azərbaycan xalqının cəsarət simvoluna çevrilmiş Nazim Cəbrayılovun 60 illik yubileyinə ərməğan edilən bu kitabda Əli Abbasovun haqqında da yazmağı özümə borc bildim. Vətən uğrunda şərəfli ölümüylə ölməzlik qazanmış bir azərbaycanlı oğluna həsr edilmiş bu kitabın adı "Ölməzliyə abidə"dir. Əli müəllimin əməlləri də bir abidədir - özünün özünə ucaltdığı bir abidə. O da öz elmi və zəkası ilə Vətənə, xalqımıza fayda gətirən, xeyir verən çox işlər görmüşdür. Əsl vətənpərvərlər, ziyalılar onları sevən insanların qəlbində yaşayır və qədirbilən xalq öz dəyərli oğulları üçün həmişə qəlbində, tarixində yer ayırır. Şərəfli və uca bir yer. Əli müəllim bu ucalığa layiqdir. Yazdıqlarım ona xas olan məziyyətlər haqqında bir həqiqətdir.

Yeri gəlmişkən, mən Həzrəti Əli (ə) ilə bağlı bir hədisi xatırlatmaq istəyirəm. ***Həzrəti Əli (ə) öz təbəələrinə tapşırırdı: Şəhidlərin uşaqlarını olduqca əzizləyin. Onlar, öz mehriban atalarını əldən vermişlər, onları qoruyub saxlayın. Bunların ataları cihat meydanında və İslam yolunda şəhid olmuşlar və sizin boynunuzda haqları vardır. Onların ailələrinə yetişib, qorumaqla ruhlarını sevindirin.***

Əli müəllim bu hədisdə tövsiyə edildiyi kimi, çətinliyə düşmüş insanların dadına yetişir, qəlbi sınıq olanlara öz isti münasibəti ilə hərarət bəxş edir. Bəlkə də adının Əli olması da elə Ulu Tanrının özü tərəfindən göndərilmiş bir işarə, bir töhfədir. O, əsl ziyalı, əsl vətəndaş kimi qaçqın ailələrinin də, seçicilərinin də ümid-pənah yeri olmuşdur. İnsanlığın ən ali keyfiyyətləri onun simasında öz təcəssümünü tapmışdır, desəm, səhv etmərəm.

Qəlbən təmiz, mənən zəngin olan Əli müəllim! Ömür elə təkcə yaşamaq üçün deyil, bu bir növ insani keyfiyyətlərin sərgilənməsi, realizasiyası üçün ayrılmış zaman kəsiyidir. Siz ömrünüzü mənalı, şərəfli yaşayırsınız. Sizi yüksəkliyə aparan xeyirxahlıq yolu məhz biliyinizdən, sadəliyinizdən, mərdliyinizdən, rəhmdilliyinizdən, ədalətli olmağınızdan və nəcibliyinizdən irəli gəlir. Belə bir gözəl deyim var: ***Millət fərdlərin sayı ilə deyil, fərqlənənlərin sayı ilədir.*** Bu sözlər Sizin kimilər üçün deyilmişdir. Siz fərqlənənlərdənsiniz.

Həmişə uca zirvələrdə olasınız! Cəbrayılovlar ailəsində Sizin adınız həmişə böyük ehtiram, hörmət və məhəbbətlə çəkilir. Çöhrənizdən nur əskik olmasın, sağlam və uzun ömür yaşayasınız Əli müəllim!



***Vətən şəhidlərinin Azərbaycan Dövlət İqtisad Universitetinin həyətində, qədim qala divarları üzərində barelyefi***

## TANINMIŞ ALİM, ƏSL ZİYALI, VƏTƏNPƏRVƏR İNSAN

**Hər uca zirvədən biliniz fəqət,**
**Alimin rütbəsi ucadır əlbət.**

*Nizami Gəncəvi*



Yaradanın bəşər övladına bəxş etdiyi ömür adlı payın başlanğıc və son nöqtələri arasında eyni amala, eyni məqsədə qulluq edən, xasiyyəti bir-birinə uyğun gələn, bir-birini tamamlayan adamlar gözəl bir təsadüf, ya da hansısa bir qaçılmaz qanunauyğunluq nəticəsində eyni vaxtda, eyni yerdə rastlaşırlar.

Dediklərimi tam səmimiyyətlə 1970-ci illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil almış 902-904-cü qrupun tələbələrinə aid etmək olar. Bu qrupun tələbələri savadlı, bilikli olmaları, eləcə də vətənpərvərlikləri, halallıqları, mərdlikləri, yaxşı ya pis - etdikləri bütün hərəkətlərə görə mərdi-mərdanə cavab vermələri və prinsipiallıqlarına görə başqalarından fərqlənirdilər. Bunu onlara dərs deyən müəllimlər də təsdiq edirlər.

Arzularla dolu ömrü xain erməni gülləsinə tuş gəlmiş, ölümündən sonra Azərbaycanın ali mükafatlarından olan "Azərbaycan bayrağı" ordeni ilə təltif edilmiş vətən fədai-

si, Azərbaycan xalqının cəsarət və qeyrət simvolu olan Nazim İbrahim oğlu Cəbrayılov da bu qrupda təhsil alan belə oğullardan biri idi.

Qrupun sonralar müxtəlif vəzifələrdə çalışan məzunları içərisindən bir çox tanınmış mütəxəssis və elm fədailəri, ictimai xadimləri yetişmişdir.

Onlardan biri də elm və təhsil sahəsində öz sözünü demiş, tanınmış alim, biliyi, zəkası ilə xalqına baş ucalığı gətirmiş iqdisad elmləri doktoru, (namizədlik və doktorluq dissertasiyalarını Moskva və Kiyev şəhərlərində müdafiə etmişdir) professor Şəmsəddin Hümmət oğlu Hacıyevdir.

Şəmsəddin müəllimin ömür yoluna nəzər yetirdikdə bu zəhmətkeş və qeyrətli insanın nə qədər məhsuldar işlədiyini, xalqı üçün, onun övladları üçün əlindəki qələmi bir mayaka çevirərək onların yolunu işıqlandırdığını görürük. Çoxsaylı professor-müəllim, tələbə heyəti olan Azərbaycan Dövlət İqtisad Universitetinə bu gün məhz Şəmsəddin Hacıyev kimi ziyalının rəhbərlik etməsi bu nüfuzlu təhsil ocağının qazandığı nailiyyətlərin gələcəkdə də davam etməsinə zəmanət verir.

Şəmsəddin Hacıyev xalqını yüksək tribunada - Milli Məclisdə təmsil edən ləyaqətli millət vəkilidir. Göyçay və Ağdaş rayonunun uzaqgörən seçiciləri Şəmsəddin müəllimə səs verməklə çox düzgün seçim etmişlər. Onlar Şəmsəddin müəllimi millət vəkili seçməklə yeniləşməyə, elm və təhsilə, nurlu gələcəyə, iqdisadi tərəqqiyə səs vermiş oldular. Azərbaycan təhsil sisteminin Avropa modellərinə adekvat olaraq, cənab Prezidentin ali məktəblər qarşısında qoyduğu tələblər səviyyəsində yeniləşməsində və yeni təhsil qanununun qəbul olmasında müstəsna rolu olan Şəmsəddin

müəllim, həm də Milli Məclisin Elm və Təhsil Komitəsinin sədridir. Bu Komitə məhz Şəmsəddin müəllimin böyük zəhməti, səyi və ən başlıcası hörmətli Prezidentimiz cənab İlham Əliyevin dəstəyi və qayğısı ilə xalqımızın işıqlı gələcəyini təmin edəcək “Təhsil haqqında Qanun”u qəbul və təsdiq etdirmişdir.

Professor Şəmsəddin Hacıyevin elmi və pedaqoji fəaliyyəti də Azərbaycan iqtisadçılarına yaxşı məlumdur. Mən görkəmli alimin həm də əsl vətənpərvər bir insan olduğunun dəfələrlə şahidi olmuşam.

Universitetdə hər il keçirilən 20 Yanvar faciəsinin, erməni neofaşistlərinin törətdikləri 26 fevral Xocalı, 31 Mart azərbaycanlıların soyqırımı ilə bağlı anım tədbirlərinin iştirakçısı kimi Şəmsəddin Hacıyevin bu tədbirlərdəki çıxışlarını həmişə diqqətlə dinləyirəm. Uzun illər boyu yaşadığım çətin sınaqlı həyatıma və 30 ilə qədərki pedaqoji təcrübəmə, az-çox xalqıma göstərdiyim xidmətlərimə güvənərək Şəmsəddin müəllimi xüsusilə iki cəhətdən daha yüksək qiymətləndirirəm. Bir tərəfdən yeni elmi fikirlərin daşıyıcısı, elm və təhsil sahəsində yeni cığırlar açan iqdisadçı alim, digər tərəfdən isə hər an Vətən, Qarabağ uğrunda savaşa hazır olan əsl vətəndaş, Vətəninə, xalqına, dövlətçiliyə sədaqət nümunəsi olan əsl Azərbaycan oğlu.

O, tez-tez keçirilən tədbirlərdə tələbələrə xalqımızın böyüklüyündən, qədimliyindən, yenilməzliyindən danışır, millətini sevən əsl vətənpərvər alim kimi tələbələrin milli duyğularını alovlandırır, onları azərbaycançılığa səsləyir, Vətənin tezliklə mənfur düşməndən təmizlənəcəyinə əmin olduğunu bildirir. Belə tədbirlərin birində çox-çox

uzaqları, uşaqlıq illərini xatırlayaraq, o zaman tələbə olan gələcəyin həkimi, böyük qardaşı Hacı Fəxrəddinlə (qəbri nurla dolsun) birlikdə keçmiş 26-lar bağında gəzərkən satqın və xain şaumyanları lənətlədiyindən danışdı. Böyük qardaş hələ neçə illər öncə gənc Şəmsəddinin qəlbində Vətəni sevmək hissini aşılayır, türkçülük toxumu səpirmiş. İllər keçdikcə bu toxumlar kök atır, onu xalqının dəyərli oğlu olmağa istiqamətləndirirdi.

Sadə, səmimi, təvazökar bir insan olan Şəmsəddin müəllim vaxtilə bu universitetdə təhsil alan şəhid tələbələrin ailə üzvlərini burada keçirilən tədbirdlərə dəvət etməklə artıq ənənəyə çevrilmiş bu adəti daim davam etdirir, şəhid ailələrini diqqətsiz qoymur.

Bir qayda olaraq dəvət edilənlərin arasında olan bu sətirlərin müəllifi belə tədbirlərdə onun hər dəfə şəhid ailələrini başına yığaraq onların könlünü necə aldığının, qayğıları ilə necə maraqlandığının, maddi və mənəvi köməklik göstərdiyinin şahidi olmuşdur.

Təbiətcə çox nikbin bir insan olan Şəmsəddin müəllim təşkil edilən tədbirləri heç vaxt kədərli sonluqla başa vurmur. Bir qayda olaraq sonda qalib gələcəyimizə, lazım gələrsə Ali Baş Komandan cənab İlham Əliyevin çağırışı ilə bir yumruq halında birləşib Vətənin müdafiəsinə qalxmağa, qələmi yerə qoyub silaha sarılaraq Qarabağ uğrunda savaşa hər an hazır olduğunu bildirir Şəmsəddin müəllim. Rəhbəri olduğu Az.DİU-nun çoxminli tələbə-müəllim ordusu ilə birlikdə.

Mən on ildən çoxdur ki, bu həssas, əqidəsinə sadiq, mövqeyli, təvazökar alimi tanıyıram. Erməni xəyanətindən söz düşəndə onun üz-gözündə qəzəb hissi alovla-

nır. Şəhid ailələrini səbirli olmağa çağırır. Torpaqlarımızın mütləq azad olacağını, şəhidlərimizin qanının heç vaxt yerdə qalmayacağını söyləyərkən düşmənlə üz-üzə gələn bir müsəlləh əsgəri xatırladır Şəmsəddin müəllim.

Onun ürəkdən gələn inamlı "Tökülən nahaq qanlar yerdə qalmayacaq! Biz mütləq qalib gələcəyik!"- sözlərindən sonra tədbir iştirakçıları gözlərində yaş, dodaqlarında təbəssüm olan şəhid ailələri, gənclər böyük ruh yüksəkliyi ilə, ayaq üstə onu alqışlayırlar. Biz - şəhid ailələri də ürəklərimizdəki ağrını, nisgili belə həssaslıqla bölüşə bilən oğullarla fəxr edirik. Bu zaman Universitetin həyətindəki qədim qala divarlarına həkk olunmuş şəhid şəkilləri də sanki dil açıb: "Bizi şəhid görüb əyilmə, Vətən! Biz şəhid olduq, sən yaşa, Vətən! Bizim balalarımıza, ailələrimizə diqqət göstərən oğulların var olsun, Vətən! Qələbə bizimlədir. Bizim qanımız yerdə qalmayacaqdır!"- deyir.

Bu gün Şəmsəddin Hacıyevin həyat şəcərəsinə, ömür salnaməsinə ali titullar, yüksək mükafatlar, elmin, təhsilin, iqdisadiyyatın inkişafında əldə etdiyi nailiyyətlər, aldığı neçə-neçə medallar, fəxri adlar yazılıb. Bütün bunlar ictimaiyyətə yaxşı məlumdur.

Bu yaxınlarda aldığı növbəti mükafata görə onu təbrik edən jurnalistə Şəmsəddin Hacıyevin dediyi "***Bu mükafatlar bizim kiçik əməyimizə verilən böyük qiymətdir!"*** sözlərini xatırlayıram. Səmimiyyətlə deyilmiş bu sözlərin arxasında gizlənmiş təvazökarlıq söz sahibinin mənəvi zənginlyindən xəbər verir. Universitetdə tez-tez keçirilən, dünya şöhrətli alimlərin də iştirak etdiyi beynəlxalq elmi konfranslar bu təhsil məbədinin nailiyyətlərini, həm də rəhbəri olduğu təhsil ocağının dünya

miqyasında tanındığını təsdiqləyir.

Ucaldıqca sadələşən insanın - Şəmsəddin Hacıyevin həyatı bir vətəndaş, alim, pedaqoq, nəhayət bir ictimai xadim kimi gənclərimizə örnəkdir.

Mən başqa yazılarımda da yeri gəldikcə Şəmsəddin müəllimin insani keyfiyyətlərindən, ailəmizə olan xeyirxah münasibətindən söz açmağı özümə borc bilmişəm. Ona görə ki, gələcək nəsillər də, o cümlədən Nazim Cəbrayılovun nəvə-nəticələri də, əsl insan mənəviyyatına həsr olunmuş bu kitabda həm də Şəmsəddin Hacıyev kimi dəyərli Azərbaycan oğullarının da olduğunu bilsinlər, tanısınlar, yadda saxlasınlar, onlardan öyrənsinlər.

Yazımı Nazim Cəbrayılovun oğlu Orxanın özünün və bacılarının adından Şəmsəddin Hacıyevə ünvanladığı məktubdan sətirlərlə tamamlamaq istəyirəm:

***... Siz ölkəmizdə də, ondan kənarda da yüksək bir hörmətə və nüfuza sahibsiniz. Azərbaycan xalqının qürurlandığı, fəxr etdiyi oğullardan biri də Sizsiniz. Hər bir tədbirinizdə "Bizim tələbə yoldaşımız qəhrəmanlıqla şəhid olmuşdur, biz onunla fəxr edirik" deyəndə, bizim gözlərimiz yaşla dolsa da atamızın unudulmadığını görür, onu yanımızda hiss edirik. Bilirik ki, insan unudulmayıbsa - demək yaşayır.***

***Atamız Nazim Cəbrayılovla həm orta məktəbdə, həm də ali məktəbdə birlikdə təhsil alan tələbə yoldaşlarının əksəriyyəti hal-hazırda Respublikamızın nüfuzlu şəxsləridir. Sizlər onu şəxsən tanıyıb dəyərləndirdiyiniz üçün fəxr edir, sonsuz qürur hissi keçiririk. Tanrı Sizi qorusun!***

***Əldə etdiyiniz bütün nailiyyətlərə sevinən Cəbrayılovlar ailəsi Sizə yeni-yeni uğurlar, uzun ömür, cansağlığı, ailə-övlad xoşbəxtliyi arzu edir.***

## XALQIN ÜRƏK SÖZÜ AQİL

***Mən əsl dostların əsl dostuyam,***
***Mən dədə, mən nəvə, nəsil dostuyam.***
*Şiruyə Sərraf*



Ağac kökü ilə güclüdür, Aqil Abbas, insan dostu ilə. İcazə verin, bu kəlamları Sizə şamil edim!

Xalq tarixdə sərkərdəsi, qılınc tutanı, alimləri, sənətkarları ilə qalır. Əgər bu gün Nazim Cəbrayılov əlindəki silahı ilə Vətənini qoruyan, özünü vətəninə fəda edən bir sərkərdədirsə, Aqil Abbas, Siz isə belə igidləri tarixə salan, onların göstərdikləri şücaəti, onların ər igidliyini nəsillərin qan yaddaşına həkk edən bir tarix salnaməçisisiniz. Nazim Cəbrayılovun ən çox sevdiyi əsərlərdən biri M.S.Ordubadinin "Qılınc və qələm" romanı idi. Qılınc Nazim İbrahim oğluna - Əlifoğlu İbrahimin oğlu Nazimə, qələm isə Aqil Abbasa qismət oldu. Bu bəlkə də bir tale qisməti idi ki, əlindəki qumbara ilə düşmən tankının qabağına çıxan Nazimi ilk dəfə mətbuat vasitəsilə bütöv Azərbaycana məhz Siz tanıtdınız. Cəbrayılovlar ailəsi Aqil Abbas işığında Nazim Cəbrayılovun cəsədini axtarmağa başladı. Lakin heç nə əldə edə bilməyən ai-

lənin yanan ürəyinə az da olsa Aqil sözünün kəsəri su səpdi. Qəhrəman Nazimin həqiqətini aləmə Aqil Abbas car çəkdi və dedi: ***Ay, Qarabağlılar, ay Ağdamlılar siz Nazim kimi oğul yetiribsiniz, içərinizdən Nazim çıxıbdır.***

Biz Cəbrayılovlar ailəsi 1994-cü ildən bəri mətbuat aləmində həmişə Sizin uca səsinizi eşitmişik, Nazimin anım günləri, doğum günü həmişə diqqətinizdə olub. Televiziyadakı əksər çıxışlarınızda Nazimin adını çəkib, onun döyüş yolu, şücaəti, qəhrəmanlığı, türk oğluna məxsus ər oğlu ərliyindən danışmısınız, göstərdiyi şücaətdən bəhs etmisiniz. Biz həmişə Nazimi Sizin sözlərinizlə axtarıb, Sizin sözlərinizdə tapmışıq.

Siz Nazim kimi Vətən fədailərinin doğum və ölüm yollarını işıqlandırmaqla tarixi bir vəzifənin icraçısına çevrilmişsiniz.

Dünyada ən dadlı şey həqiqəti demək, dünyada ən acı şey isə həqiqəti dinləməkdir. Siz Nazim Cəbrayılovun ölüm anını olduğu kimi qələmə almısınız. Nazimin əfsanəvi qəhrəmanlığı bir ər igidin, bir türk oğlunun göstərdiyi cəsarət, kişilikdir. Bü mətin komandir cəsarət simvoluna çevrilir. Son anda bəlkə də Nazim bu sözləri fikirləşib:

***Ayağa qalx, Vətən oğlu,***
***Ya azadlıq, ya şəhidlik!***
***Bu yoldayam!***

Nazim, Aqil Abbasın təbirincə desək, ***“Bir parça vətən torpağını öz sinəsi ilə örtdü ki, ora düşmən ayağı dəyməsin”.***

Sanki Nazim bu gün xalqın ürək sözlərini yazaraq, car səkən Aqil Abbas kimi oğula xitabən: ***- Bizi şəhid görüb əyilmə, Aqil! Möhkəm dayan!,*** - deyir.

Ümumilli liderimiz Heydər Əliyevin sərəncamı ilə Na-

zim Cəbrayılov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif ediləndə Ulu öndərimizə təşəkkür teleqramı vuran da, bizi ilk təbrik edən də Siz oldunuz. Bizimlə görüşdünüz. Bu tədqimatla bağlı elə bir yazı hazırladınız ki, bu yazınızla qəbri olmayan şəhid dostunuza sanki bir abidə qoymuş oldunuz. Şiruyə Sərrafın aşağıdakı misraları Sizin dostluğunuza qiymət verib elə bil:

***Bişmişlərin bişmiş dostu,***
***Çiyin də çiy dostu olar.***
***Gədələrin gədə dostu,***
***Bəyin də bəy dostu olar.***

Siz, Nazimin cəmiyyətdəki yerinin, şəxsiyyətinin bizə bəlli olmayan tərəflərini də açdınız. Nazim itkisindən sonra xatirə günü, ad günləri ərəfəsində Sizinlə bir neçə dəfə görüşmək imkanı əldə etmişəm. Bu görüşlərin birində söhbətimizin sonunda Siz mənə müraciətlə, "***Mənim qardaşımın şərəfli həyat yoldaşı, sənin qarşında baş əyirəm!***" kəlməsini işlətdiniz. Deyilən sözün sonluğu məni utandırsa da və nə qədər xoş olsa da, böyük söz sahibinin mənə verdiyi bu qiymət boynuma ikiqat məsuliyyət qoydu. Onda cavab verə bilmədiyim həmin sözlərinizə indi cavab vermək istəyirəm: ***Siz mənim şəxsimdə Azərbaycan qadınına, Azərbaycan anasına təşəkkür edirdiniz, onu ucalarda görür, onu hörmətli tuturdunuz.***

Aqil müəllim, Nazimin 60 illik yubileyinə və şəhid olmasının 15 illiyinə həsr olunan bu kitabda əsasən Azərbaycan xalqının nüfuzlu qələm, söz sahiblərinin, ziyalılarının, tanınmış alimlərinin, dostlarının Nazim haqqında yazıları toplanmışdır. Elə bilirəm ki, Nazimi olduğu kimi - bəzəkdüzəksiz, uğrunda ölümə getdiyi xalqına təqdim etmək

onun şəxsiyyətinə edilən ən böyük hörmətdir. ***Çünki ölümün heç də son olmadığını öz həyatı, hərəkəti ilə təsdiq edən oğulları, onlara layiq olduqları qiyməti verən ayrı-ayrı fərdlər, bütövlükdə isə xalq yaşadır!***

Bu gün elə bu yubiley ərəfəsində mənim də əlimə bir fürsət düşüb, Aqil müəllim. Sizə təşəkkür etmək, "Çox sağ ol!" demək fürsəti. Siz heç vaxt "Sağ ol" deməyə imkan verməmisiniz. Çünki bu Sizin vətəndaşlıq borcunuzdan, ali insani kefiyyətinizdən, vicdanlı olmağınızdan irəli gəlir. Siz yazılarınızla, çıxışlarınızla nəinki bizə, yüzlərlə Azərbaycanlıya öyrətdiniz ki, ömür təkcə doğumla-ölüm arasındakı zaman kəsiyi deyil, ömrə vicdan gözüylə baxarlar, bü ömür sahibinin əməllərinə, həyatdakı mövqeyinə görə qiymət verərlər. Onda ömrə bir ömür də calanar. Elə buradaca müqəddəs insan, müdrik Məmməd Araz sanki torpaqdan baş qaldıraraq bugünkü insanları, insanlığı görərək hayqırır:

***İnsandan insana körpülər sınıb,***
***Ya rəbb, bu dünyanı yenidən yarat!***

Biz bu fəlsəfi fikrə söykənərək cavab veririk ki, yox, Ulu şair, türk xalqının ölməz oğlu, nə qədər ki, Aqil Abbaslar var, insanlar, dostlar arasında körpülər dağılmayacaq, çünki belələri insanlığı öz çılğın, şaqraq səsi ilə birləşməyə çağırır. Vətən yanğılı, əsl vətəndaş, yazıçı-publisist, yurd sevgisini kitablarında yana-yana əks etdirən Aqil Abbaslar bu körpünü qoruyacaqlar.

Aqil Abbas, Siz Cəbrayılovlar ailəsinin xeyir-şərində həmişə iştirak edirsiniz. Bu yaxınlarda Nazim Cəbraylovun oğlunun toy mərasimində iştirakınız Nazimə, onun xatirəsinə olan böyük ehtiram və hörmətinizdən irəli gəlir-

di. Mərasimdəki çıxışınız isə böyük söz ustadının Cəbrayılovlar ailəsinə bir tövsiyəsi idi. Yadınızdadırmı, Nazimin şərəfinə badə qaldıraraq, qonaqlardan bu sözləri dinləməyi xahiş etdiniz:

- ***İnsan 80-100 il yaşaya bilər. Ömür payı müxtəlifdir. Bir az artıq yaşaya bilər, bir az artıq yeyə bilər. Ancaq oğlum, Orxan, sənin atan kimi ər kişiliyi hər kəs bacarmaz. Həmişə başı uca gəz. Fəxr et ki, Əlifoğlu İbrahimin oğlu Nazimin oğlu, nəslinin davamçısısan. Mən də şəhid ola bilərdim. Bəlkə də ulu Tanrı məni ona görə sağ saxlayıb ki, Nazim kimi şəhidləri tarixdə yaşadam, ölümsüz qəhrəmanlıqlarını Siz gənclərə çatdıram.***

Nə qədər gözəl söylədiniz, qardaş. Nazimin ruhunun söylədiyi kimi, möhkəm dayan, Vətən oğlu! Ulu tanrı Sizin kimi qələm, söz ustadını millətimizə, xalqımıza çox görməsin!

Sözü görünməyən çan yanğısına, ürək alovuna bükülən Aqil müəllim! Sizi kiməsə təqdim etməyə ehtiyac yoxdur. Bununla belə, Qarabağ torpağından yoğrulan, təmiz bulaq sularından qaynaqlanan, Məmməd Araz ocağının istisindən qüvvət alan, "Ədalət" adlı qəzeti ilə haqq sözünü deyən, səsini ucaldan Aqil Abbasın tərcümeyi-halını bu kitabda verməyi özümə borc bilirəm.

1953-cü ildə Ağcabədi rayonunun Bayat kəndində doğulub. 1976-cı ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib. 1986-cı ildən Azərbaycan Yazıçılar İttifaqının üzvüdür. "Evləri köndələn yar", "Ən xoşbəxt adam", Pənah xanın nəvəsi, Qarabağın məşhur sərkərdəsi Məmməd bəy Cavanşirə həsr olunmuş "Batmanqılınc", evindən-eşiyindən didərgin düşmüş insanların faciəsini özündə əks etdirən "Çadırda Üzeyir Hacıbəyov doğula bil-

məz!”, “Saçın ucun hörməzlər”, “Qiyamət gecəsi”, “Qarda açan qan çiçəyi” kitablarının müəllifldir. “Çadırda Üzeyir Hacıbəyov doğula bilməz” və “Batmanqılınc” kitabları Türkiyədə nəşr olunub, hələ bitməyən Qarabağ müharibəsinə həsr olunmuş “Dolu” romanı bu gün oxucularının ixtiyarına verilib. Romanda rəsmi vəzifə daşıyan insanlardan tutmuş kriminal qurumun nümayəndələrinə qədər hər kəsin, hətta müdaxiləyə məruz qalan şəhərin - Dünyanın Ən Varlı Şəhərinin özünün də, yağan güllələrin də obrazı var. ***Bu kitab bizim müharibəmizin həqiqəti, sözün ən gerçəyidir. Mənim aləmimdə biz azərbaycanlılara xas olan unutqanlığa bir yaddaş zəlzələsi, “Unutma! Unutmaq olmaz!” hökmüdü bu kitab.***

1988-ci ildə “Ən xoşbəxt adam” kitabına görə Respublika Komsomolu mükafatına layiq görülüb. “Qızıl qələm” mükafatı laureatıdır.

2005-ci ilin iyul ayının 22-də Azərbaycan Prezidenti İlham Əliyevin fərmanı ilə “Azərbaycan Respublikasının əməkdar jurnalisli” adına layiq görülüb. Millət vəkilidir.

Evlidir, iki övladı, bir nəvəsi var. Tanrı qorusun!

Sonda isə Sizi yaxşı tanyanların ürəyindən olan bu sözləri Sizə ərmağan edirəm. Tezliklə uca səsiniz, Koroğlu nərəniz yağı düşmən tapdağı altında inləyən Qarabağımızda eşidilsin.

Gün o gün olsun ki, igid ataların layiqli övladları - Orxanlar, Tuncaylar, Toğrullar, Əşrəflər, Həsənlər Azərbaycan bayrağını yenidən Ağdamda, Şuşada dalğalandırsınlar.

***

## İNSANLIĞIN TƏCƏSSÜMÜ

***Dostunu, qardaşını üç halda qoruya bilməyənlər tam dost ola bilməz: ruh düşkünlüyü vaxtı, özü yanında olmayanda, bir də ölümündən sonra.***

***Həzrəti Əli (ə.s.)***



1966-70-ci illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda Nazimin tələbə yoldaşı, oxuduğu fakültənin qrup nümayəndəsi olmuş Həsən İsrafilovla haçansa tanış olacağımı heç ağlıma belə gətirməzdim. Düzdür, biz görüşə bilərdik, ancaq belə yox. Ya Həsən müəllim Ağdama qonaq gələrdi, ya Bakıda, hansısa bir məclisdə təsadüfən rast gələrdik, ya da biz onun ailəsinin qonağı olardıq. Bəlkə də onda, "Bir vaxtlar buraxılış şəkillərindən sənə göstərdiyim bu Həsəndir, tələbə yoldaşımdı", deyərdi Nazim.

Lakin çox təəssüf ki, bizim tanışlığımız elə məhz Nazimin şəhid olması ilə əlaqəli oldu. O zaman Nazimin atası İbrahim kişi sağ idi. Biz yenicə köçkün düşmüşdük, artıq Nazimi də itirmişdik. Cəbrayılovlar ailəsinin bu məqamda dost sözünə, dost diqqətinə, qayğısına böyük ehtiyacı vardı. Bir-birinin ardınca yaxınlarını - həyat yoldaşını, 2 oğlu-

nu itirən İbrahim kişinin əyilməz qəddi əyilmiş, gurultulu səsi kəsilmişdi. Çarəsizliklə evin qız-gəlininin üzünə baxırdı. Həmişə arxalandığımız, xoş və çətin günlərimizin dayağı, dostu, evin ağsaqqalı "Yazıya pozu yoxdu", dedi. Nə dinirdi, nə danışırdı, birtəhər məskunlaşdığımız evin yaxınlığındakı parkda oturar, keçən günlərinin də, ötkəm sözünün də, qazandığı nüfuzunun da bu itkilərlə getdiyini dərk etdikcə, kövrəkləşir, qol-budağını itirən hündür, köklü palıd ağacı kimi yerə çökürdü. Belə günlərin birində evə qayıdan İbrahim kişinin əlində bir kağız parçası var idi. Bu kağızda iki nəfərin adı yazılmışdı: Şəmsəddin Hacıyev, Həsən İsrafilov. Nazimin tələbə yoldaşları. Biz onları tanımırdıq. Kağız gətirən tələbənin babası İbrahim kişiyə söyləyir ki, bu iki nəfər universitetin müəllimləridir, "Tələbələrdən Əlif oğlu ailəsini tanıyan varmı?", deyəndə, nəvəm ayağa qalxıb. Onlar Səninlə görüşmək istəyirlər. Biz güc-bəla ilə Nazimin atasını Universitetə göndərdik. Hər iki şəxslə görüşəndə nə vaxtdan daxilinə axan göz yaşını saxlaya bilməyib. Bir xeyli söhbətdən sonra özünə gələn ata geri döndü. Kişi sakitləşmişdi. Qəddi bir az düzəlmiş, hətta uşaqlarla söhbət etməyə başlamışdı. ***Çox sağ olun, Şəmsəddin müəllim, Həsən müəllim. Çünki Siz dünyanın ən savab işini gördünüz, bir atanı qapandığı bədbin aləmdən qopara bildınız, onun ürək sözünü dinlədiniz, qəlbinin çırpıntılarını, hönkürtüsünü eşitdiniz. Çarəsiz dərdinə məlhəm olmağa çalışdınız. O, dərdini söyləmək üçün sanki öz ətrafında yox, kənarda kimisə axtarırmış. Bu boşluğu Siz doldurdunuz.*** Vətənə, Vətən uğrunda şəhid olmuş tələbə yoldaşınızın ailəsinə sevgi, mərhəmət göstərməklə heç demə ölüm astanasında dayanmış dərdli bir

atanın yarasına məlhəm oldunuz. Nazimin atası Sizinlə görüşdən sonra mənə də Sizinlə, Əzizə xanımla görüşməyi məsləhət bildi. Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşı olan çox dəyərli insan Əzizə xanım Nazimi tələbəlik illərindən yaxşı tanıyırdı. Beləliklə, mən Əzizə xanımla da tanış oldum.

Çox keçmədi ki, biz Nazimin atasını da itirdik. Bu hadisədən sonra Orxanla mən hər iki müəllimlə, Əzizə xanımla tez-tez görüşürdüm. Mənim də dost sözünə ehtiyacım olduğu bir vaxtda Əzizə xanım dərdimin ortağına çevrilmişdi. Yeri gəlmişkən verdiyi nəsihətlərə, göstərdiyi qayğıya görə bu vətənpərvər xanıma da təşəkkürümü bildirməyi özümə borc bilirəm. Bu tanışlıq, görüş oğlum Orxana da xoş gəlirdi. Hiss edirdim ki, oxumağa meyilli olan Orxanın təhsilinə də, tərbiyəsinə də, bu görüşlərin müşbət təsiri olur. Hələ məktəbli olan bir oğlan uşağının hər iki alimlə görüşü, söhbətləri artıq onun da öz yolunu müəyyənləşdirməyə, həyatda özünü tapmağa bir istiqamət oldu. Şəmsəddin müəllim, Həsən müəllim Orxanın yolunda bir mayak oldular. Çox sonralar Orxan da Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi oldu. Elə bu ərəfədə mənim universitetin rektoru akademik Əli Abbasova müraciətim cavabsız qalmadı. Mən də Universitetdə əmək fəaliyyətinə başladım. Bütün bunların səbəbkarı hər iki alim - Şəmsəddin müəllim və Həsən müəllim oldu. ***Nazim Vətənini qorudu, tələbə yoldaşları isə Nazimin ailəsinə dayaq oldu. Vətən öz igid oğlu Nazimi, dostları isə onun ailəsini unutmadı!***

Cəbrayılovlar ailəsinin yenidən ayağa qalxmağa ruhlandıran bu dostların mən deyərdim ki, mənəvi təsiri ölçüyə-

gəlməzdir, əvəzsizdir. Bir zaman cəbhədə Nazimlə qarşılaşan məşhur jurnalistimiz Bəxtiyar Sadıqovun ona verdiyi "Üç uşaq atasını övladlarının gələcəyi narahat etmirmi?" sualına Nazimin cavabı bu olub: ***Zamanında övladlarım yaxşı insanlar əlinə düşər, yəqin ki Azərbaycanda mənim də övladlarımın qayğısına qalan vətənpərvər oğullar, mərd insanlar tapılacaq. Odur ki, qorxmuram. Çünki mən belə insanların olduğuna inanıram.***

Nazimin verdiyi cavab onun möhkəm hissiyyatından, intiusiyasından xəbər verirdi.

Mən ailəni dərd-qəmin əlindən xilas olub, alın yazısı ilə barışıb, həyat davam edir, çalışmaq, işləmək lazımdır prinsipini bizə təlqin edən, mənəvi dayaq olan insanlar haqqında yeri gəldikcə yazıram.

Cəbrayılovlar ailəsi bu insanlar, dostlar əhatəsində artıq yenə də əski zamanlarda olduğu kimi, addımlarını möhkəmlətməyə başladı və Bəxtiyar Vahabzadənin aşağıdakı misralarını örnək tutaraq yaşamağa, itirdiklərimizi yaşatmağa başladıq:

***Ağlayanda elə ağla, əzizin ölmüş kimi,***
***Güləndə də elə gül ki, əzizin gəlmiş kimi.***

Həsən müəllim, mən deyərdim ki, Sizinlə tanışlıq Cəbrayılovlar ailəsinə yeni qol-qanad verdi. Artıq mən özüm də Universitetin əməkdaşı olduğum üçün Sizinlə mütəmadi rastlaşıram. Hər görüşümüz keçmiş tələbəlik illərini geri qaytarır, yeni söhbətlərə səhifələr açır. Ən başlıcası isə Sizin tək iqtisadçı deyil, həm gözəl qələm sahibi, yaxşı şeir, mahnılar müəllifi də olduğunuzu bildim. Nazimə həsr etdiyiniz şeirlər oxuyanları mütəəssir edir. O şeirlərin ürəkdən gələn misraları bu kitabın səhifələrində də özünə

yer tapmışdır.

İndi mənə aydın olur ki, Siz belə ürək sahibi imişsiniz ki, tələbə yoldaşınızın şəhidlik zirvəsinə ucalmasına biganə qalmamısınız. Vətən qarşısında, şəhidlər önündə borcunuzu əməlinizdə, işinizdə göstərdiniz. Bəlkə hissiyyatınız Sizə sonradan başa düşəcəyiniz bir durumdan xəbər verirmiş, sinəsi bala dağlı bu kişini əzizləməyi, ona xüsusi diqqət göstərməyi, dərdini bölüşən kişiyə səbirlə qulaq asmağı diktə edirmiş. Demə Sizi də, Həsən müəllim, bir neçə ildən sonra eyniylə Nazimin atası İbrahim kişi kimi ağır bir Tanrı sınağı - oğul itirmək müsibəti gözləyirmiş.





***Haşiyə.*** *Həsən müəllimin canından da artıq sevdiyi 29 yaşlı yeganə oğlu Elçin faciəli surətdə dünyasını dəyişib. Bu hadisənin baş verəcəyi günün əvvəli çox böyük sevinclə başlasa da, sonu böyük kədərlə bitdi. İlk övladına - 11 günlük Məryəmə baş çəkmək üçün xəstəxanaya gedərkən naməlum sürücü tərəfindən avtomobillə vurulmuşdu. Sürücü kömək göstərmək*

*əvəzinə onu yerindəcə qoyub, namərdcəsinə aradan çıxmışdı. Maliyyə Nazirliyinin baş mütəxəssisi vəzifəsində işləyən Elçin, həm də imanlı insan və namaz əhli idi. Allah ona rəhmət eləsin. Əslində günahsız olan Elçini də şəhid hesab etmək olar.*

*İndi onun balaca Məryəm qızı da Nazimin balaları kimi atasız böyüyür. Həyat davam etməlidir. Qoy bundan sonrakı tale qismətiniz sevinclə dolu, könül xoşluğu bəxş edən xeyir işlərlə zəngin olsun. Necə deyərlər, qəminiz sevinclərinizlə unudulsun, balaca Məryəminizin böyük xoşbəxtliyinin şahidi olasınız. Ulu Tanrı sizi Məryəm üçün, qız nəvələriniz Firuzə, balaca Həsən üçün qorusun. Tanrı sizin və bütün ailə üzvlərinizin yardımçısı olsun, Həsən müəllim!*

Mən bu yubiley və anım günü ilə əlaqədar hazırlanacaq kitab haqqında ilk öncə Sizə məlumat verəndə, bunu çox təqdirəlayiq hesab etdiniz. Əlinizdən gələn köməyi edəcəyinizə söz verdiniz və əməl etdiniz.

Ancaq bu köməklər içərisində ən alisi Sizin mənə söylədiyiniz bir hədis oldu: ***Şəhidin qanı yerə tokülməsin deyə, mələklər dərhal göylərdən yerə enir, onu yıxılmağa qoymur, qucaqlarına alıb uca Tanrının dərgahına aparırlar, -*** dediniz.

Nazimin qəbri olmadığı üçün məni bu hədis o qədər mütəəssir etdi ki, Sizdən ayrılandan sonra göz yaşlarımı saxlaya bilmədim, iş otağıma çəkilib sakit-sakit ağladım. Sakitləşəndən sonra Sizə ürəyimdə minnətdarlığımı bildirdim.

Bu sözləri evdə də xatırladım. Eyvana çıxıb göylərə baxdım. Mənə elə gəldi ki, torpaqda məzarı olmayan Na-

zimin səmada çöhrəsini gördüm, təskinliklə öz-özümə düşündüm... ***İndi sənin ruhunun da, məzarının da yeri mənə məlum oldu.***

***Ey şəhid oğlu Şəhid!***
***İstəmə məndən məqbər.***
***Sənə ağuşun açmış***
***Durubdur peyğəmbər!***



Yaxşılıq da, yamanlıq da heç vaxt unudulmur. Yaxşılığı unudanlar nankor insanlardır. Sizin əlinizdən ancaq yaxşılıq gəlir. Gülərüzlə qarşılayıb, gülərüzlə yola saldığınız insanların duaları həmişə köməyiniz olacaq.

Nazim Cəbrayılovun ailəsinin xeyirində-şərində həmişə iştirak etmisiniz. Onun övladlarının üçü də Sizi tanıyır və xətrinizi bir əmi kimi, doğmaları kimi çox istəyirlər. Bunu özünüz də bilirsiniz.



***Orxan (soldan birinci) atasının tələbə yoldaşları professor Şəmsəddin Hacıyev və dosent Həsən İsrafilovla***

Bu istəklə, bu hörmətlə Sizin haqqınızda bu kitabda söz deməyi özümə borc bildim. Bir məlum el məsəlində deyildiyindən fərqli olaraq mən hesab edirəm ki, deyilən yox, yazılan söz yadigardır. Sizə ünvanlanan bu səmimi sözləri bu etiqadla yazdım ki, qoy tarixdə qalsın yaxşı işləriniz, əməlləriniz.

Axı bu kitab ilk öncə Nazimin, eləcə də bütün şəhidlərin, həyatda bizi əhatə edən yaxşı insanların ölməzliyinə əbədi abidədir.

***


BİR ÖMRÜN TARİXİ
BİR DASTAN OLDU

*Kimi haraylayım, çağırım kimi,*
*Boylandım göylərə, səs tək itmisən.*
*Gördüm ağ qanadlı mələklər kimi,*
*Sən mənim içimdən uçub getmisən...*

***Telli Pənahqızı***

***Dünyanın heç bir yerində Azərbaycan qadını qədər sədaqətli, gözəl, fədakar və mədəni qadınlar yoxdur. Ona görə də bizim qadınlar hər cür hörmətə, məhəbbətə və sevgiyə layiqdirlər.***

***

*...**Mən təklikdə özümü qəhrəman hesab etmirəm. Mən Sizə görə qəhrəmanam. Nə qədər dözümlüsünüz, nə qədər intizamlısınız - mən sizə heyran olmuşam. Çalışın öz intizamınızı və sədaqətliliyinizi kişilərə də öyrədin.***

**Heydər Əliyev**

## BAŞINI UCA TUT, AY "ŞUŞA QIZI"

*"Xalq qəhrəmanı" Nazim Cəbrayılovun həyat yoldaşı Rəhilə xanıma ithaf edirəm.*

Gül çöhrəndə şəfəqlərin izi var,
Gözlərində yerin-göyün özü var,
Ürəyində Qarabağın sözü var,
Başını uca tut, ay "Şuşa qızı".

Əhd eləyib könül verdin birinə,
O da sevgisini bağladı sənə,
Xoşbəxtsən, yar oldun igid, ərənə,
Başını uca tut, ay "Şuşa qızı".

Qəlbində sevgidən gur ocaq yandı,
Düşmən qabağında dağ tək dayandı.
Yarın ön cəbhədə sipər, qalandı,
Fəxr eylə, Nazimlə, ay "Şuşa qızı".

Seyidin, Cabbarın ecazkar səsi,
Ölməz Qarabağın Xan şikəstəsi,
Həzinin, Mehdinin cəngi nərəsi.
Başını uca tut, ay "Şuşa qızı".

Üzeyrin, Vaqifin ahı, naləsi,
Qəlbləri yandıran Qədirin səsi
Xanın o yerlərdə qalan nəfəsi,
Başını uca tut, ay "Şuşa qızı".

Gözü nəmli qalan Şuşa qalası,
Qurbanın tarında bitməz sədası,
Yetər bu dərdlərin bir son nidası,
Başını uca tut, ay "Şuşa qızı".

Bizlərə örnəkdi Koroğlu, Nigar,
Nəbiylə Həcərin getdiyi yollar.
Qəlbində yer tapdı inam, etibar,
Başını uca tut, ay "Şuşa qızı".

Bir dastan yarandı: "Nazim-Rahilə",
Ucaldı adınız hər eldən-elə,
Qəhrəman adınız düşübdü dilə,
Başını uca tut, ay "Şuşa qızı".

Sən güc alıb öz kökündən, soyundan,
Arxa, dayaq oldun Nazimə hər an,
Sizi cüt yaratmış Ulu Yaradan,
Başını uca tut, ay "Şuşa qızı".

Qəhrəmanlıq salnaməsi yaratdız,
Hər ürəkdə Siz bir heykəl ucaltdız,
İgidə yar olmaq, nə zarafatdı?
Başını uca tut, ay Şuşa qızı!
Ucadan uca tut, ay "Şuşa qızı"…

***Gülzar Şəmkirli,***
***şairə-publisist***

## HƏYAT SINAQ MEYDANIDIR

***Yaz gününün sellərinə dönmüsən,***
***Bu dünyanı oyuncaqmı bilmisən,***
***Həyat səni güldürəndə gülmüsən,***
***Hünərin var ağladanda gül görüm.***
***Bəxtiyar Vahabzadə***



Talelər müxtəlifdir. İnsanlar kimi.

Cəfakeş insanlar da var, zəhmətkeş insanlar da var. Bunların hər ikisi Rəhilə xanımın taleyinə düşüb. Bu keyfiyyətləri özündə birləşdirən insanların dünyaya baxışı da özünəməxsus olur. Belə insanlar özəllikləri ilə, şəxsi kefiyyətləri ilə, daxili aləmləri ilə çox fərqlənir, seçilirlər.

Haqqında söz açmaq istədiyim müsbət qadın obrazı Rəhilənin simasında öz təzahürünü tapıb. Həyat qasırğalarına tüş gəlmiş, səmimi, elit bir ailə - üç uşaq, bir ana... Çətin günlərini mərdliklə yaşadılar. Bu günlərdə bütün hallar yaşandı. Kədər də oldu, sevinc də. Kədər deyəndə mən ailənin başçısı, torpaqlarımızın azadlığı uğrunda qəhramanlıqla şəhid olan Nazim Cəbrayılovu nəzərdə tuturam.

***Nazim dövləti borcunu vətəndaşlıq simasında yerinə***

***yetirdi. O, ölümüyülə düşməni lərzəyə saldı, tülkü xislətli arxalı köpəklərə - erməni faşistlərinə, gözünü başqasının əzəli torpağına tikmiş qəsbkarlara bu elin oğullarının nəyə qadir olduğunu göstərdi. Bu döyüşdə əsl əsgər, əsl şir kimi vuruşaraq həlak oldular Vətən oğulları! Ölümləri ilə düşmənə qalib gəldilər onlar.***

Tanıyanlar da, tanımayanlar da "Qəhrəmandır!" dedi, şəninə şeirlər, musiqilər, bayatılar yazıldı, xatirə abidəsi qoyuldu, anım günləri keçirildi, yad edildi. - Bu Nazimin unudulmadığını göstərsə də, ailə yarımçıqdır. Yarımçıq qalmış ailə - övlad sevgisi... Bəs ailəni tamamlayan, bütövləşdirən, kim oldu? Bu yerdə böyük mütəfəkkir şairimiz Hüseyn Cavidin məşhur deyimi yada düşür: ***Qadın gülərsə, bütün bəşəriyyət gülər.*** Bu dahiyanə sözlər Rəhilənin həyatında öz əksini tapdı.

Nazimin qadını Rəhilənin sevinci, gülüşü onun üç övladı və onların ona bəxş etdiyi fərəhli günlər oldu. Fidan, Jalə məktəbi bitirdilər. Orxan hərbi qulluğa çağırıldı. Bakı Dövlət Universitetinin rektorundan Jalənin əla oxumağına və nümunəvi davranışına görə təşəkkür məktubu aldı. Oxuduğu təhsil ocağında, eləcə də iş yerində Fidanın məsuliyyətindən, ədəb-ərkanından, yüksək mədəniyyətindən, böyük-kiçiyə münasibətindən danışıldı, onu tərbiyə edən anaya "Əhsən", dedilər. Hərbi hissədən hazırlanmış televerilişdə Orxanı ekranda görən ana fəxrlə "Boyuna qurban, oğul!", dedi. Tanıyanlar övladlarına görə Rəhiləyə gözaydınlığı verdilər. İnşaallah, sevincli günlər, xoş müjdələr hələ qabaqda çox olacaq, ona görə ki, bu uşaqların tərbiyəsinin bünövrəsi paklıq, dürüstlük, səmimiyyət, qonaqpərvərlik üzərində qurulub.

Əziz oxucu, mən hələ Rəhilə xanımın elmi və ictimai fəaliyyətindən də bir neçə kəlmə yazmaq istəyirəm. Ha-

zırda o, Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşı, Bakı Dövlət Universitetinin dissertantıdır. Elmi işinin müdafiəsi ərəfəsindədir. İnsanda nə qədər enerji, nə qədər qüvvə, mətinlik, sözü bütövluk olmalıdır ki, ən çətin işlərin öhdəsindən bu cür cələ bilsin. ***Heç bir işin çətinliyindən qorxmayan Rəhilə xanım öz qeyrəti, hünəri ilə bü günün Nigarıdı, Həcəridi, deyərdim.***

Hər kəslə öz dilində danışmağı bacarır. Böyüklə böyük, kiçiklə kiçikdir. Qeyri-adi səmimiyyətilə yaxşı dost, sirdaşdır. Qızları Fidana, Jaləyə, gəlini Gülarəyə isə ən yaxın rəfiqədir. Bu qızların nazını çəkir, oğlunun kişi hərəkətləri ilə fərəhlənir, qürurlanır. Çalışqandır, əzmlidir. Ən çətin işin öhdəsindən gəlmək üçün hər cəfaya qatlaşaraq bu üç uşağı boya-başa çatdırdı. Ağılla, kamalla. Öz ağlından, öz zəkasından pay verdi övladlarına. İnsan düşdüyü çətinliyə sinə gərmək üçün oda-alova dözür, övladlarını böyüdür, həyat üçün, dövlət üçün, Vətən üçün əlindən gələni əsirgəmir. Hər bir kəs çalışmalıdır ki, Vətəninin, torpağının layiqli övladı olsun. Bunun üçün yüksək intellekt, təhsil, tərbiyə, böyük-kiçik yeri bilmək, müsbət əxlaqi kefiyyətlərə malik olmaq lazımdır. Müasir gənclərimizi bu ruhda böyütmək yolunda çox iş görülməlidir. Bu mənada Rəhilə xanımın kişi qeyrəti nəinki cənclərə, hətta yaşlılara da örnək, nümunədir.

Hazırda o, çox xeyirxah işlərlə məşğuldur. İşlədiyi kollektivdə də gənclərə öz xeyirxah əlini uzadır. Heç kəsin problemini, müraciətini cavabsız , diqqətsiz qoymur. Onun haqqında "Çox humanist insandır", deyir gənclər.

Mən onunla tanışlıqdan bir az öncə Şəhid Anaları Mərkəzini təsis etmişdim. Mərkəzin üzvlərinin yekdilliklə razılığına əsasən işgüzar, hər kəsin dərdini öz dərdi bilən, çətinlikdən qorxmayan Rəhilə xanımı mərkəzin sədr müa-

vini seçdik. O, ixtisasca müəllimədir. Ailədə, işdə daşıdığı ağır yüklə bərabər, bunu da boynuna götürdü. Bu onun böyüklüyü idi: öz dərdi azmış kimi, başqalarının dərdini də yüklədi çiyinlərinə, qorxmadı.

Rəhilə xanım həm də cəmiyyətdə fəal bir qadındır. 1995-ci ildən Mərkəzin fəaliyyətində yaxından iştirak edir. Sərhəd bölgələrində: Quzanlıda (Ağdam), Fizulidə, Xaçmazda, Beyləqanda daxili qoşunların əsgərləri ilə birlikdə bayram şənlikləri keçirtmiş, dəfələrlə sərhəd qoşunlarının əsgərləri ilə görüşmüşük. Əksər dövlət tədbirlərində birlikdə iştirak etmiş, seçkilərdə fəallıq göstərmişik. Elə bu cür fəallığına görə də ona konfranslarda çıxış üçün söz verilib, qurultaylara nümayəndə seçilibdir.

Nazim Cəbrayılovun 60 illik yubileyi və şəhid olmasının 15 illiyi münasibətilə anım gününün keçiriləcəyi xəbərini alanda, xeyli duruxdum. Öncə 15 ilin nə tez gəldiyini düşündüm. Zalım fələk, mənfur düşmən neçə ömrü yarıda qırdı. Elə yerdə qırdı ki, bir gəlin, iki məktəbli qız, bir körpə oğlan uşağı ilə kiçik bir əyalət şəhərindən paytaxta köçkün oldu. Həyat yoldaşı isə gözəl Qarabağımız uğrunda şəhid olmuşdu. Elə bizim hər ikimizi - ana- övlad yaşında olsaq da bir dərd tanış etdi, doğmalaşdırdı. O, həyat yoldaşını, mən isə qızımı Qarabağ döyüşlərində itirmişdik. Hər ikisinin soykökü qarabağlı idi. Biz təsadüfən, 20 yanvar ümummilli hüzn günündə tanış olduq. O, məni görən kimi tanıdı. “Siz, qəhrəman Gültəkinin anasısınız? Mənim atam, qohumlarım Gültəkini yaxşı tanıyırlar. Onun cəsarəti, qorxmazlığı, həkim bacarığı çoxlarına örnək olub”, dedi.

Biz haçan doğmalaşdıq heç bilmədik. Çünki dərdlərimiz qohum idi. Mənim də öhdəmdə şəhid ananın bir qızı qalmışdı. Elə həmin gündən bir-birimizə dayaq olduq. Bir-birimizin xeyrində, şərində iştirak etməyə başladıq.

Elə ilk gündən o məni tanış olmaq üçün evlərinə dəvət etdi. Mən dəvəti qəbul etdim. Həmişə rəhbər vəzifələrdə olmuş sanballı bir el ağsaqqalı olan atası məni çox böyük səmimiyyətlə, özünəməxsus qonaqpərvərliklə qarşıladı. Süfrə arxasında söhbətə başladıq. Mənim üçün də bu tanışlıq maraqlı idi. Çünki Gültəkinimi yad adamların dilindən eşitmək, ona kənardan baxmaq istəyirdim. Yad sözü ürəyimdən keçdiyi üçün ağsaqqal məni bağışlasın, dedim. Sən demə mənim balam elə Şuşa qızı imiş, şuşalıların qızı. Bu mülayim kişi, köhnə rəhbər işçilərə məxsus təmkinlə, aram-aram Qarabağın xoş günlərindən, Qarabağ ermənilərinin fitnə-fəsadından və bu elan olunmamış xain müharibənin qurbanı olan zəhmətkeş insanlardan və ən nəhayət isə iki qəhrəman kürəkən - Nazim Cəbrayılov, Əşrəf İsmayılov və bir qəhrəman qız - həkim Gültəkin Əsgərovadan söz açdı. Söhbət əsnasında Gültəkinlə necə görüşdüyünü mənə söylədi. Söylədiklərini müdrik kəlamlarla başlayıb elə sona çatdırırdı ki, aramızda böyük yaş fərqi olmasa da mən onun müdrikliyinə heyrət etməyə bilmirdim. Qızım haqqında söylədikləriylə yaralı qəlbimə məlhəm çəkirdi elə bil. Mən də təmkinlə onu dinləyirdim.

Qaçaq kişi Gültəkinin döyüş yolunun mənə məlum olmayan məqamlarından söhbət açır, Əşrəf, Gültəkin kimi istedadlı gəncləri müharibənin udduğunu ürək yanğısı ilə söyləyirdi. Bu kişinin Gültəkinlə son görüşü elə Şuşa xəstəxanasında olub. Kiçik qızı Aybənizin həyat yoldaşı Əşrəf şəhərin girəcəyində azğın düşmənə qarşı döyüşdə şəhid olmuşdu. Onu təcili xəstəxanaya çatdırırlar. Erməni faşistləri Şuşaya daxil olmağa can atır, meyidlər, yaralılar onların əlinə keçməsin deyə xəstəxanaya gətirilirdi. Xəstəxanada Qaçay kişi Gültəkinlə rastlaşır. Hərbi geyimli həkim qız Əşrəf İsmayılovun meyidinə yaxınlaşır, əyilib

hələ isti, qanlı olan meyidin alnından öpərək, qana batmış pasportunu çıxarır və üzünü örtərək vidalaşır. Bu azəri qızının kişi qeyrəti dünyagörmüş, nüfuzlu kişini riqqətə gətirir, həkim qızı balası kimi bağrına basır. Bu mənzərə o qədər dəhşətli, o qədər ağrılı idi ki, burada ancaq dil deyil, gözlər, əllər, hərəkətlər danışırdı. Tələsmək lazım idi. “Cıdır Düzü”nün ətəyində yerləşən xəstəxanada da qalmaq sağ qalanlar üçün təhlükəli idi. Meyidi də götürüb tələsmək lazım idi, yoxsa xəstəxanadakılar mənfur düşmənə əsir düşə bilərdi. Onlar dərhal meyidləri və yaralıları xəstəxanadan uzaqlaşdırmalı idilər.

Bax, mənim əzizlədiyim, balalarını öz nəvələrim hesab etdiyim Rəhilə belə qədirbilən, rəhmdil, mehriban bir kişinin qızı idi. Məhz Nazim Cəbrayılova yaraşan - qəhrəman oğula qəhrəman gəlin Rəhilə.

O, bütün işlərin öhdəsindən layiqincə gəlir. Mən gənc qadınlarımızı, gəlinlərimizi ondan nümunə götürməyə çağırıram. Onun ətrafında sıx qadın ordusu vardır. Onlar müxtəlif peşə sahibləridir. Biz tez-tez dövlət tədbirlərində, qurultaylarda və ən nəhayət ailə məclislərində görüşürük. Bu qadınların Rəhilə xanıma münasibətlərinin canlı şahidiyəm mən və deyərdim ki, çiyin-çiyinə addımlamağımız hər bir yerdə, bölgələrdə - qadınlı, kişili, vəzifəli, sadə insanların ona olan məhəbbətinin, sevgisinin şahidiyəm mən.

Burada ataların bir misalı yada düşür. Aslanın erkəyi, dişisi olmaz. Aslan elə aslandır. Aslan məğlubolmazdır. Rəhiləni ancaq bu el deyimi ilə qiymətləndirə bilərəm mən.

O, 1995-ci ildən bəri Azərbaycan televiziyasında Telman Nəzərlinin redaktor olduğu “Aypara”, “Əsgər andı” verilişlərinin daim qonağı və mən deyərdim ki, mütəmadi iştirakçısı olub. Səlis nitqi, aydın danışığı, intellekt səviyyəsi, dövrün, zamanın nəbzini dərhal tutması, publisist fikirlər söyləməsi

qəzet, televiziya jurnalistlərinin diqqətini daim özünə çəkir və tez-tez radio və televiziya verilişlərində müsahibələri verilir. Mən respublikamızın bir çox məşhur yazarlarının və nüfuzlu insanlarının Rəhilə xanım haqqında fikirlərini adlarını çəkmədən öz yazımda yerləşdirəcəyəm. Mən inanıram ki, bu yazını oxuyan həmin insanlar Rəhilə Cəbrayılova haqqında söz söylədikləri üçün iftixar hissi keçirəcəklər. Mənim işim, pedaqoji fəaliyyətim, nüfuzum bu işi görməyə mənə əsas verir. Nazim Cəbrayılov haqqında gedən yazılarla tanış olanların, Rəhilə xanımın televiziyada, radioda çıxışlarına qulaq asanların müxtəlif vaxtlarda söylədiklərindən topladığım bəzi fikirləri sizə təqdim edirəm. Burada ad çəkməyə lüzum görmürəm, onlar respublikamızın nüfuzlu, dəyərli insanlarıdır, hər kəs öz sözünü dərhal tanıyacaqdır:

**** Rəhilə xanım, sən mərd qadınsan, ömrünün sonuna kimi elə mərdanəliyini saxla.***

**** Mənim qardaşımın şərəfli həyat yoldaşı, sənin qarşında baş əyirəm.***

**** Çox yüksək zövqə malik bir xanım olduğunuz üçün qəzetdə Nazimin özünə layiq yazıların verilməsinə diqqət yetirmək çox vacibdir.***

**** Nazimə bacı, ana, dost, fədakar qadın, balalarına zəhmətkeş anasan.***

**** Rəhilə xanım, mən sizin işıqlı təfəkkürünüzün qarşısında baş əyirəm. Siz rejissora, müəllifə aydın yol göstərdiniz. Siz şəhid ailələrinin ümumiləşdirilmiş obrazısınız.***

**** Rəhilə xanım, mən çox istərdim ki, siz mənim Azərbaycan dili müəllimim olaydınız.***

**** Rəhilə xanım, mən sənin ailən kimi ideal bir ailə görmədim. Rəhilə, sən son dərəcə müasir, çevrəsi ilə anlaşmağı bacaran, hər tərəfinə xoşbəxtlik saçan bir xanımsan! Sən insanları sənə hörmət etməyə məcbur edəcək bir gücə maliksən.***

**** Rəhilə xanım, siz ləyaqətli xanım, qürurlu insansınız.***

Sonda isə mən öz sözümü demək istəyirəm, qızım, Cəbrayılovlar ailəsi, Əlifoğullar nəsli-kökü fəxr etsin ki, onların ocağında Azərbaycan qadınına məxsus bütün keyfiyyətləri özündə əxz edən bir qadın, ər igid var. Ulu tanrıdan Sənə də, övladlarına da cansağlığı arzu edirəm. Nazim Cəbrayılovun bu gün Bakıda - övladlarının evində yandırdığı çırağı daha da nurlu olsun.

Mən yazıma "Həyat sınaq meydanıdır" başlığını vermişəm. Bu sınaqdan iradəli adamlar qalib çıxır. Sən heç vaxt ağlamadın, Rəhilə, balalarına görə. Qorxdun ki, balaların ağlamaq öyrənər.

Güclülər qalib gəlir, Rəhilə. Sənin indiyə qədər elədiklərin bu gücün, iradənin bariz təsdiqidir. Sən bu sınaq meydanından alnıaçıq, üzüağ çıxmısan.

Üzün ağ olsun, el qızı! Qəhrəman, ƏR KİŞİNİN qəhrəman XANIM QADINI!!!

***Hacı Rəfiqə xanım Əsgərova,***<br>***"Şəhid Anaları Mərkəzi"nin sədri***<br>***pedaqoji elmlər namizədi,***<br>***dosent***

## ƏSL KİŞİNİN DAYAĞI ONUN ÖZ XANIMIDIR

*Ən zəngin xəzinə könüllərdəki sevgidir.*
**Həzrəti Əli**



Qadının həyatı sevgi, duyğu, dözüm və fədakarlıqdan yoğrulub. Mən bu yazımda təpədən dırnağa nur və azərbaycançılıq ziyası saçan, öz yarına sevgisi, sədaqəti, etibarı ilə dillərdə dastan olan, bir üzü qız, bir üzü gəlin ikən böyük itkiyə sinə gərib onu yendirən, müqəddəs kədərin ürəyini qovurduğu anda gözlərinin yaşını ruhuna hopdurub Fidanına, Orxanına, Jaləsinə əfsanəvi qəhrəmanının cəncliyi haqqında şirin-şirin xatirələr söyləyən, milli mental dəyərlərimizin daşıyıcısı olan, bu günə qədər istər fəlsəfi düşüncə tərzimizdə, istərsə də bədii ədəbiyyatımızda qadının adına deyilən bütün dəyərli kəlmələri və ibarələri ona ünvanladığım kişi qeyrətli qadının fədakarlığından söhbət açmaq istəyirəm.

Bu qadın  qəhrəman Nazim Cəbrayılov boyda məhəbbəti ürəyində, Nazimin ruhu qarşısında içdiyi andın və verdiyi sözün məsuliyyətini öz kövrək çiyinlərində daşıyan və hər zaman Nazimin həyat yoldaşı, xanımı olmağı ilə öyünən, sonsuz qürur və iftixar hissi keçirən şəxsiyyə-

tinə, ziyalılığına, mədəniyyətinə və intellektinə dərin hörmət bəslədiyim əzizimiz Rəhilə xanım Cəbrayılovadır. Müdriklər yaxşı deyiblər, ***kişinin əsl dayağı onun öz xanımıdır.*** Rəhilə xanım Nazimə təkcə həyat yoldaşı olmadı. O, Nazimə arxa oldu, dayaq oldu, dost oldu, sirdaş oldu. ***Bir də deyirlər ki, qadın həyatın bütün mərhələlərində kişinin xilaskarıdır.*** Rəhilə xanım Nazimi mənfur düşmənin gülləsindən xilas edə bilmədi. Ancaq, özünün Nazimli və Nazimsiz dünyasının xilaskarına çevrildi. Mən Nazim Cəbrayılovu görməmişəm, amma Nazimin qəhrəman, mücahid obrazını onun xanımının sözlərindən cızmışam. Hər dəfə Rəhilə xanımla görüşəndə onun ilk və son sözü Nazim olur. Deyirlər ki, qəhrəmanlar unudulmur. Milli qəhrəman Nazim Cəbrayılov da unudulmayan, unudulması mümkün olmayan insanlardandır. Onu tanıyanlar dostları, əzizləri elə Rəhilə xanım da onun haqqında həyatda varmış kimi danışırlar və çox qəribədir ki, Nazimdən söhbət düşəndə hər kəsin üzünə bir təbəssüm qonur. Yadıma oğlu Orxanın toyu düşür. Rəhilə xanım oğul toyunda qol qaldırıb "Vağzalı" havasına oynayanda, Nazimin bütün dostları onu dövrəyə aldılar. Rəhilə xanım da özünəməxsus xanımlıq ədası ilə həm özünün, həm də Nazimin yerinə onun dostları ilə tək-tək ortalıqda rəqs etdi. Sözsüz ki, hamı bu səhnədən qəhərlənmişdi. Adətən çox ötkəm və sərt adam olan Aqil Abbas öz masasına yaxınlaşıb qonaqlardan Nazimin şərəfinə badə qaldırılmasını rica etdi. Aqil Abbası hələ belə kövrələn görən olmamışdı. Onda mən bir daha əmin oldum ki, Nazimi bütün el sevir. O, eldən gedib.

Amma nə yaxşı ki, bu gün Nazimin ona layiq ailəsi və

övladları var. Orxan qəhrəman atasının adını hər yerdə şərəflə daşıyır və bu məsuliyyəti dərk edir. Mən bir Azərbaycan gənci kimi keçmiş tələbəmlə öyünürəm. Rəhilə xanım da həm Azərbaycan Dövlət İqtisad Universitetində, həm də ölkənin ictimai-siyasi həyatında fəallıq göstərir. O, həm də Bakı Dövlət Universitetinin dissertantıdır, "Əcnəbi tələbələrin Azərbaycan dilini mənimsəmələrinin motivasiyasının psixoloji cəhətləri" adlı elmi işi üzərində çalışır. Rəhilə xanımın elmi işi aktual bir mövzuya - Azərbaycan dilinin gözəlliyinin əcnəbi tələbələrə çatdırılmasına və dilimizin onlar tərəfindən necə mənimsənildiyinin araşdırılmasına həsr edilmişdir. Gördüyü bütün işlərdə, fəaliyyətində ən önəmli cəhət millət, xalq, Vətən sevgisi olan Rəhilə xanım yazıçı-publisist kimi də qələmini sınayır. Şübhə etmirəm ki, Azərbaycanda yeni ailə quran gənclərə və ümumən cəmiyyətə Nazim və Rəhilə tandemini əsl azərbaycanlı ailəsinin modeli kimi təqdim etmək olar.

***Təranə Kərimova,***
***iqtisad elmləri namizədi, dosent***
***"Gender və iqtisadiyyat" İctimai Birliyinin sədri***

## YAŞANMAMIŞ QADINLIQ, XOŞBƏXT SONLUQ

*Xoşbəxt o adamdır ki, evində xoşbəxtdir!*
**Antuan de Ekzüperi**



Mən bir qadın, bir ana, bir dost, bir iş yoldaşı, cəmiyyətdə yeri olan bir xanım tanıyıram - Rəhilə Cəbrayılova. Bu qadında Azərbaycan qadınına xas olan bütün keyfiyyətlər vardır. Namus, qeyrət, övladcanlılıq, fədakarlıq, dözümlü, səbirli olmaq Rəhilə xanıma nüfuz qazandırmışdır. Ülvi qadın, ülvi ana ki, balaları onun həyatında ən vacib varlıqdır. Mən sonralar onun ailəsini yaxından tanıdıqca anladım ki, hər kəs dünyaya gətirdiyi övladı üçün hər bir əzab-əziyyətə dözməlidir. Bir şeyi də öyrəndim ondan; həyatda hər şey olar, amma yıxılmaq - yox, ümüdsizlik - yox. O hələ kiçik yaşlarından uşaqlarının şüuruna bu sözləri həkk eləmişdi. Bu, bəlkə də onu sınmağa, əyilməyə qoymayan onun özünün özü üçün qoyduğu yaşam qaydası idi.

Bü qaydaya əməl edərək, uşaqlarına "Atanızın, nənə-babanızın təmiz adını pak, ləkəsiz saxlamalısınız. Atanız Qarabağda şəhid olub. Siz böyüdükcə ata-ananızın həyat tərzini dərk edərək, ondan nümunə götürməli, atanız kimi vətənpərvər, dostluqda möhkəm, qohumcanlı olmalısı-

nız", deyə öyüd-tapşırıq verirdi. Uşaqların üçü də ağlı kəsəndən ananın dediyi sözlərin cazibəsinə düşmüş, ata onlar üçün müqəddəsləşmişdir. Balalar böyüyür, yaxşı oxuyur, həyatda özlərini ləyaqətlə aparır, ananın köməkçilərinə çevrilirdilər.

***Deyirlər ki, ata çörəyi müqəddəsdir. Mən deyərdim ki, ana çörəyində ikiqat müqəddəslik var.*** Övladları bu çörəyin necə əziyyətlə qazanıldığını öz gözləri ilə görürdülər. Ana müəllimə idi. Gözünün nuru ilə böyüdürdü övladlarını. Heç kəsə əyilmədən, yazıqlaşmadan, göz yaşı tökmədən, vüqarla, dəyanətlə böyütdü balalarını. Sözdən-söhbətdən qorudu balalarını. Nazimlə birlikdə birinci dəfə qurduğu ev Qarabağ müharibəsinin, xəyanət təntənəsinin qurbanı oldu. Məcburi köçkün oldu ailə. Pis danışıq, pis hərəkət, pis sözlər bu evə ayaq aça bilmədi. Çünki ikinci dəfə atasız qurulan ev də halallıqla, paklıqla, əziyyətlə, zəhmətlə bünövrə tutmuşdu. Evə gəlib-gedənlər də evin qayda-qanununa əməl edir, hörmət göstərirdilər. Ananın arzuları o qədər böyük idi ki, ailənin çətinlikləri gözünə görünmürdü. Hər gün səhər evdən çıxıb axşama qədər işləməkdən bezmirdi ana. Çalışırdı ki, balaları firavan yaşasın, üzləri gülsün, boyunları bükülməsin, əyilməsin, qəlb sınıqlığı ilə böyüməsinlər. Çünki onların həyatları qabaqdadır. Rəhilə başa düşürdü ki, qəlbi sınıq böyüyən uşaqlar məqsədsiz, başqalarının fikirlərini, hərəkətlərini təlqin edir, bir sözlə həyatda özünü təsdiqləyə bilmirlər. Odur ki, bütün çətinliklərin önünə öz sinəsini verdi.

Düzdür, onun qismətinə ailə başçısını itirmək, tək övlad saxlamaq nəsib olubdur. Bu yaşanmamış qadınlıq onun həyatının bir üzü idi. Orda qəm də var, kədər də var,

əzab-əziyyət də. Müsibətlər içində məhv olmuş cavanlıq da. Amansız ehtiyacla dəhşətli vuruşmalar da. Çünki Qarabağ müharibəsinin şahidi, iştirakçısı idi o. Yaxşı-yaman, qan-qada gördü gənc yaşından. Burda xanım İsmayılqızının bir beytini Rəhiləyə şamil edirəm.

***Yuxu görmək istəyirəm,***
***O günlərə qayıtmaq üçün.***
***Yuxu görmək istəyirəm,***
***Yenə sənə qovuşmaq üçün.***

Sənin bəxtin yaxşı gətirmişdi bacım, lakin taleyin kəm oldu. Şükür yaradana. Sən şükran qadınsan. Bəlkə elə ona görə də Ulu Tanrı səni imtahana çəkdi, sonra da əzizlədi. Əvvəlcə kədər verdi və bu kədərdən çıxmaq üçün qapı da verdi, hələ qapının dəstəyindən tutub açmağı da öyrətdi sənə.

Həyatının ikinci tərəfində o xoşbəxt qadındır. Əvvəla ona görə ki, qisməti onu Əlifoğlu ocağına, Nazim kimi bir ər igidin həyatına aparıb çıxardı. Həm də qəhrəmanlıqla şəhid olmuş bir türk oğlunun üç övladının anası oldu Rəhilə xanım. Nazim kimi igidin üç övladını təkbaşına böyütdü. Rəhilə xanım üçün onu bu həyata bağlayan, onu fərəhləndirən, balalarının təhsildə qazandığı müvəffəqiyyətlərdir - o bundan böyük qürur duyur.

Bu ömür payında Nazim Cəbrayılova layiq qadın olduğunu sübut etdi, Rəhilə xanım.

Xoşbəxt ana oldu! O itirdiyi xoşbəxtliyini asanlıqla bərpa edə bilmədi. Büna ömrünün 20 ilini həsr etdi. O, 20 ilin 5 ilini qanlı-qadalı müharibənin içərisində keçirib, 15 ilini isə şəhid ocağının işığını qoruyub saxlamaq üçün minbir əziyyətə qatlaşıb.

Şükür ki, mərd bacımız bu əziyyətlərin ağırlığından əyilmədi, sınmadı, əksinə, "İgid odur atdan düşə atlana, igid odur hər zəhmətə qatlana", dedi bu Tomris misallı, Həcər qeyrətli xanımımımız.

Bu gün "Şəhid Anaları Mərkəzi"ndəki fəaliyyəti onun cəmiyyətdəki rolundan da xəbər verir. Eyni zamanda "Burla xatun" ədəbi-bədii birliyin sədridir. O özü bir həyat, tərbiyə məktəbidir. Ətrafındakı qadınlar ondan güc, dözüm, möhkəm iradə, məsuliyyət öyrənirlər. Oturduğumuz məclislərdə, keçirilən tədbirlərdə hamıya öz müsbət emosiyası ilə təsir edir. Odur ki, bütün bu müsbət kefiyyətləri ilə mən onu xoşbəxt qadın adlandırıram.

O xoşbəxt qadın ki, qızları, oğlu onun zəhmətinin bəhrəsidir. Bu gün onu oğlu, qızları, gəlini, kürəkəni əzizləyir, yolunu saxlayırlar. Çünki o, gəlin ikən bir evin ağbirçəyinə çevrilibdir.

Rəhilə qarşısını almaq mümkün olmayan hadisəni ləyaqətlə yaşadı. Həyatının ən gözəl illərini işə, zəhmətə həsr elədi. Bu gün zəhmətinin pöhrələri də körpə nəvələridir, hələ inşaallah bu nəvələrin ardınca yol gələnlər də var. Yolunuz açıq olsun, balalar! Baba Nazimdən, nənə Rəhilədən bala Nazimlərə miras qalan yaxşı ad, şərəfli nəsil şəcərəsi onların gələcək yollarının göstəricisidir.

Ləyaqətli bir nəsil şəcərəsinin şərəfli davamçısı olan Rəhilə xanıma uzun ömür, cansağlığı arzulayaraq, yazıma son verirəm. Son vermək yox, nöqtə qoyuram. Hələ biz çox görüşəcəyik!

***Gülzar xanım Namazova,***<br>
***şairə, "Qoşa ulduz"***<br>
***jurnalının baş redaktoru***

# ZƏRİF ÇİYİNLƏRİN AĞIR YÜKÜ

***Sıxıntılara, çətinliklərə qarşı səbirli olun.***
**Həzrəti Əli**



Mən, həyat yoldaşı layiqli bir Vətən oğlu olan, Vətən torpaqları, dövlətimizin varlığı uğrunda döyüş meydanında göstərdiyi şücaəti ilə Qarabağ müharibəmizin tarixinin şərəfli səhifələrindən birində özünə layiqli yer tutan şəhid Nazim Cəbrayılovun həyat yoldaşı Rəhilə xanım Cəbrayılovanın özünün ailədə, cəmiyyətdə tutduğu yer, göstərdiyi ictimai fəaliyyət barədə danışmaq istərdim.

Xalqımıza məxsus, miniillərdən bəri mərdlikdən, kişilikdən, qəhrəmanlıqdan qaynaqlanan, Tomris anadan, Qazan xanın Burla xatunundan, Koroğlunun Nigarından, Nəbinin Həcərindən öyüd alan, milli mənəviyyatımızın ən sağlam düşüncəli, layiqli daşıyıcısı olan bu el qızının pərdə arxasında qalan çeşidli çətinliklərə sinə gərməsindən söhbət açmaq, onu - bu qeyrətli Şuşalı qızını onu tanıyanlara da, tanımayanlara da yenidən təqdim etmək istəyirəm.

Əgər qəhrəmanlığı qoşa qanadlı hesab etsək, bu qanadın birinin - kişi mərdliyi, cəngavərliyi, o birisinin isə qadın ləyaqəti və zərifliyinə bürünmüş dəyanət olduğu ilə razılaşarıq. Nazim Cəbrayılov ön cəbhədə, düşmən qabağında qala kimi

dayandı, Vətənə oğulluq borcunu qəhrəmanlıqla, sona qədər verdi. Amma ön cəbhənin həm də arxa cəbhəsi olur. Bu hekayətdə Rəhilə xanımı arxa cəbhənin simvolu kimi qəbul edirəm. Barlı-bərəkətli, halal duz-çörəkli, qonaqlı-qaralı isti bir ocağın qayğısız, bəxtəvər gəlininin zərif çiyinlərinə birdən-birə nə qədər yük düşdü, İlahi! Əzizlərinin itkisi, doğma ev-eşiyin itirilməsi, körpə balaları böyütmək, qorumaq məsuliyyəti - bütün bunlara davam gətirib dözmək üçün çox keyfiyyətlərin sahibi olmalı idin. Ən çətini, ən ağırı isə içində gəzdirdiyi acını cizlətmək, əziz bir insanın barışılması mümkün olmayan yoxluğunu uşaqların yanında büruzə verməmək idi.

***Yadıma bir dəfə söhbət əsnasında Rəhilə xanımın, "Məni bir bayatı həyata qaytardı, əyilməyə qoymadı", dediyi düşür. Deyirdi ki, həyatımın ən ağır günlərində təsadüfən radiodan 94 yaşlı bir el ağbirçəyinin dilindən eşitdiyim, Naçar-naçar ağlama/ Gündü - keçər, ağlama/ Qapı bağlayan fələk/ Bir gün açar, ağlama/ deyə öyüd verən bu illərin sınağından çıxmış bayatı mənim üçün yaşam proqramına çevrildi.***

Rəhilə xanımın həyatına az-çox bələd olan bu sətirlərin müəllifi həmin bayatıya nəzirə kimi öz adından bu sözləri ona ithaf edir:

***Naçar-naçar ağlamadın,***
***Dərd qaysağın dağlamadın.***
***Öz yükünü özün çəkdin,***
***Özgəyə bel bağlamadın.***

Rəhilə xanımın şəxsiyyətinə, həyatda tutduğu mövqeyinə böyük hörmət bəsləyən şair dostumuz Şərafəddin İlkin də bu barədə fikirlərini belə ifadə etmişdir:

***Naçar-naçar ağlamadın,***
***Dərddən xonça bağlamadın.***

***Fələk örtdü, sənsə açdın,***
***Qiyamətə saxlamadın.***

Bu sadə el deyiminin böyük gücünə öz həyatından bələd olan Rəhilə fələyin əydiyi bir çox insanlara da bu bayatıyla təsəlli verdi. Sonralar xeyirdə-şərdə rastlaşanda həmin adamlar bu sadə sözləri arxasında doğrudan da ecazkar bir qüvvə, güc gizləndiyini təsdiqləyirdilər.

Bəli, ağlamağı, sızlamağı özünə qadağan etdi bu gəlin. Balalarını yazıq olmaqdan qoruya bildi. Onlara əyilməzlik öyrətdi. Həyat sınağından alnıaçıq çıxdı, özünə hörmətini itirmədi. Bütün el-obadan, tanıdığı və tanımadığı adamlardan özünə diqqət, qayğı gördü.

Ən böyük qayğını, diqqəti isə dövlət başçısı, mərhum Böyük Prezident Heydər Əliyev göstərdi. Ölümündən sonra Nazim Cəbraıyılov Vətənin ali mükafatı "Azərbaycan Bayrağı" ordeni ilə təltif olundu. Nazimə verilən, nəhayət öz ünvanını tapmış bu qiymət Rəhiləyə yaşamaq üçün bir stimul oldu. Yeri gəlmişkən, Nazimsiz yaşadığı vaxtdan Cəbrayılovlar ailəsi dəfələrlə dövlət səviyyəsində keçirilən tədbirlərə, şənliklərə Ulu Öndərin şəxsi dəvətini aldılar. İndi də müxtəlif tarixli həmin dəvətnamələr ailə arxivində ən qiymətli relikviya kimi saxlanılır. ***Rəhilə xanım Novruz bayramı, həmçinin Yeni il münasibətilə keçirilən şənliyə uşaqlarının adbaad dəvət almalarını xatırlayır. Bu şənliklərdə bir qayda olaraq Ulu Öndərin özü də iştirak edərdi. Şənliyin sonunda iştirakçıların hər birinə hədiyyə olaraq Prezidentin adından bayram xonçası bağışlanırdı. Xonçaya müxtəlif şirniyyatlar, dərs ləvazimatları ilə bərabər gözəl bir yumşaq dəvə suveniri də qoyulmuşdu. Bu adi hədiyyə, elə-belə adi suvenir deyildi. Burada nəsə dərin bir mə-***



*Әзиз вә меһрибан балам!*

Сәни Јени ил бајрамы мүнасибәтилә үрәкдән тәбрик едирәм. Арзу едирәм ки, Јени ил өзү илә бәрабәр хош күнләр вә сәадәт кәтирсин.

Арзум сәни мүстәгил, гүдрәтли Азәрбајчанда хошбәхт көрмәкдир.

**Азәрбајчан Республикасынын Президенти**

***Һејдәр Әлијев***

ƏZIZ VƏ MEHRİBAN BALAM!

SƏNI XALQIMIZIN ƏN QƏDIM VƏ ƏN GÖZƏL BAYRAMI OLAN NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ TƏBRİK EDİRƏM. SƏNƏ VƏ BÜTÜN AZƏRBAYCAN BALALARINA BU BAYRAM GÜNLƏRİNDƏ UZUN ÖMÜR, CANSAĞLIĞI, XOŞBƏXT VƏ IŞIQLI GƏLƏCƏK ARZULAYIRAM.

Azərbaycan Respublikasının
Prezidenti
**HEYDƏR ƏLİYEV**



Əziz Orxan Nazim oğlu

**Səni Yeni il bayramı münasibəti ilə təbrik edir və böyük sevinclə Səni Azərbaycan Respublikasının Prezidenti H. Əliyev cənablarının təşəbbüsilə keçirilən bayram şənliklərinə də'vət edirik.**

**Bayram şənliyi 31 dekabr 1996-cı il saat 15-də Əl oyunları stadionunda keçiriləcəkdir.**

**Bakı Şəhər İcra Hakimiyyəti**

***na gizlənmişdi. Niyə məhz dəvə? Fikrə getmiş Rəhilə xanım, sanki Prezidentin özü ilə üzbəüz qalıb, bununla Böyük İnsanın nə demək istədiyini başa düşməyə çalışır, özünün verdiyi suala cavab axtarırdı ... Tapdı da. Müdrik el ağsaqqalı, məhz bu hədiyyəni seçməklə, dəvəni dözüm, dəyanət rəmzi kimi önə çəkmişdi. Axı uzun yolların yolçusu dəvələr aclığa və susuzluğa tab gətirərək mütləq mənzil başına çatırlar... Bu, bütün dünyada ağlı, zəkası ilə tanınmış dövlət başçısının bir ata məhrəmliyi, qayğısı, məsləhəti idi... Böyük Prezident bununla taleyinə ailə başçısını əvəz etmək düşmüş, evinin həm kişisi, həm də qadını olan şəhid xanımlarına, şəhid övladlarına dözümlü, səbirli olmağı tövsiyə edirdi. O böyük insan sanki bununla Sizi, çətinliyinizi başa düşürəm, deyirdi, qayğıkeş əliylə atalarını itirmiş, doğma insanın nəvazişinə həsrət qalmış şəhid balalarının başına sığal çəkir, onları iradəli olmağa çağırırdı, sizin heç birinizi unutmamışam, deyirdi. Vətən yolunda həlak olmaqdan şərəfli bir həyat ola bilməz.. Biz şəhidlərin xatirəsinə daim hörmət etməliyik, söyləyirdi.***

O vaxtdan xeyli keçmişdi. Ulu Öndərlə növbəti söz ünsiyyəti 1998-ci ildə, Qadınların I qurultayında yarandı. Cəmiyyətdə artıq öz mövqeyi olan, fəal ictimaiyyətçi kimi tanınmağa başlayan Rəhilə xanım həmin qurultaya Nərimanov rayonundan nümayəndə seçilmişdi. Qurultayda böyük ruh yüksəkliyi, özünəməxsus yumorla iştirakçıları salamlayan Böyük Prezident çıxışının sonunda bir daha qadınlara üz tutaraq: ***"Mən təklikdə özümü qəhrəman hesab etmirəm. Mən Sizə görə qəhrəmanam. Nə qədər dözümlüsünüz, nə qədər intizamlısınız - mən sizə heyran olmuşam. Çalışın öz intizamınızı və sədaqətliliyinizi kişilərə də öyrədin", dedi.***

Bu tarixi, unudulmaz çıxışa çox diqqətlə qulaq asan Rəhilə xanım Böyük Şəxsiyyətin Azərbaycan qadınlarına ünvanladığı müdrik kəlamları özünə örnək bildi. Adətən, oxuduğu kitablardan, baxdığı televiziya verilişlərindən, radiodan dinlədiyi müdrik sözlərdən, ətrafındakı mükəmməl insanlardan bəhrələnərək yaşayırdı o.

Şəxsiyyətinə sözün əsl mənasında pərəstiş etdiyi, qəlbində adına müdrikliyin heykəlini ucaltdığı bu əziz insanın - Heydər Əliyevin vəfatı xəbərini eşidən Rəhilə xanım dərhal, elə gecə ikən respublikanın bir qrup tanınmış ziyalı xanımları ilə birlikdə "Saman yolu" televiziya studiyasına gələrək, inanılması çətin olan bu acı xəbərin doğurduğu sarsıntısını xalqla bölüşdürdü. Ertəsi gün, ziyalı xanımlarla birlikdə vida mərasimində iştirak etmək üçün Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri Zəhra Qüliyevanın ətrafına toplaşan qadınlarla birlikdə Respublika Sarayına üz tutdu.

Qadınlar Saraydan Fəxri Xiyabana - son mənzilə qədər böyük sevgi, hörmət və hüznlə onu müşayiət edən sonsuz izdihama qoşuldular.

Nərimanov rayonunun İcra Hakimiyyətində qoyulmuş xatirə kitabına 15 dekabr 2003-cü ildə bu sözləri yazmışdı Rəhilə xanım:

***Parlaq bir ömür sona çatdı. Əziz prezidentimiz hər bir ailədə, hər bir insanın qəlbində əbədi yaşayacaqdır. O, ömrünü xalqının həyatının yüksəlməsinə həsr edərək ölkəni ağır iqtisadi böhrandan xilas etdi.***

***Dünya şöhrətli insan dünyasını dəyişdi.***

***Heydər Əliyev məşəli heç vaxt sönməyəcək. Çünki o xalq məhəbbətindən nur alır.***

***Dünənimizin, bu günümüzün, gələcəyimizin lideri, fitri istedada, tükənməz enerjiyə, dəmir iradəyə, iti ağıla malik insan, Azərbaycan adlı böyük bir ailənin atası oldun. Sevgisini qazandığın bir xalqı gözüyaşlı qoydun. Allah sənə rəhmət eləsin, Heydər Ata! Biz Heydər Əliyev dühası qarşısında baş əyməyə gəlmişik. İnsan həyatdan gedəndən sonra onun qiyməti daha da artır. O hər zaman zirvədə olmağı bacardı və bundan sonra da zirvədə qalacaqdır.***

20 Yanvar 2004-cü il tarixində Azərbaycan Dövlət İqtisad Universiteti şəhidlərimizin anım mərasimini -Ümummilli hüzn gününü qeyd edir. Bu mərasimdə çıxış edən Rəhilə Cəbrayılova öz çıxışında deyir:

- Bu gün Yanvarın 20 -dir. Azərbaycan xalqı öz qəhrəman övladlarını yüksək qiymətləndirərək hər il bu günü hüzn günü kimi qeyd edir. Məndən əvvəl danışan yoldaşlar bu günün baş vermə səbəblərini, xalqımıza qarşı olunan təcavüzü xırdalığına qədər qeyd etdilər.

Bu gün elə bir günlə qovuşur ki, qovuşan gün ikiqat müqəddəsləşir. Yəni Azərbaycan adlı böyük bir ailənin atası olan ümummilli liderimiz, türk dünyasının fəxri, gecə-gündüz xalqı üçün can qoyan, özünü şəhid edən bir insanın Böyük Prezidentimiz Heydər Əliyevin 40 mərasimi şəhidlərimizin hüzn gününə qovuşur. Sanki tanrımız da ona olan məhəbbətini bununla göstərmişdir. Xalqına bütün varlığı ilə bağlı olan bir insanın, rəhbərin yası ümumxalq kədərinin tərkib hissəsi oldu. Ömrünü xalqının həyatının yüksəlməsinə həsr edən, ölkəni ağır iqdisadi böhranlardan xilas edən, dünənimizin, bu günümüzün, gələcəyimizin lideri, fitri istedada, tükənməz enerjiyə, iti ağıla malik bir insanla əbədi ayrılmağımızdan qırx gün keçir.

Mən 14 il bundan öncəni xatırlamaya bilmərəm. Əliyalın, dinc xalqımıza sovet qoşunlarının cürbəcür silahlardan, tanklardan, toplardan atdığı atəşlərlə Azərbaycan balalarını qətlə yetirənlərə qarşı Heydər Əliyev Moskvadan öz haqq səsini göz yaşları içərisində qaldırmışdı. O zaman çıxış edərək təmkinli, ağıllı olmağı tövsiyə etmişdi. Bu tövsiyənin arxasında çox dərin mənalar vardı.

Düzdür, balalarımız müstəqilliyimiz uğrunda canlarını fəda etdilər. Bunun ardınca isə düşünülmüş torpaq iddiası baş qaldırdı. Vətənpərvər oğul və qızlarımız torpaqlarımızın bütövlüyü uğrunda erməni faşistlərinə qarşı ayağa qalxdılar, şəhid oldular, öz bədənləri ilə vətən torpağını qucaqladılar. Torpaqlarımız zəbt olundu, lakin onu vətən övladları asanlıqla düşmənə vermədilər, bu yolda özlərini qurban verdilər.

Deyirlər zaman yaraları sağaldır, ancaq belə deyil. Bu yara sağalan yara deyil, çünki insan özünə qarşı olan qəddarlığı unuda bilmir.

20 Yanvar təkcə Azərbaycan xalqının qanlı faciəsi deyil, həm də canlı faciəsidir. Çünki, bu təcavüz xalqın gözü qarşısında baş verirdi. Zaman ötəcək, illər keçəcək, lakin bu yaraların izi getməyəcək, sağalmayacaq. Şəhidlərimizin günahı vətəni sevmək, onu qorumaq, erməni təcavüzündən xilas etmək oldu.

Bugünkü gün dövlət tərəfindən ümumxalq matəm günü kimi qeyd edilir. Yəni bu yazılmış qanundur.

Mən bir az da yazılmamış bir qanundan danışmaq istəyirəm. Elə bir qanundan ki, hər bir insanın daxilində, vicdanında olmalıdır. Bu - xeyirxahlıq, nəciblik, alicənablıq, vətənə bağlılıq qanunudur. Bu qanunun ən ləyaqətli daşıyıcılarından biri də sizin yaxşı tanıdığınız, bu gün bizləri

bir araya toplayan, şəhidlərimizin xatirəsini həmişə əziz tutan, təmiz qəlbli, zəngin mənəviyyatlı, sadə, xeyirxah bir insan olan Əli Abbasovdur.

Mənə verilən bu fürsətdən istifədə edərək şəhid ailələri adından, əhalinin aztəminatlı təbəqəsi adından, valideyn himayəsindən məhrum övladların adından, qaçqın, köçkün həyatı yaşayan insanların adından təşəkkür etmək, minnətdarlıq bildirmək istəyirəm.

Mərhum şairimiz Cabir Novruz ürək yanğısıyla yazırdı: "Sağlığında qiymət verək insanlara!".

***Böyük Prezidentimiz çıxışlarında xalqı, Vətəni üçün dəyərli işlər görmüş insanlar haqqında "Belə xüsusiyyətlərə malik insanları, insanların ümumi sayına daxil etməyi məsləhət görmürdü, onları ayrıca saymaq lazımdır", deyirdi.***

Həyatın əzabına, taleyin qəzasına düşən insanlara qarşı diqqətli olmaq, həssaslıqla yanaşmaq, alicənab insanların işidir. Əli müəllim belə insanlardandır. O öz şəxsiyyəti ilə həm də bir tərbiyə məktəbidir. Bu gün unuversitetin tələbələri də, gənc kadrlar da Əli müəllimdən öyrənməli, örnək götürməlidir.

Bütün bu insani keyfiyyətlərinə görə tanınmış elm adamı, hörmətli akademik, sanballı bir elm ocağının rektoru olmaqdan öncə böyük qəlbli, isti ürəkli Vətən qayğılı bir insan olan Əli müəllimə "Tanrı Sizi qorusun, şəhid anaları üçün, imkansız, kasıb təbəqə üçün", deyirəm.

Rəhilə xanımın bu çıxışı hamının ürəyindən xəbər vermişdi. Onun bu sözləri alqışlarla qarşılanmışdı.

Rəhilə xanım ünvanına edilən kiçik bir hörməti, deyilən xoş sözü, yaxşılığı diqqətsiz qoymayan bir insandır.

Daima mötəbər məclislərin iştirakçısı olan bu xanım nəinki özünə, hətta heç tanımadığı köməyə ehtiyacı olan hər hansı bir insana edilən yaxşılığı da öz ünvanına qəbul edir, minnətdarlığını bildirməyi unutmur.

Yeri gəlmişkən, bu yaxınlarda Azərbaycanda Rus İcmasının III Qurultayının nümayəndəsi olan Rəhilə xanımın burada Rusiyalı qonarlarla etdiyi çox maraqlı söhbətin əsas motivləri dövri mətbuatda da işıqlandırılmış, hətta burada çəkilən şəkillər qurultaya aid kitabda da öz əkisini tapmışdı.

Beləliklə, özü də bilmədən respublikanın ictimai-siyasi həyatında fəal iştirakçıya çevrilən bu xanım ürəyinin istisiylə neçə-neçə qəlbi ovundurur, imkanı daxilində ehtiyacı olanların dadına çatmağı özünə borc bilir. O, həmçinin "Qoşa ulduz" jurnalının baş redaktor müavinidir.

Publisist yazılarla dövri mətbuatda çıxışlar edir. Televerilişlərin, radionun dəfələrlə qonağı olur. Rəsmi görüş və toplantılara dəvət olunur, xeyriyyə marafonlarında iştirak edir. Hər dəfə də insanları vətənpərvər, millətsevər olmağa səsləyir. Tez-tez tanınmış ziyalılar, sənət adamları ilə birlikdə əsgərlərimizin qonağı olur. Ürəkdən gələn sözləriylə ürəklərə yol tapır. Bu səpkidə gördüyü kifayət qədər işlərlə bu gün Nazim Cəbrayılovun davamçısı olan Rəhilə xanım artıq cəmiyyətdə bir şəxsiyyət kimi öz təsdiqini tapmışdır. Bu qəhrəman qadını tanıyır və böyük hörmətlə qarşılayırlar.

***Ləyaqətli insan, fədakar həyat yoldaşı, cəfakeş ana, fəal ictimaiyyətçi və ən nəhayət, igid qadın kimi onun ən uca kürsülərdən söz deməyə haqqı var.***

***Bu haqqı ona verməyiblər, bu haqqı o özü qazanıb.***

***Sevda Mikayılqızı,***
***naşir***


BİLSƏYDİM AYRILIQDI...

Mən hardan biləydim son görüşdü bu?
Bilsəm, yalvarardım, getmə deyərdim...
Mən hardan biləydim son görüşdü bu,
Tanrıdan mən sənə ömür dilərdim.

## BİLMƏDİM SON DƏFƏ GÖRÜŞÜRÜK BİZ...

*(esse)*

Aprelin 6-sı idi. Bundan 2 gün öncə Nazim hərbi tapşırıqla bağlı Müdafiə Nazirliyinə gəlmişdi. Aprelin 4-də geri qayıtdı. O gedəndən sonra mən uşaqları götürüb qardaşıgilə getdim. Biz onlarda xeyli oturduq, axşama yaxın saat 5-6 olardı. Evə qayıtdıq. Həyət qapısını açanda təəccüb qaldıq. Nazim hərbi köynəyinin qollarını yuxarıya qədər çırmalayıb həyətdəki su kranının altında yuyunurdu. Bu mənzərə indi də gözlərimin önündədir. Hərbi geyimdə o çox möhtəşəm və əzəmətli görünürdü. Uşaqlar üstünə yüyürdü. Əlləri sulu, uşaqları qucaqladı və belə demək mümkünsə, qüssəli bir təbəssümlə üzümə baxaraq Süleyman Ələsgərovun "Gözlə məni" mahnısını zümzümə etməyə başladı. Sözlərini dəqiqliklə bilmədiyim bu mahnı Nazimin "ifasında" belə yadımda qalıb:

***Sevgilim, gözlə məni,***
***Vidalaşıb gəldiyim,***
***Bulaqda gözlə məni.***
***O zamanda, o dəmdə,***
***O çağda gözlə məni.***

***Sən məni yad edəndə,***
***Nə hicran çək, nə də qəm.***
***Bu odlu cəbhələrdən***
***Yellər aparsın soraq.***
***Mən sənə söz vermişəm***
***Sevgilim, gözlə məni.***

***Haşiyə:*** *Belə hərəkət Nazimə məxsus olan bir yumor hissi, hadisələri yumşaltmaq üçün bir həmlə, könül açmaq xarakteri idi. Bu xasiyyət onun hər üç övladına da genetik olaraq sirayət etmişdir. Bu gün övladları da ən çətin anda, məqamda gərginliyi azaltmaq üçün, ən çətin sual qarşısında belə sanki Nazim olurlar. Bu məqamların şahidi olanlar dərhal Nazimi xatırlayır, eynən ataları kimidirlər, - deyirlər.*

Fidan yaman sevindi ki, atası birdəfəlik gəlib. Uşaq sual verəndə söylədi ki, yox, qızım mən kapitan rütbəsinə təqdim olunduğum üçün Nazirliyə gəlmişəm. Ancaq söz verirəm ki, gələn dəfə gələndə daha getməyəcəyəm.

Səhər aprelin 6-sı idi. Tezdən Nazirliyə getməli idi.

Uşaqlar məktəbə getməyə hazırlaşırdı. Jalə atasının boynundan bərk-bərk qucaqlayıb öpdü, Orxanla zarafatlaşdı. Sonra Fidanı çağırdı. Fidan uşaqlıqdan sakit təbiətli idi. Nə qədər elədi, qoymadı ki, atası onu öpsün. Qız qapıdan çıxanda dönüb arxasınca bu sözləri söylədi: Nə vaxt ki, hamının atası kimi bizim yanımızda olarsan, onda səni öpərəm.

Bu söz Nazimi kədərləndirdi. Uşaqların ardınca həyət qapısına çıxaraq xeyli dayandı. Sonra içəri qayıdıb evdən çıxmamışdan öncə indi kitablarda, bukletlərdə əks olunan hərbi formada olan son şəklini mənə verdi və söylədi: Uşaq düz deyir, ilk dəfə hiss etdim ki, onların mənə ehtiyacı var. Mən nə lazımdırsa etmişəm, artıq qayıtmaq vaxtıdır. Uşaqlardan muğayat ol, tezliklə qayıdacağam. Korluq çəkməyə qoyma.

Nazim nə qədər çətinlik çəksə də, əziyyətə düşsə də yumor hissini itirməzdi. Lakin Fidanın onunla görüşməməsi onu kədərləndirmişdi. Evdən çıxanda üzümə nəsə mənalı-mənalı baxaraq bikef, könülsüz getdi.

Getdin... arxanca üzüntülü, kədərli, uzun bir yaz günü qoydun, Nazim.

Çox sonralar bu hadisəni düşünərkən aşağıdakı misralar yadıma düşür:

***Mənə deyiləsi sözün var kimi,***
***De, niyə üzümə mənalı baxdın?***
***Mənə deyiləsi sözün var kimi,***
***De, niyə əlimi yerə buraxdın?***

Mən bugünkü günü xatırlayıb qələmə almaq üçün fikrə getdim. Oturub pəncərədən bayıra baxırdım. Birdən fikrimə gələn "yaz günü" sözündən sonra bir anlıq ayın neçəsi olduğunun fərqinə vardım. Ayın 5-dir. 5 aprel 2009-cu il. Təsadüfə bax. 5 aprel 1994-cü il. Aradakı 15 ilin uzun, üzüntülü, əzablı, kədərli, sevincli, sənli-sənsiz illəri! Ulu Tanrım, Uca Tanrım Sənin böyüklüyün daima başımızın üstündədir. Elə bu an bir daha yəqin etdim ki, Nazimin ruhu Sənin yanındadır. Məhz bugünkü günü qələm götürüb bu yazını yazmağı mənə Tanrım buyurdu. Mən bir neçə gün öncə, sonralar da yazardım. Lakin heç planlaşdırmadan, qarşıma hansı günü yazacağımı məqsəd qoymadan Ulu Tanrım mənə məhz bu gün bu yazının yazılacağnı buyurdu. Xaotik düşüncələr içərisində ayın tarixinin fərqinə heç varmamışdım. Birdən ayıldım, Nazim.

Sənin Bakıya son gəlişin elə 15 il öncə bu günə təsadüf etmişdi. 5 Aprel 1994-cü il. Ailənlə, yaxınlarınla son görüşünə cəmi bir gün qalıbmış. 6 Aprel 1994-cü il. Sən bizdən çox kədərli, könülsüz ayrıldın.

Həmişə hay-küylə, zarafatla, gülüşlə gəlib-getdiyin həyətdən bu gün səssiz-səmirsiz çıxdın. Bəlkə də arxada qoyub getdiyin gənc qadının, üç uşağın taleyi keçdi fikrin-

dən. Lakin dilinə gətirmədin. Kişi qürurun, Vətən borcun bunu dilinə gətirməyə qoymadı. Odur ki, bu fikirlərin ağırlığı qəlbinə çökdü. Həyətdən ağır-ağır, könülsüz, kədərli çıxdın. Maşın səni gözləyirdi. Birdən çevik bir zabit hərəkəti ilə maşının qapısını açaraq özünü içəri atdın. Özünü sındırmadın, səndən küskün olan ərköyün uşaqlarını, hələ dükan-bazar tanımayan həyat yoldaşını deyəsən indi anlamışdın. Anladığın bir həqiqət vardı: üç azyaşlı uşaq və cavan bir ana. Qaçqın-köçkün həyatı, ev yox, eşik yox, heç nə yox. Bəs, bu yükə heç vaxt bərkə-boşa düşməyən bu zərif qadın çiyinləri necə tab gətirəcəkdi? Bəlkə, bu reallığın, bu həqiqətin ağırlığının Səni sındırmasa da, saxlaya, ləngidə biləcəyindən qorxduğun üçün maşına belə çevik oturdun, Nazim? Dərk etdin ki, ən güclü insanlar belə zamanın, anların qarşısında diz çökməyə məcburdur. Birdən ayıldın? Öz fikirlərinin səni zəiflətdiyini görməsinlər deyə bir anlıq "Həyat da Allahdan, ölüm də Allahdan" düşünərək cəld qapıdan çıxdın. Əyləşdiyin maşın Səni bizi qoyub getdiyin küçədən uşaqlaşdırdı.

Arxanca baxa-baxa, donub qaldım. Bu sözlər keçdi qəlbimdən: Ulu tanrım, Sən Nazimin qəlbinə nə yaman Vətən sevgisi salmısan?! ...

Sonda Vətən qalib gəldi. Qarabağ Sənin üçün müqəddəs idi. Müqəddəs Qarabağ torpağını qorumaq üçün Sən "Quran"la bərabər torpağa da and içdin, "And olsun "Quran"a, and olsun Qarabağa!", dedin. Alovlu intiqam hissi ilə yandın. Şərəfli ölümünlə Vətənə şərəf gətirdin. Vətən uğrunda döyüşdə məşəqqətli ölümünlə azad məslək şəhidi, hər iki cahan sahibinə ünvanladığı deyiminə görə ölümün zirvəsini fəth edərək ölümsüzlük

qazanmış böyük şair Nəsimi zirvəsinə ucaldın.

Elə həmin üzüntülü ayrılıq günündən sonra hələ heç vaxt keçirmədiyim hisslərlə baş-başa qaldım. Mən möhkəm qadınam. Əvvəllər yaşamadığım hisslər məni çuğladı, öz əhatəsinə aldı.

> ***Haşiyə:*** *Bir dəfə yaxın qohumlardan biri mənə sual verdi ki, həyat yoldaşın cəbhədədir, bəs, qorxmursan birdən üç uşaqla tək qalarsan? Bu söz məni qorxutmadı. Cavabında dedim: - Sən getmə, mən getməyim, bəs, kim getsin?*

Bir zamanlar mənim bu fikrimə rəhmətlik qardaşın Yelmarın da açığı tutmuşdu. İndi bütün deyilənlər bir-bir beynindən keçir, artıq qorxmağa başladım. Bir tərəfdən ailənin çətinlikləri, digər tərəfdən nigarançılıq bürüdü məni. Özüm-özümə təsir etməyə başladım. Uşaqlar sezməsin deyə müharibə illərinin qadınlarının həyatını, ərlərinin dalınca Sibirə gedən dekabrist qadınları, tarixi filmləri göz önümə gətirərək pis, qorxulu fikirlərdən özümü uzaqlaşdırmağa çalışırdım.

***06 aprel 1994-cü il - 18 aprel 1994- cü il. Demə on iki gunlük həyat möhləti qalıbmış. Cəmi on iki gündən sonra ölümünlə Sənin ölümsüzlüyün, mənim isə əbədi Sənsizliyim başlayacaqmış ...***

Bu günlər ərəfəsində yaxın dostun Tariyel Axundov həyat yoldaşı Sülhiyyə xanımla birlikdə bizə gəlmişdi. Onların gəlişi məni çox qorxutdu. İlk dəfə onda anladım ki, onlar Nazimdən xəbər gətiriblər. Çünki onda mənim heç kimlə əlaqəm, yox idi, hərə bir tərəfə dağılmışdı, televizor da olmadığından cəbhə xəbərlərini eşidə bilmirdim. Mən dərhal Nazimə nə isə olub sualını verdim? Onlar çox nara-

hat oldular mənim bu sualımdan. And-aman etdilər ki, elə sizi görməyə gəldik. Qarabağa tərəf gedirik, dedik birdən bir sözünüz olar. Tariyel də, Sülhiyyə də gəlişinə sanki peşiman oldu. Onlar mənim nigaran çöhrəmdən, uşaqların bir tərəfdə sakit oturmalarından narahat olaraq, hər şey yaxşı olacaq, darıxmayın söylədilər.

Yadımdadır...Bir neçə gün idi ki, işdən evə qayıdanda özümdən asılı olmayaraq tez qarşıdakı birinci döngəyə baxırdım. Həyət qapısı ordan aydın görünürdü. Mənə elə gəlirdi ki, kimsə orda dayanıb məni gözləyir. Heç kimi görməyəndə  durduğum yerdə ağlamağım gəlirdi. Qarışıq fikirləri başımdan qova bilmirdim.  Nigaran idim. Ürəyimə nəsə dammışdı desəm yox, nəsə dolmuşdu desəm, daha düzgün olardı. Ürəyimin hiss etdiyi, mənə xəbər vermək istədiyi bu "nəsə"də təşviş, qorxu, həyəcan, təlaş.. və ifadə edə bilmədiyim çox şey var idi...

Demə, 18 Aprel 1994-cü il, saat 10-11 arası o müdhiş hadisə baş verəcəkmiş.

Həmin gün uşaqlarımın atası, elin vətənpərvər, qəhrəman oğlu bu savaşda onunla çiyin-çiyinə vuruşan 28 gənclə düşmənin qabağını kəsir, onunla ölüm-dirim savaşına çıxır. Və qalib gəlir. Ölümüylə. Onun və döyüşçülərinin bu qələbəsi heç də hamıya müyəssər olmayan mənəviyyat qələbəsi idi.

Nazimin bu ölüm-dirim savaşını, cəsarətli hərəkətini sağ qalan döyüşçülər ürək yanğısı ilə danışırdılar. Tək o döyüşdən yox.  Sonradan onun nəşini axtarmaq üçün hara getdiksə cəbhə boyu şahidlər Nazimin etdiklərindən, şücaətindən  söhbət açırdılar. Cəbhə yoldaşın Nizami Rəhimov (indi Sumqayıtda yaşayır) Sənin necə həlak  olduğunu öz

gözləri ilə görmüş canlı şahid kimi bunun necə baş verdiyini mənə danışdı. Sənin necə də qəhrəman bir insan, bir ər kişi kimi həlak olmağını dinlədim. Sən nə qədər qorxmaz bir insan imişsən. Döyüşçü dedi ki, Nazim bütün Azərbaycanın fəxrinə layiq əsl qəhrəman, igid oğul idi.

Əfsanəvi qəhrəmanlığın dillərdə dastan oldu. Hara gedirdimsə hamı səni tanıyır, xeyirxah əməllərindən, şücaətindən ağızdolusu danışırdılar. Bir zaman Ağdam şəhər 1 saylı orta məktəbi bitirmiş Ramin adlı bir gənc danışırdı ki, bizi o zaman ön cəbhəyə buraxmırdılar. Biz ancaq könüllü olaraq öndə olanların ərzaq təminatı, yeməklərinin hazırlanması, paltarlarının təmizlənməsi və bu kimi işlərdə köməyimizi göstərə bilərdik. Biz həmin vaxtlar tez-tez komandir Nazim Cəbrayılovla təmasda olurduq. O, əsgərləri üçün çox can yandırırdı. Ancaq zabitlər üçün ayrılan, yəni onun özünə çatası ərzaq payına əl vurmadan döyüşçüləri arasında paylayardı. Biz hər dəfə bunun şahidi olduqca, təəccüblənər, “Bu necə insandır?!”, deyə fikirləşərdik.

Bu söhbətin fonunda Nazimin evə gəldiyi vaxtlarda “Döyüşən əsgərin qarnı tox olmalıdır. Bu qanundur!”, dediyi yadıma düşdü. Dostlarını, həmfikirlərini də bu işə cəlb eləmişdi, Nazim. Hətta vətəndən kənarda, cəbhə xəttindən uzaqda yaşayanlar da səfərbər olaraq döyüşçülərə hər cür ərzaq və pal-paltar göndərirdilər.

Hər dəfə Sənin haqqında müxtəlif adamların ağzından eşitdiyim  belə sözlər göz yaşımı qurudurdu. Nazim, biz Səninlə fəxr edirik! Qürur duyuruq! Sən Ana adlanan torpağının, Vətəninin, doğma Azərbaycanımızın əsl, etibarlı, mərd, layiqli oğlu idin! Vətəni canından əziz bilirdin. Və gözünü qırpmadan onun uğrunda şəhid oldun!

Mənim üçün, yaxınların üçün ən böyük dərd sənin nəşinin ermənilər tərəfdə qalması oldu. Biz 40 gün sərhəddə qaldıq.

Nazimin sağlığında ən çox əlaqə saxladığı ailə Bərdədə Əhməd müəllimin (ruhu şad olsun), Ofeliya müəllimənin ailəsi idi. Nazim top, güllə səsindən az da olsa uzaqlaşmaq üçün bu ailənin qapısını tez-tez açardı. Ailə dostluğunun tarixi çox-çox uzaqlara gedib çıxırdı - tələbəlik illərinə. Sonradan qohumluğa çevrilən bu dostluq o qədər doğmalaşmışdı ki, bir-birilərini sağ-salamat görəndə üzləri gülür, sevinirdilər. Bu isti münasibəti görən evin təzəcə gəlini də dərhal süfrə hazırlayar, hamı üzügülər halda, şən əhvali-ruhiyyə ilə evin bu əziz qonağının başına toplaşardı. Sənin itkin onlara da böyük zərbə oldu. Bacın olmadığı üçün özünə bacı bildiyin Ofeliya müəllimə illər keçdikcə boynuna düşən bacılıq borcunu daima davam etdirməkdədir. Övladlarımızın xeyir işində uzaq məsafəni yaxın edib dərhal özünü çatdırır, oğlun Orxanı isə el adətincə “Quran”ın altından keçirərərək, xeyir-dua verdi.

Bizə bu cətin, son dərəcə əzablı günlərdə ən çox kömək edənlərdən biri də bərdəli Hümbət kişinin ailəsi olub. Hümbət kişi Nazimin atası ilə dost idi.

***Dost dostun yolunda düşər zindana,***
***Əsl dost odur ki, dözə, dayana.***

***Qabusnamə***

Hümbət kişinin həyat yoldaşı, oğlu Yaqub, qızı Pakizə əllərindən gələn köməyi əsirgəmirdilər. Dərdimizi öz dərdləri kimi yaşadılar.

Həmin günlərdə Nazimin meyidini almaq üçün bizdən qarşı tərəf, həm sağ, həm də bir erməni meyidi istəyirdi-

lər. Ailənin dostları bunu da təşkil etdilər. Lakin uzun danışıqlar, get-gəl heç bir nəticə vermədi. Verdikləri sözə heç vaxt əməl etməyən mənfur, iyrənc erməni faşistləri yalanlarla vaxt keçirirdilər. Nə sağ saxlanılan erməninin, nə də torpaqda basdırılıb yiyəsinə veriləcək erməni meyidinin heç bir faydası olmadı.

Sərhəddə dayanan həm rəsmi nümayəndələrə, həm də Cəbrayılovlar ailəsinə ermənilərin sonuncu cavabı, "O bizim əsgərlərə divan tutub, onları qətlə yetirib, odur ki, söhbətimiz baş tutmayacaq" oldu. Bu cavabdan sonra daha heç nə eşidə bilmədim, qulaqlarım tutulmuşdu. Xatirimdə dumanlı şəkildə Nazimin belindəki tapançanın, qol saatının adının çəkildiyi qaldı. Aldığım zərbədən ağır stress keçirtdiyimdən heç nəyin fərqinə varmadan dərhal üzülmüş halda hüznlə geriyə - gözü yolda qalan övladlarımın yanına qaçmaq istədim. Saç-saqqalı ağarmış, sifəti ağ tüklərin arasında itib-batmış, görkəmi və siması ilə Dədə Qorqudu xatırladan İbrahim kişi elan etdi: Artıq oğlum yoxdur!

Bu bir kəlmə hər şeyi deyirdi.

Əvvəllər tək qalmaqdan qorxurdum. Fikirləşirdim ki, tək qalsam sənin yoxluğuna inanaram. Dözümlü olmalıydım. Övladlarımın xatirinə. Dözümlü olmalıydım. Son anda uşaqlarından, müvəqqəti sığındığımız həyətdən nigaran gedən Nazimin xatirinə. Özüm-özümə təskinlik verməyə çalışsam da bacarmırdım. Təmkinli görünürdüm, güclü olduğumu göstərmək üçün. Görünməyən tərəfimdə isə gücsüz idim. Dəfələrlə maşın təkərləri altına düşmək təhlükəsindən, durduğum yerdə yıxılmaqdan sovuşdum. Həyatın elə amansız qanunları varmış ki... Bəzən bu qanunlar ən

agır cinayət törətmiş bir məhbusa döndərir adamı və özünün dəmir barmaqlıqları arasında səni, günahın olmaya-olmaya elə sıxır ki.. Məcbur olub həyatın bu yersiz qanununa tabe olursan... Amma, Ulu Tanrım məni qorudu. Sən cəbhədə, düşmənlə döyüşdən, mən isə həyat döyüşündən sənin kimi alnıaçıq çıxa bildim...

Aylar, illər keçdikcə ətrafıma boylandım. Yaşadığım mühitdə yaxşı da, yaman da vardı. Mən atamdan, anamdan, oxuduğum kitablardan, baxdığım, gördüyüm televiziya verilişlərindən, radiodan eşitdiyim, dinlədiyim müdrik sözlərdən, ətrafımdakı mükəmməl insanlardan bəhrələnərək yaşadım. Çevrəmdəki xeyirxah insanlarla bərabər, pislərə, nakəslərə də rast gəldim. Belə duyğusuz, qəlbsiz, vicdan nə olduğunu bilməyənələrə isə öz haqq sözümü söylədim. Lazım olduğu yerdə səsimi ucaltdım. Onlardan öz sərhəddində dayanmağı tələb etdim. Yaxşı sözün tərbiyə edə bilmədiyi insanı yaxşı cəza ilə tərbiyələndirdim. Bu “pis”-lərin özü də mənə çox şey öyrətdi. Haqq sözümü deməyi bacardım, ürəyimi itaətə, zülmə tabe olmağı qadağan etdim, buna vərdiş etməyə yol vermədim. Mübarizlik öyrəndim, inam öyrəndim. Səbirli olmağa çalışdım. Ürəyimdə, ***“Mən dağlar qızıyam, şimşəkdən, yağışdan, təmiz havadan doğulmuşam”***, dedim. Mənfini də, müsbəti də rəsmi yerlərdə mənə verilən imkandan, uca kürsülərdən söylədim. Nazim, axı sən bizə şərəfli bir ad qoymuşdun, biz bu ada layiq yaşamılı idik, bu şərəfi doğrultmalıydıq.

Getdikcə yaşadığım həyat mənə öyrətdi ki, insan xoşbəxtliyə də, bədbəxtliyə də hazır olmalıdır. Yıxılmaq olmaz, ümidsizliyə qapılmaq olmaz. Artıq mənə yaxınlaşan insanlar mənə etibar edir, inanırdılar. Mən çevrəmdə

möhkəm iradəli, mübariz, məsuliyyətli qadınlar, etibarlı, nəzakətli dostlar qazandım. Arif adamlar adamı bircə sözü, bircə hərəkəti ilə tanıyar, qiymətləndirər. Dostlarımın əksəriyyəti şerə, sənətə qiymət verən, öz səviyyəsini bilən, soykökünün ləyaqətini saxlayan insanlar oldu. Mən onlardan güc aldım. Nazim, sən "Vətən!" dedin, uğrunda qurban getdin, mən isə bu Vətəndə məsuliyyətli, son dərəcə şərəfli müəllim peşəmlə, otuz illik əmək fəaliyyətimlə azacıq da olsa xalqıma xidmət etdim. Sənə isə layiqli övladlar yetişdirdim. Həyatımın ən gözəl çağlarını işə həsr etdim. Həyatımın ən ağır çağı zindan, ən xoş, sevincli anı isə gülüstan olub. Ulu Tanrım nə etdisə, şükr etdim. Mən şükran insanam, hər şeyə şükr etməyi bacarıram.

Müharibəyə düşmüş, müsibətlər içində məhv olmuş cavanlığım yadıma düşəndə sazda çalınan "Ruhani" havasına qulaq asıram. Ürəyimdə maşına əyləşərək istiqamətini Qarabağa çevirmək, Ağdamı gəzmək, Şuşaya - Cıdır düzünə qalxıb ürək dolusu nəfəs almaq arzusu oyanır. Lakin hələ ki bu arzuma çata bilmirəm. İnanıram ki, belə bir gün gələcək! Mütləq doğma Qarabağımı azad görəcəyəm! Bu arzü təkcə bu gün yaşayanların deyil, həm də bu yolda canından keçərək əbədiyyətə qrovuşanların da arzusudur!

Döyüş alnımıza yazılıb - doğma torpaqlarımıza sahib olmayana qədər! Şəhidlərimizin ruhu rahatlanana qədər!

Nazim, Səni bir kitab kimi qarşıma qoydum, bir nəfəsə yox, bir neçə ilə oxudum... Səni mən yenidən tanıdım, yenidən tapdım... Nazim, Sənin ömür tarixin vətənin tarixinə qovuşaraq kişilik, mərdlik, vətənpərvərlik dastanına çevrildi. Bu dastanı Siz də səhifələdiniz, əziz oxucular! Ardı isə yaşanılır...

## BİZ OLAN DÜNYADA HƏMİŞƏ VARSAN!

Yoxluğuna inana bilmirik. Sən varsan, yaşayırsan, Nazim. Hər gün, hər an qəlbimizdəsən. Gözlərimizin önündə, yanımızdasan. Söhbətləşirik, deyib-gülürük. Çətinliyimizi səninlə bölür, çox şeyi Səninlə məsləhətləşirik. Sözlərin dilimizdə, fikirlərin qəlbimizdə. Hər zaman insanlığınla, əməllərinlə fəxr edirik. Ölümünə inandırıcı bir şey tapa bilmirik. Sən işə bax, elə bil məzarının yoxluğu ilə bizə kömək edirsən ki, ölümünə inanmayaq...

Övladlarının vüqarı, fəxrisən. O gün olmur ki, səndən söhbət açmayaq. Elə bilirəm ki, hər yandan baxırsan bizə. Nəzərlərini bizdən çəkmirsən. Bizim qoruyucu mələyimizsən. Qəribəliklərlə dolu bu həyatın ağrılarına dözmək, çətinliklərinə sinə gərmək özü də bir qəhrəmanlığıymış, Nazim. Dözdük, hər əzaba dözdük. Bircə sənsizliyə dözə bilmirik...

Bu da bir taledi, yaşadıq. Müharibə xoşbəxt günlərimizə son qoydu. O günlərimizdən bizə yadigar qalan üç övladımız, bir də sənli xatirələr oldu. Acılı-şirinli xatirələrinlə yaşaya-yaşaya, övladlarımızı böyüdüb, sənin yarımçıq arzularını həyata keçirdim. Uşaqlar təhsil aldılar, əsgər də yola saldım, əsgər anası da oldum, toy-nişan məclisləri də qurdum. Hər bir anda balalarım ömrümün bəzəyi oldular. Təkcə Sən yox idin yanımda. Yoxluğunla barışa bilməyə-bilməyə təkcə alın yazısına tabe oldum. Sənin üçün xoşbəxt qadın ola bilmədimsə də, övladlarıma xoşbəxt ana olmağa nail ola bildum. İçimdə tufanlar oynayanda da onlar məni üzügülər gördülər. Öz yaşam tərzimlə onlara əyilməzlik dərsi keçməyə çalışdım. Onlar da borclu qalmadılar - tay-

tuşlar arasında oturuş-duruşları, böyüklər arasında ləyaqətli davranışları, tərbiyələri ilə məni xoşbbəxt ana etdilər. Mən övladlarımızın hər üçünü cəmiyyət üçün yararlı, əsl vətəndaş kimi yetişdirməyə çalışdım. Sənin kişiliyin, comərdliyin balalarına da sirayət edibdir. Bəlkə bu genetik bağlılığdır. İndi mən nənə, sən isə babasan, Nazim. Bircə fərqimiz var ki, nəvələrimiz böyüdükcə mən yaşlaşıram, sən isə elə öz yaşındasan. Xoşbəxt babasan. Adını nəvəmizə qoymuşuq. Sənin bütün xüsusiyyətlərini onda görməyə çalışırıq. O da sənin kimi mərd, cəsur böyüyür. Narahat olma, evin ikinci Nazimini sənin adına layiq böyüdürük. Vətənini çox sevir. Bunu ona biz öyrətməmişik, o, bu sevgiylə doğulub. Hələ qucaqda ikən dövlət bayrağımızı görən kimi tanıyır, balaca barmağını uzadaraq, “Azərbaycan!” deyirdi. Və bu onu sənə oxşadan yeganə cəhət deyil. Yaxşı oxuyur. Bəxtiyar Vahabzadənin “Azərbaycan -Türkiyə” şeiri ən çox sevdiyi şeirdir. Bu şeirlə bir çox rəsmi tədbirlərdə çıxış eləyir. Bir dəfə yenə bu şeiri söyləyəndə Türkiyənin ölkəmizdəki səfirinin xanımı gözəl ifasına görə balaca Nazimi bağrına basıb öpmüşdü.

Bu xoşbəxtliklərimizin hamısında Sənin də payın var.

Həyat nə qəribə imiş, Nazim. Həm varsan, həm yoxsan. Nagıllaşan dünyamızın dərd ümmanında üzə-üzə, gah ümid dolu sabahlarımıza, gah da qəm yelkənli gecələrimizə keşik çəkirik. Bəzən içimizdəki dərd ləpələri sahilimizi döyəcləyəndə, yoxluğuna inanmadığın bir doğman üçün sızım-sızım sızıldayırsan. Amma nə olsun ki....

Eh... Nazim, bircə ona sevinirəm ki, Sənsiz səninlə yaşadığımız bu dövrdə bir an da olsun bizi tərk etməmisən. Ruhun, sözün-söhbətin bizimlə olib. Bax, bunun üçün özü-

mü xoşbəxt sanıram ki, Sənin varlığın evimizin divarlarına hopub. Mən buna nail olmağı bacardım.

...***Kaş gələydin evinə, ailənə. İşıqlı üzünə divardan asılmış şəklində yox, həyatda tamaşa edə biləydik. Ata əllərinin təmasına həsrət qalmış övladlarının başlarına sığal çəkəydin. Sənin adını daşıyan nəvən Nazimi, gözlərindən gülüş tökülən şirin-şəkər Hüseyni doyunca, baba nəvazişiylə oxşayaydın. Qoy təsadüfən müşahidə elədiyimiz bir əhvalatı Sənə də danışım. Bir dəfə Hüseyn balamız Sənin qonaq otağında qoyulmuş portretinə yaxınlaşaraq əlindəki nimçədən guya sənə yemək verir və daha nə istədiyini astadan soruşur. Hətta atası onu qucağına götürüb bir yerə aparmaq istəyəndə Səni göstərib: "onuda aparaq", deyir. Mən belə maraqlı məqamlarla tez-tez rastlaşıram. Demə Sən varsan, Sən yaşayırsan. Kaş, bundan sonra dünyaya gələcək nəvələrin sevincini birgə yaşayaydıq. Ürəyimizdə yığılıb qalmış, sənə çatdıra bilmədiyimiz arzularımız qanad açaydı. Kaş bu xəyallarım gercəkləşəydi...***

***Yolunu gözləyirik, Nazim! Nə ola ürəyindəki Vətən sevgisinin üstünə bizim də sevgimizi qalaqlayıb, bir gün qəfildən qapımızdan girəsən! Həm gəlişinlə, həm də Qarabağımızın azad olunması xəbəri ilə ürəyimizdə qor bağlamış həsrət oduna, qaysaq tutmuş nisgilə son qoyasan!!!***

***Ruhun şad, olmayan qəbrin nurla dolsun, Nazim.***

... Son nöqtəni qoydum. Və o saatca da başa düşdüm ki, bu hələ mənim hekayətimin sonu deyil. Bu qəbildən olan hekayətlərin sonu olmur... Bu sadəcə, çiynində nəsə ağır bir yuklə uzun yol gələn və yorulsa da onu hansısa bir yerə, məqama çatana qədər yerə qoymağa ixtiyarı

olmayan bir adamın axır ki, bu ağırlığı yerə qoyub, nəfəs dərməsidi.. Yol isə - nə qələr ki, yaşayırıq, davam edir. Yükdəki ağır, ya yüngül - mütləq var...

***Bu kitabın üzə çıxmasından yana bir təsəllim var, Nazim. Bəlkə də təsəllim yox, inamım desəm daha düz olar. Mənə elə gəlir ki, bu yazılanlar Sənin həyatını davam etdirəcək, sevincini dadmaq qismətin olmayan gözəl arzuların dalınca bizimlə birgə qanadlanacaq, dünyaya boylanacaqsan. Birlikdə Böyük Qələbəmizi gözləyəcəyik! O günün sevincini birlikdə yaşayacağıq.***

***Beləliklə, ölməzliyə sözlə Abidə qoymağa çalışdım, varlığın, kainatın sözdən yarandığını bilərək, sözün ilahi gücünə söykəndim.***

***Məzarı bütövlükdə Vətən torpağı olan, qəbirustü abidəsi olmayan sənə - Əlifoğlu İbrahiminin oğlu NAZİM CƏBRAYILOVA - sözdən Abidə ucaltmağa çalışdım. Ölməzliyə Abidə... Təkcə Nazimə yox, onun simasında bütün Vətən şəhidlərinin nigaran ruhuna ucalacaq bir Abidə.***

Buna nə qədər nail oldum, bilmirəm. Oxucularımın fikrinə biganə qalmasam da, səmimiyyətlə boynuma alıram ki, bu yazıma son nöqtəni qoymaqla böyük təskinlik tapdım. Rahatlandım.

***Gözəl xatirə həyatın bir parçasıdır. Xatırlamaq sevdiyinin yanında oturmaq deməkdir, deyib Həzrəti Əli.***

***Nazim, artıq qarşısında əyilməyə, baş-başa qalıb sükuta dalmağa bir abidən var Sənin.***


Azərbaycan Bayrağı Ordenli
Nazim İbrahim oğlu Cəbrayılovun
şəhid olmasının 15
və anadan olmasının 60 illik
yubileyinə həsr olunmuş
XATİRƏ GÜNÜ

## ...VƏ SONDA

Bir arzumu, bəlkə də həyatımın, belə demək mümkünsə, ən əsas arzusunu dilə gətirmək istəyirəm.

Heydər Əliyev Fondunun prezidenti, millət vəkili **Mehriban Əliyevanın** dediyi ***"Şuşa Azərbaycan mədəniyyətinin parlaq incilərindən biri olub, olaraq da qalır. Bu gün o həm də bizim işğal olunmuş torpaqlarımızın bir rəmzidir. Nə qədər ki, Şuşa erməni əsirliyindədir, biz hər birimiz Şuşalıyıq!",*** sözlər hər bir azərbaycanlının dilində "Salam!" kimi təkrarlanmalıdır.

...Ömrümün sənsiz günlərinin başlanğıcında mənə həyan olmuş, məni istiqamətləndirmiş, illərin yol yoldaşı, qəlb sirdaşı olmuş bir bayatıya cavab oldu həyatım:

***Əzizim, naçar ağlama,***
***Gündü, keçər, ağlama.***
***Qapı bağlayan fələk,***
***Bir gün açar, ağlama.***

İndi, necə deyərlər, yükümü yerə qoyub nəfəs aldığım bu anda arxada qalan, yaşanan ömrə nəzər salanda həmin müdrik xalq deyiminə bir cavab keçdi qəlbimdən:

***Naçar qalıb ağlamadım,***
***Şükür etdim, ağlamadım.***
***Fələk bağlayan qapını,***
***Tanrım açdı, ağlamadım.***

*Adı əzbər dilimizdə,*
*Daim yaşar elimizdə,*
*Nazim yoxdu - əvəzi var,*
*Böyüdürəm evimizdə.*

Qapıların açılacağı günə inanaraq yaşadım. İnandım ki, bağlı qapılar mütləq açılacaq, sönmüş ocaqlar yenidən qalanacaq, doğma torpaqlarımızda axıdılan qanlar yerdə qalmayacaq. Şəhid qanıyla suvarılmış müqəddəs torpaqlarımız düşmənin murdar ayaqlarından təmizlənəcək.

Həsrətli baxışları yollarımızda qalan xarıbülbülümüz, dağları, yamacları öz ətrinə bürüyən gül-çiçəklərimiz bizə qovuşacaq. Ata-babalarımızın, şəhidlərimizin didərgin ruhları rahatlıq tapacaq. Cələcək o gün, mütləq gələcək!

Ağlamırıq. Bizə ağlamaq yaraşmır. Biz nikbin xalqıq. Ağlamaq acizlərin işidir. Həmişə mübarizə meydanında öz qürurumuzla, mətinliyimizlə qalib olmuşuq. Bu xüsusiyyət bizim mərd oğullarımızın, qəhrəman qızlarımızın sipəri olub, yarağı olub.

Allah bütün bağlı qapıları açsın. O cümlədən Qarabağımızın üstündən bu fəlakəti götürməklə, onun 20 ilə yaxın bağlı qalan qapıları tezliklə evlərindən, doğma yurd-yuvalarından didərgin düşən qaçqın və köçkünlərimizin üzünə açılsın.

*Biz, ordumuzun gücünə güvənməliyik. Məhz bu məqsədlə son illər ərzində mütəmadi qaydada ordu potensialının gücləndirilməsi üçün praktiki tədbirlər görülübdür. Bu gün bizim ordumuz bölgədə ən qüdrətli ordudur. Azərbaycanda istənilən vəzifəni icra etməyə qadir olan silahlı birləşmələr fəaliyyət göstərir və Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün biz lazım olan halda hərbi gücdən də istifadə edə bilərik. Bu, bizim suveren hüququmuzdur. Beynəlxalq hüquq normaları da bizə bu imkanı verir.*

*Müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıbdır və hər an hazır olmalıyıq ki, öz doğma torpağımızı düşməndən silahlı yolla azad edək.*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respubliksının Prezidenti*

*İnanırıq ki, möhtərəm Prezidentimiz, Ali Baş Komandanımız İlham Heydər oğlu Əliyevin - əzmkar sərkərdəmizin əmrinə müntəzir olan igid Azərbaycan oğulları, mərd ərənlər müsəlləh əsgər kimi Qarabağ uğrunda yürüşə başlayacaq, əsir Qarabağımızı xilas edəcəkdir!*

*Qisas anı yetişəcək, namərd düşmən layiq olduğu cəzasını alacaqdır.*

*Gözlədiyimiz o gün gələcək. Görəcəyik, mütləq görəcəyik o günü!*

*Qoy ulu Tanrı bu yolda bizə yardımçı olsun. Amin!*

# MİNNƏTDARLIQ

İnsan ona ayrılmış ömür adlı həyat burulğanında ən müxtəlif keyfiyyətlərin daşıyıcıları ilə rastlaşır, təmasda olur. Nə yaxşı ki, dünyada yaxşı adamlar, yer üzünün nəqşi sayıla biləcək insanlar daha çoxdur. Gözümün önünə bu qəbildən olan bir çox nurlu çöhrələr, müdrik simalar gəlir. Onlardan bir çoxları haqqında yazılarımın əvvəlində söz açmışam.

İlk öncə, əməkdaşı olduğum, özünəməxsus gözəl ənənələri olan böyük elm ocağının - Azərbaycan Dövlət İqtisad Universitetinin  başda rəhbərlik olmaqla, mənimlə təmasda olan bütün əməkdaşlarına təşəkkür edirəm. Onların hər birindən özümə qarşı böyük hörmət, diqqət  və canıyananlıq gördüyümü minnətdarlıqla qeyd etmək istəyirəm.

Böyük maraq və həvəslə üzərində çalışdığım elmi işimdə mənə məsləhətçi olan və istiqamət verən Bakı Dövlət Universitetinin elmi işlər üzrə prorektoru, professor ***İsmayıl Əliyevə*** *və* elmi işimin rəhbəri, işinin çoxluğuna, vaxtının azlığına baxmayaraq məni psixologiya elminin sirrlərindən agah etmək üçün həmişə vaxt tapan, müəllimim saydığım millət vəkili, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, psixologiya elmləri doktoru, “Psixologiya” kafedrasının müdiri professor ***Bəxtiyar Əliyevə*** dərin minnətdarlığımı bildirmək istəyirəm.

Sözün həqiqi mənasında dar günümüzün dayağı olmuş son dərəcə xeyirxah insan, əməlləri daxili aləminin nuruyla vəhdət təşkil edən, Orxanın özünə böyük bildiyi, ağsaqqalım deyə müraciət etdiyi  nəcib insan, çox hörmətli ***Hacı Vəli Nağıyevə***  xüsusi minnədarlıq edirəm.

Özümə mənəvi qardaş saydığım, mənə bacım deyə müraciət edən, mətbuat səhifələrində xeyirxah işlərinə

görə haqqında yazılar yazdığım ***Hacı Zakir Səfərovun*** (indi dünyasını dəyişib) adını-xatirəsini bu kitabda bir daha hörmətlə yad etmək istəyərdim.

Nərimanov Rayon İcra Hakimiyyətinin əməkdaşlarına, o cümlədən ***İslam Muradova***, ***Çapay İbrahimova,*** Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi sədrinin birinci müavini ***Hümbət Nağıyevə,*** Nazimsiz həyatımızın nizamlanmasında təmənnasız etdiyi köməyi ilə ailəmizin bütün üzvlərinin yanında xətri həmişə əziz olan ***Ədalət Seyidova,*** hələ Nazimin sağlığından ailəvi dostumuz olan, həm çətin, həm də xoş günlərimizdə daima yanımızda olan çox hörmətli ***Sərdar Məmmədova və ailəsinə***, Respublika Şəhid Ailələri və Veteranlar Təşkilatının sədri ***Zöhrab Cəfərova və ailəsinə***, ***Xanlar Əliyevə və ailəsinə***, dəyərli dostlarımdan ***Roza xanım Verdiyevaya, Gülnarə xanım Mirheydərovaya, Sona xanım Hüseynovaya və həyat yoldaşı Mübariz müəllimə,*** respublikamızın bütün bölgələrindən bizi həmişə gülərüzlə, qonaqpərvərliklə qarşılayan ailə dostlarımıza - Masallıdan ***Ağaqardaş Qaraşova və Yaşar müəllimə***, Kəlbəcərdən ***Hüseyn babaya və Xatın nənəyə***, Şəmkirdən ***Telman Hüseynova və həyat yoldaşı Amura xanıma*** (nur içində yatsın), ailə üzvlərinə, Gədəbəyin Qala kəndindən ***Yusif müəllimə*** (qəbri nurla dolsun) ***və həyat yoldaşı Solmaz xanıma,*** eləcə də ailəsinin hər bir üzvünə, xüsusən ***Cavanşir müəllimə*** və ***Kəmalə xanıma***, heç vaxt bizi unutmayan, həmişə yolumu gözləyən, çadır şəhərciyində məskunlaşmış ***Məxmər xanıma,*** hələ müharibənin başlanğıcında bizə daim diqqət göstərən Ağcabədidən ***Şakir Qasımova və həyat yoldaşı Validə xanıma*** xüsusi təşəkkür və ehtiramımı bildirirəm.

Öz təkidli məsləhəti ilə məni bu kitabın ərsəyə gəlməsinə ruhlandıran, baş məsləhətçisi olan tanınmış jurnalist, yazıçı-publisist

***Flora xanım Xəlilzadəyə,*** tarix elmləri namizədi ***Zəfər Bayramova,*** kitabın redaktorlarından biri, Vətən şəhidlərinin adına ucaldılacaq hər bir abidənin daşı olmağa bütün varlığı ilə hazır olan ***Sevda xanım Mikayılqızına,*** onun rəhbərlik etdiyi "Ziya" kompyuter-poliqrafiya mərkəzinin əməkdaşları ***Şamil Qurbanova, Nuraya, Günaya, Aytənə,*** Nazimin yaxın dostu və cəbhə yoldaşı ***Rüstəm Hacıyevə,*** kitabda yazıları ilə iştirak edən müəlliflərin hər birinə, iş prosesində böyük diqqət və hörmətlə yardımçı olmağa hazır olan tanınmış şair ***Vahid Əzizə***, ***Şərafəddin İlkinə,*** yaxınlarıma, atam ***Qaçay Məmmədova*** (nur içində yatsın) və ailəsinin hər bir üzvünə ürəkdən təşəkkür etməyi özümə borc bilirəm.

***Bayramlarda, özəl günlərdə məni və ailəmi diqqətsiz qoymayan gənc tələbələrimə, o cümlədən əcnəbi dostlarımıza, kitabın yaratdığı ab-havaya yüklənən, bizim sevinc və kədərimizə şərik olan hər bir kəsə, respublikamızın ən müxtəlif guşələrindən bizi axtaran, həyan olmağa çalışan, xoş sözləri, isti münasibətləri, səmimi hörmətləri ilə bizə dayaq olan, sevindirən, bizi tək qoymayan hər bir kəsə ürəkdən "Çox sağ olun!" demək istəyirəm.***

Nazim İbrahim oğlu Cəbrayılovun anadan olmasının 60 illiyi və xatirə gününün 15-illiyinə həsr edilmiş bu kitabın hazırlanmasında, ictimaiyyətə təqdim edilməsi və yubileyinin təşkilində maddi və mənəviköməyini əsirgəməyən Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, professor ***Şəmsəddin Hümmət oğlu Hacıyevə, Ağdam rayon İcra Hakimiyyətinin Başçısı Nizami Yahya oğlu Sadıqova, Nərimanov rayon İcra Hakimiyyətinin Başçısı Abdin Ələsgər oğlu Fərzəliyevə*** Cəbrayılovlar ailəsi adından minnətdarlığımı bildirirəm.

Nə yaxşı ki, Sizlər varsınız!

***Böyük hörmət və ehtiramla,***

***Nazim Cəbrayılovun ailəsi***



***Bu gün ölkəmizdə bir milyondan artıq qaçqın və məcburi köçkün vardır. Bütün bu insanların hüquqları kobudcasına pozulub və bu, əslində, insan hüquqlarının kütləvi sürətdə pozulması deməkdir.***

***Erməni hərbi birləşmələri tərəfindən işğal olunmuş ərazilərin hər qarışı, Vətənin şəhid olmuş hər bir övladının ruhu bizdən erməni vəhşiliklərinin aktlaşdırılmasını və təhlilini tələb edir. Əgər sabah beynəlxalq məhkəmə Dağlıq Qarabağ problemi ilə bağlı insan hüquqlarının pozulmasına dair konkret faktlar istəsə, biz buna hazır olmalıyıq...***

***Tariximizi, mədəniyyətimizi və bizi birləşdirən mənəvi dəyərləri qoruyub saxlamaq indi hər birimizin ən ümdə vəzifəsidir.***

***Ramiz MEHDİYEV,***
***Azərbaycan Respublikası Prezidenti***
***Adminstrasiyasının rəhbəri, akademik***

*"Azərbaycan" qəzetinin 8 dekabr 2009-cu il tarixli sayında verilmiş "İctimai və humanitar elmlər: zaman kontekstində baxış" adlı məqaləsindən*



# Yaşanan ömrün anları fotolarda

*Tüstüsü olsaydı qəmin od kimi,*
*Duman bürüyərdi bütün aləmi.*
*Dünyanı gəzsən də tapa bilməzsən,*
*Bir müdrik insan ki, olmasın qəmi.*

*Şəhid Bəlği İlk*

*Farscadan tərcümə*
*Rafael Hüseynovundur*




Г. ШУША
21/VIII 59г.

# Yaşanan ömrün anlarından









































# Yaşanan ömrün anlarından













# Yaşanan ömrün anlarından








02.03.1949 - 18.04.1994





*Orxan hərbi xidmətdə*





*Orxan hərbi xidmətdə*






*Orxan hərbi xidmətdə*





*Ailə məclislərindən*



## Həyatımızın Səndən sonrakı səhifələrindən










Gültəkin
Əsgərovanın





*Ailə məclislərindən*





*Orxan mötəbər məclislərdən birində*





*Fərman Salmanov qonağımızdır*



*Sosialist Əməyi Qəhrəmanı alim neftçi-geoloq*
*Fərman Salmanov və Orxan Cəbrayılov*


AZƏRBAYCAN
HƏMKARLAR İTTİFAQLARI
KONFEDERASİYASI

FƏXRİ FƏRMAN


AZƏRBAYCAN HƏMKARLAR
İTTİFAQLARI
KONFEDERASİYASI

Cəbrayılova Rəhilə Qaçay qızını
Azərbaycan Dövlət İqtisad Universitetinin
75 illiyi münasibətilə və Həmkarlar İttifaqının işində fəal
iştirakına görə

FƏXRİ FƏRMANLA
TƏLTİF EDİR

S.Məhbalıyev


Dünya Azərbaycanlıları Konqresi
World Azerbaijanis Congress

Hörmətli Hanım müəllim!

DAK Qadınlar
Şurasının sədri

Məmmədova Həvva


Dəvətnamə

DÜNYA
AZƏRBAYCANLILARI
KONQRESİ
WORLD AZERBAIJANIS
CONGRESS

Hörmətli Rəhilə xanım

Sizi, Dünya Azərbaycanlıları Konqresinin
Qadınlar Şurasının
təsis konfransına dəvət edirik.

Konfrans 17 mayda 2004-cü il
saat 15⁰⁰-da öz işinə başlayacaq.

Ünvan: ATATÜRK Mərkəzi
Teymur Əliyarbəyov 5

Təşkilat Komitəsi


MANDAT № 92
Azərbaycan Qadınlarının I Qurultayı
Nümayəndəsi
Cəbrayılova Rəhilə
(Adı, atasının adı, soyadı)
Qaçay qızı
Mandat Komissiyası
Bakı, 25 sentyabr 1998-ci il


MANDAT № 189
Azərbaycan Qadınlarının II Qurultayının
Nümayəndəsi
Cəbrayılova Rəhilə
(Adı, atasının adı, soyadı)
Qaçay qızı
Mandat Komissiyası
Bakı, 27 sentyabr 2003-cü il



*Rəhilə xanım Çadır şəhərciyində*






*Rəhilə xanım əcnəbi tələbələr arasında*




*Rəhilə xanım qurultayda*



*Rəhilə xanımın dəvət aldığı mötəbər məclislərdən*
*2009 (02.02) Küveytin milli bayaramı*





*Rəhilə xanımın dəvət aldığı mötəbər məclislərdən*









*Rəhilə xanım əsgərlərlə görüşdə*










PARTER
III СЪЕЗД
УССКОЙ
БЩИНЫ
БАЙДЖА
БАКУ 2009

## Həyatımızın Səndən sonrakı səhifələrindən









*Nazim Cəbrayılovun adını daşıyan nəvəsi Nazim*



*Həsən İsrafilovun nəvələri balaca Həsən, Firuzə və Məryəm*



*Nazim Cəbrayılovun nəvələri Nazim və Hüseyn*

## Həyatımızın Səndən sonrakı səhifələrindən

*Sənin davamçıların*










*Babasını "Azərbaycan" bilən balaca Hüseyn Orxanla*











## Mündəricat

**Rəsmi arayış və sənədlər** . . . . . . . . . . . . . . . . . . . . . . . .5
**Ön söz** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .37
***Vəli Əliyev.*** Ölümsüz qəhrəmanlıq . . . . . . . . . . . . . . . . .37
***Aqil Abbas.*** O şəhid oldu ki, biz yaşayaq! . . . . . . . . . . . .43
***Flora Xəlilzadə.*** Səndən sonra nələr oldu, bilirsənmi? . 46
***Şərafəddin İlkin.*** Ölümsüz döyüşçü . . . . . . . . . . . . . . . . .51

**Mətbuat səhifələrindən** . . . . . . . . . . . . . . . . . . . . . . . .53
***Aynur Abbas.*** Ağdamda qanlı döyüşlər davam edir. . . . .55
***Sarvan Şamiloğlu.*** Qandan biçilən kəfən.. . . . . . . . . . . . .62
***Əlizamin.*** Nazim Cəbrayılov - Şir ürəkli komandir . . . .67
***Famil Mehdi.*** Dədə Qorquda bənzəyən kişinin oğlu . . .70
***Qara Hüseynov.*** Şaxta vurmuş çiçəklər . . . . . . . . . . . . . .72
***Bəxtiyar Sadıqov.*** Adına sadiq qaldı Nazim . . . . . . . . . . .74
***Şəlalə İfratqızı.*** Arxaya bax igid, arxada Vətəndi! . . . . .77
***Bəxtiyar Sadıqov.*** Yaşasaydı, 50 yaşı olardı! . . . . . . . . . .80
***Qələndər Xaçınçaylı.*** Rəsmi surətdə Milli Qəhrəman
adı almayan Xalq Qəhrəmanı . . . . . . . . . . . . . . . . . . . . .87
***Abdal Qəhrəman.*** Var mənim . . . . . . . . . . . . . . . . . . . . .92
***Fidan, Jalə və Orxan.*** Həsrət çələngi . . . . . . . . . . . . . . . .93
***Asif.*** Əlli yaşlı şəhid . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .95
Ünvanı məlum olmayan məktub . . . . . . . . . . . . . . . . . . .97
***Aqil Abbas.*** Nazim İbrahimoğlu özünü tankın altına
atmışdı ki, arxamızda Vətən var! . . . . . . . . . . . . . . . . .101
***Flora Sadıqlı.*** Qəhrəmanlıq zirvəsi . . . . . . . . . . . . . . . .105
Sənin anım günlərindən . . . . . . . . . . . . . . . . . . . . . . . .109
***Flora Sadıqlı.*** Hünəri ilə əbədiyyətə qovusdu . . . . . . .113
***Vahid Hacıyev.*** Ünvanı Vətən oldu . . . . . . . . . . . . . . . .118
***Vüqar.*** Qəhrəmanlar ölmürlər . . . . . . . . . . . . . . . . . . . .123
***Xatın Qocayeva.*** O gün uzaqda deyil . . . . . . . . . . . . . . .127

***Rəsmiyyə Rzalı.*** "Oğul, arxamızda Vətən var!" . . . . . . .133
***Ağa Laçınlı.*** Atanın vəsiyyəti . . . . . . . . . . . . . . . . . . . .138
***Rüstəm Hacıyev.*** Qalx ayağa, Vətən oğlu . . . . . . . . . . .139

**Sən unudulmamısan** . . . . . . . . . . . . . . . . . . . . . . .143
***Həsən İsrafilov.*** Xatirələr... . . . . . . . . . . . . . . . . . . . .145
***Tural İsgəndərov.*** Nazim . . . . . . . . . . . . . . . . . . . . . .149
***Pərviz Axundbəyli.*** Nazim haqqında təəssüratlarım . . .153
***Çimnaz Əliyeva.*** Tanrının sevdiyi insan . . . . . . . . . . . . .157
***Xanəmir Telmanoğlu.*** Vətən hallı komutan . . . . . . . . . .161
***Nəcibə İlkin.*** O qəhrəman kimi doğuldu, şəxsiyyət kimi yadda qaldı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .164
***Sədaqət Rəşad.*** Şəhidlər qəhrəmanlıq tarixini yazırlar. Qəhrəmanlıq qocalmır . . . . . . . . . . . . . . . . . . . .177

***Rəhilə OrXAN.*** **Dünya Sənsiz... Dünyam Sənli**. . . . . .187
Nazimim . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .189
Səni bizdən alan dünya bir də geri verərmi?... . . . .190
Qayğısız gənclik illəri . . . . . . . . . . . . . . . . . . . . . . .194
Nazimin ömür yolunun Türkmənistan səhifəsi . . . .196
Sənli günlərim... . . . . . . . . . . . . . . . . . . . . . . . . . .202
Sənsiz günlərim... . . . . . . . . . . . . . . . . . . . . . . . . .206
Vətənin şanlı müdafiəçisi . . . . . . . . . . . . . . . . . . . .213
Lənət sənə, müharibə! . . . . . . . . . . . . . . . . . . . . . .225
Vətənin səsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .229
Məni şəhid görüb əyilmə, Vətən! . . . . . . . . . . . . . .232
Ocaq külündən, igid əməlindən bəlli olar . . . . . . . .235
Çözələnən xatirələr . . . . . . . . . . . . . . . . . . . . . . . .238
Maraq dairəsi geniş, həyat eşqi tükənməz idi... . . .242
Qalx ayağa, atam oğlu.(*Şeir Həsən İsrafilovundur).* . 245
Qardaş yanğısı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .247
Öz ayağı ilə behiştə gedən adam . . . . . . . . . . . . . .250
İllərin yol yoldaşı atam . . . . . . . . . . . . . . . . . . . . . .256

***Ziyəddin Məhərrəmov.*** Eldən gedən ağsaqqal . . . . . . . .266
***Əyyub Şırlanlı.*** Azərbaycanpərəst ziyalı . . . . . . . . . . . .268
***Elxan Ələkbərov.*** El ağsaqqalı . . . . . . . . . . . . . . . . . . . .269
***V.H.Hüseynov.*** Səmimi və təmənnasız insan . . . . . . . .269
***Sevil Babayeva.*** Vətən ağrısı onu rahat buraxmırdı . . . .270
***Xasay Əliyev.*** O millətsevər bir insan idi . . . . . . . . . . . .271
***Ramiq Məhərrəmov.*** Xeyirxah və ləyaqətli kişi . . . . . . .272
***Təranə Əliabbasqızı.*** Mənim ata əvəzim . . . . . . . . . . . .273
***Təranə Əliabbasqızı.*** Qarabağ həsrəti . . . . . . . . . . . . . . .274
Şuşa mənzərələri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .276

**Ölümdən uca olanlar** . . . . . . . . . . . . . . . . . . . . . . . . .279
***Kərim Şükürov.*** Qarabağın gerçək tarixi . . . . . . . . . . .283
***Flora Xəlilzadə.*** Ruhumuzun vətəni Şuşa . . . . . . . . . . .286
Aləm cənnətə dönsə . . . . . . . . . . . . .290
***Rəhilə OrXAN.*** Yaddaş. Mən belə bir elin qızıyam... . .292
Vətən sizə oğul dedi . . . . . . . . . . . . . . .294
***Qalibə Eynullayeva.*** Sənə kim qıydı Sərxan? . . . . . . . .304
***Sevda Mikayılqızı.*** Gül ömürlü . . . . . . . . . . . . . . . . . . . .310

**Xeyirxahlıq kübarlıq əlamətidir** . . . . . . . . . . . . . . . .315
***Rəhilə OrXAN.*** Sevgi, şəfqət və nəcabət
böyüklükdən gəlir . . . . . . . . . . . . . . . . .317
Tanınmış alim, əsl ziyalı, vətənpərvər
insan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .323
Xalqın ürək sözü Aqil! . . . . . . . . . . . . .329
İnsanlığın təcəssümü . . . . . . . . . . . . . .335

**Bir ömrün tarixi bir dastan oldu** . . . . . . . . . . . . . . . .343
***Gülzar Şəmkirli.*** Başını uca tut, ay "Şuşa qızı" . . . . . . .346
***Rəfiqə Əsgərova.*** Həyat sınaq meydanıdır . . . . . . . . . . .348
***Təranə Kərimova.*** Əsl kişinin dayağı onun öz
xanımıdır . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .356

*Gülzar Namazova.*Yaşanmamış qadınlıq, xoşbəxt sonluq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .359
*Sevda Mikayılqızı.* Zərif çiyinlərin ağır yükü . . . . . . . . .363
*Rəhilə OrXAN.* Bilsəydim ayrılıqdı... . . . . . . . . . . . . . . .373
Bilmədim son dəfə görüşürük biz... . . . .375
Biz olan dünyada həmişə varsan! . . . .386
Və sonda . . . . . . . . . . . . . . . . . . . . . . . . .391
Minnətdarlıq . . . . . . . . . . . . . . . . . . . . . .394

**Yaşanan ömrün anları fotolarda** . . . . . . . . . . . . . . . . .399

**Rəhilə Qaçay qızı Cəbrayılova (OrXAN)**

# Ölməzliyə Abidə

Direktor: *Sevda Mikayılqızı*
Dizayn: *Şamil Qurbanov*
*Orxan Nazimoğlu*
*Gülarə Cəbrayılova*

Korrektorlar: *Fidan Nazimqızı*
*Jalə Nazimqızı*

Yığılmağa verilib: 06.07.2009
Çapa imzalanıb: 02.03.2010
Həcmi: 27,6
Tiraj: 500

**"Ziya" KPM**
*ziyamika@rambler.ru*